

# Mark Levi

## Bəlkə də bu, həqiqətdir...

Tərcümə: Minə Candan Raufqızı



ekitab.ucoz.org

# Mark Levi Bəlkə də bu, həqiqətdir...

Mark Levi Fransanın məşhur yazıçılarından biridir. Onun əsərləri 30-dan çox xarici dilə tərcümə olunmuşdur və yüksək tirajlarla satılır. Onun ilk roınanı olan “Bəlkə də bu həqiqətdir” (film adı: “Yer ilə göy arasında”) əsəri öz qeyri-adi süjeti və ınöcüzələr yaratmağa qadir hisslərin gücü ilə insanı heyrətə salır.

Bir axşam yalnız yaşayan memarın evində gənc, gözəl bir qız peyda olur. Və o... ruhdur. Yalnız gənc ınemar ona yardım edə bilər. Ancaq onları bir-birinə bağlayan sevgi hissləri olmasaydı, o da ölüm qarşısında aciz qalacaqdı.



ekitab.ucoz.org

# 1

1996-cı ilin yayı

Yatağın baş ucunda açıq rəngli taxta masanın üstündəki zəngli saat çalmağa başladı. Saat 5:30 idi və otaq günəşin altın şəfəqlərinə boyanmışdı. Hər gün San-Fransisko sakinləri səhərin açıldığını bu cür anlayırdılar. Evdəkilər yuxuda idi: köpək Kali xalı üzərində, Loren isə öz geniş yatağında yorğanına bürünərək yatmışdı.

Lorenin mənzili özünəməxsus şəkildə döşənmişdi. Qrin-stritdə yerləşən viktorian üslublu evin sonuncu mərtəbəsində yerləşən bu mənzil Amerikada hər evdə olduğu kimi mətbəxə bitişik yemək otağından, qarderob otağından, yataq və pəncərəli geniş vanna otağından ibarət idi. Otaqlar geniş taxtalı sarı parketlə döşənmişdi, bircə vanna otağının parketi içi ağ rəngə boyanmış, kənarı qara dördkünc qəliblərlə haşiyələnmişdi. Ağ divarlar Yunion-stritin qalereyalarından alınmış əski rəsmlərlə bəzədilmiş, tavanın kənarları isə əsrin əvvəllərində mahir ustanın işlədiyi və Lorenin açıq-qəhvəyi rəngə boyadığı zərif yapma naxışlı taxta ilə çərçivələnmişdi.

Cutdan toxunmuş bir neçə açıq-qəhvəyi rəngli xalı salonun , yemək otağı və sobanın kənarları boyunca salınmışdı. Ocaqla üzbəüz, cod kətan parça ilə üzlənmiş divan rahat oturuşa dəvət edirdi. Büzməli abajurları ilə göz oxşayan, son dərəcə gözəl üç lampa otaqda müxtəlif yerlərə qoyulmuş mebellərə xüsusi yaraşıq verirdi. Loren onların hər birini ötən üç il ərzində ayrı-ayrılıqda almışdı.

Gecənin ömrü çox az oldu. San-Fransisko "Memorial" xəstəxanasında təcrübəçi həkim Loren adəti üzrə iyirmi dörd saat sürən xəstə nəzarətini yanğın nəticəsində xəsarət alan və xəstəxanaya gətirilən qurbanlara görə uzatmağa məcbur olmuşdu. İlk təcili yardım maşınları gündüz növbəsi dəyişməzdən on dəqiqə əvvəl təcili yardım bölməsinin qapıları ağzında görünməyə başladı. Loren dispetçeri gözləmədən həmkarlarının ümidsiz baxışları altında gətirilən yaralıları dərhal müayinə


ekitab.ucoz.org

otaqlarında yerləşdirməyə girişdi. Yalnız istedadlara xas olan bir virtuozluqla bir neçə dəqiqə içində hər pasiyenti müayinə edir, aldıqları xəsarətlərin ciddilik dərəcəsini bildirən rəngli etiketlərlə onları işarələyir, ilkin təşxis qoyur, analiz edilmələrini tapşırır və sanitarları xərəklərlə müvafiq otaqlara yönləndirirdi. Saat on ikidən sonra, birə on beş dəqiqə işləmişə qədər gətirilmiş və aldığı xəsarətlərin ciddilik dərəcəsinə görə ayrılmış on altı xəstə saat birin yarısında artıq əməliyyata hazır vəziyyətdə idilər. Məşvərət edən həkimlər saat birə on beş dəqiqə qalmış bu uzun gecənin ilk əməliyyatına başladılar.

Loren iki uğurlu əməliyyat zamanı həkim Frenşteyni müşayiət etdi. Yalnız həkim ona rəsmi olaraq tapşırdıqdan və ona yorğunluğun ayıq-sayıqlığın düşməni olduğunu, bu cür davranmaqla xəstələrini təhlükəyə atdığını söylədikdən sonra evinə qayıtdı. Gecəyarısı xəstəxananın dayanacağındakı “Triumf” markalı maşınına minərək xəstəxanadan çıxdı və boş küçələrdən yüksək sürətlə şütüyərək evinə yol aldı. Sükan arxasında yuxuya getməmək üçün “Çox yorğunam və də çox sürətlə sürürəm”, deyə dəqiqəbaşı öz-özünə təkrarlayır, ancaq təcili yardım bölməsinə, özü də bu dəfə həkim kimi yox, pasiyent kimi qayıda bilmək fikri ona ayıq qalmağa kifayət edirdi.

O, pultla qarajın qapısını açıb köhnə maşınını içəri saldı.

Dəhlizdən keçib pillələkənləri iki-iki qalxa-qalxa evə girdi və rahat nəfəs aldı.

Soba üzərindəki divar saatının əqrəbləri üçün yarısını göstərirdi. Loren əynindəki paltarları çıxarıb yerə atdı. Elə çılpaq halda ot dəmləməsi hazırlamaq üçün barın piştaxtasının arxasına keçdi. Rəfləri bəzəyən butulkalarda müxtəlif otlar var idi, elə bil bunlar günün hər dəqiqəsi üçün nəzərdə tutulmuş ətir şüşələri idi. Əlindəki fincanı baş ucundakı masanın üstünə qoydu, yun adyala büründü və dərhal yuxuya getdi. Bu gün olduqca uzun keçmişdi, növbəti gün isə erkən oyanmağı tələb edirdi. Loren nəhayət ki, bir günü bazar gününə təsadüf edən ikigünlük məzuniyyətindən yararlanaraq Karmeldə yaşayan rəfiqəsinə qonaq gedəcəkdi. Əlbəttə, bədənindəki yorğunluq gec oyanmaq üçün bəhanə ola bilərdi, ancaq heç nə Lorenə erkən oyanmağa


ekitab.ucoz.org

mane ola bilməzdi. Loren Sakit okeanın sahili boyunca uzanan və San-Fransiskonu Monterey körfəzinə birləşdirən bu yolda günəşi qarşılamağı sevirdi. Yarı yuxulu halda əlini uzadıb zəngli saatın səsini kəsmək üçün düyməsini axtardı. Yumruqları ilə gözlərini ovuşdurdu və xalı üzərində yatan Kaliyə baxdı.

– Mənə belə baxma, mən artıq burada deyiləm.

Sahibinin səsini eşitcək it tələsik yatağın ətrafında dolandı və başını sahibinin qarnı üstünə qoydu.

– Qızım, mən iki gün olmayacağam. Saat on birdə anam səni almağa gələcək. İndi isə aşağı düş, qalxım, sənə yemək verim.

Loren ayaqlarını uzatdı, qollarını havaya doğru açaraq əsnədi və ayaqlarını birləşdirib çarpayıdan sıçradı.

Əllərini saçlarına çəkə-çəkə barın piştaxtası arxasına keçdi, soyuducunu açdı, yenidən əsnədi, yağ, cem, çörək dilimi, konservləşdirilmiş it yeməyi, ağzı açılmış Parma vetçinası, bir tikə Qauda pendiri, iki qutu süd, bir banka alma püresi, iki yoqurt, yarma və qreypfrutun yarısını götürdü, digər yarısını isə soyuducunun aşağı gözünə qoydu. Kali başını bir neçə dəfə bulayaraq ona baxdı. Loren gözlərini itə bərəltdi və üstünə qışqırdı:

– Mən acam!

Həmişəki kimi keramikadan düzəldilmiş ağır qabda itinə səhər yeməyi düzəltməyə başladı.

Yeməyini qoyduğu sinini alıb masa arxasında əyləşdi. Buradan o, yeyə-yeyə azacıq yana baxmaqla Sosalitaya, onun yamaclardan sallanan evlərinə, körfəzin hər iki tərəfində zəncirin halqaları kimi uzanan Qolden Geyt körpüsünə, balıqçı limanı Tayborna və aşağıda pilləkən kimi Marinaya qədər uzanan evlərin damına tamaşa edirdi. Pəncərəni geniş açdı: şəhər sükuta qərq olmuşdu. Bircə Çinə, ya da harasa başqa bir yerə yola düşən iri yük gəmilərinin boğuq fiti qağayıların çığırtısına qarışaraq səhərin bu süstlüyünü ritmə salırdı. Loren yenidən gərnəşdi və iştahayla əsl Qarqantüaya layiq səhər yeməyinə girişdi. Dünən axşam vaxtı olmadığından şam etməmişdi. Üç dəfə sendviçini dişləməyə çalışmışdı, ancaq hər dəfə peyceri siqnal çalaraq onu növbəti dəfə təcili iş başına çağırmışdı. Kimsə onunla rastlaşıb hal-əhval soruşsaydı, həmişə


ekitab.ucoz.org

eyni cavabı verirdi: “Tələsirəm”. Öz ziyafətindən növbəti tikəni ağzına qoyduqdan sonra sinini su çanağının içinə qoydu və vanna otağına keçdi.

Barmaqlarını taxta jalüzlər üzərində gəzdirərək onlara toxundu və azacıq araladı.

Əynindəki pambıq parçadan tikilmiş köynəyi bədəni boyunca sürüşdürüb çıxardı, köynək ayaqlarının altına düşdü. Duşa girdi. Suyun güclü şırnağı onu tamamilə oyandırdı.

Duşdan çıxıb qıçlarını və sinəsini çılpaq buraxaraq dəsmalı belinə bürüdü.

Güzgü qarşısına keçib özünə baxdı və yüngül makiyaj etdi. Cins şalvarını və sviterini əyninə keçirdi, şalvarı çıxardı və yubka geyindi, təkrar soyundu və yenidən cins şalvarını geyindi. Şkafdan kətan parçadan çantasını götürüb, bir neçə lazımlı əşyasını içinə atdı. Budur, həftəsonu dəvətinə tamamilə hazır idi. Loren otaqda hökm sürən səliqəsizliyə bir anlıq tamaşa etdi: pal-paltarı yerə, dəsmal bir küncə atılmış, qab-qacaq çanaqda yığılıb qalmış, yataq isə olduqca səliqəsiz idi. Ciddi bir görkəm alıb uca səslə əşyalara dedi:

– Heç nə deməyin, şikayət də eləməyin! Sabah tez qayıdıb gələn həftə üçün sizi səliqəyə salacağam.

Sonra qələm-kağız götürüb yazdı:

“Ana,

İt üçün təşəkkür edirəm. Ən əsas, otağı yığışdırma, gələn kimi özüm səliqəyə salacağam. Bazar günü saat 5-də Kalinin dalınca gələcəyəm.

Səni sevirəm.

Sevimli həkimin”.

Paltosunu əyninə keçirdi. İtin başını nəvazişlə sığallayıb alnından öpdü və evdən çıxaraq qapını arxasınca çəkdi. Geniş pilləkənlərlə aşağı düşüb qaraja girdi və öz köhnə maşınına mindi.

– Gedirəm! Gedirəm, – deyə təkrarladı, – inana bilmirəm. Bu əsl möcüzədir. Bircə qalır ki, sən işə düşəsən. İstəyirsən hətta öskür, səni metal zibilxanasına atmazdan əvvəl mühərrikini siropda boğacağam və səni elektron təchizatlı, startersiz və


ekitab.ucoz.org

səhər hava soyuq olanda özündən getməyən maşınla əvəz edəcəyəm. Ümidvaram, məni yaxşı başa düşdün? Tərpən!

Deyəsən, axı köhnə ingilis ledisi öz sahibəsinin ciddi olduğunu anladı, belə ki, açarı buran kimi dərhal işə düşdü. Gözəl bir gün onu gözləyirdi.



ekitab.ucoz.org

# 2

Loren qonşuları yuxudan oyandırmamaq üçün maşını yavaş sürməyə başladı. Qrin-strit ağacları və evləri ilə çox yaraşıqlı bir küçə idi. Burada yaşayanlar kənddə olduğu kimi bir-birini tanıyırdılar. Loren şəhərin mərkəzindən keçən Van Nes magistral yoluna çatmamış altı yol ayrıcından keçdi və sonra sürəti əməlli-başlı artırdı. Maşının solğun işığı altında yollar hər dəqiqə rəngdən-rəngə düşür və şəhərin gözqamaşdıran küçələrini yavaş-yavaş oyandırırdı. Maşın boş küçələrdə yüksək sürətlə şütüyürdü. San-Fransiskonun enişləri bu cür baş gicəlləndirən hisslər üçün çox əlverişli idi. Satter-stritdə döngə daralır. Sükanda nəsə bir taqqıltı və cingilti səsləri var. Yunion Skuerə doğru qəfil eniş. Saat 6:30-dur. Kasetli maqnitofonun dinamiklərindən gurultulu musiqi səsi gəlir. Artıq neçə vaxt idi Loren özünü bu cür xoşbəxt hiss etməmişdi. Hər cür stresdən, xəstəxanadan, öhdəliklərdən uzaq. Həftəsonu onu səsləyir. Bu gün ancaq ona məxsusdur. Bir dəqiqə belə itirmək olmaz. Yunion- Skuerdə sakitlikdir. Bir neçə saatdan sonra səkilər meydandakı iri mağazalardan alış-veriş edən turistlər və şəhər sakinləri ilə dolacaq. San-Fransisko tramvayları bir-birinin ardınca hərəkət etməyə başlayacaq, vitrinlər aydınlanacaq, mərkəzi avtomobil dayanacağının girişində maşın izdihamı yaranacaq, oradan bir qədər aşağıda – parkda isə musiqiçilər çaldığı mahnıları dollar və sentlərlə dəyişəcəklər.

Ancaq indi, səhərin bu erkən çağında hər yerə sakitlik çökmüşdü. Mağazaların vitrinləri qaranlıq idi, skamyalarda bir neçə dilənçi yatmışdı. Maşın dayanacağının gözətçisi öz köşkündə mürgü vururdu. "Triumf" yüksək sürətin tempinə uyğun şəkildə asfaltı udurdu. Yaşıl işıq yandı, meydan boyunca yerləşən dörd küçədən biri olan Polk-stritə rahat dönüş etmək üçün Loren ikinci sürətə keçdi. Lent kimi saçına bağladığı şərfi yellənə-yellənə maşını "Masiz" mağazasının nəhəng binasının divarı qarşısında dönüş etdi. Mükəmməl dönüş. Təkərlər qıcırdadı, qəribə səs çıxdı, bunun ardınca cingilti səsi


ekitab.ucoz.org

eşidildi. Hər şey çox tez baş verdi. Cingilti səsləri bir-birinə qarışdı.

Qəfil şaqqıltı səsi! Sanki zaman dondu. Sükan və təkərlər arasındakı əlaqə kəsildi. Maşın çəpəki dönərək yaş asfaltda sürüşməyə başladı. Lorenin üzü gərildi. Əlləri ilə sükandan bərk-bərk tutdu. Sükan boşalmışdı. Sanki maşın günün qalan hissəsini də sümürüb içinə çəkən boşluqla istənilən səmtə dönməyə hazır idi. "Triumf" sürüşürdü, elə bil zaman da onun kimi əsnək olmuşdu, əsnəyən ağız kimi uzandıqca uzanırdı. Yüksək sürətdən Lorenin başı fırlanırdı, əslində isə yüksək sürətin təsirindən ətraf aləm dönürdü. Maşın fırfıra kimi fırlanırdı. Qəfildən maşın zərblə səkiyə dirəndi. Maşının kapotu açıldı və alovlanaraq yanmağa başladı. Kapot elə bil havadan sallanıb qalmışdı. Avtomobil son dəfə var gücü ilə ətrafında döndü və cazibə qanununa meydan oxuyan bu öz ətrafında dönməni ağırlaşdıran sahibəsini atdı. Lorenin bədəni havada uçaraq nəhəng mağazanın vitrininə çırpıldı. Vitrin parça-parça olub şüşə xalı kimi yerə səpələndi. Şüşə örtük əvvəlcə yerdə diyirlənən, sonra hərəkətsiz qalan gənc qadını öz qoynuna aldı. Onun dağılmış saçları şüşə qırıntılarına qarışmışdı. Köhnə "Triumf" isə bir hissəsi səkinin üzərində, arxası üstə çevrilərək öz manevr və gedişinə son vermişdi. Və budur – köhnə ingilis ledisinin təkindən son tüstü də qurtularaq çıxır və son nəfəsini verərək vidalaşır. Loren hərəkətsiz və sakit idi. Üz cizgiləri hamar, nəfəs alması yavaş və nizamlıydı. Ağzı yarıaçıqdı, dodaqlarında yüngül təbəssüün donub qalmışdı, gözləri qapalıydı, elə bil yatmışdı. Uzun saçları açılmışdı, sağ əli qarnının üstündə idi. Köşkündə oturan dayanacağın qarovulçusu gözlərini qıydı. O, hər şeyi görmüşdü. "Filmlərdə olduğu kimi idi, ancaq burada baş verənlər həqiqi idi", sonra bu cür deyəcəkdi. Ayağa qalxdı, bayıra qaçdı, ancaq fikrini dəyişib geriyə döndü. Təlaşla telefonun dəstəyini qaldırıb 911 rəqəmlərini yığdı. Yardım istədi. Tibbi heyət dərhal yola çıxdı.

San-Fransisko xəstəxanasının yemək otağı ağ kafellə döşənmiş, divarları sarı rəngə boyanmış geniş bir zaldır. Əsas giriş boyunca dördbucaqlı plastik masalar qoyulmuş, girişin sonunda isə müxtəlif içkilərlə dolu avtomat-qutu və qablaşdırılmış


ekitab.ucoz.org

yeməklər düzülmüşdü.

Həkim Filip Stern masalardan birinin üzərinə yayılaraq əlində soyuq qəhvə mürgü döyürdü. Bir qədər aralıda həmkarı gözlərini boşluğa zilləyərək kürsüdə yellənirdi. Cibindəki peycer siqnal çaldı. Bir gözünü açdı və narazılıqla saatına baxdı. On beş dəqiqədən sonra növbəsi başa çatırdı. "Bu nədir axı?! Bəxtim gətirmir də! Frenk, kommutatora zəng elə". Frenk başı üzərində divardan asılmış telefonu qapdı və xəttin o biri başından ona məlumat verən səsi dinlədikdən sonra dəstəyi asdı və Sternə tərəf döndü:

– Qalx, lazımıq. Yunion Skuer, kod 3, deyəsən, vəziyyət ağırdır...

San-Fransiskonun təcili tibbi yardım xidmətinin hər iki təcrübəçi həkimi təlaşla ayağa qalxıb sayrışan işığı fırlanan, mühərriki işlək vəziyyətdə olan təcili yardım maşınının onları gözlədiyi giriş qapısına yönəldi. 02 təcili yardım maşınının çıxışını bildirən iki qısa sirena səsi eşidildi. Saat yeddiyə on beş dəqiqə qalırdı. Mark-strit bomboş idi. Təcili yardım maşını səhərin bu erkən çağında böyük sürətlə yolda şütüyürdü.

– Lənətə gəlsin, tərslikdən bu gün hava da əla olacaq.

– Nədən narazısan?

– Çünki yorulmuşam, gedib yatacağam və gözəl hava da əldən çıxacaq.

– Sola dön, yasaq yolla gedək.

Frenk maşını sola döndərdi, təcili yardım maşını Polk-stritlə Yunion Skuerə tərəf qalxırdı.

– Ordadır, onu görürəm. Qaza bas.

Geniş meydana çatan kimi hər iki həkim yanğından sonra yerə çökən köhnə "Triumf"un qalıqlarını gördülər. Frenk sirenanın səsini kəsdi.

– Həə... Bu nəticə qaçılmaz idi, – deyə maşından yerə atılan Stern təsdiqlədi. İki polis nəfəri artıq hadisə yerində idi. Onlardan biri Filipi sınmış vitrinə tərəf yönləndirdi.

– O hanı? – təcrübəçi həkim polislərdən birindən soruşdu.

– Orada. Qadındır, özü də həkimdir, deyəsən, təcili yardımda işləyir. Ola bilsin siz onu tanıyırsınız...

Lorenin qarşısında dizləri üstə çökmüş Stern həmkarını çağıraraq tələsdirdi. Qayçı ilə qızın


ekitab.ucoz.org

əynindəki cins şalvarı və yun köynəyi kəsməyə başladı, Lorenin bədəni yarıçılpaq halda qaldı. Onun uzun və mütnasib sol qıçında əyilmə görünürdü və qançır olmuşdu, bu da sınıqdan xəbər verirdi. Ancaq, deyəsən, bədəninin qalan yerləri zədə almamışdı.

– Əmici boru ilə damcısalanı hazır et. Nəbzi zəifdir, təzyiqi normaldır, nəfəs alması 48, başından yaralanıb, daxili qanaxma ilə sağ ombasından qapalı zədə alıb. Sarğı şini hazırla. Onu tanıyırsan? Bizdəndir?

– Onu görmüşəm, təcili yardım xidmətindəndir, Fernşteynlə işləyir. Onun öhdəsindən bircə o gələ bilir.

Filip həmkarının sonuncu cümləsinə heç bir reaksiya vermədi. Frenk monitorda birləşən yeddi ədəd əmicini qadının sinəsinə yapışdırdı və hər birini daşına bilən elektrokardioqrafiya cihazının ınüxtəlif rəngli elektrik naqillərinə qoşdu və aparatı işə saldı. Ekran dərhal işıqlandı.

– Ekran nə göstərir? – həmkarından soruşdu.

– Yaxşı heç nə. Onu itiririk. Təzyiq 80-in 60-a, nəbz 140. Dodaqları göyərib. Endotraxel boru – 7-ni hazırlayıram, intubasiya edəcəyik.

Həkim Stern kateteri yerləşdirdi və maye dolu şüşəni tutmaq üçün polislərdən birinə verdi.

– Bunu havada yaxşıca tutun. Mənim hər iki əlimə ehtiyacım var.

Nəzərlərini polisdən ayırıb həmkarına baxdı və ona serum borucuğuna beş milliqraın adrenalin, yüz iyirmi beş milliqram solu-medrol vurmağı və dərhal defibrilyatoru hazırlamağı tapşırdı. Birdən Lorenin bədən hərarəti qəfildən düşməyə başladı və elektrokardioqraf nizamsız xətlər göstərməyə başladı. Yaşıl ekranın aşağısında kiçik qırmızı ürək şəkli yanıb-sönməyə başladı və dərhal ürək fibrilyasiyasının qaçılmazlığından xəbər verən arası kəsilmədən qısa siqnallar eşidildi.

– Hə, gözəl, möhkəm ol! Haradasa daxili qanaxma var. Qarnı necədir?

– Elastikdir, yəqin qanaxma ayağındadır. İntubasiyaya hazırsan?

Bir dəqiqədən də az zaınan ərzində Lorenə intubasiya edildi və zond nəfəs borusunun ucuna taxıldı. Stern pasiyentin vəziyyəti haqqında məlumat istədi. Frenk yaralının nəfəsinin sabit olduğunu, təzyiqinin isə 50-yə düşdüyünü söylədi. Cümləsini


ekitab.ucoz.org

bitirməyə macal tapmadan aparatdan qısa və kəskin siqnal səsləri eşidilməyə başladı.

– Hazırdır, fibrilyasiyaya cavab verir, 300 milliamper ver.

Filip aparatın iki ucunu bir-birinə sürtdü.

–Yaxşıdır, cərəyan var, – Frenk qışqırdı.

– Çəkil, elektroşok verirəm.

Yükləmənin zərbəsi ilə bədən qəfildən yığıldı və Lorenin qarnı havaya qalxaraq yenidən yerə düşdü.

–Yox, təsir eləmir.

– Bir də! 360 ver!

– 360, hazır.

– Çəkil!

Bədən yenidən havaya qalxdı və yerə düşərək hərəkətsiz qaldı.

– Beş milliqram adrenalin yerit və 360 milliamper ver. Çəkil!

Növbəti yükləmə və bədən qalxıb-düşdü.

– Fibrilyasiya var. Onu itiririk! Lidokain yerit və yenidən yüklə. Çəkil!

Bədən havaya atıldı.

– Beş yüz milliqram berilium vur və 380 ver!

Lorenin bədəni bir daha qıvrılır, sanki ürəyi bir anlıq ona vurulan dərmanlara cavab verməyə və normal ritmlə işləməyə başladı, ancaq bu, sadəcə, bir neçə dəqiqə davam etdi. Bir dəqiqə əvvəl səslənən qırıq-qırıq siqnal səsi yenidən eşidildi.

– Ürək dayandı! – Frenk həyəcanla dedi.

Filip qeyri-adi bir şiddətlə ürək masajı etməyə və süni tənəffüs verməyə başladı. Qadını həyata qaytarmaq üçün ona yalvarırdı:

– Axmaqlıq eləmə! Bax, bu gün hava gözəldir. Qayıt! Bunu eləmə!

Sonra həınkarına aparatı bir daha işə salmağı ənır etdi. Frenk onu sakitləşdirməyə çalışırdı:

– Bəsdir, Filip, bunun xeyri yoxdur.

Ancaq Sternin dayanmaq fikri yox idi, ona defibrilyatoru işə salmağı bağırdı. Həınkarı icra elədi. Artıq neçənci dəfə idi ki, "Kənara çəkil" deyə qışqırırdı. Bədən yenidən qıvrıldı, ancaq elektrokardioqrafın xəttləri dəyişməz olaraq qalırdı. Filip ürəyi masaj etməyə başladı, alnından tər damcıları axırdı. Öz yorğunluğunu və acizliyini dərk edən gənc həkim dəliyə dönürdü. Həmkarı onun hərəkətlərinin artıq heç bir məntiq çərçivəsinə sığmadığını anlayırdı. Əslində bir neçə dəqiqə


ekitab.ucoz.org

bundan əvvəl buna son verməli və ölüm anını bildirməli idi. Ancaq Sternə heç nə təsir etmirdi, o, ürəyi masaj etməyə davam edirdi.

– Yarım milliqram da adrenalin ötür və 400 ver!

– Filip, bəsdir, xeyri yoxdur, o ölüb. Sən nə edirsən?!

– Yum ağzını, nə deyirəmsə, onu da elə!

Polis Lorenin qarşısında diz çökmüş gənc həkimə baxdı. Həkim sanki onun varlığını unutmuşdu. Frenk çiyinlərini çəkdi və perfüzyon borucuğuna növbəti dozanı yeridərək defibrilyatoru işə saldı. Dörd yüz milliamper ötürdüyünü elan etdi. Stern hətta "Kənara çəkil!" belə demədən növbəti cərəyanı qadının bədəninə yüklədi. Cərəyanın gücündən qadının döş qəfəsi şiddətlə havaya qalxdı. Aparatdakı xətlər dəyişməz olaraq qalırdı. Həkim gözünün ucu ilə belə ona baxmadı, sonuncu elektroşokun nəticəsini əvvəlcədən bilirdi. Yumruğunu Lorenin sinəsinə endirdi "Lənətə gələsən! Lənətə gələsən!"

Frenk onun çiyinlərindən tutdu və bərk-bərk sıxdı.

– Bəsdir, Filip, özünə gəl, sakitləş! Ölümü elan elə, gedək. Əsəblərin artıq yerində deyil, dincəlməlisən.

Filip qan-tər içində idi, çaşqın nəzərlərlə baxırdı. Frenk səsinin tonunu qaldırdı və dostunun başını əlləri arasına alaraq özünə baxmağa məcbur etdi.

Bir daha ona sakitləşməyi əmr etdi, heç bir reaksiya vermədiyini görüncə üzünə şillə vurdu. Gənc həkim şilləni sakit qəbul etdi. Həmkarının səsi olduqca yorğun çıxırdı:

– Mənimlə gəl, dostum, özünü ələ al.

Taqətdən düşmüş halda onu buraxdı, baxışlarında çaşqınlıq görünürdü. Polislər heyrətlə hər iki həkimə baxırdılar. Filip dizləri üstə oturmuş halda yavaş-yavaş başını qaldırdı, ağzını açdı və alçaq səslə dedi: "Saat 7:10. Keçindi". Heyrətdən nəfəsini tutaraq hələ də əlində serum qabını saxlayan polisə dedi: "Onu aparın, hər şey qurtardı, artıq ona kömək etınək mümkün deyil". Ayağa qalxdı və həmkarının çiyinlərindən tutub onu təcili yardım maşınına tərəf çəkdi.

– Gəl, qayıdırıq.

Onlar təcili yardım maşınına ınınərkən hər iki polis nəzərlərilə onları izləyirdi.


ekitab.ucoz.org

– İkisi də özünü qəribə aparır, – onlardan biri dedi. Digəri öz həmkarına diqqətlə baxdı.

– Sən heç öldürülən polisin işi ilə məşğul olmusan?

–Yox.

– Onda onların nə yaşadığını başa düşə bilməzsən. Gəl, mənə kömək elə, onu ehtiyatla qaldırıb maşına qoyaq.

Təcili yardım maşını artıq küçəni burulmuşdu. Hər iki polis Lorenin hərəkətsiz bədənini qaldırıb xərəyə qoydular və üstünü örtdülər. Ətrafda görünən bir neçə avara tamaşa bitən kimi dağılışıb getdi. Təcili yardım maşını yola düşdüyündən bəri hər iki həkim susurdu. Sükutu Frenk pozdu:

– Sənə nə olmuşdu, Filip?

– Onun heç otuz yaşı da yoxdur. O, həkimdir. Bu həyatı tərk etmək üçün həddən artıq gözəldir.

– Hə, ancaq o məhz elə bunu elədi. Gözəldir, həm də həkimdir. Nə olsun? Eybəcər ola bilərdi və hansısa bir mağazada işləyə bilərdi. Bu, taledir, heç nə edə bilməzsən, onun vaxtı çatmışdı... Qayıdırıq, bir az yatarsan. Olanları da unutmağa çalış.

Onlardan iki məhəllə arxada gələn polis maşını dörd yol ayrıcına yenicə çatmışdı ki, qəfildən bir taksi maşını sarı işıqda yolu keçməyə çalışdı. Polis qəzəbli halda maşını qəfildən saxladı və sirenanı açdı. "Limo Servis"in sürücüsü dayandı və üzr istəməyə başladı. Maşının qəfil dayanışı Lorenin xərəkdən sürüşüb yerə düşməsinə səbəb oldu. Hər iki adam maşının arxa tərəfinə keçdi. Gənc polis Lorenin topuqlarından, yaşlı polis isə qollarından tutdu. Nəzərləri gənc qadının sinəsinə sataşdı və baxışları donub qaldı.

– Nəfəs alır!

– Nə?

– Sənə deyirəm, nəfəs alır. Sükan arxasına keç, xəstəxanaya sür.

– Mən elə belə də bilirdim! Dərhal anladım, o iki həkim qəribə idi.

– Kəs səsini və sür. Heç nə başa düşmürəm. Bunun üçün cavab verəcəklər.

Polis maşını hər iki həkimin təəccüb dolu baxışları altında təcili yardım maşınını ildırım sürəti ilə qabaqladı. Hə, bu, "onların polisi" idi. Filip sirenanı qoşmaq və onların arxasınca getmək istədi, ancaq həmkarı mane oldu. O, çox yorulmuşdu.


ekitab.ucoz.org

– Niyə belə sürürlər?

– Mən hardan bilim, – Frenk cavab verdi, – bəlkə heç onlar deyil. Hamısı bir-birinə oxşayır.

On dəqiqə sonra təcili yardım maşını qapıları taybatay açıq olan polis maşınının yanında dayandı. Filip maşından düşdü və təcili yardım şöbəsinə daxil oldu. Tələsik addımlarla qeydiyyat şöbəsinə yaxınlaşdı və salamlaşmadan həmkarından soruşdu:

– O, hansı palatadadır?

– Kim, həkim Stern? – növbətçi həkim soruşdu.

– İndicə gətirilən gənc qadın.

– Üçüncü blokda, Fernşteyn müşayiət edir. Deyəsən, onun heyətindəndir.

Həkimin arxasında dayanmış polis onun çiyninə toxundu.

– Siz həkimlərin başı işləyir?

– Bağışlayın?

Bağışlayın! İstəyirsə, lap yüz dəfə üzr istəsin, bu, kifayət deyildi. Polis maşınında nəfəs alan bir qadının öldüyünü necə deyə bilib?

– Başa düşürsünüz ki, mən olmasaydım, onu diri-diri ölüxanaya basacaqdılar?

Eybi yox! O, bu işi belə qoymaz! Həmin vaxt həkim Fernşteyn blokun ağzında göründü və polisə heç bir diqqət yetirmədən gənc həkimə dedi:

– Stern, ona vurduğunuz adrenalinin dozası nə qədər idi?

– Dörd dəfə beş milliqramlıq, – gənc həkim dilləndi.

Professor onu danladı və bildirdi ki, o, lazım olandan çox terapevtik səy göstərib, sonra isə polis zabitinə üzünü tutub Lorenin həkim Sternin ölüm anını elan etdiyi andan əvvəl öldüyünü bildirdi.

Fernşteyn onu da əlavə etdi ki, onlar pasiyentin ürəyi üzərində həddən artıq səy göstərməklə tibbi sığorta istifadəçilərinin zərərinə hərəkət ediblər. Söhbətə son verərək bildirdi ki, vurulmuş maye ürək kisəsində yığılıb qalıb.

– Siz maşını qəfildən saxlayanda maye ürəyə keçib və ürək sırf kimyəvi təsirə cavab olaraq işləməyə başlayıb. Ancaq təəssüf ki, bu, qurbanın beyin ölümünü dəyişdirməyə qadir deyil. Ürək məsələsinə gəlincə, maye ürəkdən boşalan kimi, o dayanacaq. "Əgər artıq baş verməyibsə".

Həkim heç bir əsas olmadan həkim Sternlə əsəbi danışdığı üçün polisdən ondan üzr istəməyə dəvət


ekitab.ucoz.org

etdi, həkim Sternə isə getməzdən qabaq onun yanına gəlməyi tapşırdı. Polis Filipə tərəf döndü və donquldandı:

– Belə görürəm, professionalların bir-birinin marağını qoruması ancaq polislər arasında deyil, həkimlər arasında da var. Sizə heç də xoş gün arzulamıram, – deyərək döndü və xəstəxanadan çıxdı. Təcili yardım şöbəsinin qapıları bağlansa da, bayırdan polis maşınının çırpılan qapısının səsi eşidildi.

Stern əllərini qəbul masasının üstünə söykəyib gözlərini qıyaraq növbətçi tibb bacısına baxırdı.

– Axı nə baş verir?

Tibb bacısı çiyinlərini çəkdi və Fernşteynin onu gözlədiyini xatırlatdı.

Həkim Stern Lorenin müdirinin yarıaçıq qapısını döydü. Şef onu içəri çağırdı. Həkim masa arxasında üzü pəncərəyə tərəf dayanaraq bayıra baxırdı. Deyəsən, gözləyirdi ki, sözə ilk Stern başlasın. Filip həkimin polisə izah etdiklərindən heç nə anlamadığını söylədi. Fernşteyn onun sözünü kəsdi və soyuq bir tövrlə dilləndi:

– Mənə yaxşı qulaq asın, Stern. Mənim polisə dediklərim onu bu işdən əl çəkməyə vadar etmək üçün idi, yəni haqqınızda raport yazmasın və gələcəyinizi məhv etməsin. Sizin kimi təcrübəsi olan biri üçün bu cür davranış qəbuledilməzdir. Bir halda ki, vəziyyət tələb edir, deməli, ölümü qəbul etmək lazımdır. Biz tanrı deyilik və taleyi dəyişə bilmərik. Bu gənc qadın siz gəlməzdən əvvəl ölmüşdü. Sizin inadkarlığınız isə sizə baha başa gələ bilərdi.

– Bəs onda onun nəfəs almasını nə ilə izah edə bilərsiniz?

– Mən izah etmirəm və bunu etmək fikrim də yoxdur. Biz hər şeyi bilə bilmərik. O ölüb, həkim Stern. Bu sizə xoş olmasa belə, o artıq yoxdur. Onun ağciyərlərinin və ürəyinin işləməsi məni maraqlandırmır, əsas odur ki, elektro-ensofalaqramma düz xətt göstərir. Beyin ölümünü heç nə dəyişdirə bilməz. İndi bizə ancaq vaxtı gözləmək və onu ölüxanaya aparmaq qalır. Bu da son.

– Axı siz bu cür hərəkət edə bilməzsiniz. Faktlara baxın!

Fernşteyn başının işarəsi və səsinin tonu ilə öz acığını büruzə verdi. Ona heç kim dərs verə bilməz.


ekitab.ucoz.org

Heç Stern bir günlük reanimasiya xərcinin nə qədər olduğunu bilir? Yoxsa elə fikirləşir ki, süni şəkildə nəfəs alan bir "bitki"yə görə xəstəxana çarpayını zəbt etməyə icazə verəcək? Fernşteyn ona ağlını başına toplamasını ınəsləhət gördü. O, xəstə yaxınlarının həftələrini hərəkətsiz və beyni fəaliyyət göstərməyən, ancaq aparatların sayəsində həyatda qalan bir varlığın yanında keçirmələrinə qarşıdır. O, sadəcə, həkimlik eqosu təmin olunsun deyə bu cür qərarların məsuliyyətini daşımaqdan imtina edir. Həkim Sternə evə gedib duş almağı və gözləri qarşısından yox olmasını söylədi. Ancaq gənc həkim professorun qarşısında dayanıb ən tutarlı arqumentlər gətirərək ona meydan oxuyurdu. O, ölüm anını elan edən zaman artıq on dəqiqə idi ki, pasiyentin ürək-tənəffüs sistemi fəaliyyət göstərmirdi. Bəli, o, öz həkimlik təcrübəsində ilk dəfə idi ki, inadkarlıq göstərib, ancaq bu ona görə olub ki, o, qadının ölmək istəmədiyini hiss edib. O, qadının açıq gözlərinin dərinliyində mübarizə aparmaq və yaşamaq istəyini gördüyünü deyirdi. Odur ki, o da onunla bərabər, hətta bu, bütün normaları aşsa belə, lazım olandan da artıq mübarizə aparmış və on dəqiqə sonra hər cür məntiqdən kənar, ona öyrədilənlərə zidd də olsa, onun ürəyi döyünməyə, ağciyərləri fəaliyyət göstərməyə və hava almağa başlamışdı... həyat havasını...

– Haqlısınız, – deyə sözünə davam etdi, – biz həkimik. Və hər şeyi bilə bilmərik. O qadın da həkim idi.

O, Fernşteynə yalvararaq ona yaşamaq şansı verməyi xahiş etdi. Altı ay komada qalıb həyata qayıdanların şahidi olublar və bunun səbəbini heç kim anlamayıb. Ancaq heç kim o qadının etdiyini edə bilməyib, odur ki, onun xəstəxanada nə qədər bu vəziyyətdə qalacağının heç bir fərqi yoxdur.

– Ölməsinə icazə verməyin, o, bunu istəmir, bizə də məhz bunu demək istəyir.

Professor cavab verməzdən əvvəl bir qədər susdu:

– Həkim Stern, Loren mənim tələbəm idi. Xasiyyəti ağır olsa da, əsl istedad idi. Ona çox qiymət verirdim və gələcəyinə böyük ümidlər bəsləyirdim. Eləcə də sizin gələcəyinizə. Söhbətimiz qurtardı.

Stern otaqdan çıxdı və qapını örtmədi. Frenk onu dəhlizdə gözləyirdi:


ekitab.ucoz.org

– Burada nə edirsən?

– Sən dəli olmusan, Filip, bu cür səs tonu ilə kiminlə danışdığını bilirsən?

– Nə olsun?

– Danışdığın adam həmin gənc qadının müəllimidir. O, onu yaxşı tanıyırdı və on beş aydır ki, onunla birlikdə işləyirdi. O, o qədər adam xilas edib ki, bəlkə də sən bir ömür boyu o qədər xilas edə bilməzsən. Hisslərinə nəzarət etməyi bacarmalısan, doğrudan da, bəzən axmaqlıq edirsən.

– Məni rahat burax, Frenk, bu gün aldığım əxlaq dozası mənə bəsdi.


ekitab.ucoz.org

# 3

Həkim Fernşteyn kabinetin qapısını örtdü, telefonu əlinə aldı bir qədər tərəddüd etdi və dəstəyi yerinə qoydu. Pəncərəyə yaxınlaşdı, sonra isə qətiyyətli addımlarla dəstəyi qaldırıb əməliyyat otağı ilə calaşdırmağı tapşırdı. Xəttin o biri başında kim isə tələsik cavab verdi.

– Fernşteyndir, hazırlaşın, on dəqiqədən sonra əməliyyatdır, qeyd dəftərini göndərirəm.

Dəstəyi ehmalca yerinə qoydu və kabinetdən çıxdı. Qapı ağzında professor Uilyamsla üz-üzə gəldi.

– Necəsən? – həkim Uilyams soruşdu, – gəl, gedək qəhvə içək.

– Yox, gələ bilmərəm.

– Nə edirsən ki?

– Axmaqlıq! Axmaqlıq etməyə hazırlaşıram. İndisə tələsirəm, sənə zəng edərəm.

Fernşteyn əməliyyat şöbəsinə daxil oldu. Əynindəki yaşıl həkim köynəyi belində kip oturmuşdu. Tibb bacılarından biri steril tibbi əlcəkləri ona verdi. Əməliyyat otağı geniş idi. Çoxsaylı həkim heyəti Lorenin bədəni ətrafında dövrə vurub dayanmışdı. Arxa tərəfdə monitorun ekranı xəstənin tənəffüs və ürək döyüntülərinin ritmini əks etdirirdi.

– Vəziyyəti necədir? – Fernşteyn anestezioloqdan soruşdu.

– Stabildir, son dərəcə stabildir. Nəbzi altmış beş, təzyiqi yüz iyirminin səksənədir. Artıq yatıb. Ürəyin qaz mübadiləsi normaldır. Başlaya bilərsiniz.

– Bəli, dediyiniz kimi, o yatıb.

Fernşteyn neştərlə sınıq boyunca budu yarmağa başladı. Əzələləri yana çəkməzdən əvvəl o, bütün heyətə müraciət etdi. Onlara "əziz həmkarlarım" deyə xitab edərək bildirdi ki, indi onlar iyirmiillik təcrübəsi olan bir cərrahın beşinci kursda oxuyan təcrübəçi həkimin işini – omba sınığının bərpası işini gördüyünün şahidi olacaqlar.

– Bəs bilirsiniz, bunu niyə eləyirəm? Çünki beşinci kursda oxuyan heç bir tələbə artıq iki saatdır beyin ölümü gerçəkləşmiş bir xəstənin sınığını düzəltməyi qəbul etməz.


ekitab.ucoz.org

Odur ki, cərrah onlardan heç nə soruşmamağı xahiş etdi. Burada sadəcə on beş dəqiqəlik iş var idi və o, bu oyuna qoşulduqları üçün onlara təşəkkür etdi. Loren onun tələbələrindən biri idi və bu gün bu otaqda toplaşan tibbi heyət cərrahı gözəl başa düşür və bu işdə onu dəstəkləyirdilər. Radioloq içəri girdi və rentgen nəticəsini ona göstərdi. Rentgen surəti peysər sümüyü nahiyəsində hematoma olduğunu göstərirdi. Sıxılmanı aradan qaldırmaq üçün punksiya etmək qərarına gəldilər. Başın arxasından dəlik açıldı, ekranı izləməklə incə iynə beyin qişasına yeridildi. Beləcə cərrahın rəhbərliyi altında hematoma olan yerə qədər irəlilədilər. Beyin özü zədə almamışdı. Qan zondla axmağa başladı. Elə həmin dəqiqə kəllədaxili təzyiq düşməyə başladı. Anestezioloq dərhal tənəffüs yollarının intubasiyası vasitəsilə beyinə göndərilən oksigenin ıniqdarını artırdı. Təzyiqdən azad olan kimi toplanmış zəhər yavaş-yavaş kənarlaşmağa və hüceyrələrin maddələr mübadiləsi normallaşmağa başladı. Tibbi müdaxilə edildikcə hər ötən dəqiqə ilə vəziyyət dəyişirdi. Bütün heyət klinik olaraq ölmüş bir bədəni əməliyyat etdiklərini unutmuşdu. Hər kəs öz rolunu ifa edirdi və mütəxəssislərin hərəkəti zəncirvari idi. Sümüklərin rentgen görüntüsü alındı, yan sınıqlar bərpa edilmiş, plevranın punksiyası bitmişdi. Əməliyyat planlaşdırılmış şəkildə və dəqiq edilmişdi. Beş saat sonra professor Fernşteyn əlcəklərini xışıltı ilə çıxarmaqda idi. Xəstənin yaralarını tikınəyi və onu narkozdan sonra oyanma otağında yerləşdirməyi xahiş etdi. Narkozun təsiri keçən kimi bütün tənəffüs aparatlarının söndürülməsini tapşırdı.

Bir daha tibbi heyətə əməliyyatda iştirak etdikləri və gələcəkdə də bu əməliyyat haqqında məlumat yaymayacaqları üçün təşəkkür etdi. Əməliyyat otağından çıxmazdan əvvəl tibb bacısı Betidən Lorenin aparatları söndürülən kimi xəbər verilməsini xahiş etdi. Otaqdan çıxdı və sürətli addımlarla liftə doğru yönəldi. Qəbul şöbəsinin qarşısından keçərkən növbətçi tibb bacısından həkim Sternin burada olub-olmadığını soruşdu. Gənc qadın onun tamamilə məyus halda getdiyini söylədi. Fernşteyn tibb bacısına təşəkkür etdi və əgər onu görmək istəsələr, öz kabinetində olacağını söylədi.

Əməliyyat otağından çıxarılan kimi Loren


ekitab.ucoz.org

narkozdan sonrakı oyanma otağına yerləşdirildi. Beti ürək monitorunu, ensefaloqraf cihazı və süni nəfəsalma aparatına qoşulmuş intubasiya borusunu keçirdi. Bu cihazlarla çarpayıda uzanmış gənc qadın lap kosmonavtlara bənzəyirdi. Tibb bacısı qan nümunəsi aldıqdan sonra otağı tərk etdi. Xəstə rahat uyumuşdu, göz qapaqları sanki dərin və şirin bir aləmin təsvirlərini cızırdı. Yarım saat keçdi və Beti professor Fernşteynə zəng etdi və ona Lorenin narkozdan ayıldığını xəbər verdi. Professor dərhal pasiyentin həyati vəziyyəti ilə maraqlandı. Tibb bacısı həkimin gözlədiyi cavabı verdi, dəyişməz olaraq qaldığını söylədi və təkidlə həkimdən nə etmək lazım olduğunu soruşdu.

– Tənəffüs aparatını ayırın. Gəlirəm.

Dəstəyi asdı. Beti palataya daxil oldu və borunu aparatdan ayırdı ki, xəstə özü nəfəs alsın. Bir neçə dəqiqədən sonra isə intubasiya borucuğunu çıxarıb traxeya yolunu azad etdi. Lorenin tellərini əli ilə arxaya sığalladı, nəvazişlə ona baxdı və palatanın işığını söndürüb çıxdı. Otaq dərhal ensefaloqraf cihazının yaşıl işığına qərq oldu. Monitordakı düz xəttlər dəyişməz olaraq qalırdı. Saat təxminən 21:30 olardı. Otaqda sükut hökm sürürdü.

Bir saat sonra osiloskopun siqnal səsində əvvəlcə cüzi titrəmə əmələ gəldi, ancaq qəfildən monitordakı xəttin ucu yüksəyə qalxaraq pik nöqtəyə çatdı və yenidən üfüqi istiqamət alanadək sürətlə aşağı düşdü.

Ancaq heç kim bu anomaliyanın şahidi olmadı. Beti bir saatdan sonra otağa girdi. Lorenin vəziyyətinə nəzarət etdi, aparatdan daima çıxan qeydiyyat kağızınının bir neçə santimetrlik bükümünə baxdı, anormal pik səviyyəni gördü, qaşlarını çatdı və kağızın digər santimetrlərində qeyd olunanlara nəzər saldı. Xəttin yenə düz davam etdiyini görüncə heç nədən şübhələnmədən kağızı buraxdı. Divardakı telefonun dəstəyini qaldırıb Fernşteynə zəng etdi.

– Mənəm. Xəstə komadadır, vəziyyəti dəyişməz olaraq qalır. İndi nə etməliyəm?

– Beşinci mərtəbədə çarpayı hazırlayın, Beti, təşəkkür, – deyə Fernşteyn dəstəyi asdı.


ekitab.ucoz.org

ekitab.ucoz.org

# 4

1996-cı ilin qışı

Artur qarajın qapısını pultla açıb maşını içəri saldı. Daxili pilləkənlərlə qalxıb yeni mənzilinə daxil oldu. Qapını ayağı ilə örtdü, çantasını yerə qoydu, paltosunu çıxardı və özünü divana atdı. Salonun ortasında atılıb qalmış iyirmiyə yaxın karton qutu onu iş başına səsləyirdi. Əynini dəyişdi və qutuları açıb içindəki kitabları rəflərə yerləşdirdi. Parket ayaqları altında cırıldayırdı. Olduqca gec – axşama yaxın işini qurtardı, boş qutuları qatladı, tozsoranı işə salıb yeri təmizlədi. Mətbəx tamamilə hazır idi. Dayanıb öz yeni yuvasını nəzərdən keçirdi. "Deyəsən, axı manyaklığa meyilli olmağa başlayıram", – öz-özünə dedi. Vanna otağına keçdi, duş almaq və vanna qəbul etmək arasında tərəddüd etdi və ikincini seçdi. Kranı açıb suyu buraxdı, divar şkafının yanındakı radiatorun üzərinə qoyduğu əl radiosunu açdı, paltarlarını soyundu və rahat nəfəs alaraq vannaya uzandı.

101.3 FM-də səslənən Pegi Linin "Titrətmə" adlı mahnısının sədaları altında Artur bir neçə dəfə başını suya batırdı. Birdən təəccübləndi. Mahnı "stereo" səslənirdi, halbuki aparat "mono"nu göstərirdi. Üstəlik, diqqətlə qulaq asınca ona elə gəldi ki, mahnını müşayiət edən barmaq döyəcləməsi paltar şkafından gəlir. Bu, ona maraqlı göründü, sudan çıxıb daha yaxşı eşidə bilmək üçün ehtiyatla şkafa tərəf getdi. Səs daha da aydın eşidilməyə başlayırdı. Əvvəlcə tərəddüd etdi, nəfəsini tutdu və şkafın qapılarını taybatay açdı. Gözləri kəlləsinə çıxdı, bir addım geri çəkildi.

Asılqanların arasında gözlərini yumub səslənən mahnı ilə birlikdə oxuyan və ritminə uyğun çırtma çalan, cazibədar paltarda bir qadın oturmuşdu.

– Siz kimsiniz, burda nə edirsiniz? – soruşdu.

Qadın yerindən sıçradı, gözlərini geniş açdı.

– Siz məni görürsünüz?

– Əlbəttə ki, görürəm.

Qarşısında dayanan adamın onu görməsi qadını heyrətə salmışdı. Artur qıza kar və kor olmadığını


ekitab.ucoz.org

söyləyib burada nə etdiyini təkrarladı. Ancaq bunun cavabında qız bunun necə də əla olduğunu söylədi. Artur üçünsə bu vəziyyətdə "əla" heç nə yox idi və o, üçüncü dəfə, əvvəlkindən daha da qəzəbli halda sualını təkrarladı: gecənin bu vaxtı onun vanna otağında nə edir?

– Əminəm ki, heç nə başa düşmürsünüz, – qız dedi, – qoluma toxunun.

O, çaşqın halda baxdı, ancaq qız təkid etdi:

– Xahiş edirəm, qoluma toxunun.

– Xeyr, sizin qolunuza toxunmaq istəmirəm, nə baş verir axı?

Onda qız Arturun biləyindən tutdu və ondan bu toxunuşu hiss edib-etmədiyini soruşdu. Artur bütün bunlardan təngə gəlmiş halda bu toxunuşu hiss etdiyini söylədi, üstəlik, onu əla gördüyünü və əla eşitdiyini bildirdi. Artıq dördüncü dəfə idi ki, qızın burada nə etdiyini və vanna otağındakı şkafda niyə oturduğunu soruşurdu. Qız isə suala cavab verməkdən yayınaraq sevinclə onu görə, eşidə bilməsi və ona toxuna bilməsinin "əsl möcüzə" olduğunu təkrarladı. Ağır iş günündən sonra yorulan Arturun zarafatlıq halı yox idi.

– Xanım, daha bəsdir. Bu, ortağımın zarafatıdır? Siz kimsiniz? Şənlik vaxtı sürpriz qutusundan çıxan qızlardansınız?

– Siz həmişə belə kobudsunuz? Mən heç fahişəyə oxşayıram?

Artur köksünü ötürdü.

– Xeyr, siz fahişəyə oxşamırsınız, siz, sadəcə, mənim paltar şkafımda gizlənmisiniz.

– Hər halda çılpaq olan sizsiniz, mən yox!

Artur yerindən sıçradı, dəsmalı aldı, bədəninə bürüdü və özünü ələ almağa çalışdı. Sonra isə səsini ucaltdı.

– Belə. Oyunu qurtaraq. Buradan çıxın və evinizə qayıdın. Pola da deyin ki, bu çox, çox axmaq zarafat idi.

Qız Polu tanımadığını söylədi və ona səs tonunu azaltmağı məsləhət gördü. Hər halda kar deyildi. Onu eşitməyən başqalarıdır, o özü çox yaxşı eşidir. Artur isə çox yorulduğunu və bu vəziyyətdən heç nə anlamadığını bildirdi. Qız isə həyəcanlı görünürdü. Artur yeni köçdüyü mənzilində əşyalarını yenicə yerləşdirib qurtardığını söylədikdən sonra dedi ki, bircə şey istəyir, onu rahat buraxsınlar.

 ekitab.ucoz.org

– Xahiş edirəm, evinizə gedin. Bir də ki, bu şkafdan çıxacaqsız, ya yox?!

– Tələsməyin! Bu, o qədər də asan deyil. Hələ ki, o qədər dəqiq alınmır, ancaq son günlər bir xeyli təkmilləşib.

– Nə təkmilləşib?

– Gözünüzü yumun, mən cəhd edəcəyəm.

– Nəyə cəhd edəcəksiniz?

– Şkafdan çıxmağa. Bunu istəmirdiniz? Elə isə gözünüzü yumun, gərək diqqətimi toplayım və iki dəqiqə susun.

– Siz dəlisiniz!

– Of! Bəsdirin! Bu, heç də xoş deyil, susun və gözlərinizi yumun. Bütün gecəni burada keçirmək istəmirəm.

Özünü itirmiş Artur deyiləni etdi. İki dəqiqə sonra qonaq otağından səs gəldiyini eşitdi.

– Pis deyil, düz divanın yanına! Yenə də pis deyil.

Artur vanna otağından çıxdı və gənc qadını otağın ortasında yerdə oturan gördü. O, özünü elə aparırdı, elə bil heç nə olmamışdı.

– Siz xalçaları olduğu kimi saxlamısınız, mən də onları sevirəm, ancaq divardakı şəkil çox iyrəncdir.

– Hansı şəkli istəyirəmsə, onu da asaram. Hara istəyirəmsə, ora da asaram. Mən yatmaq istəyirəm. Əgər kim olduğunuzu demək istəmirsinizsə, lap yaxşı, deməyin. Ancaq indi bayıra! Evinizə gedin!..

– Bura elə mənim evimdir. Yəni... idi... Lap çaşıb qalmışam...

Artur başını yellətdi. İki gündür bu evi kirayə tutduğunu və onun evi olduğunu dedi.

– Hə, bilirəm, mən öləndən sonra bu evi siz kirayə tutmusunuz. Doğrudan da, gülməli vəziyyətdir.

– Siz nə danışdığınızı özünüz də bilmirsiniz. Buranın sahibəsi yetmiş yaşlı bir qadındır. Bir də axı "mən öləndən sonra" nə deməkdir?

– Dediklərinizi eşitsəydi, çox məmnun qalardı, çünki yetmiş iki yaşı var. O, mənim anamdır. İndiki vəziyyətdə o, mənim qanuni varisim sayılır. Bu evin əsl sahibi isə mənəm.

– Sizin rəsmi varisiniz də var?

– Bəli, sadəcə, yaranmış vəziyyətdə kağızları imzalamaq bir qədər çətin məsələdir.

– Siz xəstəxanada müalicə alırsınız?

– Hə, ən azı belə də demək olar.


ekitab.ucoz.org

– Yəqin ki, indi sizin üçün çox narahatdırlar. Hansı xəstəxanadır? Sizi oraya apararam.

– Deyəsən, axı siz məni xəstəxanadan qaçmış dəli hesab edirsiniz?

– Yox, mən...

– Əvvəlcə fahişə... sonra dəli... Sizcə, ilk tanışlıq üçün bir az çox olmadı ki?

Doğrusu, onu maraqlandırmır, fahişədir, ya zır dəli. O yorulub və yatmaq istəyir. Ancaq deyəsən qızın heç vecinə deyildi.

– Məni necə görürsünüz?

– Sualı başa düşmədim.

– Mən necə görünürəm? Öz əksimi güzgüdə görə bilmirəm. Mən necə görünürəm?

– Həyəcanlısınız, siz çox həyəcanlısınız, – deyə laqeydcəsinə cavab verdi.

– Mən fiziki olaraq demək istədim.

Artur tərəddüd etdi. Ona iri, olduqca iri gözləri olduğunu, biçimli ağzının, davranışına uymayan, olduqca yumşaq üz cizgiləri və zərafətlə hərəkət etdirdiyi uzun əlləri olduğunu dedi.

– Əgər təsadüfən yolda sizdən metro stansiyasına necə getməyi soruşsaydım, mənə bütün stansiyalar haqqında danışmağa başlayardınız?

– Bağışlayın, ancaq sizi başa düşmürəm.

– Siz qadınları həmişə bu cür qiymətləndirirsiniz?

– Siz evə necə girmisiniz? Əlavə açarınız var?

– Ona ehtiyacım yoxdur. Məni görə bilməyiniz, doğrudan da, inanılmazdır.

O, bu sözü bir daha təkrar etdi, başqasının onu görməsi əsl möcüzə idi. Artura onu necə təsvir etməsi xoşuna gəldiyini söyləyib yanında əyləşməyə dəvət etdi.

– İndi sizə deyəcəyim şeyi bilirəm ki, başa düşmək o qədər də asan deyil, qəbul etmək qeyri-mümkündür, ancaq əgər başıma gələnləri diqqətlə dinləsəniz və mənə etimad göstərsəniz, bəlkə də mənə inanarsınız. Bu isə çox önəmlidir, çünki siz heç özünüz də bilmirsiniz ki, dünyada bunu paylaşa biləcəyim yeganə insansınız.

Artur başa düşdü ki, başqa çıxış yolu yoxdur, bu gənc qadının ona deyəcəklərini mütləq dinləməlidir. Baxmayaraq ki, indi onun yeganə istəyi ancaq yatmaq idi. Qızın yanında əyləşdi və həyatı boyunca eşitdiyi ən inanılmaz əhvalatı eşitdi. Onun adı Loren


ekitab.ucoz.org

Klayn idi. Təcrübəçi həkim olduğunu iddia edirdi və altı ay bundan qabaq avtomobil qəzasına düşüb.

– O vaxtdan bəri komada yatıranı. Yox, yox, heç nə fikirləşməyin, qoyun əvvəlcə hər şeyi başa salım.

O, qəzanı xatırlamırdı. Əməliyyatdan sonra palatada özünə gəlib. Qəribə vəziyyət yaranmışdı: ətrafında danışılanları eşidirdi, ancaq nə hərəkət edə, nə də danışa bilirdi.

Əvvəlcə bunu narkoz altında olması ilə əlaqələndirdi.

– Ancaq yanılırdım, saatlar ötürdü, mənsə fiziki olaraq ayıla bilmirdim.

O, hər şeyi dərk edirdi, ancaq xarici dünya ilə ünsiyyət qura bilmirdi... Onda heç zaman duymadığı dəhşətli bir qorxu içinə hakim oldu, bir neçə gün tetraplegiya xəstəsi olduğunu düşündü.

– Həmin vaxtlar nələr hiss etdiyimi təsəvvür edə bilməzsiniz. Ömürlük bədənimin əsirinə çevrilmək...

Var gücü ilə ölməyə çalışırdı, ancaq barınağını belə oynatmağa qadir deyilkən, ölmək çox çətin olur. Anası baş ucunda oturmuşdu. Fikrən ondan balışı ağzına basıb onu boğmasını xahiş edirdi. Sonra bir həkim içəri girdi, onu dərhal səsindən tanıdı, bu, onun müəllimi idi. Xanım Klayn ondan qızının deyilənləri eşidib-eşitmədiyini soruşdu, o isə bunu bilmədiyini söylədi və bildirdi ki, araşdırmalar bu vəziyyətdə olan adamların xarici aləmdə baş verənləri dərk etdiklərini göstərir. Odur ki, xəstənin yanında deyilən sözlərə diqqət yetirmək olduqca vacibdir.

– Anam bilmək istəyirdi, mən nə vaxtsa geri dönəcəyəm, ya yox.

Həkim eyni təmkinlə bunu da bilmədiyini söylədi. Hər halda ümidi kəsmək lazım deyil. Bir neçə aydan sonra özünə gələn xəstələr olub, düzdür, bu, çox nadir hallarda olur, ancaq ola bilər.

– Hər şey mümkündür, – həkim dedi, – biz Tanrı deyilik, hər şeyi bilə bilmərik, – sonra isə əlavə etdi, – dərin koma təbabət üçün bir sirrdir.

Qəribə də olsa bu, Lorenə bir qədər təskinlik verdi – bədəni ilə hər şey qaydasında idi. Diaqnoz heç də ürəkaçan deyildi, ancaq ümidsiz də sayılmırdı.

– Tetraplegiyanın çarəsi yoxdur. Ancaq komada azacıq da olsa həmişə ümid var, – Loren əlavə etdi.

Həftələr saymaqla bitmək bilmir, uzandıqca uzanırdı. O, xatirələrlə yaşayır və başqa yerlər


ekitab.ucoz.org

haqqında düşünürdü. Bir gün yenə otağının xaricini xəyal edərkən dəhlizi, qollarında qovluqlarla tələsən və ya xərəkləri sürən tibb işçilərini, ora-bura gedən, bir palatadan digərinə girən həmkarlarını təsəvvür etdi.

– Və bu, ilk dəfə baş verdi. Mən haqqında çox düşündüyüm dəhlizdə olduğumun fərqinə vardım. Əvvəlcə elə bildim, təxəyyülüm mənimlə oyun oynayır, axı buranı yaxşı tanıyırdım, bura işlədiyim xəstəxana idi. Ancaq ətrafda hər şey həqiqətdə olduğu kimi görünürdü. Dəhlizdəki tibb işçilərini, Betinin şkafı açdığını və sarğıları götürərək qapısını örtdüyünü, Stefanın başını qaşıya-qaşıya ötüb-keçdiyini görürdüm. O, əsəbi idi, əsəbi olanda həmişə belə edir.

Loren liftin qapısının səsini eşitdi, növbətçi tibb bacılarının daşıdığı yeməklərin iyini hiss etdi. Ancaq heç kim onu görmürdü, adamlar onun varlığından tamamilə xəbərsiz halda, ona toxunmaqdan çəkinmədən ötüb-keçirdilər. Özünü yorğun hiss edib yenidən öz bədəninə geri qayıtdı. Vaxt ötdükcə o, yer dəyişməyi, xəstəxanada dolaşmağı öyrəndi. O, yeməkxana haqqında düşünür və orada olurdu. Təcili yardım şöbəsini fikirləşir və oppa, artıq oradadır! Üç ay sürən cəhdlərdən sonra, nəhayət ki, xəstəxanadan uzaqlaşa bildi. Beləcə sevdiyi restoranlardan birində oturub fransız bir cütlüklə naharı paylaşdı, kinoteatrda bir filmə yarısına qədər baxdı, bir neçə saatını anasının mənzilində keçirdi.

– Ancaq bu təcrübəmi bir daha təkrar eləmədim. Söhbət edə bilmədən onun yanında olmaq məni üzür.

Kali onun varlığını hiss edirdi, zingildəyərək yerində dönürdü, bu isə Loreni dəli edirdi.

Nəhayət o, bura gəldi. Hər halda bura onun evidir və o, özünü burada daha yaxşı hiss edir.

– Mən tamamilə tək yaşayıram. Təsəvvür edə bilməzsiniz, heç kimlə danışmamaq, tamamilə görünməz olmaq və kiminsə həyatında artıq mövcud olmamaq nə deməkdir. Bu axşam paltar şkafında mənimlə danışanda və sizin məni gördüyünüzü başa düşdüyümdə niyə bu qədər təəccübləndiyimi, yəqin ki, indi anlayırsınız. Bunun səbəbini bilmirəm... ancaq heç bitməməyini diləyirəm, sizinlə saatlarla danışa bilərəm. Danışmağa o qədər ehtiyacım var ki. Daha ehtiyatda yüzlərlə sözüm var.

Söz axını bir anlıq yerini susqunluğa verdi.


ekitab.ucoz.org

Gözlərində inci kimi yaş parıldadı. Artura baxdı və əlini öz yanağına və burnuna sürtdü.

– Yəqin ki, məni dəli hesab edirsiniz.

Artur sakitləşmişdi. Gənc qadının həyəcanından, dinlədiyi sirli hekayədən təsirlənmişdi.

– Xeyr, sadəcə, bütün bunlar bir qədər, necə deyim, adamı həyəcanlandırır, təəccüblü və gözlənilməzdir. Heç bilmirəm, nə deyim. Sizə kömək etmək istəyirəm, ancaq bilmirəm necə.

– İcazə verin burada qalım. Mən heç gözünüzə görünınərəm, sizi narahat eləmərəm.

– Yəni mənə danışdıqlarınıza özünüz doğrudan da inanırsınız?

– Bəs siz inanmadınız? Demək istəyirsiniz ki, qarşınızda ağlını tamamilə itirmiş bir qız dayanıb? Onda heç bəxtim gətirmir.

Artur ona bir anlıq özünü onun yerinə qoymasını xahiş etdi. Əgər gecəyarısı paltar şkafında gizlənmiş, özü də olduqca həyəcanlı bir kişi görsəydi, ondan ruh olduğunu, komada yatdığını eşitsəydi nə fikirləşərdi, ilk reaksiyası necə olardı? Lorenin üz cizgiləri dartıldı, göz yaşları içərisində gülümsədi. Etiraf etdi ki, ilk reaksiyası, yəqin ki, bağırmaq olardı, ona görə də onun vəziyyətini başa düşür. Bu cavab üçün Artur ona təşəkkür etdi.

– Yalvarıram, Artur, mənə inanın. Heç kim bu cür hekayə düzüb-qoşmaz.

– Əksinə, ınənim ortağım bu cür yöndəmsiz zarafatlar edə bilir.

– Bəsdirin ortağınızdan danışdınız! Onun bu məsələdən xəbəri yoxdur, bu, oyun deyil.

Artur onun adını hardan bildiyini soruşduqda, qız cavab verdi ki, o, Artur bu evə köçməzdən əvvəl burada idi. Onu mənzilə baxmağa gələrkən, əmlakçı ilə mətbəxdə sənədləri imzalayarkən görmüşdü. Əşyalarla dolu qutular gətiriləndə də, Artur onları açarkən öz oyuncaq təyyarəsini sındıranda da o, burada idi. Sözün düzü, həmin an bir az məyus olsa da, onun qəzəbi Loreni əyləndirmişdi. Hətta onu bu zövqsüz rəsm əsərini çarpayısının üzərindən asarkən də görüb.

– Deyəsən, axı başınız xarab olub, divanınızı iyirmi dəfə ora-bura çəkəndən sonra əvvəlki yerinə qoydunuz. O an elə istəyirdim ki, nəsə deyim... Siz burada olduğunuz ilk gündən sizinləyəm. Hər gün.

– Mən duşda olanda və yatanda da?



ekitab.ucoz.org

– Gizlincə baxmağı sevmirəm. Hər halda yaraşıqlı bədən biçiminiz var. Bir az artıq kilonu nəzərə almasaq, heç də pis deyilsiniz.

Artur qaşlarını çatdı. O, çox inandırıcı danışırdı. Ancaq Artura elə gəlirdi ki, qapalı dairə boyunca dövrə vurur; gənc qadının əhvalatı ağlasığmaz idi. Əgər buna inanmaq istəyirsə, bu, onun problemidir. Ona əksini sübut etməyin heç bir mənası yox idi, onun psixiatrı deyildi. Onun yeganə istəyi sadəcə yatmaq idi. Bu gecəlik ona sığınacaq verə biləcəyini söylədi. Özü salondakı o qədər əziyyətlə qoyduğu divanda yatar, yataq otağını isə ona verə bilərdi. Sabah isə o, geriyə – xəstəxanaya, ya da hara istəyirsə, ora da qayıdar və beləcə onların yolları ayrılar. Ancaq Loren razılaşmadı, onunla üzbəüz oturdu və üzündə narazı ifadə ilə onu dinləməyə məcbur etdi. Son günlər onun gördüyü işləri birnəfəsə sadalamağa başladı. Bir gün bundan qabaq axşam saat on birə yaxın Karol Enn ilə etdiyi telefon söhbətini xatırlatdı. Siz ona nəsihət verməyə və münasibətləriniz haqqında niyə danışmaq istəmədiyinizi dedikdən sonra o, telefonun dəstəyini atdığını;

– Mənə inanın!

Qutuları açarkən iki fincanı sındırdığını;

– Mənə inanın!

Yatıb yuxuya qaldığını və duşdan gələn isti suda az qala özünü yandıracağını;

– Mənə inanın!

Əsəbi halda uzun-uzadı maşının açarlarını axtarmasını xatırlatdı.

– Mənə inanın artıq!

Bundan başqa, Loren onun çox diqqətsiz olduğunu düşünür, açarlar girişdə kiçik masanın üstündə idi. Çərşənbə günü telefon şirkətindən nümayəndə saat on yeddidə gəlmiş və onu yarım saat gözlətmişdi.

– Və siz salalı sendviç yeyərkən pencəyinizi batırdınız, ona görə də evdən çıxmazdan əvvəl əyninizi dəyişdiniz. İndi mənə inanırsınız?

– Neçə gündür casus kimi məni izləyirsiniz, axı niyə?

– Axı sizi casus kimi necə izləyə bilərəm, bura Votergeyt deyil. Burada kameralar, mikrofonlar yoxdur!

– Niyə ki? Hər halda bu, sizin danışdıqlarınızdan


ekitab.ucoz.org

daha çox həqiqətə bənzəyir.

– Maşınınızın açarını götürün.

– Hara gedirik?

– Xəstəxanaya, məni görməyə.

– Əlbəttə! Gecə saat birdir və mən şəhərin o biri başında yerləşən xəstəxanaya gedirəm, növbətçidən məni tanımadığım qadının palatasına aparmasını xahiş edirəm, çünki onun ruhu mənim mənzilimdə dolaşır, çünki mən yatmaq istəyirəm, çünki o, çox inadkardır və bu, onun məni rahat buraxması üçün yeganə yoldur...

– Siz başqa yol görürsünüz?

– Nə yol?

– Çıxış yolu. Mənə bütün bunlardan sonra yata biləcəyinizi deyin.

– Aman Tanrım, axı mən nə günahın sahibiyəm ki, bütün bunlar mənim başıma gəlir?

– Siz Tanrıya inanmırsınız, o gün bir müqavilə haqqında danışarkən bunu ortağınıza dediniz: "Pol, mən Tanrıya inanmıram, əgər bu müqaviləni qazansaq, deməli, ən yaxşı olduğumuz üçündür. Əgər itirsək, onda oturub səbəbini tapmaq lazımdır". Odur ki, indi bir anlıq nəyin doğru, nəyin yanlış olduğunu düşünün, sizdən bircə bunu istəyirəm. Mənə inanın!Sizə ehtiyacım var, siz yeganə adamsınız ki...

Artur telefonun dəstəyini qaldırdı və ortağının nömrəsini yığdı.

– Səni oyatdım?

– Əlbəttə ki, yox. Gecə saat birdir, mən də oturub gözləyirdim ki, mənə nə vaxt zəng edəcəksən ki, gedim yatım, – Pol cavab verdi.

– Niyə? Sənə zəng eləməli idim?

– Yox, sən mənə zəng eləməməli idin. Hə, sən məni yuxudan oyandırdın. Gecənin bu vaxtı nə istəyirsən?

– Dəstəyi birinə verəcəm və demək istəyirəm ki, getdikcə zarafatların daha da axmaq olur.

Artur dəstəyi Lorenə uzatdı və ondan ortağı ilə danışmağı xahiş etdi. O, telefonu əlinə ala bilmirdi, ona heç bir əşyanı tuta bilmədiyini söylədi. Xəttin o biri başında səbirsizliklə gözləyən Pol ondan kiminlə danışdığını soruşdu. Artur zəfər çalmış adamlar kimi gülümsədi və aparatın mikrofon düyməsinə basdı.

– Məni eşidirsən, Pol?

– Hə, eşidirəm. De görüm, bu, nə oyundur? Mən yatmaq istəyirəm.



ekitab.ucoz.org

– Mən də yatmaq istəyirəm. Bir dəqiqə sus. Danışın onunla, Loren, indi danışın.

Loren çiyinlərini çəkdi.

– Necə istəyirsiniz. Salam, Pol, əlbəttə ki, siz məni eşitmirsiniz, ortağınızsa heç eşitmək istəmir.

– Artur, əgər susmaq üçün zəng eləmisənsə, onda xatırladım ki, doğrudan da çox gecdir.

– Ona cavab ver.

– Kimə?

– Səninlə danışan adama.

– Mənimlə sən danışırsan, mən də cavab verirəm.

– Başqa heç kimi eşitmirsən?

– Bura bax, Janna D'Ark, deyəsən, axı sən yorğunluq böhranı keçirirsən?

Lorenin üzündə ona yazığı gəlirmiş kimi bir ifadə yarandı. Artur başını yellətdi: əgər ikisi də dilbir olubsa, eybi yox, onu belə asanlıqla aldada bilməyəcəklər. Mikrofondan yenə Polun səsi eşidildi, onun kiminlə danışdığını soruşurdu. Artur Poldan hər şeyi unutmağı xahiş edib, gec zəng etdiyi üçün üzrxahlıq etdi. Pol narahatlıqla hər şeyin qaydasında olub-olmadığını soruşdu və ehtiyac varsa, gələ biləcəyini söylədi. Artur hər şeyin qaydasında olduğunu bildirib onu arxayın etdi və təşəkkür etdi.

– Eybi yoxdur, dostum, axmaq zarafatlarınla məni istədiyin vaxt yuxudan oyada bilərsən. Heç çəkinmə. Yaxşı gündə də, pis gündə də ortağıq. Əgər yenə bu cür vəziyyətə düşsən, dərhal məni oyat və bölüş. İndi mən yata bilərəm, yoxsa yenə nəsə sözün var?

– Gecəniz xeyrə qalsın, Pol.

Telefonun dəstəyini asdılar.

– Mənimlə xəstəxanaya gəlin. Bayaq getsəydik, indiyə orda olmuşduq.

– Xeyr, mən sizinlə heç bir yerə gəlməyəcəyəm. Bu qapıdan bir addım bayıra atsam, sizin fantastik əhvalatınızı qəbul etmiş oluram. Xanım, mən yorulmuşam və yatmaq istəyirəm,. Siz yataq otağına keçin, mənsə divanda yataram, ya da istədiyiniz yerə çıxıb gedə bilərsiniz. Bu, mənim sonuncu təklifimdir.

– Siz məndən də inadkarsınız. Otağınıza gedin, mənim çarpayıya ehtiyacım yoxdur.

– Bəs siz nə edəcəksiniz?

– Bu, sizi narahat edir?

– Narahat edir ki, soruşuram.



ekitab.ucoz.org

– Mən salonda qalacağam.

– Sabaha qədər. Bəs sonra...

– Bəli, sabaha qədər, qonaqpərvərliyiniz üçün təşəkkür edirəm.

– Casus kimi yataq otağıma soxulmayacaqsınız ki?

– Bir halda ki, mənə inanmırsınız, onda qapını arxadan bağlaya bilərsiniz. Bir də əgər çılpaq yatırsınızsa, onda mən artıq sizi çılpaq görmüşəm. Bunu yaxşı bilirsiniz.

– Gizlincə baxmağı sevirsiniz?

Onda Loren bildirdi ki, bir qədər bundan əvvəl vanna otağına gizlincə baxmağa əsas yox idi, yəqin ki, bunun üçün kor olmaq lazım idi. Artur qızardı və Lorenə xeyirli gecələr dilədi.

– Bax belə. Gecəniz xeyrə qalsın, Artur, yuxunuz şirin olsun.

Artur yataq otağına keçdi və qapını örtdü.

– Bu əsl dəlilikdir, – deyindi, – qəribə əhvalatdır.

Özünü çarpayıya atdı. Radio-saatın yaşıl rəqəmləri ikinin yarısını göstərirdi. Rəqəmlər üçə on bir dəqiqə işləmişi göstərənə qədər o gözünü saata zillədi. Qəfildən çarpayıdan sıçradı, iri sviterini və cins şalvarını əyninə keçirdi, ayaqqabılarını geyindi və salona girdi. Loren pəncərənin kənarında oturmuşdu. Artura tərəf dönmədən dilləndi:

– Bu mənzərəni sevirəm, bəs siz? Bu mənzili də məhz bunun üçün aldım, məni tutan da budur. Körpüyə baxmağı sevirəm. Yayda isə pəncərəni açıb yük gəmilərinin verdiyi fitə qulaq asmağı sevirəm. Həmişə Qolden Geyt körpüsünü keçməzdən qabaq onun dirəklərinə çırpılan çoxsaylı dalğaları sayınağı arzulamışam.

– Yaxşı. Gedək, – deyə Artur deməklə kifayətləndi.

– Doğrudan? Necə oldu ki, qərarınızı dəyişdiniz?

– Siz bütün gecəmi məhv etdiniz, eybi yox, artıq məhv olub. Bu gecə məsələni yoluna qoymalıyıq, sabah işim var. Nahar vaxtı çox önəmli bir görüşüm var, heç olmasa gərək iki saat yatım, odur ki, indi gedirik. Gəlirsiniz, ya yox?

– Gedin, mən də gəlirəm.

– Nə vaxt gələcəksiniz?

– Dedim ki, gələcəyəm, heç olmasa iki dəqiqə mənə inanın.

Artura qalsa, onsuz da ona lazım olandan da çox


ekitab.ucoz.org

etimad göstərmişdi.

Evdən çıxmazdan qabaq Artur onun soyadını bir də soruşdu. Qız ona soyadını, yatdığı palatanın mərtəbəsini və nömrəsini dedi: beşinci mərtəbə, otaq 505. Beş rəqəmlərini yadda saxlamağın o qədər də çətin olmadığını əlavə etdi.

Artur isə onu gözləyənlərin heç də asan olmadığı qənaətində idi. Evin qapısını örtdü və pilləkənlərlə aşağı düşdü, qaraja gəldi. Loren artıq maşının arxa oturacağında oturmuşdu.

– Bilmirəm, bura necə gəldiniz, ancaq təəccüb doğura bildiniz. Gərək Hudini ilə işləyəsiniz!

– O kimdir?

– İllüzionist.

– Çox məlumatlısınız.

– Qabağa keçin, bu, taksi maşını deyil.

– Bir az səbirli olun, dedim axı, hələ ki o qədər təkmilləşməmişəm. Heç arxa oturacaq da pis deyil. Kapota da təsadüf edə bilərdim. Hərçənd, bütün diqqətimi maşının içinə yönəltdim. Ancaq inanın ki, yavaş-yavaş təkmilləşirəm.

Loren Arturun yanında əyləşdi. Ortaya sükut çökdü. Loren pəncərədən baxırdı.

Maşın gecənin qaranlığında sürətlə şütüyürdü. Artur xəstəxanaya girə bilmək üçün özünü necə aparmaq lazım olduğunu soruşdu. Loren ona məsləhət gördü ki, o, Lorenin xalası oğlu olduğunu, qəza haqqında eşidər-eşitməz Lorendən xəbər ala bilmək üçün Meksikadan gəldiyini, gecəli-gündüzlü sükan arxasında olduğunu desin, bildirsin ki, guya səhər tezdən İngiltərəyə uçmalıdır və altı aydan tez geri qayıda bilməyəcək. Buna görə də gecənin bir çağı olmasına baxmayaraq, bəlkə bu vəziyyətdə qaydaları poza və sevimli xalası qızını görməyə icazə verərlər. Artur heç də onda Latın Amerikalı tipi olmadığını söylədi. Çətin ki bu uydurmaya inansınlar. Loren isə icazə verməyəcəkləri təqdirdə ertəsi gün səhər gələ biləcəklərini və narahatlığa heç bir əsas olmadığını deyərək, ona hər şeyə bədbinliklə yanaşdığını söylədi. Artur isə cavabında onun təxəyyül genişliyindən narahat olduğunu bildirdi. “Saab” xəstəxananın dayanacağına daxil oldu. Loren sağa dönməsini, sonra isə soldan ikinci parka tərəf dönməsini və gümüşü rəngə çalan şam ağacının düz arxasında dayanmasını söylədi. Maşını saxlayan kimi Loren gecə zənginin düyməsini göstərib dedi ki,


ekitab.ucoz.org

uzun-uzadı çalmasın, bu, onları əsəbiləşdirir.

– Kimi? – Artur soruşdu.

– Növbətçiləri. Onlar çox vaxt dəhlizin o biri başından gəlirlər və qapı ilə aparat vasitəsilə əlaqə saxlaya bilmirlər. İndi isə ayılın...

– Hə, bunu mən də istərdim, – Artur cavab verdi.



ekitab.ucoz.org

# 5

Artur maşından düşdü və iki dəfə qısa zəng çaldı. Alçaqboylu, kəpənək eynəkli bir qadın qapını araladı və Arturdan nə istədiyini soruşdu. Artur bacardığı kimi hekayəsini uydurdu. Ancaq tibb bacısı hər kəs üçün ümumi bir qayda olduğunu bildirdi. Bir halda ki, bu cür qayda qoyublar, onda deməli, hər kəs ona əməl etməlidir; sabah gəlib xalası qızını görə bilər. Artur yalvarmağa başladı, istisnaların qaydanı pozmadığını deyib, ürəyini ağrıtsa da, vəziyyətlə barışmağa məcbur olduğunu bildirdi. Tibb bacısı saatına baxdı və nəhayət, dilləndi:

– Mən gecə yoxlamasına çıxıram, ardımca gəlin, səs salmayın, heç nəyə toxunmayın. On beş dəqiqədən sonra sizi xəstəxanada görməyim!

Artur qadının əlindən tutdu və minnətdarlıq əvəzi öpdü.

– Orada – Meksikada hamınız bu cürsünüz? – deyə qadın gülümsəyərək soruşdu. Sonra Arturu korpusun içinə buraxdı və arxasınca gəlməyi tapşırdı. Birlikdə liftə tərəf yönəldilər və düz beşinci mərtəbəyə qalxdılar.

– Sizi palataya qədər ötürəcəyəm, özüm isə yoxlamaya çıxıram. Heç nəyə toxunmayın.

Tibb bacısı 505 nömrəli palatanın qapısını açdı. Palatanın içi qaranlıq idi. Çarpayıda bir qadın uzanmışdı. Stolüstü lampa üzünü aydınladırdı, elə bil dərin yuxuya getmişdi. İçəri girəndə Artur uyuyan qadının üz cizgilərini dərhal ayırd edə bilmədi. Tibb bacısı qısıq səslə dedi:

– Qapını açıq buraxıram, yaxınlaşın, o, onsuz da oyanmayacaq. Ancaq yanında söyləyəcəyiniz sözlərə diqqət edin, komada olan pasiyentlərin eşidib-eşitmədiyi bəlli deyil. Hər halda həkimlər belə deyirlər, mənsə tamamilə başqa cür fikirləşirəm.

Artur ehmalca yaxınlaşdı. Loren pəncərənin yanında dayanmışdı və Arturdan çarpayıya daha da yaxınlaşmasını söylədi:

– Yaxın gedin, sizi dişləmərəm.

Artur isə fikirləşirdi: axı burada nə işi var idi? Çarpayıya yaxınlaşdı və xəstəyə baxdı. Oxşarlıq heyrətamiz idi. Hərəkətsiz uzanan qadının rəngi bir


ekitab.ucoz.org

qədər saralmışdı, halbuki əkizi gülümsəyirdi. Bu fərqdən başqa qalan hər şey eyni idi. Artur bir addım geri atdı.

– Bu, mümkün deyil! Siz onun əkiz bacısısınız?

– Siz düzəlməyəcəksiniz! Mən bacısı deyiləm. O, mənəm, orada uzanan mənəm, mən! Mənə kömək edin və bu qəbuledilməz faktı nəhayət ki, qəbul etməyə çalışın. Hoqqa-filan yoxdur, siz yuxuda da deyilsiniz. Artur, mənim sizdən başqa heç kimim yoxdur. Siz mənə inanmalısınız, arxanızı dönüb gedə bilməzsiniz. Sizin yardımınıza ehtiyacım var. Siz bu dünyada altı aydan bəri ilk dəfədir danışdığım yeganə adamsınız. Mənim varlığımı hiss edən, məni eşidən yeganə adam!

– Axı niyə mən?

– Mən də bilmirəm. Məntiqdən kənardır, vəssalam!

– Bu ki dəhşətdir!

– Elə bilirsiniz mən qorxmuram?

Qorxuya qalsa, Loren onu topdan sata bilərdi. Hər gün bədəninin getdikcə əzilmiş tərəvəzə döndüyünü, sidik və damcı boruları ilə uzandığını görən o olub. O, Arturun ona verdiyi və qəzadan bəri öz-özündən soruşduğu sualların cavabını bilmir.

– Siz təsəvvür belə edə bilməzsiniz özümə nə qədər sual verirəm.

Loren kədərli baxışlarla öz şübhə və qorxularını onunla paylaşdı: bu sirr nə vaxta qədər davam edəcək? Görəsən, o, bir neçə günlük belə olsa normal həyata dönəcəkini? O həyata ki, iki ayağı üstə gəzə, sevdiyin insanları qucaqlaya bilirsən... Əgər hər şey bu cür bitəcəkdisə, onda bütün ömrünü niyə tibbə həsr etdi? Ürəyinin davam gətirmədiyi ana nə qədər qalıb? O, yavaş-yavaş öldüyünün şahidi olurdu və bu, onu dəhşətə salırdı.

– Mən bir varlığın ruhuyam, Artur.

Artur gözlərini ondan qaçıraraq yerə baxdı.

– Ölmək üçün bu dünyanı tərk etmək lazımdır, sizsə hələ ki buradasınız. Gəlin evə qayıdaq. Mən yorulmuşam, elə siz də. Sizi apararam.

O, bir əlini qızın çiynindən aşırdı və onu təsəlli edərcəsinə özünə sıxdı. Qapıya tərəf dönərkən tibb bacısı ilə rastlaşdı. Onun üzündə təəccüb ifadəsi var idi.

– Qolunuz qıc olub?

– Xeyr. Niyə ki?



ekitab.ucoz.org

– Qolunuzu qaldırmısınız, əlinizi də yummusunuz. Yoxsa qıc olub?

Artur əlini Lorenin çiynindən götürdü və qolunu normal vəziyyətdə tutdu.

– Siz onu görmürsünüz? – tibb bacısından soruşdu.

– Kimi?

– Heç kimi!

– İstəyirsinizsə, bir az oturun dincəlin. Nəsə gözümə yaxşı dəymirsiniz.

Tibb bacısı ona təsəlli verməyə başladı. Bu, həmişə adamı əvvəlcə şoka salır, "normal haldır", "keçər".

– Xeyr, hər şey qaydasındadır. Mən gedim, – Artur olduqca ləng danışırdı, elə bil söz axtarırdı.

Qadın onun çıxışı tapıb-tapmayacağından narahat oldu, ancaq Artur onu arxayın etdi. Çıxışın dəhlizin sonunda olduğunu söylədi.

– Onda burada sizdən ayrılıram, hələ nə qədər işim var. Yan palataya baş çəkməliyəm, yataq örtülərini dəyişməliyəm.

Artur onunla sağollaşdı və dəhlizlə getməyə başladı... Tibb bacısı onun yenidən qolunu yana doğru qaldırdığını gördü və "Sizə inanıram, Loren, mən sizə inanıram" dediyini eşitdi.

Tibb bacısı təəccüblə qaşlarını çatdı və qonşu palataya girdi və mızıldandı:

– Hə... Bəzilərinə də bu cür təsir edir. Dəhşətdir!

Artur Lorenlə birlikdə liftə girdi. Artur gözlərini yerdən ayırmırdı. Heç nə danışmırdı, Loren də həmçinin. Xəstəxanadan çıxdılar. Körfəz üzərindən soyuq şimal küləyi əsir və özü ilə narın yağış gətirərək onların üzünə çisələyirdi, şaxta adamı bıçaq kimi kəsirdi. Artur paltosunun boynunu ənsəsinə doğru qaldırdı və Loren üçün maşının qapısını açdı.

– Xahiş edirəm, gəlin hələlik divarın içindən keçmək kimi fokusları bir kənara qoyaq və normal adam kimi minək.

Loren normal şəkildə maşına mindi və gülümsədi. Qayıdarkən nə Artur, nə də Loren danışdı. Artur bütün diqqətini yola yönəltmişdi, Loren isə pəncərədən buludlara baxırdı. Evə çatanda Loren gözlərini səmadan çəkmədən dedi:

– Mən gecələri o qədər sevirəm ki. Onun sakitliyini, kölgəsiz siluetləri, gündüzlər heç vaxt rast


ekitab.ucoz.org

gəlməyəcəyiniz baxışları... Sanki biri digərinin varlığından xəbərsiz iki dünya şəhəri paylaşır. Alaqaranlıqda bir dəstə insan görünür və sübhədək yoxa çıxırlar. Bilmək olmur hara yoxa çıxırlar. Sonradan xəstəxanada onları ancaq bizlər tanıya bilirik.

– Hər halda etiraf edin ki, bu, çox qəribə əhvalatdır. Adam qəbul etməkdə çətinlik çəkir.

– Hə, ancaq bütün gecəni bunu təkrarlamaq lazım deyil.

– Yəni gecəmin qalan hissəsini!

– Maşını qaraja salın, sizi yuxarıda gözləyəcəyəm.

Qaraj qapısının səsi gecə vaxtı qonşuları narahat etməsin deyə Artur maşını küçədə saxladı. Pilləkənlərlə qalxdı və evə girdi. Loren salonun ortasında bardaş qurub oturmuşdu.

– Əslində divanı nişan almışdınız? – gülə-gülə soruşdu.

– Yox, məhz elə xalını nişan almışdım.

– Yalançı. Əminəm ki, divanı nişan almışdınız.

– Mənsə deyirəm ki, xalını nişan almışdım!

– Hə... yalan danışa bilmirsiniz.

– Sizə çay dəmləmək istərdim, ancaq... Siz yatmalısınız, səhərə çox az qalıb.

Artur ondan qəza haqqında soruşdu və Loren ona öz “köhnə ingilis ledisi”nin, yəni çox sevdiyi “Triumf”unun şıltaqlığı haqqında, ötən ilin yayında həftəsonunu keçirmək üçün Karmelə getmək istədiyini və bu istəyin Yunion Skuerdə yarımçıq qaldığını danışdı. O özü də nə baş verdiyini anlamadı.

– Bəs sevgiliniz?

– Bəs sevgilim?..

– Siz onun yanına gedirdiniz?

– Sualı başqa cür verin, – Loren gülümsəyərək dedi, – siz soruşmaq istəyirsiniz: “Sevgiliniz varını?”

– Sevgiliniz var idimi? – Artur soruşdu.

– Keçmiş zamana görə təşəkkür, bu, doğrudan da keçmişdə olub.

– Siz cavab vermədiniz.

– Bunun sizə nə dəxli var?

– Dəxli yoxdur. Doğrudan da, axı niyə burnumu soxuraın?

Artur döndü və yataq otağına tərəf getdi. Bir daha Lorenə çarpayıda yatmağı təklif edib, özünün salonda divanda yata biləcəyini söylədi. Qız bu


ekitab.ucoz.org

nəzakətli təklifə təşəkkür etdi və divanın da çox rahat olduğunu bildirdi. Artur yatmağa getdi. O qədər yorğun idi ki, bu gecə baş verənləri düşünməyə heyi belə yox idi, bu haqda sabah danışacaqdılar. Qapını örtməzdən əvvəl Lorenə xeyirli gecələr dilədi. Lorenin isə həmin an nəvazişə ehtiyacı var idi:

– Yanağımdan öpmək istəmirsiniz?

Artur təəccüblə başını aşağı saldı.

– Özünüzü onyaşlı oğlan kimi aparırsınız. Sizdən yalnız yanağımdan öpməyi xahiş elədim. Artıq altı aydır ki, heç kim məni öpüb-qucaqlamayıb.

Artur qıza yaxınlaşdı, çiyinlərindən tutub hər iki yanağından öpdü. Loren başını onun sinəsinə söykədi. Artur özünü itirdi. Yöndəmsiz biçimdə əllərini qızın incə ombalarının üzərinə qoydu. Loren yanağını onun çiyninə sürtdü.

– Sağ olun, Artur, hər şey üçün sağ olun. İndi isə gedin yatın, siz çox yorulmusunuz. Sizi səhər tezdən oyadaram.

Artur yataq otağına getdi, sviterini və köynəyini çıxardı. Şalvarını da soyunub stulun üstünə atdı və yorğanın altına girdi. Bir neçə dəqiqədən sonra artıq yuxu onu aparmışdı. O, dərin yuxuda ikən salonda tək qalan Loren gözlərini yumdu, diqqətini cəmlədi və müvazinətini itirə-itirə yataq otağında kreslonun yanında peyda oldu. Artura tamaşa etməyə başladı. Arturun üzündə dinc bir ifadə var idi, Loren hətta dodaqlarının ucunda gizlənmiş təbəssümü də sezdi. Yuxuya gedənə qədər bu cür bir müddət ona tamaşa etdi.

Qəzadan bəri ilk dəfə idi ki, Loren yuxuya gedirdi.

Saat ona yaxın oyandı. Artur hələ də yatmışdı.

– Off! – deyə birdən özünə gəldi. Çarpayının kənarında oturub Arturu bərk-bərk silkələdi.

– Oyanın, gecdir.

Artur o biri tərəfə döndü və deyindi.

– Karol, belə silkələmə.

– Əla! Lap əla!.. Oyanmaq vaxtıdır. Və mən Karol deyiləm. Saat on birə beş dəqiqə işləyib.

Artur əvvəlcə gözlərini yavaş-yavaş açdı, sonra isə gözlərini bərəldərək sıçrayıb çarpayıda oturdu.

– Bu müqayisə adamı lap şoka salır.

– Siz buradasınız? Deməli, bu, yuxu deyildi.

– Bunu deməsəydiniz də, olardı. Tələsin, saat onu keçir.


ekitab.ucoz.org

– Nə? – ətrafa baxaraq bağırdı, – siz ki məni oyadacaqdınız?

– Qışqırmayın, bəlkə Karol Enn kar olub, ancaq mən kar deyiləm. Bağışlayın, yatıb yuxuya qalmışam. Xəstəxanaya düşəndən ilk dəfədir ki, yuxuya gedirəm. Hə, yeri gəlmişkən, bunu sizinlə qeyd etmək istəyirdim, ancaq görürəm əhvalınız yerində deyil. Gedin geyinin.

– Bu cür istehza ilə danışmaq lazım deyil. Bütün gecəmi məhv etmisiniz, indi səhərimi məhv etməyə başlamısınız, odur ki, sizdən xahiş edirəm!..

– Səhərlər siz necə də nəzakətlisiniz! Yuxuda ikən daha xoşuma gəlirsiniz.

– Bu nədir? Ər-arvad dalaşması?

– Yuxunuzda görərsiniz! Geyinin, yoxsa bunda da mən günahkaram?

– Əlbəttə, günahkarsınız. Nəzakət göstərib otaqdan çıxsanız, yaxşı olar, yorğan altında çılpağam.

– İndi də utancaqlığınız tutdu?

Artur ondan bu ər-arvad dalaşmasını bir kənara qoymağı söylədi və cümləsini "çünki yoxsa..." sözü ilə bitirdi.

– "Yoxsa" sözü çox vaxt artıq sözdür – Loren eyni tonda cavab verdi.

İstehza ilə xeyirli sabahlar dilədi və qəfildən yoxa çıxdı. Artur ətrafına boylandı, bir neçə dəqiqə tərəddüd etdi və sonra Loreni səslədi: "Loren! Bəsdirin, bilirəm ki, burdasınız. Doğrudan da çox pis xasiyyətiniz var. Yaxşı, çıxın görüm, axmaqlıq eləməyin". Otağın ortasında çılpaq və əl-qolla danışa-danışa gəzdi. Birdən nəzəri qarşı evin pəncərəsindən təəccüblə ona baxan qonşusuna sataşdı. Özünü çarpayıya atdı, adyalı götürdü və belinə dolayıb vanna otağına keçdi. Bir tərəfdən də deyinirdi: "Əla! Otağın ortasında çılpaq haldayam, işə əməlli-başlı gecikirəm və öz-özümə danışıram. Axı bu nə zibildir belə?" Vanna otağına girib paltar şkafının qapısını açaraq soruşdu: "Loren, siz burdasınız?" Heç bir cavab gəlmədi. Bu, onu bir qədər məyus etdi. Tələsik duş aldı. Duşdan çıxıb yataq otağına qaçdı və paltar şkafını açdı, orada da Loreni görməyincə kostyumlardan birini götürüb geyindi. Artıq üçüncü dəfə idi ki, qalstukuna düyün vururdu. Təngə gəlib deyindi: "Elə bil əlim bişib!" Geyimli-kecimli mətbəxə keçdi, masa-piştaxtanın


ekitab.ucoz.org

üstündə açarlarını axtardı. Açarlar cibində idi. Mənzildən tələsik çıxdı və birdən dayanıb geri qayıtdı və qapını açıb yenidən soruşdu:

– Loren, siz haradasınız?

Bir neçə dəqiqə sakitlik çökdü və o, qapını örtüb açarladı. Pilləkənlərlə düşüb qaraja girdi və ətrafa göz gəzdirdi. Birdən maşını dünən bayırda qoyduğunu xatırladı. Dəhlizdən qaçaraq keçdi və küçəyə çıxdı. Başını qaldırıb qonşusunun pəncərəsinə baxdı və nəzərləri hələ də təəccüblə ona baxan qonşusunun baxışlarına sataşdı. Pərt halda ona gülümsədi və yöndəmsiz biçimdə açarı qapının kilidinə keçirdi, sükan arxasına keçib ınaşını işə saldı. İşə çatanda ortağı artıq onu zalda gözləyirdi. Arturu görcək bir neçə dəfə başını yellətdi və narazı üz ifadəsi ilə dilləndi:

– Bəlkə bir neçə günlük tətilə çıxasan?

– Öz işinlə məşğul ol, Pol. Səhər-səhər məni təngə gətirmə.

– Hə... Bu gün çox nəzakətlisən.

– Sən də başladın?!

– Nədi? Yoxsa Karol Ennlə görüşmüsən?

– Xeyr, Karol Ennlə görüşməmişəm. Onunla hər şey qurtarıb, bunu özün yaxşı bilirsən.

– Bu cür vəziyyətdə olmağının ancaq iki səbəbi ola bilər: ya Karol Enn, ya da bir başqası.

– Yox, başqa biri yoxdur, çəkil, onsuz da gecikirəm.

– Doğrudan, zarafatsız, hələ on birə on beş dəqiqə qalıb. Adı nədir?

– Kimin?

– Sənin üz-gözündən xəbərin var?

– Üz-gözümə nə olub ki?

– Gecəni hücum tankında keçirmisən? Danış görüm.

– Danışmağa heç nə yoxdur.

– Bəs gecəki zəngin? O nə axmaq zarafatlar idi?

Artur gözlərini ortağına zillədi.

– Sadəcə, dünən axşaın yeməkdən sonra özüınü pis hiss elədim. Gecəni çox pis keçirmişəm və çox az yatmışam. Odur ki, xahiş edirəm, məni rahat burax. Gecikirəm.

Pol kənara çəkildi. Artur qarşısından keçəndə Pol əlilə onun çiyninə şappıldatdı.

– Biz dostuq da, hə?

Artur döndü və Pol əlavə etdi:



ekitab.ucoz.org

– Əgər bir şey olsa, mənə deyərsən də, hə?

– Özündən nə uydurursan? Sadəcə, gecəni pis yatmışam, vəssalam. Şişirtmə.

– Yaxşı, yaxşı. Görüş saat birdədir. “Hyatt” mehmanxanasında. İstəyirsən, birlikdə gedək. Sonra mən idarəyə qayıdaram.

– Yox, maşınla gedəcəyəm. Başqa görüşüm də var.

– Necə istəyirsən.

Artur kabinetinə girdi, çantasını yerə qoydu və əyləşdi. Katibəni çağırdı və qəhvə gətirməyi xahiş etdi. Oturduğu kürsüdə fırlandı, stula söykəndi və pəncərədən şəhərin mənzərəsinə tamaşa edə-edə fikirləşməyə başladı. Bir neçə dəqiqədən sonra Morin qapını döydü, bir əlində kağız qovluq, digərində isə nəlbəkisinə bir parça piroq qoyduğu qəhvə dolu fincanla içəri girdi. Buğlanan fincanı masanın kənarına qoydu.

– Qəhvənizə süd də tökdüm, deyəsən, bu, sizin ilk qəhvənizdir...

– Təşəkkür edirəm, Morin, alnımda heç nə yazılmayıb ki?

– “Mən bu səhər qəhvə içməmişəm” yazılıb.

– Mən bu səhər qəhvə içməmişəm!

– İsmarıcınız çoxdur, qəhvənizi rahat için, təcili heç nə yoxdur. Sənədləri imzalamaq üçün buraya qoyuram. Hər şey qaydasındadır?

– Hə, hər şey yaxşıdır, sadəcə, bir az yorğunam.

Elə həmin vaxt Loren göründü, masanın küncünə ilişdi. Və dərhal Arturun nəzərindən yayınaraq xalçanın üstünə yıxıldı. Artur yerindən sıçradı.

– Əzilmədiniz ki?

– Yox, hər şey yaxşıdır, – Loren cavab verdi.

– Niyə əzilməliyəm ki? – Morin soruşdu.

– Yox, yox, sizə demirəm, – Artur dedi.

Morin otağa nəzər saldı.

– Otaqda bizdən başqa heç kim yoxdur.

– Mən ucadan düşünürdüm.

– Siz ucadan mənim əzildiyimi düşünürdünüz?

– Yox, başqası haqqında düşünürdüm və necə oldusa ucadan dedim. Sizdə heç vaxt belə olmayıb?

Loren əyləşdi və masanın yanında ayaqlarını çarpazlayaraq Artura dedi:

– Məni qorxunc adlandırmaya da bilərdiniz?

– Mən sizi heç vaxt qorxunc adlandırmamışam.



ekitab.ucoz.org

– Hə də. Bircə bu çatmırdı. Onda sizə qəhvə hazırlayan başqa qorxunclar axtarın! – Morin incik-incik dedi.

– Morin, mən sizə demirdim!

– Yoxsa otaqda ruh var? Ya da mən kor olmuşam və nəyisə görmürəm?

– Bağışlayın, Morin, hə... bu, çox gülüncdür. Sadəcə, mən çox yorğunam və ucadan fikirləşirəm, fikrim tamamilə başqa yerdədir.

Morin ondan həddən ziyadə yorğunluq nəticəsində yaranan depressiya haqqında eşidib-eşitmədiyini soruşdu.

– Bilirsiz, ilk əlamətlər görünən kimi müalicə almaq lazımdır, yoxsa sonra aylarla müalicə eləmək lazım gəlir.

– Morin, mən yorğunluq depressiyasında deyiləm, sadəcə, gecəni pis keçirmişəm, vəssalam.

Loren müdaxilə etdi:

– Aha! Görürsünüz, pis gecə, yəni dəhşətlər...

– Bəsdirin, bir dəqiqə susun.

– Mən ki heç nə demədim! – Morin dedi.

– Morin, məni tək buraxın, diqqətimi toplamalıyam. Bir qədər dincəliin, keçib gedəcək.

– Siz dincəlmək istəyirsiniz? Artur, doğrudan da məni qorxutmağa başlayırsınız.

– Yox, yox. Hər şey qaydasındadır.

Morinə telefonla onu heç kimi calaşdırmamağı tapşırdı, sakitliyə ehtiyacı var idi. Morin həvəssiz-həvəssiz otaqdan çıxdı və qapını örtdü. Dəhlizdə Polla rastlaşdı, bir dəqiqəlik ona vaxt ayırmasını xahiş etdi; sözü var idi.

Kabinetində tək qalan kimi Artur gözlərini Lorenə zillədi.

– Siz bu cür qəfildən, nə vaxt ürəyiniz istədi peyda ola bilməzsiniz. Məni çıxılmaz vəziyyətdə qoyursunuz...

– Mən bu səhər dediklərim üçün üzr istəmək istəyirdim, əhvali-ruhiyyəm heç də yaxşı deyildi.

– Yox, əslində mənim əhvali-ruhiyyəm pis idi.

– Gəlin səhərimizi bir-birimizdən üzr istəyərək keçirməyək. Sizinlə danışmaq istəyirdim.

Pol qapını döymədən içəri girdi.

– Sənə bir söz deyə bilərəm?

– Bunu artıq edirsən.

– İndicə Morinlə danışdım, sənə nə olub?

– Məni rahat buraxın. Ömrümdə ilk dəfədir işə

həm gec, həm də yorğun gəlirəm, dərhal depressiyada olduğumu deyirsiniz.

– Mən heç də sənin depressiyada olduğunu demirəm.

– Hə, ancaq Morinə qalsa, mən sayıqlayıram.

– Sayıqlamırsan, sayıqlayan adama oxşayırsan.

– Hə, dostum, mənim günüm elə sayıqlamalar içində keçib.

– Niyə? Kiminləsə qarşılaşmısan?

Artur hər iki qolunu yana doğru açaraq başını aşağı saldı və bic-bic baxdı.

– Aha! Görürsən? Məndən heç nə gizlədə bilməzsən. Mən onu tanıyıram?

– Yox, çətin ki.

– Mənə heç ondan danışmısan? O, kimdir? Onu nə vaxt görəcəyəm?

– Bu, bir az qəliz məsələdir. O, bir xəyalətdir. Mənim evimdə ruh var, onu dünən axşam təsadüfən gördüm. Bu, bir qadının ruhudur, vanna otağımdakı paltar şkafında qalırmış. Bütün gecəni onunla keçirmişəm, ancaq düşündüyün kimi yox. O, çox gözəldir, adamın (Artur qorxulu bir üz ifadəsi aldı) ruh deməyə dili gəlmir. ... yox, doğrudan da o biri dünyadan gəlmiş gözəl bir varlıqdır, əslində o biri dünyadan da gəlməyib. O, bu dünyada ilişib qalanlardandır, çünki daha bu dünyadan getməyib. İndi sənə hər şey aydındır?

Pol təəssüf hissi ilə gözlərini Artura zillədi.

– Yaxşı, səni həkimə aparıram.

– Bəsdir, Pol, mən lap yaxşıyam.

Sonra isə Lorenə müraciət edərək dedi:

– Bu, heç də asan deyil.

– Nə asan deyil? – Pol soruşdu.

– Mən sənə demirəm.

– Sən ruhla danışırsan? O kişi otaqdadır?

Artur onun qadın olduğunu söylədi və əlavə etdi ki, o, masanın küncündə, düz onun yanında oturub. Pol şübhə dolu nəzərlərlə göstərilən yerə baxdı və əlini uzadaraq iş masasının üstündəki havanı yavaş-yavaş yardı.

– Qulaq as, bilirəm ki, bəzən axmaq zarafatlarımla səni bezdirirəm, ancaq Artur, sənin vəziyyətin doğrudan da məni qorxudur. Özündən xəbərin var? Deyəsən getdikcə ağlını itirirsən axı?..

– Mən yorğunam, az yatmışam, buna görə də çox pis görünməliyəm. Ancaq daxilən çox yaxşı


ekitab.ucoz.org

formadayam. İnan ki, hər şey qaydasındadır.

– Daxilən yaxşı formadasan? Xaricən isə pis gündəsən.

– Pol, imkan ver işləyim. Sən dostumsan, psixiatr deyilsən. Yeri gəlmişkən, mən dəli deyiləm və psixiatra da ehtiyacım yoxdur.

Pol ona sənədlərin imzalanacağı görüşə getməməyi təklif etdi. Onun ucbatından bu saziş məhv olacaqdı.

– Mən əminəm ki, sənin öz halından xəbərin yoxdur. Sən adamı qorxudursan.

Artur dərhal onun bu sözündən istifadə edib ayağa qalxdı, çantasını əlinə aldı və qapıya yönəldi.

– Yaxşı, mən qorxuncam, mən sayıqlayıram. Nə olar, evə qayıdaram, kənara çəkil, imkan ver keçim. Gəlin, Loren, gedirik!

– Sən dahisən. Artur, sənin fokus nömrələrin bitmək bilmir.

– Mən nömrə-zad gəlmirəm, Pol, sənin, necə deyərlər, həddən artıq klassik ağlın mənim gördüyümü təsəvvür edə bilməz. Doğrusu, buna görə sənə hirslənmirəm, çünki dünəndən etibarən mənim fikirlərimdə də bəzi dəyişikliklər var.

– Özün nə danışdığını eşidirsən? Bu, qeyri-adidir!

– Hə, sən artıq bunu demisən. Qulaq as, heç nə üçün narahat olma, bir halda ki, bu sazişi imzalamağa özün tək getmək istəyirsən, çox yaxşı, get, mənsə doğrudan da az yatmışam, dincəlməliyəm. Sənə isə təşəkkür edirəm, sabah gələrəm və hər şey də qaydasında olar.

Pol ona bir neçə gün dincəlməyi tapşırdı, ən azı həftənin sonuna qədər; ev dəyişmək həmişə yorucu olub. Həftəsonu ona öz köməyini təklif etdi, nəyəsə ehtiyacı olsa, demək kifayət edər. Artur istehza ilə ona təşəkkür etdi və kabinetdən çıxıb pilləkənlərlə aşağı düşdü. Binadan çıxan kimi səkiyə baxdı və Loreni axtardı.

– Buradasınız?

Loren göründü. O, maşının kapotunun üstündə əyləşmişdi.

– Mən sizə o qədər problem yaradıram ki... Bağışlayın.

– Xeyr, xeyr. Nə vaxtdır ki, bunu etmirəm.

– Nəyi?

– İşdən uzaq qalmağı. Cənab Tətil, gəlirəm!


ekitab.ucoz.org

Pol alnını qırışdıraraq pəncərədən küçədə dayanan ortağına baxırdı: o, küçədə öz-özünə danışırdı, maşının digər qapısını açdı və dərhal bağladı, maşının qabağından dövrə vurub sükan tərəfə keçdi və sükan arxasında əyləşdi. Əmin idi ki, ən yaxşı dostu ya yorğunluq depressiyası yaşayır, ya da beyin sarsıntısı keçirib. Oturacaqda oturan kimi Artur əlini sükanın üstünə qoydu və köks ötürdü. Diqqətlə Lorenə baxdı və heç bir söz demədən gülümsədi. Pərt halda Loren də ona gülümsədi.

– Kimsə səni dəli hesab edəndə bu, adamı əsəbiləşdirir, hə? Bu adamı fahişə hesab etməkdən də betərdir.

– Niyə? Mən hər şeyi qarışıq izah elədim?

– Xeyr, əksinə. İndi hara gedirik?

– Səhər yeməyi yeməyə. Və siz hər şeyi mənə bir də – başdan-ayağadək danışarsınız.

Pol pəncərədən binanın qarşısında maşınında oturan dostunu izləməyə davam edirdi. Elə ki onun öz-özünə maşında gözəgörünməz, xəyali bir adamla danışdığını gördü, dərhal ona zəng elədi. Telefonda Artura getməməyi və onu gözləməyi xahiş etdi. Ona sözü var idi.

– Nə haqda? – Artur soruşdu.

– Mən də elə bunu deınəyə gəlirəm!

Pol pilləkənlərlə tələsik aşağı düşüb həyətdən çıxdı və “Saab”ın yanına çatdı. Sürücü qapısını açdı. Az qala dostunun dizləri üstündə oturacaqdı.

– Çəkil o tərəfə!

– Sən o biri tərəfdən min!

– Maşını mən sürsəm heç nə olmaz ki?

– Başa düşmürəm, söhbət edəcəyik, yoxsa harasa gedirik?

– İkisi də. Yerini dəyiş, gedirik.

Pol Arturu itələdi və sükan arxasında əyləşdi. Açarı burdu və maşın dayandığı yerdən tərpəndi. Ancaq elə ilk yol ayrıcında qəfildən maşını saxladı.

– Əvvəlcə bir sual verim. O ruh indi bizimlə birlikdə maşındadır?

– Hə, o, arxa oturacağa keçdi. İçəri elə soxuldun ki!

Pol qapını açdı, maşından düşdü, oturacağının arxasını irəli çəkdi və Artura dedi:

– Zəhmət olmasa, dostun Kasperə de bir-iki dəqiqə bizi tək buraxsın. Onunla evdə görüşərsiniz. Səninlə şəxsi söhbətim var.



ekitab.ucoz.org

Loren dərhal pəncərənin yanında peyda oldu.

– Sonra Nors-Poynta gələrsən, – dedi, – bir az gəzəcəyəm. Özün bilirsən, bunu anlatmaq nə qədər çətindir. Ona həqiqəti deməyə məcbur deyilsən. Səni çıxılmaz vəziyyətə salmaq istəmirəm.

– O həm mənim ortağım, həm də dostumdur. Ona yalan danışa bilmərəm.

– Sən mənim haqqımda maşının qapısı ilə danışırsan? – Pol dilləndi, – xəbərin var, dünən axşam mən də soyuducunu açdım, içəridən işıq gəlirdi, girdim, yağ və kahı ilə düz yarım saat səndən danışdım.

– Mən qapı ilə danışmıram, onunla danışıram.

– Çox yaxşı, onda ledi Kasperdən xahiş elə qoy gedib paltarlarını ütüləsin, çünki indi səninlə bir az söhbətim var.

Loren yoxa çıxdı.

– Ruh getdi? – Pol bir qədər əsəbi halda soruşdu.

– Sənin ruh adam dediyin bir qadındır. Hə, o getdi. Elə kobudsan ki! Yaxşı, bu nə tamaşadır?

– Bu, nə tamaşadır? – Pol üz-gözünü büzüşdürərək sualı təkrar etdi və maşını sürməyə başladı. Sadəcə, istəyirdim təklikdə danışaq. Söhbətim şəxsidir.

– Nə haqdadır?

– Ayrılıqdan sonrakı ayların yaratdığı yan təsirlər haqqında.

Beləcə, Pol öz tiradasına başladı: Karol Enn onsuz da Artura uyğun deyildi; onun fikrincə, Artur boş yerə özünə əziyyət verir və Karol Enn heç də bu əziyyətə layiq deyil. O, xoşbəxtlik hissinə malik olmayan qadınlardandır. Və Pol Arturu sağlam düşünməyə çağıraraq bildirdi ki, Karol Enn onun çəkdiyi əziyyətlərə heç də layiq deyil. Hətta Karindən sonra belə o, bu qədər sınmamışdı. Karin yenə heç... bunu başa düşmək olardı, ancaq Karol Enn... Artur Pola xatırlatdı ki, Karin məsələsi onların on doqquz yaşı olanda olub, üstəlik o, heç vaxt Karinlə flirt etməyib. Bununla belə, iyirmi ildir Pol elə bu haqda danışır, hər şey də ona görədir ki, Karinlə ilk Pol özü tanış olub. Ancaq Pol əvvəllər Karin haqqında söz saldığını inkar elədi.

– Ən azı ildə iki-üç dəfə! – Artur etiraz etdi.

– Yox bir! Bəlkə də xatirələrdən danışarkən adı çəkilib, vəssalam. Mən heç onun üzünü də xatırlamıram!


ekitab.ucoz.org

Birdən Pol coşaraq əl-qolunu havada yellədə-yellədə danışmağa başladı:

– Bəs niyə indiyə qədər bu həqiqəti mənə deməmisən? Boynuna al görək, onunla görüşürdün. Onsuz da bu, keçmişdə qalıb, üstündən iyirmi il ötüb!

– Məni təngə gətirdin, Pol. Sən işini-gücünü atıb bizi bütün şəhəri ona görə gəzdirirsən ki, Karin Lovenskidən danışasan? Bir də axı biz hara gedirik?

– Xatırlamırsan, ancaq soyadını necə də yaxşı yadında saxlamısan!

– Sənin vacib söhbətin bu idi?

– Xeyr, mən Karol Enn barədə danışıram.

– Axı niyə onun barəsində danışırsan? Səhərdən bəri artıq üçüncü dəfədir ki, eyni şeyi deyirsən. Biz onunla görüşmürük, zəngləşmirik. Əgər bu, səni narahat edirsə, onda Los-Ancelesə qədər maşında bu qədər yol gəlməyə dəyməzdi. Çünki bilmirəm fərqindəsən, ya yox, ancaq biz artıq Sous-Marketi keçmişik. Nə olub? O, səni nahara dəvət edib?

– Karol Enn ilə nahar yeməyinə çıxa biləcəyimi necə düşünə bilirsən? Hətta siz birlikdə olanda belə bunu eləməmişəm, sən də masada olurdun.

– Onda problem nədədir? Niyə maşını şəhərin yarısına qədər sürmüsən?

– Heç bir şey. Səninlə danışmaq üçün. Sən mənimlə danışasan deyə.

– Nə haqda?

– Sənin haqqında! – Pol maşını sola döndərdi və “Saab”ı divarları ağ rəngə boyanmış iri dördmərtəbəli binanın dayanacağında saxladı.

– Pol, bilirəm ki, bu, sənə qəribə görünəcək, ancaq mən doğrudan da ruh görmüşəm!

– Artur, bilirəm ki, bu, sənə əcaib görünür, ancaq səni tibbi müayinədən keçirmək üçün həkimə aparacağam.

Dostuna baxan Artur qəfildən başını döndərdi və binanın ön divarına baxdı.

– Məni klinikaya gətirmisən? Doğrudan? Mənə inanınırsan?

– Əksinə, sənə inanıram. Ancaq tomoqrafiyadan sonra sənə daha da çox inanacağam.

– İstəyirsən tomoqrafiyadan keçim?

– Qulaq as, zürafə! Əgər bir gün işə gələndə bir ay eskalatorda qalmış kimi görünsəm, həmişəki kimi təmkinli olmayıb qəzəbimdən partlasam və sən pəncərədən baxarkən məni əl-qolunu yelləyə-yelləyə


ekitab.ucoz.org

gəzən görsən, gözəgörünməz bir sərnişin üçün qapını açsam və özümü maşında sanki birisi ilə danışırmışam kimi aparsam, ancaq maşında heç kim, heç kim olmasa və nəhayət, bunu izah edərkən ruhla qarşılaşdığımı söyləsəm, ümidvaram sən də mənim üçün bu qədər narahat olacaqsan.

Artur gülümsədi.

– Mən onu paltar şkafımda görəndə elə bildim ki, bu, sənin zarafatındır.

– Ardımca gəl, indisə mənim sakitləşmək vaxtımdır.

Pol Arturun qolundan darta-darta klinikanın holluna qədər apardı. Artur etiraz etmədən özünü onun ixtiyarına buraxdı. Qəbulda oturan xanım onlara baxırdı. Pol Arturu stula oturdub tərpənməməyi tapşırdı. Onunla elə davranırdı ki, sanki qarşısında balaca və ağlı kəsməyən bir uşaq var idi. Sanki hər an gözdən itə bilərdi. Sonra isə qəbul şöbəsinə yanaşdı və kəlmələri aydın və ağır-ağır tələffüz edərək dedi:

– Bu, təcilidir!

– Vəziyyəti necədir? – xanım çox sakit bir səs tonu ilə soruşdu. Halbuki Polun bütün səbirsizliyi və əsəbiliyi səsindən hiss olunurdu.

– Kürsüdə oturan adamın vəziyyətində!

– Xeyr, sizdən hansı cəhətdən təcili olduğunu soruşuram.

– Kəllə-beyin travması!

– Bu, necə baş verib?

– Məhəbbətin gözü kordur. Korluq əsasını var gücü ilə başına o qədər vurub ki, axırda zədə alıb.

Onun nə demək istədiyini başa düşməsə də, bu replika gənc qadını əyləndirdi. Ancaq əvvəlcədən həkimlə görüş təyin etməyiblərsə və müayinə üçün yazılmayıblarsa, təəssüf ki, o, heç nə ilə kömək edə bilməz.

– Dayanın, təəssüf etmək üçün hələ ki tezdir!

O, danışığını bitirsin... bax onda təəssüf edəcək. Artur amiranə səslə bu klinikanın həkim Bresnikə aid olub-olmadığını soruşdu. Qəbuldakı xanım başı ilə təsdiqlədi. Onda Pol ona dil-boğaza qoymadan şirkətinin altmış əməkdaşının hər il məhz bu xəstəxanada müayinədən keçdiyini, uşaqlarını dünyaya gətirdiklərini, onlara zərdab vurmaq üçün, ya da zökəmdən, qripdən, anginadan və digər murdar xəstəliklərdən müalicə etmək üçün buraya



ekitab.ucoz.org

gətirdiklərini sadaladı. O, təngnəfəs halda bildirdi ki, bu tibbi qurumun həmin nəzakətli pasiyentləri, eləcə də müştəriləri burnunun dibində dayanan adamın və orada – stulda əyləşən dəlinin məsuliyyəti altındadır.

– Odur ki, xanım, ya həkim Bresnik elə indicə mənim ortağımı müayinə edəcək, ya da sizi əmin edirəm ki, onlardan heç birinin ayağı bir də sizin bu dəbdəbəli xəstəxananızın xalısına dəyməyəcək, hətta məlhəm qoydurmaq üçün belə gəlməyəcəklər!

Bir saat sonra Artur Polun müşayiəti ilə tam müayinədən keçərək bütün analizləri verdi. Əvvəlcə fiziki ağırlıq (ona iyirmi dəqiqə velo-trenajorda qaçırdıb, sinəsinə bir qalaq elektrod yapışdırdılar) yaradaraq onu elektrokardioqrafdan keçirdilər, sonra ondan qan aldılar (Pol otaqda qala bilməyib çıxdı.). Daha sonra isə həkim onu digər nevroloji müayinələrə apardı (Ondan gah bir gözü açıq, gah da qapalı halda bir qıçını qaldırmağı xahiş etdilər, kiçik çəkiclə dirsəklərinə, dizlərinə və çənəsinə vurdular, hətta iynə ilə ayağının altını qıdıqladılar). Polun təkidi ilə tomoqrafiya aparatından keçirməyə razı oldular. Kompüter-tomoqrafiya otağı şüşə arakəsinə ilə iki yerə bölünmüşdü. Bir tərəfdə son dərəcə iri, silindrşəkilli, adamların içinə girə bilməsi üçün ortası oyulmuş bir aparat (məhz elə buna görə onu nəhəng sarkofaqa bənzədirlər), digər tərəfdə isə bir qalaq qara kabellə birləşən monitor və texnikanı idarə etmək üçün düyməli masa yerləşirdi. Arturu üzərinə ağ örtük sərilmiş xərəyə uzatdılar və budları ilə başını qayışla bağladılar. Həkim düyməni basdı və xərək aparatın içinə doğru hərəkət etməyə başladı. Arturun bədəni ilə dəliyin üst divarı arasındakı məsafə bir neçə santimetr idi və o artıq hərəkət edə bilmirdi. Ona əvvəlcədən klaustrafobik hisslər keçirə biləcəyini demişdilər. Müayinə zamanı o, tamamilə tək olacaqdı, ancaq bu müddətdə şüşə arakəsinənin o biri tərəfində oturan həkimlə və Polla söhbət edə bilərdi. Həbs edildiyi oyuq iki mikrofonla təchiz edilmişdi. Onunla nəzarət otağından söhbət edə bilirdilər. Əlinə verdikləri armudabənzər plastmas əşya ilə mikrofonu aça və danışa bilərdi. Qapını bağladılar və maşın bir-birinin ardınca zərbə səsi çıxararaq işə başladı.

– Deyəsən, buna dözmək çətindir axı, – Pol şən halda dedi.

Aparatı pultla idarə edən həkim bunun


ekitab.ucoz.org

doğrudan da xoşagəlməz olduğunu söylədi. Klaustrafobiyası olan bir çox pasiyent bəzən müayinəyə tab gətirə bilmir və onu dayandırmağı tələb edirlər.

– Əslində, bunda qorxulu heç nə yoxdur, ancaq uzun müddət orada qalmaq və səs-küy adamın əsəblərinə işləyir.

– Onunla danışmaq olar? – Pol soruşdu.

Aparatı idarə edən həkim ona yandakı sarı düyməni basaraq dostu ilə danışa biləcəyini söylədi və onu da əlavə etdi ki, yaxşısı budur aparat səs çıxarmadığı zaman söhbət etsin, əks təqdirdə, cavab verərkən Arturun çənəsinin surəti dumanlı çıxa bilər.

– Siz oradan onun kəlləsinin içini görürsünüz?

– Bəli.

– Orada nə olur ki?

– Hər cür anomaliya, məsələn, anevrizm, ...

Telefon zəng çaldı və həkim dəstəyi qaldırdı. Bir neçə dəqiqə telefonda danışdıqdan sonra Poldan üzrxahlıq etdi, bir neçə dəqiqəlik çıxacağını bildirdi və heç nəyə toxunmamağı məsləhət gördü, çünki hər şey avtomatik idi. Bir neçə dəqiqədən sonra gələcəyini söylədi. Həkim otaqdan çıxan kimi Pol şüşədən dostuna baxdı və qəribə tərzdə gülümsədi. Gözləri sarı rəngli mikrofonu aradı. Bir neçə dəqiqə tərəddüd etdi, sonra dedi:

– Artur, bu mənəm! Həkim çıxıb, ancaq narahat olma, mən buradayam. Nəzarət edirəm ki, hər şey qaydasında olsun. Burada o qədər düymə var ki. Elə bil pilotun kabinəsindəsən. Pilot paraşütdən atılıb, təyyarəni mən idarə edirəm. İndi isə de görüm, dostum, sözün düzünü deyəcəksən, ya yox? Karinlə görüşməmisən, ancaq onunla yatmısan, hə?

Xəstəxanadan çıxarkən Arturun əlində onun tamamilə sağlam olduğunu göstərən kraft kağızından bir qalaq müayinə nəticəsi var idi.

– İndi mənə inanırsan? – Artur soruşdu.

– Məni ofisə qoy, özün də danışdığımız kimi get dincəl.

– Sualdan yayınma. İndi beynimdə heç bir şiş olmadığını bilirsən. Mənə inanırsan?

– Qulaq as, get dincəl. Bütün bunlar yorğunluqdan da ola bilər.

– Pol, mən sənin tibbi oyunlarında oynadım, indi



ekitab.ucoz.org

sən mənim oyunlarımı oyna.

– Bu oyunların məni əyləndirəcəyinə əmin deyiləm! Bu məsələni sonra danışarıq. Gərək buradan birbaşa iş görüşməsinə gedim, taksiyə minəcəyəm. Sənə sonra zəng edərəm.

Pol "Saab"ı tək qoyub getdi.

Artur ınaşını Nors-Poynta sürdü. Getdikcə bu əhvalat və onun qəhrəmanı və bütün bunların doğurduğu təhlükəli vəziyyət onun xoşuna gəlməyə başlayırdı.



ekitab.ucoz.org

# 6

Turistlər üçün nəzərdə tutulmuş restoran Sakit okean üzərində açılan qayanın içində oyulmuşdu. Zal demək olar ki, dolu idi. Müştərilər barın üstündə iki televizordan beysbol matçını izləyirdilər. Mərclər qoşulmuşdu. Onlar şüşə arakəsmənin arxasında əyləşdilər. Artur elə yenicə "kabarne-sovinon" sifariş edəcəkdi ki, birdən bütün bədəninə xəfif gizilti yayıldı. Loren dodaqlarında qalibanə bir təbəssümlə, hiylə dolu baxışlarla çılpaq ayağını onun ayağına toxundurur və oxşayırdı. Artur pərt halda qəfildən Lorenin topuğunu tutdu və dedi:

– Mən də sizi hiss edirəm!

– Mən, sadəcə, buna əmin olmaq istədim.

– Şübhəniz olmasın.

Sifarişi gətirən ofisiant qəribə-qəribə Artura baxdı:

– Siz nəyi hiss edirsiniz?

– Heç nə, mən heç nə hiss eləmirəm.

– İndicə mənə dediniz ki, "Mən də sizi hiss edirəm".

Artur gülümsəyən Lorenə baxaraq dedi:

– Görürsünüz, tezliklə məni dəlixanaya yerləşdirəcəklər.

– Bəlkə də yaxşı edərlər, – deyə ofisiant qız çiyinlərini çəkdi və masadan uzaqlaşdı.

– Bəs mənim sifarişim?

– Bobu yanınıza göndərərəm, görək onu da hiss edirsiniz, ya yox?

Bir neçə dəqiqədən sonra Bob ona yaxınlaşdı. O, öz qadın hərəkətlərilə həmkarını geridə qoyurdu.

Artur ona yumurtalı qızılbalıq və ədviyyatlı pomidor şirəsi sifariş etdi. Lorenə sual vermək üçün bu dəfə qarsonun uzaqlaşmasını gözlədi və Lorendən son aylarda yaşadıqlarını danışmağı xahiş etdi. Bob zalın ortasında donub qaldı və öz-özü ilə söhbət edən Artura baxmağa başladı. Elə söhbət yenicə başlamışdı ki, Loren onun sözünü kəsdi və cib telefonu olub-olmadığını soruşdu. Bu gözlənilməz sualın söhbətlə nə əlaqəsi olduğunu başa düşmədən təsdiq əlaməti olaraq başını yellətdi.

– Açın və özünüzü telefonda danışan adam kimi


ekitab.ucoz.org

göstərin, yoxsa sizi doğrudan da dəlixanaya salacaqlar.

Artur ətrafına nəzər saldı; ınasa arxasında əyləşən adamlar doğrudan da, ona baxırdılar, hətta yemək yeyən bəziləri boşluqla söhbət edən bu adamdan narahat olmuş kimi görünürdü. O, telefonunu əlinə aldı və özünü nömrə yığırmış kimi göstərib ucadan "alo" dedi. Adamlar bir neçə dəqiqə də ona baxdılar və hər şeyin normal olduğunu gördülər, başları yenidən öz yeməklərinə qarışdı. Artur sualını yenidən təkrar etdi və Loren danışmağa başladı. Əvvəlcə bu şəffaflıq ona çox əyləncəli görünınüşdü. Bu macəranın ilk günlərində mütləq azadlıq hissi yaşayırdı. Geyimin, saç fasonun, necə görünınəyin qayğısına qalmaq lazım deyildi. Arıqsan, ya kök, fərqi yox idi, heç kim sizi görmürdü. Nə bir öhdəliyin var, nə məhdudiyyətin. Daha növbələrdə dayanmaq lazım deyildi, heç kimi narahat etmədən birinci ola bilərdin. Heç kim bu hərəkətinizə qəzəblənmir və deyinmirdi. Artıq özünü ədəbli göstərməyə ehtiyac yox idi; onun-bunun söhbətinə qulaq asa, görülməyənləri görə, eşidilməyənləri eşidə, girilməsi qadağan olan yerlərə girə bilərsiniz. Daha heç kim sizi gözləmir.

– Mən dəyirmi masa arxasında oturub dövlət sirlərini dinləyə, Riçard Girin dizləri üstündə otura, ya da Tom Kruzla birlikdə duş ala bilərdim.

O, hər şeyi, demək olar ki, hər şeyi edə bilərdi: bağlı muzeylərə girə, pulunu ödəmədən kinoya baxa, saraylarda yata, qırıcı təyyarələrə minə, ən qanlı mürəkkəb tibbi əməliyyatlarda iştirak edə, ya da ictimaiyyətə qapalı elmi laboratoriyalarda ola, "Qolden Geyt"in dirəkləri üstündə gəzə bilərdi. Qulağını telefona dayayan Arturu maraq bürüdü: bəs bu macəralardan ən azı hansını edib?

– Yox, mən yüksəklikdən qorxuram, başım gicəllənir, Vaşinqton çox uzaqdır, o qədər məsafəni aşa bilmərəm. İlk dəfə dünən yatdım, odur ki, saraylar işimə yaramır. Mağazalara gəlincə, əgər heç nəyə toxuna bilmirsənsə, bunlar nəyə lazımdır.

– Bəs Riçard Girlə Tom Kruz?

– Bu da mağazalar kimidir!

Loren səmimiyyətlə etiraf etdi ki, ruh olmaq heç də əyləncəli deyil. Onun fikrincə, bu daha çox adamı həyəcanlandırır. Hər şey əlçatandır, ancaq hər şey mümkünsüzdür. O, sevdiyi adamlara ehtiyac


ekitab.ucoz.org

duyurdu. Artıq onlarla ünsiyyət yarada bilmirdi.

– Mən artıq mövcud deyiləm. Onları görə bilirəm, ancaq bu, mənə sevincdən daha çox kədər bəxş edir. Bəlkə də buna görə Əraf sonu görünməyən bir yalnızlıqdır.

– Siz Tanrıya inanırsınız?

– Yox, ancaq mənim vəziyyətimdə olan biri onun doğrudan da mövcud olub-olmadığına dair şübhələrə meyilli olmağa başlayır. Mən xüsusən də ruhlara inanmırdım.

– Mən də inanmıram, – Artur dedi.

– Siz ruhlara inanmırsınız?

– Siz ruh deyilsiniz.

– Siz elə fikirləşirsiniz?

– Siz ölməmisiniz, Loren, ürəyiniz hələ ki döyünür və dərrakəniz də yerindədir. Sadəcə, bu ikisi bir anda bir-birindən ayrı düşüb. Bunun səbəbini öyrənmək və onları yenidən necə birləşdirmək mümkün olduğunu bilmək lazımdır.

– Hər halda bu ayrılıq çox xoşagəlməz nəticələr doğurub...

Bu fenomen Arturun anlayışı xaricində olsa da, o, bu vəziyyətə boyun əyməyi düşünmürdü. O, hələ də özünü telefonda danışırmış kimi göstərərək təkidlə qeyd edirdi ki, Lorenin bədəninə geri qaytarmağın yollarını axtarıb tapmaq lazımdır. Bunun üçün isə gərək o, komadan çıxaydı.

– Hər iki fenomen bir-biri ilə əlaqəlidir, – deyə Artur əlavə etdi.

– Bağışla, ancaq mənə elə gəlir ki, bu araşdırmalar sizin ağlınızı yerindən oynatmağa başlayıb.

Artur onun səsindəki sarkazma əhəmiyyət vermədən evə qayıtmağı və internetdə araşdırma aparmağı təklif etdi. O, koma ilə bağlı hər şeyi öyrənmək istəyirdi: elmi tədqiqatları, tibbi məruzələri, komada olanların və şahidlərin danışdıqlarını... Xüsusilə də onu uzun müddətli komadan sonra özünə gələnlər maraqlandırırdı.

– Biz gərək o adamları tapaq və bu haqda onlardan soruşaq. Onların söylədikləri çox önəmli ola bilər.

– Bunu niyə edirsiniz?

– Çünki sizin başqa seçiminiz yoxdur.

– Sualıma cavab verin. Fərqindəsiniz ki, artıq bu məsələnin içindəsiniz? Heç bilirsiniz, bu, nə qədər


ekitab.ucoz.org

vaxtınızı alacaq? Axı sizin öz işləriniz, öz öhdəlikləriniz var.

– Siz çox ziddiyyətli qadınsınız.

– Xeyr, mən, sadəcə, sağlam düşünməyə çalışıram. Düz on dəqiqə öz-özünüzə danışdığınız üçün hamının sizə necə təəccüblə baxdığını görmədiniz? Xəbəriniz varını ki, gələn dəfə bu restorana gəldikdə sizə bütün yerlərin tutulduğunu deyəcəklər? Çünki adamlar onlardan fərqlənənləri sevmirlər, çünki kimsə nahar vaxtı ucadan öz-özü ilə və əl-qol hərəkətləri ilə danışırsa, bu, onları narahat edir.

– Şəhərdə minlərlə restoran var, özləri bilərlər.

– Artur, siz yaxşı adamsınız, siz çox yaxşı adamsınız, ancaq reallıq hissini itirməyə başlamısınız.

– İnciməyin, ancaq məncə, indiki vəziyyətdə reallıq məsələsində siz məndən o qədər də irəlidə deyilsiniz.

– Artur, söz güləşdirməyin. Bir də boş yerə mənə söz verməyin, siz bu sirri çözə bilməzsiniz.

– Mən heç vaxt boş vədlər vermirəm və mən heç də yaxşı adam deyiləm.

– Onda mənə boş yerə ümid verməyin, sizin bunun üçün heç vaxtınız da çatmayacaq.

– Mən elə indicə bunu restoranda etdim, məni siz vadar etdiniz. Bir dəqiqə bağışlayın.

Artur özünü elə göstərdi guya telefon söhbəti bitdi. Telefonu yenidən açdı və ortağının nömrəsini yığdı. Səhər ona vaxtını və diqqətini sərf etdiyi üçün təşəkkür etdi. Bir neçə cümlə ilə onu arxayın etdikdən sonra izah etdi ki, doğrudan da olduqca yorulub və əgər bir neçə gün dincəlsə, bunun həm şirkətə, həm də ona xeyri olacaq. Ona sənədlər haqqında bir neçə xüsusi məlumatı verdikdən sonra bildirdi ki, nəsə lazım olsa, Morin tamamilə onun sərəncamındadır. Çox yorğun olduğu üçün heç yerə çıxmayıb evdə qalacaq, buna görə də çox güman ki, ancaq telefonla danışa biləcəklər.

– Artıq mən bütün öhdəliklərimdən azadam. Dərhal araşdırmamıza başlamağı təklif edirəm.

– Heç bilmirəm nə deyim.

– Tibbi biliklərinizlə mənə kömək etməkdən başlaya bilərsiniz.

Bob gözlərini Arturdan ayırmadan hesabı gətirdi. Artur gözlərini bərəltdi, dəhşətli bir üz


ekitab.ucoz.org

ifadəsi alıb, dilini çıxardı və birdən ayağa qalxdı. Bob bir addım geri çəkildi.

– Sizdən bunu gözləməzdim, Bob. Təəssüf, siz məni çox məyus etdiniz. Gəl, Loren, bu restoran bizə layiq deyil.

Maşında Artur Lorenə öz araşdırma metodu haqqında danışdı. Fikirlərini paylaşaraq birlikdə "döyüş planı"nı hazırladılar...



ekitab.ucoz.org

# 7

Evə çatan kimi Artur iş masasının arxasına keçdi. Kompüteri açdı və internetə girdi. Elə həmin dəqiqə "məlumat magistralı" ona lazım olan mövzu haqqında yüzlərlə məlumat bazası təklif etdi. O, axtarış qrafasına "koma" sözünü yazmaqla araşdırmaya başladı. Veb-server mövzu ilə bağlı müxtəlif məqalələr, şahid ifadələri, məruzələr, məlumatlar və bu məsələ ilə bağlı aparılan müzakirələri göstərən müxtəlif saytların adını verdi. Loren masanın bir küncündə oturmuşdu. Artur əvvəlcə "Memorial" xəstəxanasının saytına girib "Nevropatologiya və kəllə-beyin travmaları" rubrikasına baxdı. Professor Silverstounun kəllə-beyin travmaları haqqında məqaləsi komanın Glazgovun mərhələli bölgüsünə əsaslanan müxtəlif növlərinin təsrifi haqqında məlumat verirdi: üç rəqəm vizual, auditiv və sensitiv hormonların reaktivliyini əks etdirirdi. Lorenin vəziyyəti 1.1.2. təsrifinə uyğun gəlirdi. Hər üç rəqəm toplandıqda 4-cü dərəcəli koma yaranırdı ki, o həm də başqa cür "dərin koma" adlanırdı. Digər server onları başqa bir məlumat bazasına yönləndirərək pasiyentlərin komanın növünə görə sağalma statistikalarının analizini əks etdirirdi. "4-cü klas" koma səyahətindən indiyə qədər geriyə heç kim qayıtmamışdı. Çoxsaylı diaqramlar, aksonometrik kəsimlər, şəkillər, ümumiləşdirilmiş nəticələr, biblioqrafik mənbələr Arturun kompüterində toplanır, sonra da printerindən çıxırdı. Və nəticədə, bu mövzu ilə bağlı araşdırılmış və yığılmış məlumatlar cəmi yeddi yüz səhifədən ibarət oldu. Artur pizza və iki pivə sifariş edərək bildirdi ki, indi bircə bütün bunları oxumaq qalır. Loren yenidən bunu niyə etdiyini soruşdu. Artur belə cavab verdi: "Qısa zaman ərzində mənə çox şeyi, xüsusilə də xoşbəxtliyə doğru addımlamağı öyrədən bir adama borclu olduğum üçün! Bilirsən, – əlavə etdi, – hər arzunun mütləq öz dəyəri var, – və o, yenidən oxumağa başladı; başa düşmədiyi yerlərə, yəni demək olar ki, hər şeyə quş qoyurdu. Oxuduqca Lorenə suallar verir və o, ona tibbi terminologiyanı


ekitab.ucoz.org

izah edirdi. Artur öz iş masasının üstünə böyük kağız qoydu və topladığı qeydlərin çertyojunu çəkməyə başladı. Məlumatları qruplara bölərək onları dairəyə aldı və dairələri öz aralarında əlaqələndirdi. Beləcə vərəqin bir ucundan başlayıb ikinci vərəqə keçən, mühakimələrin nəticələrə döndüyü nəhəng bir diaqram yarandı. İki gün gecə-gündüz birlikdə baş sındıraraq bu sirrin açarını tapınağa çalışdılar. İki gün-iki gecə əlləşdikdən sonra gəldikləri nəticə o oldu ki, bu koma illər boyunca davam edə bilər və hələ uzun müddət təbabət üçün şüurun bədəndən ayrı yaşadığı sirli bir olay olaraq qalacaq. Yorğun və gözləri qızarmış Artur elə yerdəcə yuxuya getdi. Masanın kənarında əyləşmiş Loren barmağını diaqramın oxu istiqamətində yuxarı gəzdirir və bu toxunuşdan kağızın bürüşməsinə təəccüblə baxırdı. Artura yaxınlaşıb yanında bardaş qurdu və əlini xalının üzərində, sonra isə onun qolu üzərində gəzdirdi. Arturun tükləri bu toxunuşdan qabardı. Loren gülümsədi, Arturun saçlarını oxşadı və düşüncəli halda yanında uzandı. Artur yeddi saatdan sonra oyandı. Loren əvvəlki kimi masanın kənarında oturmuşdu. Artur gözlərini ovuşdurdu və Lorenə gülümsədi. Loren də ona gülümsədi.

– Yataqda yatsaydınız, daha rahat olardı. Elə şirin-şirin yatmışdınız ki, oyatmağa qıymadım.

– Çox yatmışam?

– Bir neçə saat. Hər halda itirdiyiniz saatları dolduracaq qədər yox.

Artur qəhvə içmək və yenidən işə başlamaq istəyirdi. Ancaq Loren onu bu istəyindən daşındırmağa çalışdı. Onun apardığı mübarizə Loreni çox mütəəssir edirdi, ancaq bütün bunlar hədər idi. Artur həkim deyil, Loren isə sadəcə təcrübə keçən həkimdir. İkilikdə bu koma problemini çözə bilməzdilər.

– Yaxşı, siz nə təklif edirsiniz?

– Əvvəlcə qəhvə içməyini, əla bir duş almağını və birlikdə gəzməyə çıxmağımızı. Hansısa ruha sığınacaq verdiyini bəhanə eləyib mənzilinizdə təcrid olunmuş kimi yaşaya bilməzsiniz.

Artursa əvvəlcə qəhvə içəcəyini, sonra isə vəziyyətə görə davranacağını söylədi. Bir də o istəyirdi ki, Loren bu "ruh" məsələsini birdəfəlik bir kənara qoysun, çünki o, özünü ruhdan başqa nə istəyirdisə adlandıra bilərdi. Onda Loren onun "nə istəyirdisə"


ekitab.ucoz.org

sözünün nə məna verdiyini soruşdu, ancaq Artur cavab vermək istəmədi.

– Mən nəzakətli sözlər deməyə başlayacağam, siz də hirslənəcəksiniz.

Loren qaşlarını çatdı, sual dolu baxışlarla bu "nəzakətli sözlər"in nə demək olduğunu soruşdu. Artur dediyini unutmağı xahiş etdi, ancaq gözlədiyi kimi bu xahişi cavabsız qaldı. O, onunla üzbəüz dayandı və təkidlə soruşdu:

– Hə, o nəzakətli sözlər nə idi?

– Dediyimi unudun, Loren. Sadəcə, siz ruh deyilsiniz, vəssalam.

– Bəs onda mən nəyəm?

– Qadın. Gözəl bir qadın. Mən duş almağa gedirəm.

Artur ona baxmadan otaqdan çıxdı. Loren ürəyində sevinərək xalını əli ilə oxşamağa başladı. Yarım saat sonra Artur əyninə cins şalvarını və kəşmir sviterini geyinərək çıxmağa hazır idi. O, ləzzətli bir ət yeməyi yeməyin vaxtı olduğunu bildirdi. Loren dedi ki, hələ saat heç on da olmayıb, əvəzində isə Artur indi Nyu-Yorkda nahar vaxtı olduğunu, Sidneydə isə şam yeməyi yeyildiyini - söylədi.

– Elədir, ancaq biz nə Nyu-Yorkda, nə də Sidneydəyik. Biz San-Fransiskodayıq.

– Hə, ancaq bunun ətin ləzzətinə heç bir dəxli yoxdur.

Loren istəyirdi ki, Artur əvvəlki kimi yaşasın. Onun ancaq bir həyatı var və o, bu şansı qaçırmamalıdır. Onun hər şeyi bir kənara atmağa ixtiyarı yoxdur. Artur isə Lorenin məsələni şişirtdiyini söyləyib etiraz etdi. O, sadəcə, layiq olduğu bir neçə günlük məzuniyyət götürüb, ancaq Loren onun təhlükəli və sonu olmayan bir oyun oynadığını düşünürdü. Artur dözə bilməyib dedi:

– Bir həkimin dilindən bu sözləri eşitmək necə də qəribədir. Mən həmişə düşünmüşəm ki, həyatda hər şey mümkündür və nə qədər ki həyat var, ümid də var. Niyə axı mən bütün bunlara səndən çox inanıram?

– Məhz elə həkim olduğum üçün. Çünki mən məntiqə əsaslanıram və əminəm ki, biz əbəs yerə vaxt itiririk. Sən mənə bağlanmamalısan. Mən sənə heç nə verə bilmərəm. Səninlə heç nəyi paylaşa bilmərəm. Heç nə! Hətta sənə bir fincan qəhvə belə


ekitab.ucoz.org

hazırlaya bilmərəm, Artur!

– Bu nə axmaqlıqdır? Mənə qəhvə hazırlaya bilmirsənsə, deməli, bizim gələcəyimiz yoxdur? Mən sənə bağlanmıram, Loren, nə sənə, nə də başqasına! Paltar şkafımda olmağını səndən mən istəməmişdim, sən sadəcə orada idin. Bu, həyatdır. Hər şey elə-belə də olmalıdır. Səni məndən başqa heç kim görmür, eşitmir, səninlə danışa bilmir.

Bəli, o haqlıydı, Artur davam etdi, onun problemini həll etmək əslində hər ikisi üçün təhlükəlidir – Loren üçün ona görə ki, bu, onu yanlış ümidlərə sürükləyər. Artur üçünsə ona görə ki, bu, onun vaxtını alır və həyatını alt-üst edir. Ancaq həyat elə bu deməkdir. Onun başqa seçimi yoxdur. Loren buradadır, onun yanında, onun mənzilində; "bura həm də sənin mənzilindir". Lorenin düşdüyü vəziyyət özünəməxsusdur və Artur onun qayğısına qalacaq; "mədəni dünyada yaşayan hər bir şəxs bu cür eləməlidir, hətta bu, təhlükəli olsa belə". Arturun fikrincə, supermarketdən çıxarkən hər hansı bir dilənçiyə pul vermək o qədər də önəmli bir şey deyil. "Bu o vaxt önəmlidir ki, sən özündə az olan şeyi və səmimi qəlbdən verirsən".

Loren onun haqqında heç nə bilmir, eybi yox, ancaq Artur nəyin bahasına olursa olsun, məqsədinə çatacaq və sona qədər gedəcək. O, Lorenə kömək etmək istəyir və ondan bu haqqını ona verməyi xahiş edir. Onun həyatdan ala biləcəyi son şey bu yardımı qəbul etməkdir. Əgər bu işə girişməzdən əvvəl Arturun hər şeyi yaxşıca götür-qoy etmədiyini deyirsə, haqlıdır. O, doğrudan da heç nə fikirləşməyib.

– Çünki həyat məhz elə sən hər şeyi düşünüb-daşınarkən, xeyrini və zərərini götür-qoy edərkən ötüb-keçir və həyatında heç nə baş vermir. Bilmirəm necə, ancaq səni bu vəziyyətdən qurtaracağıq. Ölməli olsaydın, çoxdan ölmüşdün. Mən sənə yardım etmək üçün buradayam, mən məhz sənə əlimi uzatmaq üçün buradayam.

Artur ondan özü üçün də olmasa, sonralar xilas edəcəyi həyatlar naminə bu yardımdan imtina etməməyi xahiş etdi.

– Səndən yaxşı vəkil çıxardı.

– Mən həkim olmalıydım.

– Bəs niyə olmadın?



ekitab.ucoz.org

– Çünki anamı çox erkən itirdim.
– O vaxt neçə yaşın var idi?
– Uşaq idim. Bu mövzuya toxunmaq istəmirəm.
– Niyə bu haqda danışmaq istəmirsən?

Artur Lorenə onun psixoanalitik deyil, həkim olduğunu xatırlatdı. Bu haqda isə danışmaq istəmir, çünki bu, onun üçün ağırdır və onu kədərləndirir.

– Keçmiş keçmişdə qalıb, vəssalam.

İndi o, memarlıq bölümünə rəhbərlik edir və çox xoşbəxtdir.

– Mən işimdən də, işlədiyim adamlardan da razıyam.
– Sənin sirrin budur?
– Yox, bu sirr deyil, sadəcə, mənə aid olan bir şeydir.

O, anasını hələ uşaq ikən itirmişdi, atasını isə ondan da əvvəl. İkisi də mümkün həyatlarının ən yaxşı cəhətlərini ona verməyə çalışmışdı. Onun həyatı belə alınmışdı. Bunun həm mənfi, həm də müsbət tərəfləri var.

– Yaman acam, düzdür, Sidneydə yaşamırıq, ancaq yenə də yumurta və bekon hazırlayım.
– Valideynlərin öldükdən sonra səni kim böyüdüb?
– Niyə axı bu qədər inadkarsan?
– Heç də yox.
– Mənim həyatımda maraqlı heç nə yoxdur. Bizim bundan daha vacib işlərimiz var.
– Mənim üçünsə maraqlıdır.
– Sənin üçün nə maraqlıdır?
– Həyatında nə baş verib ki, bu cür davrana bilirsən?
– Nə cür davranıram?
– Tanımadığın bir ruh qadın üçün hər şeyi bir kənara atmağı. Üstəlik, bu heç də mənim gözəl olmağımdan qaynaqlanmır. Bax, bunun səbəbi çox maraqlıdır.
– Psixoloqluq eləmə, buna nə vaxtım var, nə də istəyim. Keçmişimdə qaranlıq heç nə yoxdur, başa düşdün? Sadəcə, keçmiş mövcuddur. O, konkret və qətidir, çünki olub qurtarıb.
– Yəni mənim səni tanımağa haqqım yoxdur?
– Əlbəttə ki, var. Ancaq sən məni tanımağa deyil, keçmişimi öyrənməyə çalışırsan.
– Yəni bunları eşitmək o qədər ağır olardı?
– Yox, sadəcə, bu, şəxsidir və heç də əyləncəli


ekitab.ucoz.org

deyil. Həm də uzun hekayədir; söhbətimizin mövzusu ola bilməz.

– Eybi yox, biz qatara gecikmirik. İki gün-iki gecədir ki, ancaq koma haqqında danışırıq, odur ki, bir az ara verə bilərik.

– Sən vəkil olmalı idin!

– Hə, ancaq mən həkiməm. Cavab ver.

Artur yeməyi bəhanə edib ona cavab vermədi. Kəlmə kəsmədən yeməyini yeyib qurtardı və nimçəsini su çanağına qoyduqdan sonra masa arxasına keçdi. Loren divanda əyləşmişdi. Ona tərəf döndü.

– Həyatında çox qadın olub? – Loren başını qaldırmadan soruşdu.

– Sevərkən saymırsan.

– Doğrudan psixoloqa ehtiyacın yoxdur?! Bəs “sayılanlar” çox olub?

– Bəs səndə?

– Sualı mən verdim.

Artur bildirdi ki, bütün həyatı boyunca yalnız üç dəfə sevib: yeniyetmə ikən, gənc ikən və gənclikdən bir qədər sonrakı – gənclərin kişiləşməyə başladıqları dövrdə. Ancaq görünür bu proses yarımçıq qalıb, yoxsa indiyə qədər birlikdə olardılar. Loren anladı ki, cavab səmimi idi. Ancaq dərhal bunun niyə baş vermədiyini soruşdu. Arturun fikrincə, o, bir qədər kompromisə getməyən adam idi. “Daha doğrusu, mülkiyyətçi”, – Loren dedi, ancaq Artur “kompromisə getməyən” sözündə israr etdi.

– Anam uşaqlıqdan ideal məhəbbətlə beynimi doldurub. İdealların varlığı isə həyatı çətinləşdirir.

– Niyə?

– Çünki həmişə yüksək səviyyə görməyə çalışırsan.

– Başqasında?

– Xeyr, özündə.

Loren çox istəyirdi ki, Artur sözünə davam etsin, ancaq “köhnə fikirli görünməkdən və gülünc vəziyyətə düşmək”dən qorxduğu üçün israrla bu mövzudan qaçırdı. Bununla belə, Loren səy göstərməyi təklif etdi. Onun əl çəkməyəcəyini başa düşən Artur danışmağa başladı.

– Xoşbəxtlik ayaqların altında ikən bunu dərk etmək, əyilib onu yaxalamaq üçün cəsarətli və qətiyyət göstərmək... və bir daha buraxmamaq. Bunu ancaq ürəyin ağlı ilə etmək olar. Ürəyin ağıldan məhrum bir ağıl sadəcə məntiqdir və onun o qədər də

 ekitab.ucoz.org

əhəmiyyəti yoxdur.

– Deməli o, səni tərk eləyib?!

Artur cavab vermədi.

– Və sən bu xəstəlikdən heç vaxt sağalmadın?

– Mmm... yox, sağaldım, ancaq deyəsən, heç xəstə də deyildim.

– Sən onu sevə bilmədin?

– Xoşbəxtliyin sahibi yoxdur. Bəzən onu icarəyə ala bilmək şansımız olur və biz icarədara çevrilirik. Kirayənin haqqını isə daima ödəmək lazımdır, əks halda qapı arxasında qalarıq.

– Dediklərin ağlabatandır.

– Hamı gündəlik həyatdan qorxur, çünki o, bezdirici, vərdişlərlə dolu qaçılmaz hadisələrdən ibarətdir. Ancaq mən bu qaçılmazlığa inanmıram...

– Bəs nəyə inanırsan?

– Mən inanıram ki, gündəlik həyat qarşılıqlı anlayışın, hətta əlbir olmanın məcmusudur. Alışqanlıqların əksinə olaraq, məhz gündəlik həyatda "dəbdəbə və banallığı", fərdiliklə qəlblərin yaxınlığını görmək olar.

O, Lorenə yığılmayıb yerdə qalan və çürüyən meyvələri misal çəkdi.

– Bəziləri məhz laqeydlik, alışqanlıq və özündən razılıq üzündən heç vaxt xoşbəxtliyin şirəsini içə bilmirlər.

– Bəs sən içmisən?

– Doğrusu, yox, sadəcə, bir neçə dəfə bu nəzəriyyəni praktikaya çevirməyə çalışmışam. Mən insan ehtiraslarının dəyişə biləcəyinə inanıram.

Arturun fikrincə, uzun müddət bir yerdə yaşayan və vaxt ötdükcə nəvazişin ehtirası əvəz etməsi faktını qəbul edən cütlüklərdən mürəkkəb heç nə ola bilməz. Mütləq sona can atdığın bir həyatı necə yaşamaq olar? O, insanın öz içində uşaqlıqdan, xəyallardan bir parça qoruyub saxlamasını heç də ayıb şey hesab etmirdi.

– Onsuz da böyüdükcə bir-birimizdən fərqlənməyə başlayırıq, ancaq əvvəlcə hamımız uşaq olmuşuq. Bəs sən? Sən sevmisən? – Artur soruşdu.

– Sən sevməyən çox adam görmüsən? Bilmək istəyirsən indi sevirəın, ya yox? Yox, hə və yox.

– Həyatın boyu səni çox incidiblər?

– Yaşımı nəzərə alsaq, kifayət qədər.

– Danışmağı o qədər də sevmirsən. O kim idi?

– O ölməyib. İndi otuz səkkiz yaşı var,


ekitab.ucoz.org

rejissordur, yaraşıqlıdır, bir az intizamsızdır, bir az da eqoist, ideal kişidir...

– Və?..

– Vəə... biz sənin təsvir etdiyin məhəbbətdən işıq ili ilə bir neçə min il uzaqda idik.

– Bilirsən, hər kəsin öz dünyası var. Əsas odur, bizi öz qoynuna alan bu torpaqda kök salaq.

– Sən həmişə bu cür metaforalarla danışırsan?

– Çox vaxt. Bu, bəzi şeyləri rahatlıqla ifadə etməyə kömək edir. Qayıdaq sənin hekayənə.

O, dörd il rejissorla birlikdə yaşamışdı və bu dörd ildə, dəfələrlə münasibətləri bitirmiş və yenidən başlamışlar, bir-birinin ürəyini qırmış və hər dəfə qırıntıları yapışdırmağa çalışmışdılar. Lorenin fikrincə, bu münasibətlər çox maraqsız olub, özünü sevməkdən başqa bir şey deyildi və yalnız ehtirasa əsaslanırdı.

– Sən yataqda aktivsən?

Loren bu sualı əxlaqsız hesab etdi.

– Cavab verməyə məcbur deyilsən.

– Heç fikrim də yoxdur! Onsuz da onunla münasibətlərimiz qəzadan iki ay əvvəl bitmişdi. Onun üçün daha yaxşı oldu. Yoxsa indi özünü mənim üçün məsuliyyət daşıyan adam kimi hiss edərdi.

– Buna heyifsilənirsən?

– Yox, ayrılarkən heyifsilənınişdim, ancaq indi anlayıram ki, iki adamın birlikdə yaşaması üçün ən önəmli şey fədakarlıqdır.

O, hər dəfə eyni səbəbdən bitən bu məhəbbət oyunlarından bezmişdi. Vaxt ötdükcə insanlar idealizmdən uzaqlaşmağa başlayırlar, Lorendə isə hər şey əksinə idi. Yaşlandıqca o daha da idealist olurdu.

– Mən belə düşünürəm: əgər həyatını kiminləsə bölüşə biləcəyini düşünürsənsə, onda doğrudan da ona hər şeyi bəxş edə biləcəyinə inanmadan nə özünə, nə də başqasına ciddi münasibətlərin zamanı gəldiyini inandırmamalısan. Xoşbəxtlik hissə-hissə verilmir. Ya sən bəxş edənsən, ya da bəxş edilən. Mən bəxş edilmədən bəxş edənlərdənəm, ancaq artıq eqoistlərin, mürəkkəb xasiyyətlərin və öz arzu və ümidlərini paylaşmayan ürəyi qurumuşların üstündən xətt çəkmişəm.

Onun fikrincə, həqiqətləri görməyin vacibliyini və həyatdan nələri gözləməyin lazım gəldiyini artıq müəyyənləşdirmək vaxtıdır. Artur onun hərarətli


ekitab.ucoz.org

nitqini dinləyirdi.

– Məni həmişə arzularımın əksinə olaraq, sadəcə, mənə ilham verən, təbiətimə zidd adamlar cəlb edib, – Loren dedi.

Loren təmiz hava almağa ehtiyacı olduğunu söylədi, odur ki, geyinib bayıra çıxdılar.

Artur onu "Ouşen Drayv"a apardı.

– Mən dəniz sahilini sevirəm, – Artur sükutu bölmək üçün dilləndi.

Loren dərhal cavab vermədi. O, üfüqə tamaşa edirdi. Arturun əlindən tutdu.

– Həyatında nə baş verib? – deyə soruşdu.

– Niyə belə soruşursan?

– Çünki başqaları kimi deyilsən.

– Səni mənim iki burnum narahat eləyir?

– Məni heç nə narahat eləmir, sadəcə, sən fərqlisən.

– Fərqliyəm? Heç vaxt özümü fərqli hiss etməmişəm. Bir də ki, axı kimdən, nə üçün fərqliyəm?

– Sən təmkinlisən.

– Bu pisdir?

– Yox, ancaq bu, adamı bir qədər çaşdırır. Elə bil sənin heç bir problemin yoxdur.

– Mən vəziyyətlərdən çıxış yolu tapınağı sevirəm, buna görə də problemlərdən qorxmuram.

– Yox, bu, tamamilə başqa şeydir.

– Mənim ÖDP-m!..

– ÖDP nədir?

– Özəl daşınabilən psixiatrım.

– Sənin cavab verməmək haqqın var. Ancaq mənim bəzi şeyləri hiss etmək haqqım da var.

– Biz lap iki yaşlı cütlük kimi danışırıq. Mən heç nəyi gizlətmirəm, Loren, həyatımda nə qaranlıq anlar, nə də travmalar olub. Mən olduğum kimiyəm – öz mənfiliklərimlə.

O heç də özünə vurğun deyildi, ancaq nifrət də etmirdi, sadəcə, bu cür yaradıldığına inanır və özünü qoyulmuş qaydalardan azad və müstəqil bir şəxs kimi dəyərləndirirdi. Bəlkə də Lorenin hiss etdiyi fərqlilik də məhz bu idi.

– Mən heç bir sistemə bağlı deyiləm. Həmişə də buna qarşı mübarizə aparmışam. Mən sevdiyim adamları görür, istədiyim yerə gedir, istədiyim kitabları oxuyuram və heç də ona görə oxumuram ki, "onu oxumaq lazımdır", sadəcə bu, məni maraqlandırır. Mənim həyatım, bax, belədir. Mən


ekitab.ucoz.org

"niyə", "necə" suallarını vermədən istədiyim şeyi edirəm. Qalan şeylər isə o qədər də əhəmiyyətli deyil.

– Səni işə salmaq istəmirəm.

Susdular və mehmanxanalardan birinin zalında canlarını istiyə verərkən söhbət yenidən başladı. Artur ovulmuş peçenye yeyir, kapuçino içirdi.

– Bu yeri çox sevirəm, – Artur dedi, – bura ailəvi məkandır. Ailələrə tamaşa etmək xoşuma gəlir.

Divanda səkkizyaşlı uşaq anasının qucağında büzülüb qalmışdı. Qadının əlində böyük bir kitab var idi, səhifələrdəki şəkillərə baxa-baxa oğluna nəsə nəql edirdi. Sol əli ilə oğlunun yanaqlarını yavaş-yavaş, nəvazişlə oxşayırdı. Uşaq gülümsəyəndə yanaqlarında iki çökək yer iki balaca günəş kimi şəfəq saçırdı. Artur uzun-uzadı onlara baxdı.

– Nəyə baxırsan, – Loren soruşdu.

– Əsl xoşbəxtlik anına.

– Harada?

– Bax, oradakı uşaq. Onun üzünə bax. O, öz dünyasının mərkəzindədir.

– Bu, sənə nəyisə xatırladır?

Cavabın əvəzində Artur gülümsədi. Loren onun anası ilə olan münasibətləri haqqında öyrənmək istəyirdi.

– Anam dünən ölüb, dünən onun ölüm günü idi. Bilirsən, həmin günün səhəri məni ancaq bir şey təəccübləndirdi: binalar hələ də əvvəlki kimi yerində idi, küçələrdə maşınlar yenə də şütüyürdü, piyadalar əvvəlki kimi addımlayırdı. Elə bil, dünyamın tamamilə məhv olduğundan heç xəbərləri də yox idi. Mən bunu həyatımı özü ilə sürükləyib aparan boşluqdan hiss edirdim. Elə bil şəhər birdən-birə sükuta qərq olmuşdu, bütün ulduzlar parça-parça olmuş, parıltılarını itirmişdilər. O, ölən gün, inan ki, düz sözümdür, bağdakı arılar pətəklərindən çıxmadı, bir dənəsi belə çiçəyə qonub bal toplamadı, sanki onlar da anlamışdılar... Mən bir şey arzulayıram: kaş mən də onun həzin laylasını dinləyə-dinləyə onun qolları arasına aldığı o uşaq kimi olaydım. Əlini çənəmdə gəzdirib məni yuxudan oyadarkən yenə əvvəlki kimi bədənimin ürpəşməsini istəyirəm. Və o an məni heç nə qorxuda bilməzdi: nə məktəbdəki yekəpər Stiv Haçenbaxın məni təqib etməsi, nə dərsi öyrənmədiyim üçün müəllim Mortonun üstümə qışqırması, nə də yeməkxanadan gələn iyrənc qoxular. Sənə özünün də dediyin kimi niyə bu qədər


ekitab.ucoz.org

"təmkinli" olduğumu söyləyim. Çünki biz hər şeyi yaşaya bilmərik, önəmli olan əsas şeyi yaşamaqdır. Hər birimizin həyatında "bir əsas şey" var.

– İstərdim ki, göylər səni eşitsin və mənim "əsas şey"im hələ irəlidə olsun.

– Məhz elə o "əsas şey"ə görə əl-qolumuzu sallayıb otura bilmərik. Artıq işə başlamaq zamanıdır.

Artur hesabı ödədi və birlikdə maşın dayanacağına tərəf yönəldilər. Maşına minmədən əvvəl Loren Arturun yanağından öpdü.

– Hər şey üçün çox sağ ol, – dedi.

Artur gülümsədi və qızararaq bir söz demədən qapını açdı.



ekitab.ucoz.org

# 8

Artur demək olar ki, üç həftə şəhər kitabxanasında oldu. Kitabxana binası əsrin əvvəllərində modern-klassik tərzdə tikilmiş bir bina idi. Başqa zallarda mövcud olmayan onlarla əzəmətli tağ-tavanlı zallarda fərqli bir atmosfer hökm sürürdü. Məsələn, şəhər arxivi şöbəsində tez-tez yüksək cəmiyyətdən fransiskan ordeninə mənsub olanlarla yanaşı qoca, ya da gənc – hər cür yaşda, lətifələr söyləyən hippilərə, bir sözlə, şəhərin bir-birinə zidd – təbəqələrinə rast gəlmək olardı. Artur iyirmi yeddi nömrəli – tibbə dair əsərlərin yerləşdiyi zalın qırx səkkiz saylı nevrologiya bölməsində oturaraq bir neçə gün ərzində komaya, qeyri-şüurluluğa və kəllə-beyin travmasına dair minlərlə səhifə oxudu. Oxuduğu kitablar Lorenin vəziyyəti haqqında geniş izahat vermiş olsa da, qarşılaşdığı bu problemin həlli haqqında heç bir ipucu vermirdi. Hər dəfə bir əsəri bitirib digərinə keçəndə nəsə tapacağına ümid edirdi. Hər səhər kitabxana açılan kimi bir qalaq kitabla oturaraq öz “tapşırığına” qapılırdı. Hərdənbir masasını kompüterin ekranına tərəf yaxınlaşdırır və məşhur həkimlərə mesajlarla suallar göndərirdi. Bəziləri bu axtarışların məqsədi ilə maraqlanaraq cavab verirdilər. Sonra o, yenidən öz oturacağına qayıdır və mütaliəyə davam edirdi. Nahar fasiləsi zamanı mövzuya dair bəzi dərgiləri də özü ilə götürərək qəhvəxanaya gedirdi. Və beləcə iş gününü saat onda kitabxana bağlanana qədər başa vurardı.

Axşam evə qayıdan kimi şam yeməyi yeyə-yeyə Lorenə gün boyunca etdiyi axtarışlar haqqında danışardı. Mübahisələr qızışırdı, Loren unudurdu ki, Artur heç də tibb fakültəsinin tələbəsi deyil. Onun tibbi terminologiyanı bu cür qısa zaman ərzində öyrənməsi Loreni təəccübləndirirdi. Arqumentlər və ziddiyyətlər bir-birini əvəz edir, gah bir-biri ilə razılaşırdılar, gah da aralarında fikir ayrılığı yaranırdı və bu vəziyyət gecə olana, ya da yorulub əldən düşənə qədər davam edirdi. Səhər yeməyi zamanı Artur ona növbəti araşdırma üsulundan danışırdı. Lorenin onunla gəlməsini istəmir, fikrinin


ekitab.ucoz.org

yayınacağını bildirirdi. Lorenin yanında ruhdan düşməməyə çalışsa da, hər dəfə optimizmlə dolu yeni-yeni təkliflər irəli sürsə də, aradabir yaranan sükut onların öz məqsədlərindən nə qədər uzaq olduqlarından bir daha xəbər verirdi.

Araşdırmasının üçüncü həftəsini başa vuran Artur cümə günü kitabxanadan bir az erkən çıxdı. Maşında radionun səsini tamamilə açdı və Bari Uaytın səslənən musiqisini dinləməyə başladı. Dodaqlarında təbəssüm var idi. Kaliforniya-strit tərəfə döndü və bir neçə döngədən sonra maşını saxladı. Əslində xüsusi heç nə kəşf etməmişdi, ancaq yenə də könlündən bir bayram yeınəyi keçirdi. Evə qayıdan kimi süfrə açacaq, şamları yandıracaq, bütün mənzili musiqiyə qərq edib Loreni rəqsə dəvət edəcəkdi. Bu gün hər cür tibbi müzakirələr qadağan idi. Körfəz alatoranlıqda sönməkdə olan günəşin son qamaşmalarına qərq olarkən Artur Qrin-stritdəki viktorian üslublu evin qarşısında maşını saxladı. Ritmlə pilləkənləri qalxdı, açarı akrobatik hərəkətlərlə kilidə saldı və əli dolu içəri girdi. Qapını ayağı ilə itələyib örtdü və əlindəki kağız paketləri mətbəx masasının üstünə qoydu. Loren pəncərənin kənarında oturmuşdu. Mənzərəyə tamaşa edirdi, Arturun içəri girdiyini eşitsə də, dönüb baxmadı. Artur şən səslə onu çağırdı. Ancaq Lorenin əhvalı yaxşı deyildi və o qəfildən yoxa çıxdı. Yataq otağından səsi eşidildi:

– Mən hətta qapını belə örtə bilmirəm!

– Loren, sənə nə olub?

– Məni rahat burax!

Artur paltosunu çıxardı və tələsik addımlarla içəri keçdi. Loren başını əlləri arasına alaraq pəncərə qarşısında dayanmışdı.

– Sən ağlayırsan?

– Mənim göz yaşım axmır, necə ağlaya bilərəm?

– Sən ağlayırsan! Nə olub axı?

– Heç nə. Heç nə olmayıb!

Artur onun baxışlarını yaxalamağa çalışdı, ancaq Loren gözlərini yerdən ayırmırdı. Yavaş-yavaş ona yaxınlaşdı və üzünə baxmaq üçün qollarından tutub özünə tərəf döndərdi. Loren başını aşağı əydi, Artur əli ilə çənəsindən tutub başını qaldırdı. Bir daha soruşdu:

– Nə olub?

– Onlar hər şeyə son verəcəklər!


ekitab.ucoz.org

– Kim, nəyə son verəcək?

– Səhər xəstəxanaya getmişdim. Anam orada idi. Həkimlər onu inandırırdılar ki, ən yaxşısı evtanaziyadır.

– Bu nə axmaqlıqdır? Kim kimi inandırır?

Lorenin anası həmişəki kimi bu səhər də "Memorial" xəstəxanaya gəldi. Xəstənin çarpayısının yanında üç həkim onu gözləyirdi. Anası palataya daxil olan kimi həkimlərdən biri – kifayət qədər yaşlı olanı ona tərəf addımladı və onunla vacib söhbəti olduğunu bildirdi. Bu iş üçün xüsusi olaraq çağırılmış psixoloq xanım Klaynın qolundan tutub ona oturmağı təklif etdi Və qadını bu mümkünsüz işi qəbul etməyə inandırmaq üçün çoxsaylı arqumentlər gətirə-gətirə uzun-uzadı nitq söylədi. Ailəsinin burada tutduğu bu bədən ruhsuz varlıqdan başqa bir şey deyildi. Əlbəttə, sevdiyin insanın ölümünü qəbul etməkdənsə, onu süni həyatdan asılı saxlamaq daha yaxşıdır, ancaq nəyin bahasına? Bu qəbuledilməz faktı qəbul etmək və günah hissi keçirmədən məsələni həll etmək lazımdır. Hər cür vasitəyə əl atılıb. Özünü aldatmaq lazım deyil. Cəsarətli olmaq və bu faktı qəbul etmək lazımdır. Həkim Klomb təkidlə qeyd etdi ki, artıq xanım Klayn qızının bədənindən asılı vəziyyətə düşməyə başlayır. Qəfildən xanım Klayn əlini həkimin əlləri arasından çəkib başını yellətdi və qətiyyətlə etiraz nümayiş etdirdi. O, bunu edə bilınəzdi! Bunu etmək istəmirdi! Ancaq həkimin ehtiyatla seçdiyi arqumentlər hər ötən anla ananın hisslərini darmadağın edir və onu məntiqli və doğru qərarın lehinə kökləyirdi. İncə, bəlağətli nitqlə bildirildi ki, bu təklifdən imtina xəstəyə qarşı ədalətsizlik və qəddarlıq, onun özünə qarşı isə eqoistlikdir və bu, çox təhlükəlidir.

Şübhə toxumları cücərməyə başladı. Yenidən nəzakət dolu incəliklə, daha da ciddi arqumentlər gətirməklə günah hissini oyadan və təmtəraqlı, şəfqət dolu sözlər səsləndi. Onun qızının reanimasiya şöbəsində tutduğu yer bir başqa pasiyentin həyatı bahasına başa gəlir, başqa bir ailənin ümidlərini məhv edir. Bir günah hissini başqa bir günah hissi ilə əvəz edirdilər... və beləcə şübhələr ürəkdə kök salmağa başlayırdı. Loren isə dəhşət içində bu tamaşanı seyr edir və anasının fikirlərinin getdikcə dəyişdiyinin şahidi olurdu. Dörd saatlıq


ekitab.ucoz.org

söhbətdən sonra xanım Klaynın müqaviməti qırıldı və göz yaşları içində tibbi heyətin gətirdiyi arqumentləri qəbul etdi. O, evtanaziya təklifini qəbul etdi. Yeganə tələbi, bu tələbdən daha çox istək idi, sadəcə dörd gün gözləmək idi; “əmin olmaq üçün”. O gün cümə günü idi, bazar ertəsinə qədər hər şey olduğu kimi qalmalı idi. Bu məsələyə həm özü hazır olmalı, həm də yaxın adamlarını hazırlamalı idi. Həkimlər şəfqətlə başlarını yelləyərək elmin öhdəsindən gələ bilmədiyi bu problemli məsələdən çıxış yolu tapdıqları üçün hiss etdikləri razılıq hissini gizlədərək üzlərində anlayış dolu ifadə ilə ananın dərdinə şərik olduqlarını göstərirdilər: axı nə canlı, nə də ölü bir varlıqla nə etsinlər? Hippokrat hardan bilə bilərdi ki, bir gün həkimlər bu cür problemlə üzləşəcəklər?

Həkimlər ananı qızı ilə tək qoyub otağı tərk etdilər. Qadın qızının əlini tutub, başını onun qarnına dayadı və göz yaşları içində ondan üzr istədi.

– Artıq dayana bilmirəm, bala, mənim balaca qızım. Kaş sənin yerində olaydım.

Otağın o biri küncündə Loren qorxu və kədər-qarışıq dəhşət hissi ilə ona baxırdı. Yaxınlaşıb anasının çiyinlərindən qucaqladı, ancaq təbii ki, anası bu toxunuşu hiss etmədi.

Həkim Kolomb liftdə ikən öz həmkarlarını təbrik etdi.

– Qorxmursan ki, fikrini dəyişər? – Fernşteyn soruşdu.

–Yox, inanmıraın. Həm lazım gəlsə, onunla bir də danışarıq.

Loren anasını və bədənini palatada tərk edib birbaş evə, pəncərənin yanına qayıdıb və bütün görüntüləri, bütün qoxuları və şəhərin uğultusunu içində hopdurmağa çalışıb.

Artur onu qolları arasına aldı və şəfqətlə qucaqladı.

– Ağlayarkən də gözəlsən. Göz yaşlarını sil, mən buna izin verməyəcəyəm.

– Necə? – Loren soruşdu.

– Bunu fikirləşməliyəm.

Loren onun yanından uzaqlaşdı və yenidən pəncərənin yanına gəldi.

Küçədə yanan lampalara baxa-baxa dedi:

– Axı nə xeyri var? Bəlkə də elə belə yaxşıdır, bəlkə də onlar haqlıdırlar.


ekitab.ucoz.org

– Bununla nə demək istəyirsən? "Belə də yaxşıdır" nə deməkdir?

Arturun qəzəblə səslənən sualına cavab gəlmədi. Hər zaman güclü olan Loren indi özünü məğlub hiss edirdi. Düzünə qalsa, onun indiki yaşamı yarım həyatdan başqa bir şey deyildi, bu cür anasının da həyatını məhv edirdi, üstəlik, "tunelin o biri başında onu artıq heç kim gözləmirdi".

– Əgər oyana bilsəydim... ancaq buna ümid azdır.

–Yəni elə düşünürsən ki, həmişəlik ölsəydin, anan bununla təsəlli tapar?

– Sən çox yaxşı adamsan, – Loren onun sözünü kəsdi.

– Mən yenə nə dedim?

– Heç nə. Sadəcə, sənin "həmişəlik ölsəydin" sözün xoşuma gəldi, xüsusən də indiki vəziyyətdə.

– Elə bilirsən, ölümdən sonra yaranacaq boşluğu anan doldura biləcək? Elə düşünürsən ki, geri çəkilmək ən yaxşı yoldur? Bəs mən?

Loren sual dolu baxışlarla ona baxdı.

– Bəs sən nə?

– Sən oyananda mən səni gözləyəcəyəm. Bəlkə də başqaları üçün gözəgörünməzsən, ancaq mənim üçün yox.

– Bu eşq elanıdır?

Lorenin səsində istehza hiss edilirdi.

– Bu qədər özündənrazı olma, – Arturun cavabı quru səsləndi.

– Bütün bunları axı niyə eləyirsən? – Loren qəzəblə soruşdu.

– Səsindəki bu düşmənçilik nədir? Məni nəyə təhrik etməyə çalışırsan?

– Sən axı niyə buradasan, addımbaşı yanımdasan? Var gücünlə elə hey nəsə eləməyə çalışırsan. Yoxsa başın xarab olub? – Loren qışqırırdı, – sənə nə lazımdır?

– Sən çox qəzəblisən!

– Cavab ver! Düzünü de!

– Yanıma gəl, əyləş və sakitləş. Sənə bir əhvalat danışacağam və özün hər şeyi başa düşəcəksən. Bir dəfə Karmel yaxınlığında evdə şam yeməyi yeyirdik. Qonaqlarımız var idi. O zaman yeddi yaşında idim...

Artur həmin axşam şam yeməyi zamanı valideynlərinin ailəvi dostunun danışdığı əhvalatı Lorenə danışmağa başladı. Həkim Miller olduqca məşhur cərrah-oftalmoloq idi. Həmin axşam o, özünü bir


ekitab.ucoz.org

qədər qəribə aparırdı, sanki nədənsə narahat idi və ya pərt olmuşdu. O, özünü heç vaxt belə aparmazdı. Bunu Arturun anası da hiss etdi və narahatlıqla ondan nə baş verdiyini soruşdu. Həkim bir əhvalat danışdı.

On beş gün əvvəl o, dünyaya kor gəlmiş balaca bir qızı əməliyyat etmişdi. Qız nə özünün, nə də anasının nə cür göründüyünü bilmirdi, səmanın nə demək olduğunu anlamırdı, rənglərdən xəbəri yox idi. Xarici dünya ona yad idi, beyninə heç bir görüntü həkk olmamışdı. O, həyatı boyunca yalnız formaları və konturları hiss etmiş, ancaq əllərinin toxunduğu əşyalar haqqında heç bir görüntüyə malik deyildi.

Koko (həkimi hamı belə çağırırdı) "mümkünsüz" bir əməliyyata girişdi. Onsuz da itirəcək heç nə yox idi. Arturgilə dəvət edildiyi günün səhəri o, palatada balaca qızın gözlərindəki sarğını açırdı.

– Mən sənin sarğılarını tamamilə açmazdan əvvəl sən artıq nəsə görməyə başlayacaqsan. Odur ki hazır ol!

– Mən nə görəcəyəm? – uşaq soruşdu.

– Sənə əvvəl də demişdim, işıq görəcəksən.

– Bəs işıq nədir?

– Həyatdır, bir dəqiqə də gözlə...

Həkimin ona dediyi kimi doğrudan da, bir neçə andan sonra gün işığı uşağın gözlərinə doldu. Yolundakı səddi dağıdıb – aşan çaydan daha da qüvvətli bir şəkildə işıq göz qapaqları arasından süzülərək var qüvvəsilə uşağın gözlərinə doldu və göz kristallarını sürətlə aşaraq daşıdığı minlərlə informasiyanı gözün dərinliklərinə ötürdü. Doğulduğundan bəri ilk dəfə idi ki, fəaliyyət göstərən hər iki gözün torlu qişasının milyonlarla hüceyrəsi onlarda öz əksini tapan görüntüləri kodlaşdırmaq üçün qeyri-adi mürəkkəbliyə malik kimyəvi reaksiyaları doğuraraq birdən-birə coşdular. Kodlar dərhal dərin yuxudan oyanan və bu yüksək ötürməni beyinə çatdıraraq fəallaşan görmə sinirlərinə ötürüldü. Bir neçə min andan sonra beyin bütün ötürülmüş məlumatların kodunu açdı, onları canlı görüntülərə çevirərək öz arasında əlaqələndirməyi və anlamağı şüurun ixtiyarına buraxdı. Dünyanın ən qədim, ən mürəkkəb və ən miniatür qrafik prosessoru qəfildən optik sistemlə əlaqə yaratdı və işə başladı. Qızcığaz qorxu qarışıq səbirsizlik nümayiş etdirərək Kokonun əlini tutdu və ona dedi:


ekitab.ucoz.org

“Dayan, mən qorxuram”. Koko bir an gözlədi və qızı qucaqladıqdan sonra yenidən gözlərindəki sarğı açıldığı zaman nə baş verəcəyini izah etdi. Minlərlə yeni məlumat indiyə qədər təxəyyülünün onda yaratdığı hər şey tərəfindən udulacaq, müqayisə ediləcək və başa düşüləcəkdi. Koko göz sarğısını açmağa başladı. Gözlərini açarkən qızın ilk gördüyü həkimin əlləri oldu: qız onları oyuncaq kimi oynadırdı. Sonra isə başını əydi, o, eyni anda həm gülür, həm də ağlayırdı, ancaq bir an belə olsun gözlərini bu on barmaqdan çəkmirdi, sanki onu əhatə edən və gerçək olan hər şeydən bu cür qurtulmağa çalışırdı. Çünki qorxurdu. Sonra isə gecəli-gündüzlü bu qaranlıq dünyada onun yanında olan, ancaq formasını hiss etdiyi öz gəlinciyinə baxdı.

Geniş palatanın qapısı açıldı və otağın o biri ucundan anası içəri girdi. O susurdu. Qızcığaz başını qaldırdı və bir neçə dəqiqə baxışlarını qadından ayırmadı. O, bu qadını heç vaxt görməmişdi! Bununla belə, birdən qızcığazın üzündə körpə məsumiyyətini andıran bir ifadə peyda oldu və onun bir neçə metrliyində dayanan qadına qollarını açdı və tərəddüd etmədən bu “yad” adamı səslədi: “Ana!”

– Koko bu əhvalatı danışıb qurtaranda mən anladım ki, bu hadisə onun həyatında son dərəcə dərin iz buraxıb. İndi o, doğrudan da, önəmli bir iş gördüyünü söyləyə bilərdi. Sən də bunu özün üçün belə izah edə bilərsən: “Artur bütün bunları Koko Milierin xatirəsi üçün edir”. İndi isə əgər sakitləşmisənsə, gərək fikirləşmək üçün bir az tək qalım.

Loren heç nə demədi, sadəcə, nəsə mızıldandı.

Artur divanda əyləşdi və alçaq masanın üstündən götürdüyü karandaşın ucunu dişləri arasında gəmirməyə başladı. Bir neçə dəqiqə beləcə oturub qaldı, sonra qəfildən ayağa qalxdı və iş masasının başına keçib kağızda nəsə çəkməyə başladı. Düz bir saat bununla məşğul oldu. Həmin vaxt Loren onun hər hərəkətini diqqətlə izləyirdi. Hər dəfə Artur karandaşın ucunu gəmirərək birdən nə isə çəkməyə başlayanda və ya işinə ara verəndə Lorenin maraqdan bütün əzaları titrəyirdi. İşini bitirən kimi Artur Lorendən ciddiyyətlə soruşdu:

– Xəstəxanada sənin bədəninə necə qulluq edirdilər?



ekitab.ucoz.org

– Sən gigiyena işlərini nəzərdə tutursan?

– Hə, həm də müalicəni.

Onda Loren ona dərmanların ona venadaxili borular vasitəsilə verildiyini bildirdi, belə ki, başqa cür qidalana bilməzdi. Həftədə üç dəfə önləyici vasitə kimi antibiotiklər vurulurdu. Qasnaq bağlamaması üçün budlarını, dirsəklərini, dizlərini və çiyinlərini masaj edirdilər. Yerdə qalan qulluq isə onun həyati göstəricilərini və hərarətini nəzarətdə saxlamaqdan ibarət idi. Onun süni nəfəsalma aparatına ehtiyacı yoxidi.

– Mən özüm özümü idarə edirəm. Onların problemi də bundadır, yoxsa aparatı söndürmək kifayət edərdi. Təxminən bu qədər.

– Onda niyə bunun baha başa gəldiyini deyirlər?

– Çarpayıya görə – və Loren ona bir çarpayının niyə xəstəxanaya baha başa gəldiyini izah etməyə başladı.

Pasiyentlərin təmin edildiyi qulluq növləri bir o qədər də bir-birindən fərqlənmir. Qulluq xərcini çarpayıların və il boyunca xəstələrin bu çarpayıları tutduqları günlərin sayına bölmək kifayət edir. Bu cür təcili yardım, nevrologiya, reanimasiya, ortopediya və s. bölmələr üzrə gündəlik müalicə xərclərini hesablayırlar.

– Bəlkə də həm bizim, həm də onların problemini birdəfəlik həll edə bilərik, – Artur dedi.

– Nə fikirləşmisən?

– Sən heç sənin vəziyyətində olan pasiyentlə məşğul olmusan?

Loren təcili surətdə xəstəxanaya çatdırılan xəstələrlə məşğul olmuşdu, ancaq bu cür uzun müddət ərzində xəstəxanada qalan pasiyentlərlə yox.

“Bəs məşğul ola bilərdin?..” Loren bunun heç də çətin olmadığını söylədi, belə ki, bu hər bir sanitarın səlahiyyətləri daxilində olan bir işdir, əlbəttə, gözlənilməz halları çıxmaq şərtilə.

“Yəni bunu eləyə bilərsən?..”

Loren Arturun nə fikirləşdiyini anlaya bilmirdi.

– Bəs venadaxili ötürmə məsələsi çətindir? – Artur təkidlə soruşdu.

– Nə mənada?

– Yəni lazım olan materialları əczaxanadan tapmaq olar?

– Xəstəxananınkından, hə.

– Bəs normal əczaxanadan?



ekitab.ucoz.org

Loren bir neçə dəqiqə fikirləşdi və təsdiqdə cavab verdi. Qlükoza, antikoagulant və fizioloji serum alıb onları qarışdırmaqla venadaxili mayeni hazırlamaq olar. Yəni bu, mümkündür. Yeri gəlmişkən, evdə xəstələrə qulluq edən tibb bacıları bu tərkibi əczaxanalardan sifariş edə bilirlər.

– İndi isə Pola zəng eləməliyəm, – Artur dedi.

– Niyə?

– Təcili yardım maşını üçün.

– Təcili yardım maşını? Sən nə fikirləşmisən? Mənim də bilməyə haqqım var, ya yox?

Loren onun nə demək istədiyini başa düşməsə də, narahat olmağa başladı.

– Səni oğurlayacağıq! Bədən yoxdur, evtanaziya da yoxdur!

– Sən doğrudan da dəli olmusan!

– Şişirtmə!

– Məni necə oğurlayacaqsınız? Bədənimi harada gizlədəcəksiniz? Mənə kiın qulluq edəcək?

– Eyni anda nə qədər sual verirsən?!

Bədəninə Loren özü qulluq edəcək! Onun lazımi təcrübəsi var. Bircə qalır venadaxili mayeni əldə eləmək məsələsi. Ancaq bunda da qeyri-mümkün heç nə yox idi. Sadəcə, aradabir müxtəlif əczaxanalara müraciət etmək lazımdır, vəssalam!

– Hansı reseptlə? – Loren soruşdu.

– Sənin birinci sualının birinci hissəsi belə olmalıdır: necə?

– Yaxşı. Necə?

Polun atalığı mexanik idi, yanğınsöndürən, polis, təcili yardım kimi təcili çağırış maşınlarının təmiri ilə məşğul idi. Təcili yardım maşınını "borc" ala bilərlər, xalat oğurlayarlar və Loreni başqa xəstəxanaya köçürmək bəhanəsi ilə xəstəxanadan çıxararlar. Loren əsəbi halda gülməyə başladı.

– Bu şeylər bu cür həll edilmir!

Loren ona xatırlatdı ki, xəstəxana supermarket deyil ki, istədiyin vaxt girəsən. Bir xəstəni köçürmək və ya tibb işçilərinin dili ilə desək "xəstəni göndərmək" üçün bir yığın inzibati iş görülməlidir: xəstəni qəbul edən xəstəxananın məsuliyyəti öz üzərinə götürməsi barədə sənəd, xəstəxanaya daxil olma haqqında sertifikat, ınüalicə edən həkimin imzaladığı köçürmə haqqında xüsusi icazə vərəqəsi, təcili yardım maşınını təmin edən şirkətin köçürmə haqqında iltizamnaməsi, xüsusi köçürmə şərtlərini


ekitab.ucoz.org

əks etdirən səyahət vərəqəsi lazım idi.

– Bax, elə oyunun bu yerində işə sən qoşulursan, Loren. Sənədləri düzəltməkdə mənə kömək edəcəksən.

– Mən bacarmaram, axı bunu necə edə bilərəm? Mən heç nəyi tuta bilmirəm, bir yerdən başqa yerə heç nə qoya bilmirəm.

– Ancaq onların harada yerləşdiyini bilirsən?!

– Hə, bilirəm, nə olsun?

– Mən onları oğurlayacağam. Sən blankları tanıyırsan?

– Əlbəttə, onları hər gün imzalayırdım, ən çox da bizim şöbədə.

Loren sənədləri Artura təsvir etməyə başladı. Söhbət ağ, çəhrayı və mavi rəngli kağızlarda çap edilmiş xüsusi başlıqlı və müxtəlif xəstəxana və ya şirkətlərin loqotipini əks etdirən sənədlərdən - gedirdi.

– Biz onları yenidən düzəldərik, – Artur dedi, – arxamca gəl.

Artur köynəyini və açarlarını götürdü. O, elə cəld və qətiyyətlə hərəkət edirdi ki, bu, Lorenin onun reallıqdan uzaq planının əleyhinə arqumentlər gətirməsinə mane olurdu. Onlar maşına əyləşdilər, Artur pultu işə salıb qarajın qapısını bağladı və Qrin-strit tərəfə yol aldı. Şəhər sükuta bürünsə də, Arturun ürəyi heç də sakit deyildi. Maşın böyük sürətlə “Memorial” xəstəxanasına tərəf şütüyürdü. Maşını birbaşa təcili yardım maşınlarının dayandığı dayanacağa sürdü. Loren onun nə edəcəyini soruşdu, o isə dodaqucu gülümsəyərək “Arxamca gəl və çalış gülməyəsən” deməklə kifayətləndi.

Təcili yardım şöbəsinin qapısından içəri girən kimi dərhal ikiqat əyildi və bu vəziyyətdə qəbul məntəqəsinə yaxınlaşdı. Növbətçi həkim ona nə olduğunu soruşdu. Artur yeməkdən iki saat sonra qarnında sancı yarandığını dedi və kor bağırsağından əməliyyat olunduğunu iki dəfə bildirdikdən sonra bəzən bu cür dözülməz ağrılarının olduğunu söylədi. Xəstə baxıcısı ona xərəkdə uzanmağı və tibb bacısı gələnə qədər gözləməyi xahiş etdi. Təkərli kürsünün qoltuq hissəsində oturan Loren gülümsədi. Artur əla komediya oynayırdı, belə ki, gözləınə zalında o, özünü xəstəliyə vuranda Loren də məsələdən duyuq düşməmiş, narahat olmağa başlamışdı.


ekitab.ucoz.org

– Sən nə etdiyini heç özün də bilmirsən, – deyə Loren pıçıldadı. Elə həmin vaxt bir həkim Artura yaxınlaşdı.

Özünü həkim Spasek kimi təqdim edən həkim onunla dəhliz boyunca uzanan və pərdələr vasitəsilə bir-birindən ayrılan açıq palatalardan birinə gəlməyi xahiş etdi. O, Arturu müayinə çarpayısında uzandırdı və ağrıları haqqında suallar verməyə başladı, eyni zamanda qəbul məntəqəsində qeyd edilən məlumatların yazıldığı kartoçkanı oxuyurdu. Artur haqqındakı bütün məlumatlar (öz "məsumiyyət"ini itirdiyi andan başqa) bu adamın əlindəki vərəqdə yazılmışdı. Bu sorğu-sual lap polis təhqiqatını andırırdı. Artur dəhşətli sancılardan şikayət edirdi.

– Bu dəhşətli ağrılar haranızdadır? – həkim soruşdu.

– Qarnımın hər yerində. Çox ağrıyır.

– Çox şişirtmə, – Loren dilləndi, – əks halda səni sakitləşdirici iynə vurulmaq, gecəni burada keçirmək və sabah səhər fibroskopiya və kolonoskopiya ilə barium-sulfatla yuyularaq rentgendən keçmək gözləyir.

– İynə istəmirəm! – Artur bilaixtiyar qışqırdı.

– Mən iynə haqqında heç nə demədim, – həkim Spasek başını xəstənin dosyesindən qaldıraraq dilləndi.

– Yox, sadəcə, əvvəlcədən demək istədim, çünki iynəyə dözə bilmirəm.

Həkim ondan əsəbi adam olub-olmadığını soruşdu, Artur başı ilə təsdiqlədi. O, onu əllə müayinə edəcəyini və ağrını ən çox harada hiss etdiyini ona bildirməsini söylədi. Artur yenidən başını yellətdi. Həkim hər iki əlini bir-birinin üstünə qoyub Arturun qarnına dayadı və müayinəyə başladı.

– Burada ağrı var?

– Bəli, – tərəddüdlə cavab verdi.

– Bəs burada?

– Xeyr, sən orada ağrı hiss edə bilməzsən, – Loren gülümsəyərək cavab verdi.

Artur dərhal tibb işçisinin əli ilə müayinə etdiyi yerlərdə heç bir ağrı hiss etmədiyini söylədi. Beləcə Loren onu bütün cavablarında müşayiət etdi. Həkim əsəbdən yaranan kolit olması qənaətinə gələrək və antispazmatik dərmanın kifayət edəcəyini söylədi. Dərmanı isə xəstəxananın əczaxanasından yazacağı reseptlə ala bilərdilər. İki dəfə həkimin əlini sıxıb üç


ekitab.ucoz.org

dəfə təşəkkür etdikdən sonra Artur tələsik addımlarla xəstəxananın əczaxanasına doğru yönəldi. İndi onun əlində hər birinin başlıqlı və üzərində "Memorial" xəstəxanasının loqotipi olan üç müxtəlif sənəd var idi. Biri mavi, digəri çəhrayı, o birisi isə yaşıl rəngdə idi. Birincisi resept, ikincisi ödəniş fakturası, üçüncüsü isə çıxış icazəsi idi və başlıqda böyük hərflərlə yazılmışdı: "Köçürmə icazəsi/Çıxış icazəsi" və çəpəki şriftlərlə isə "Lazımsız olanların üstündən xətt çəkin" yazılmışdı. Artur üzündə razılıq ifadəsi ilə gülümsədi. Loren onun yanında gedirdi. O, Lorenin qolundan tutdu.

– Bizdən əla komanda çıxar, hə?

Mənzilə qayıdan kimi Artur hər üç sənədi skaner vasitəsilə kompütere köçürüb surətini çıxardı. İndi onun çox sayda və hər rəngdə, hər formada "Memorial" xəstəxanasının rəsmi atributları olan vərəqləri var idi.

Printerdə ilk rəngli vərəqlər görünməyə başlayanda Loren dedi:

– Sən çox güclüsən!

– Bir saatdan sonra Pola zəng edəcəyəm, – Artur dedi.

– Gəl əvvəlcə sənin layihən haqqında danışaq, əziz Arturum.

Artur Lorenin haqlı olduğunu bildirib dedi ki, gərək bu köçürmə planı haqqında bütün lazımlı xırdalıqları ondan öyrənsin. Ancaq Lorenin haqqında danışmaq istədiyi mövzu heç də bu deyildi.

– Bəs nə haqda danışmaq istəyirsən?

– Artur, düzdür, sənin planın məni çox mütəəssir edir, ancaq bağışla, o, reallıqdan uzaq, fantastik və sənin üçün olduqca təhlükəlidir. Əgər bunu eləsən, səni tutacaqlar. Axı nəyin naminə?

– Əgər heç nəyə cəhd eləməsək, bu, sənin üçün də təhlükəli olacaq. Bizim ancaq üç günümüz var, Loren!

– Bunu edə bilməzsən, Artur, bunu etməyə sənə icazə verə bilmərəm. Bağışla.

– Mənim hər dəfə cümləsinin sonunda "bağışla" deyən bir qadın dostum var idi. O, hər şeyi o qədər şişirdirdi ki, artıq dostları ona su belə təklif etməyə qorxurdular, birdən susadığı üçün üzr istəyər.

– Artur! Axmaqlıq eləmə. Sən nə demək istədiyimi yaxşı başa düşürsən. Bu plan dəlilikdir!

– Əslində bu vəziyyət özü dəlilikdir, Loren!


ekitab.ucoz.org

Başqa çıxış yolu yoxdur.

– Özünü mənə görə bu cür riskə atmağına icazə verə bilmərəm.

– Loren, mənə kömək eləsəydin, daha yaxşı olardı, vaxtımız da hədər getməzdi. Burada söhbət sənin həyatından gedir.

– Nəsə başqa çıxış yolu olmalıdır.

Arturun fikrincə, bu plandan başqa bir çıxış yolu da var idi: bu da Lorenin anası ilə danışmaq və ona evtanaziyadan imtina etməyi söyləmək idi. Bu, bir az çətin məsələ idi. Xanım Klaynla Artur heç bir-birilərini tanımırdılar, odur ki, görüş təyin etmək qəliz məsələ idi. O, tanımadığı adamla bu haqda danışmaq istəməzdi. Artur özünü Lorenin tanışı kimi qələmə verə bilərdi, ancaq Lorenin anasının buna inanınayacağını söylədi, çünki o, Lorenin yaxın dostlarının hamısını tanıyırdı. Bəlkə ona haradasa, daha doğrusu, anasının ən çox olduğu yerlərdən birində təsadüfən rast gəlmiş kimi davrana bilərdi. Sadəcə, bunun üçün əlverişli yeri düşünüb tapmaq lazım idi. Loren bir neçə dəqiqə fikrə getdi.

– O, hər səhər itimi Marinada gəzdirir, – Loren dilləndi.

– Hə, ancaq gərək mənim də itim olsun.

– Niyə?

– Çünki itim olmadan ona yaxınlaşsam, özüınü dərhal ələ verərəm.

– Özünü elə göstərərsən, guya hər səhər Marinada gəzişirsən.

Bu plan Lorenin ürəyinə yatdı. Artur Kalinin gəznıə saatlarında Marina boyunca addımlayar və itdən xoşu gəlib deyə onu tumarlayar və anası ilə söhbət edə bilərdi. Artur bunu sınaqdan çıxarmağı qəbul edərək ertəsi gün parka getınəyi qərarlaşdırdı.

Səhər erkəndən ayağa qalxdı, kətan şalvarını və sviterini əyninə keçirdi. Evdən çıxmazdan əvvəl Lorendən onu bərk-bərk qucaqlamasını xahiş etdi.

– Sənə nə olub? – Loren utanaraq soruşdu.

– Heç nə. Bunu izah etməyə vaxtım yoxdur. Bu, itə görədir.

Loren onun dediyini etdi, başını onun çiyninə qoydu və köks ötürdü.

– Əla, – Artur gümrah bir səslə dilləndi və geri çəkildi, – qaçım, yoxsa anan əldən çıxacaq.

Lorenlə belə sağollaşmağa vaxt tapmadan yel ki-


ekitab.ucoz.org

mi qapıdan çıxdı. Qapı bağlandı və Loren köks ötürərək çiyinlərini çəkdi: "O, məni itə görə qucaqladı".

Artur öz gəzintisinə başlayanda Qolden Geyt hələ ki, pambıq buludların altında mürgüləməkdə idi. Yalnız qırmızı körpünün hər iki dirəyi onu bürüyən dumandan sıyrılıb çıxmışdı. Körfəzdə dustaq dəniz dalğasız idi, hər səhər olduğu kimi qağayılar balıq axtara-axtara dəniz üzərində dövrə vururdu. Limanın kənarında gecə yağıntılarından geniş gölməçələr yaranmışdı. Körfəzdə bağlanmış gəmilər aranıla yırğalanırdılar. Hər yerdə sakitlik hökm sürürdü, yalnız bir neçə qaçışçı səhərin sərin və nəm havasını yarırdı. Bir neçə saatdan sonra Sousalito və Tiburon yamacları üzərindən iri günəş görünməyə və qırmızı körpünü öz şəfəqlərinə qərq etməyə başladı.

Artur Lorenin anasını uzaqdan gördü, o eynilə Lorenin təsvir etdiyi kimi idi. Arxada, onun bir neçə addımlığında Kali löhrəm yerişlə qaçırdı. Xanım Klayn düşüncələrə qərq olmuşdu və sanki içində ağır bir yük daşıyırdı. İt Arturun yanından keçərkən birdən qəribə tərzdə dayandı, başını ətrafa döndərərək burnu ilə havanı iyləməyə başladı. Sonra Artura yaxınlaşdı, onun balaqlarını iylədi və oturaraq zingildəyə-zingildəyə quyruğunu bulamağa başladı. Heyvan sevincdən və həyəcandan coşmuş, havada atılıb-düşürdü. Artur itin qarşısında dizləri üstündə oturaraq onu nəvazişlə əzizləməyə başladı. İt acgözlüklə onun əllərini yalayır və durmadan zingildəyirdi. Lorenin anası təəccüblə yaxınlaşdı.

– Bu it sizi tanıyır? – soruşdu.

– Niyə belə düşünürsünüz? – Artur ayağa qalxaraq soruşdu.

– Adətən o, bir az çəkingəndir. Heç kim ona yaxınlaşa bilmir, ancaq indi sizə qucaq açır.

– Bilmirəm, ola bilər, o, mənim bir vaxtlar çox sevdiyim bir adamın itinə bənzəyir.

– Həəə? – xanım Klaynın ürəyi sürətlə döyünməyə başladı.

İt Arturun ayaqları altında oturdu və pəncəsini ona uzadaraq hürdü.

– Kali! Cənabı rahat burax.

Artur əlini qadına uzatdı və özünü təqdim etdi. Qadın bir an tərəddüd etdi, ancaq sonra əlini uzatdı. İtin davranışı qadını son dərəcə təəccübləndirmişdi və özünü bu cür apardığı üçün Arturdan üzr istədi.

– Heç bir problem yoxdur. Mən heyvanları



ekitab.ucoz.org

sevirəm və o isə çox şirindir.

– Əslində o, bir az vəhşidir, ancaq deyəsən, axı doğrudan da sizi tanıyır.

– İtlər həmişə məni seviblər. Məncə, onlar onları sevən adamları tanıyırlar. Onun doğrudan da yaraşıqlı üzü var.

– O, hibriddir, yarı spaniel, yarı labrodordur.

– Bu, qəribədir, ancaq o necə də Lorenin itinə oxşayır.

Xanım Klaynın başı döndü, üz cizgiləri dartıldı.

– Xanım, özünüzü yaxşı hiss edirsiniz? – Artur onun əlindən tutaraq soruşdu.

– Siz qızımı tanıyırdınız?

– Bu, Lorenin itidir? Siz onun anasısınız?

– Siz onu tanıyırdınız?

– Bəli, həm də çox yaxşı. Biz kifayət qədər yaxın olmuşuq.

Xanım Klayn heç vaxt onun haqqında eşitməmişdi və odur ki, onların necə tanış olduğunu bilmək istəyirdi. Artur memar olduğunu söylədi, Lorenə xəstəxanada rast gəlmişdi. Vatman kəsən alətlə əlini kəsmiş, Loren isə onun yarasını tikmişdi. Onların bir-birindən xoşu gəlmiş və tez-tez görüşməyə başlamışdılar. “Bəzən təcili yardım şöbəsinə gedirdim və biz nahar edirdik, hərdən də işi qurtaran kimi axşam yeməyini birlikdə yeyərdik”.

– Lorenin heç vaxt nahar etməyə vaxtı olmurdu, evə də gec gələrdi...

Artur susaraq başını aşağı saldı.

– Hər halda Kali sizi yaxşı tanıyır.

– Onun başına gələnlər məni çox kədərləndirir, xanım, qəzadan sonra tez-tez xəstəxanaya onu görməyə gəlmişəm...

– Sizə heç vaxt orada rast gəlməmişəm.

Artur ona birlikdə gəzməyi təklif etdi. Onlar sahil boyunca addımlamağa başladılar. Artur uzun müddətdir Lorenə baş çəkmədiyini bəhanə edib Lorenin vəziyyəti haqqında maraqlandı. Xanım Klayn onun vəziyyətinin dəyişməz olaraq qaldığını və heç bir ümid doğurmadığını bildirdi. Qəbul etdiyi qərar haqqında heç bir söz deməsə də, sözlərindən ümidsizlik yağırdı. Artur bir qədər susdu və sonra ümid etməyin nə qədər önəınli olmasından danışmağa başladı. “Tibbdə koma haqqında kifayət qədər məlumat yoxdur...”, “Komada olanlar bizi eşidirlər...”, “Bəziləri hətta yeddi ildən sonra özünə


ekitab.ucoz.org

gəlib...", "Heç nə həyat qədər müqəddəs ola bilməz və əgər o, məntiqimizə zidd bir şəkildə hələ də davam edirsə, deməli, onu bir işarə olaraq anlamaq lazımdır..." Artur hətta Tanrıya da istinad etdi, "bir tək o Yeganə varlıq həyat və ölümə qərar verə bilər". Birdən xanım Klayn dayandı və gözlərini Artura zilləyərək dedi:

– Siz heç də təsadüfən burada deyilsiniz. Kimsiniz və məndən nə istəyirsiniz?

– Mən, sadəcə, burada gəzirdim, xanım. Əgər bunun təsadüf olduğunu düşünmürsünüzsə, onda sizə bir sual vermək qalır: nə üçün? Mən Lorenin itini əhlilləşdirməmişəm ki, məni görən kimi yanıma gəlsin.

– Məndən nə istəyirsiniz? Ölüm və həyat haqqında danışarkən mənə nə deməyə çalışırsınız? Siz heç nə bilmirsiniz, bütün günü orada olmağın, onu hərəkətsiz görməyin, kirpiklərinin belə tərpənmədiyini, sinəsinin qalxıb-düşdüyünü, ancaq gözlərinin həmişə qapalı olmasının nə demək olduğunu bilmirsiniz.

Qəzəb dalğası içində qadın ona gecəsini və gündüzünü qızının yanında dəli bir ümidlə onunla danışaraq keçirdiyini, qızı onu tərk etdiyindən bəri onun da yaşamadığını və hər gün xəstəxanadan hər şeyin bitdiyini xəbər verən zəngi gözlədiyini danışmağa başladı. Lorenə o, həyat bəxş edib. Uşaq ikən hər gün onu oyadar, geyindirər və məktəbə yola salardı. Hər axşam çarpayısının yanında ona nağıllar danışardı. O, sevincinə də, kədərinə də şərik olurdu.

– Yeniyetmə ikən onun haqsız inadına heç nə demirdim. İlk məhəbbət hekayətini mənimlə paylaşmışdı. Gecələr o dərs hazırlayarkən mən də onunla birlikdə ayıq qalar, ev tapşırıqlarına nəzarət edərdim. Lazım gələndə özümü onun həyatından kənar tutmağı da bacarırdım. Sağ olarkən belə onun üçün həmişə darıxardım. Hər gün onu düşünərək oyanar, onu düşünərək yatardım...

Xanım Klayn göz yaşlarına boğularaq susdu. Artur əlini qadının çiyninə qoydu və üzr istədi.

– Artıq bacarmıram, – qadın alçaqdan dilləndi, – məni bağışlayın, indi isə gedin. Gərək sizinlə heç danışmayaydım.

Artur yenidən üzr istəyib itin başına sığal çəkdi və ağır addımlarla oradan uzaqlaşdı. Maşına mindi və maşının güzgüsündən Lorenin anasının onun


ekitab.ucoz.org

arxasınca baxdığını gördü. Evə girəndə Loren alçaq masanın üstündə ayaq üstə dayanaraq müvazinətini saxlamağa çalışırdı.

– Nə edirsən?

– Məşq edirəm.

– Görürəm.

– Görüş necə keçdi?

Artur görüşü bütün təfərrüatları ilə danışdı və anasının mövqeyini dəyişə bilmədiyini təəssüflə bildirdi.

– Şansın çox az idi. O, heç vaxt fikrini dəyişmir. Çox tərsdir.

– Bu qədər sərt danışma. O, sadəcə, əziyyət çəkir.

– Sən əla kürəkən olardın.

– Bu son sözlərdə gizlənən dərin mənanı izah edə bilərsən?

– Elə bir mənası yoxdur. Sadəcə, sən qayınanasını sevən kişilərdənsən.

– Sözlərin ikimənalı səslənir. Məncə, heç bu haqda danışmağa dəyməz.

– Xeyr, mən bunu deməliyəm! Sən evlənmədən dul qalacaqsan!

– Bu iynəli sözlərinlə mənə nə deməyə çalışırsan?

– Heç nə. Mən heç nə demək istəmirəm. İndi isə okeana tamaşa etməyə gedirəm. Nə qədər ki bunu eləyə bilirəm.

Loren Arturu mənzildə tək və pərt halda qoyub qəfildən yoxa çıxdı.

“Ona yenə nə olub?” alçaqdan öz-özünə soruşdu. Sonra iş masasına əyləşib, kompüteri yandırdı və qeydlərini gözdən keçirməyə başladı. Marinadan uzaqlaşarkən, hələ maşında ikən qərar qəbul etmişdi. Başqa yol yox idi və bunu tezliklə həyata keçirməli idi. Bazar ertəsindən etibarən həkimlər hər an Loreni “uyuda” bilərdilər. Öz planını həyata keçirmək üçün lazım olan alətlərin siyahısını tutmağa başladı. Sənədi çap etdi və telefonu götürüb Pola zəng etdi.

– Təcili səni görməliyəm.

– Yenə nə olub?

– Bu, təcilidir, Pol, sənə ehtiyacım var.

– Harada görüşək?

– Harada istəyirsən.

– Bizə gəl.


ekitab.ucoz.org

Yarım saatdan sonra Pol Arturu qarşıladı. Onlar salondakı divanda əyləşdilər.

– Nə olub?

– Gərək heç bir sual vermədən mənə bir işdə kömək edəsən. İstəyirəm xəstəxanadan bir nəfərin bədənini oğurlamaqda mənə yardım edəsən.

– Bu, nədir? Dedektiv roman yazırıq? Ruhdan sonra cəsədlərlə iş görəcəyik? Əgər belədirsə, onda sənə özümünkünü təklif edə bilərəm, çünki bu ruhda davam etsən, tezliklə cəsədə çevriləcəyəm.

– O, cəsəd deyil.

– Onda nədir? Gözəl bədəni olan bir xəstədir?

– Ciddi sözümdür, Pol, vaxtım çox azdır.

– Mən sual verə bilmərəm?

– Cavabları başa düşməyəcəksən.

– Yəni o qədər axmağam?

– Çünki heç kim indi nə yaşadığıma inanmaz.

– Cəhd elə.

– Gərək bir qadının bədənini oğurlamağa mənə kömək eləyəsən. Yoxsa bazar ertəsi evtanaziya edəcəklər. Mənsə bunu istəmirəm.

– Sən komada olan qadına vurulmusan? Sənin ruh haqqında hekayətinin məğzi bu idi?

Artur sadəcə "hmm" deməklə kifayətləndi. Pol dərindən köks ötürdü və divana söykənərək dedi:

– Bu əhvalat psixoloq üçün iki min dollarlıq seans olardı. Yaxşı fikirləşmisən? Son qərarındır?

– Sənlə, ya da sənsiz, bunu edəcəyəm.

– Həə... qəliz hekayələri sevirsən...

– Bunu etməyə məcbur deyilsən, bilirsən.

– Hə, bilirəm. İndi burada oturmusan, mənsə on beş gündür səndən xəbər tuta bilmirəm. Artıq adama da bənzəmirsən. Mənə on il həbs qoxusu verən xəstəxanadan bir qadını oğurlamaqla risk etməyi xahiş edirsən, mənsə Dalay Lamaya çevrilmək üçün dua etməliyəm. Sənin nəyə ehtiyacın var?

Artur planını ona izah etdi. Polun onu təchiz edəcəyi materialları sadalayıb, əsasən də atalığının onlara borca verəcəyi təcili yardım maşınının lazım olacağını söylədi.

– A-a-a! Hər şey azmış kimi gərək anamın ərini də bu işə qatam! Nə yaxşı ki səni tanıyıram, dostum. Həyatda ən çox ehtiyacım olan şey də elə bu idi.

– Bilirəm ki, səndən çox şey istəyirəm.

– Yox, bilmirsən! Bütün bunlar sənə nə vaxta lazımdır?


ekitab.ucoz.org

Təcili yardım maşını Artura bazar günü axşama lazım idi. Onlar saat on birə yaxın hərəkətə keçəcəkdilər. Pol yarım saat əvvəl onun evinə gələcəkdi. Sabah səhər Artur ona zəng edib digər təfərrüatları da deyəcəkdi. Artur dostunu bərk-bərk qucaqlayıb, ona dərin təşəkkürünü bildirdi. Pol onu maşınına qədər ötürdü.

– Bir də çox sağ ol, – Artur başını pəncərədən çıxararaq dedi.

– Dostlar da elə bunun üçündür. Bəlkə ayın sonunda dağda qrizli ayısının dırnaqlarını kəsmək üçün sənə ehtiyacım oldu. Sənə xəbər edərəm. Get, get, belə başa düşürəm, hələ görməyə işin çoxdur.

Maşın gözdən itən kimi Pol üzünü göyə tutub qışqırdı:"İlahi, axı niyə mən?" Bir neçə dəqiqə sakitcə göydəki ulduzlara baxdı və heç bir cavab gəlmədiyini görüb çiyinlərini çəkdi və mızıldandı: "Hə, bilirəm! Axı niyə də yox?"

Artur günün qalanını əczaxanalara getməklə keçirdi və dərman preparatlarını alıb maşının baqajını doldurdu. Evə qayıdarkən Loreni çarpayıda yatan gördü. Ehmalca yanında əyləşdi və əlini saçlarına toxundurmadan üzərində gəzdirdi. Sonra isə pıçıldadı: "İndi sən yatmağı da bacarırsan. Doğrudan da çox gözəlsən". Sonra ayağa qalxdı, yenə ehmalca hərəkət etdi. Salona qayıdıb iş masasının arxasına keçdi. Loren bir gözünü açdı və hiyləgər-hiyləgər gülümsədi. Artur dünən çap etdiyi xəstəxana blanklarını götürdü və onları doldurmağa başladı. Bəzi qrafaları boş buraxdı və sonra onları köynəyinin cibinə qoydu. Pencəyini götürdü, maşına mindi və xəstəxanaya yollandı. Təcili yardım maşınları üçün nəzərdə tutulmuş dayanacaqda saxladı və qapını yarıaçıq qoyub təcili yardım şöbəsinin qapısına doğru addımladı. Dəhlizdə kameralar var idi, ancaq o, onları görmədi. Yeməkxana kimi fəaliyyət göstərən geniş zala çatana qədər dəhlizdən keçib getdi. Növbətçi tibb bacısı onu səslədi:

– Siz burada nə edirsiniz?

O, bir vaxtlar burada işləyən köhnə dostu üçün sürpriz görüş hazırladığını söylədi, bəlkə də onu tanıyırdı, adı Loren Klayn idi. Tibb bacısı bir qədər pərt göründü.

– Uzun zamandır onu görmürsünüz?

– Haradasa altı aydır.



ekitab.ucoz.org

O, Afrikada müxbir fotoqraf kimi işlədiyini və arvadının yenicə evlənən xalası qızını təbrik etmək üçün qayıtdığını uydurdu.

– Biz çox yaxın idik. O daha burada işləmir?

Tibb bacısı sualdan yayındı və ona qəbul məntəqəsinə keçməsini söylədi, ona orada məlumat verəcəkdilər. Təəssüf ki, onu burada görə bilməyəcək. Artur yalandan özünü narahat kimi göstərdi və nəsə baş verib-vermədiyini soruşdu. Ancaq qadın çətin vəziyyətə düşmüş adamlar kimi təkidlə Arturun qəbul məntəqəsinə getməyini təkrarlayırdı.

– Bunun üçün binadan çıxınalıyam?

– Əslində, bəli, ancaq gərək binanı dolanasınız...

Tibb bacısı ona binanın içi ilə qəbul məntəqəsinə necə gedə biləcəyini başa salmağa başladı. Artur onunla sağollaşdı və üzündəki narahatlıq ifadəsini hələ də qoruyub saxlayaraq ona təşəkkür etdi. Tibb bacısından canı qurtaran kimi dəhliz-dəhliz, ta istədiyini tapana qədər gəzməyə başladı. Qapısı yarıaçıq olan otaqda qarderobdan asılmış iki ağ xalatı gördü. Otağa girdi, onları ələ keçirdi və büküb paltosunun altına soxdu. Onlardan birinin cibində stetaskop var idi. Dərhal dəhlizə qayıtdı və tibb bacısının söylədiyi şəkildə gedərək xəstəxananın giriş qapısından çıxdı. Binanı fırlandı və təcili yardım bölməsindəki maşınına minib evə qayıtdı. Loren kompüterin qarşısında oturmuşdu. Artur içəri girər-girməz qışqırdı:

– Sən dəli olmusan. Sənin əl-qolunu bağlamaq lazımdır!

Artur cavab vermədi. Masaya yaxınlaşdı və xalatları masanın üstünə atdı.

– Sən doğrudan da dəlisən. Təcili yardım maşını qarajdadır?

– Sabah on birin yarısında Pol gətirəcək.

– Bunları haradan tapdın?

– Sənin xəstəxanandan.

– Bunu necə elədin? Oğurluq edərkən kimsə səni yaxalaya bilərdi? Xalatlardakı etiketi göstər görüm.

Artur onları göstərdi, böyük ölçülü olanı geyindi və podiumdakı manekenlər kimi gedib-gəldi.

– Necəyəm?

– Sən Bronsvikin xalatını oğurlamısan!

– O, kimdir?

– Məşhur kardeoloq. Təsəvvür edirəm, indi



ekitab.ucoz.org

orada nə baş verir. Aləm bir-birinə dəyib. Hər yerə xəbərdaredici qeydlər vurulub. Yəqin təhlükəsizlik şöbəsinin rəisi də qəzəbindən partlayır. O, xəstəxananın ən deyingən, ən özündənrazı adamıdır.

– Məni tanımaq şansı nə qədərdir?

Loren onu arxayın etdi. Təsadüfi hallar istisna olmaqla bu risk çox az idi. İki heyət növbə ilə bir-birini əvəz edir. Bir həftəsonu, bir də gecə. Onun işlədiyi heyətdən kiminləsə qarşılaşmaq təhlükəsi yoxdur. Bazar günü isə xəstəxanada vəziyyət tamamilə dəyişir. Başqa adamlar və tamamilə başqa ab-hava olur.

– Bax, mənim stetoskopum da var.

– Onu boynuna keçir.

Artur stetoskopu boynuna keçirdi.

– Xəbərin var ki, həkim kimi çox seksual görünürsən? – Loren bir qədər yumşaq və intim səslə dedi.

Artur qızardı. Loren onun əlindən tutdu və barmaqlarını nəvazişlə oxşadı. Gözlərini qaldırıb üzünə baxdı və eyni tonda davam etdi:

– Mənim üçün etdiyin hər şeyə görə çox sağ ol. Heç kim heç vaxt bu cür qayğıma qalmayıb.

– Zorro xidmətinizdədir!

Loren ayağa qalxdı. Üz-üzə, göz-gözə dayandılar. Artur əlini dolayıb ənsəsi üzərinə qoydu və ehmalca Loreni özünə sarı çəkərək başını çiyninə dayadı.

– Hələ çox işimiz var, – Artur dedi, – gərək işləyim.

Artur ondan aralanıb masa arxasına keçdi. Loren diqqətlə ona baxdı və otağın qapısını açıq qoyub çıxdı. Artur gecəyarısına qədər işlədi, aradabir meyvə yemək üçün işi dayandırır, klaviaturanı taqqıldadaraq mətnin qrafalarını düzəldir, monitorun qarşısında oturub etdiyi qeydləri diqqətlə nəzərdən keçirirdi. Birdən televizorun işə düşdüyünü eşitdi.

– Bunu necə elədin? – deyə ucadan soruşdu.

Loren cavab vermədi. Ayağa qalxaraq salona keçdi və yarıörtülü qapıdan boylandı. Loren çarpayıda qarnı üstə uzanmışdı. Gözlərini ekrandan ayırıb Artura baxdı və şıltaq-şıltaq gülümsədi. Artur da gülümsədi və yenidən klaviaturanı taqqıldatınağa başladı. Lorenin başı filmə qarışmışdı, Artur ayağa qalxdı və yazı masasına tərəf getdi. Oradan bir qutu çıxarıb masasının üstünə qoydu. Açmazdan əvvəl


ekitab.ucoz.org

uzun-uzadı baxdı. Qutu dördkünc olub ayaqqabı qutusuna bənzəyirdi. Üstünün parçası uzun illərin təsiri ilə rəngini itirmişdi. Artur nəfəsini tutub qutunun qapağını qaldırdı və içindən iplə bağlanmış bir dəstə məktub çıxardı. İçindən daha qalın olanını çıxardı və açdı.

Kağız zərfin içindən bağlı konvert və bir dəstə açar göründü. Açarları əlinə aldı və əlində oynada-oynada gülümsədi. Ancaq ınəktubu açmadı, açarlarla birlikdə pencəyinin cibinə qoydu. Ayağa qalxdı, qutunu yerinə qoydu və yenidən iş masasına qayıtdı. Nəhayət, kompüteri söndürdü və otağa qayıtdı. Loren çarpayının yanında, yerdə oturmuşdu, komediyaya baxırdı. Saçları dağılmışdı, sakit və yorğun görünürdü.

– Hər şey demək olar ki, hazırdır, – Artur dedi.

– Qoy bir də soruşum: bunu niyə edirsən?

– Axı nə fərqi var? Niyə axı hər şeyi bilmək istəyirsən?

– Elə-belə.

Artur vanna otağına getdi. Axan suyun səsini eşidən Loren barmaqları ilə xalını yavaşca oxşamağa başladı. Əlinin altında iplər elektrik yaradaraq qabardı. Artur hamam xalatına bürünmüş şəkildə vanna otağından çıxdı.

– Dərhal yatınalıyam, gərək sabah formada olum.

Loren ona yaxınlaşdı və alnından öpdü.

– Gecən xeyrə qalsın. Sabaha qədər, – deyib otaqdan çıxdı. Ertəsi gün bazar gününün hər zamankı tənbəlliyi ilə dəqiqəbədəqiqə ötməyə başladı. Günəş qısa yaz leysanları ilə gizlənpaç oynayırdı. Arturla Loren çox az söhbət edirdilər. Hərdənbir Loren Artura diqqətlə baxır və ondan bu işə davam etməyə əmin olub-olmadığını soruşurdu, o isə cavab vermirdi. Günorta gəzə-gəzə okean sahilinə getdilər.

– Gəl bir az suya yaxınlaşaq, sənə bir söz deyəcəyəm, – və sakitcə qolunu Lorenin boynuna doladı. Onlar suyun kənarına yaxınlaşdılar və Artur sözünə davam etdi:

– Ətrafa yaxşı bax: qəzəbli dalğalara, bu qəzəbə istehza edən torpağa, hər tərəfə hökm edən dağlara, ağaclara, hər dəqiqə rəngini dəyişərək hava ilə oynayan gün işığına, başımız üzərində cikkildəyən quşlara, qağayıların yeminə çevrilməməyə çalışarkən


ekitab.ucoz.org

bir-birini ovlayan balıqlara bax. Bu səslərdə harmoniya var: dalğalarda, küləyin səsində, qumların səsində. Bu həyatın və materiyanın əbədi simfoniyası içində sən və mən və bizi əhatə edən insanlar var. Bəs görəsən onların içindən neçə nəfər sənə təsvir etdiklərimə diqqət edir? Neçəsi hər səhər oyanarkən görmək, hiss etmək, toxunmaq və eşitməyin necə böyük səadət olduğunu düşünür? Aramızdan neçə nəfər bu əsrarəngiz tamaşaya heyran olmaq üçün bir anlıq gündəlik həyatın səs-küyündən uzaqlaşmağa qadirdir? Etiraf etməliyik ki, insanın qeyri-şüurlu davranışı çox vaxt onun öz həyatına qarşı yönəlib. Sən bu gözəllikləri dərk edirsən, çünki həyatın təhlükədədir. Bu təhlükə səni başqalarından fərqləndirir. Öz həyatını dərk edə bilmək üçün başqalarına ehtiyacın var. Sadəcə, sənin başqa seçimin yoxdur. Durmadan mənə verdiyin sualın cavabını belə verim: əgər sənin üçün risk etməsəm, bütün bu gözəllik, bu həyat enerjisi, həyat materiyasından tamamilə məhrum olacaqsan. Məhz elə buna görə bunu edirəm. Səni həyata qaytarmaq mənim həyatımı mənalandırır. Həyat insana bu cür təklifi neçə dəfə edə bilər axı?

Loren heç nə demədi, gözlərini endirib qumlara baxmağa başladı. Maşına qədər yanaşı addımladılar.



ekitab.ucoz.org

# 9

Pol saat onda təcili yardım maşınını Arturun qarajına gətirdi və qapının zəngini çaldı.

– Mən hazıram, – dedi.

Artur çantanı ona uzatdı.

– Bu xalatı gey və eynəyi də tax, adi şüşədəndir.

– Bəs yalançı saqqal taxmayacaqsan?

– Yolda sənə hər şeyi izah edərəm, gəl, getmək vaxtıdır. Düz saat on birdə, növbə dəyişəndə orada olmalıyıq. Loren, sən də bizimlə gəlirsən, sənə ehtiyacımız olacaq.

– Sən həmin ruhla danışırsan? – Pol soruşdu.

– Aramızda olan, ancaq sənin görə bilmədiyin biri ilə danışıram.

– Ya bütün bunlar zarafatdır, ya da sən doğrudan da dəli olmusan, Artur?

– Nə bu, nə də o biri. Bunu anlamaq mümkün deyil, deməli, izah eləmək də faydasızdır.

– Mən bir tablet şokolad olsaydım, daha yaxşı olardı. Həm vaxt tez keçərdi, həm də mən folqa kağızının içində daha rahat olardım.

– Pis fikir deyil. Haydı, tələs.

Hər ikisi həkim kimi geyinərək qaraja tərəf getdi.

– Bu maşının müharibədən çıxıb?

– Gərək bağışlayasan, bunu da güclə tapmışam, lənətə gəlsin. Sən mənimlə alman subtitrləri ilə danışırsan. Deyəsən, axı mən hələ də yuxudayam!

– Zarafat elədim. Əla gedir.

Pol sükan arxasında, Artur onun yanında əyləşdi, Loren isə düz onların ortasında özünə yer elədi.

– Fırlanan fənərli sirenanı yandırım, həkim?

– Bir az ciddi ola bilərsən?

– Yox, dostum. Əgər borca götürdüyümüz təcili yardım maşınında doğrudan da ortağımla xəstəxanadan meyid oğurlamağa getdiyimi dərk eləsəm, qorxuram yuxudan ayılaram və sənin planların alt-üst olar. Odur ki, mümkün qədər qeyri-ciddi olmağa çalışıram. Bu cür mən kabusların bir addımlığında yuxuda olduğuma inanmağa davam edirəm. Bu, mənə özünəgüvən hissi verir, yəni yuxudayam və bu kabus tezliklə bitəcək. Bunun yaxşı


ekitab.ucoz.org

tərəfi də var: adətən bazar günləri sıxıcı keçir. Bu cürsə bir az maraqlı olacaq.

Loren güldü.

– Gülməlidir, hə? – Artur soruşdu.

– Öz-özünə danışmasan, olmaz?

– Mən öz-özümə danışmıram.

– Hə, əlbəttə, arxada ruh var! Onda onunla bu gizli söhbəti kəs, çünki bu, məni əsəbiləşdirir.

– Günah ondadır!

– Onda yəni kimdə?

– O, bir qadındır və sənin bütün dediklərini eşidir.

– Çəkdiyin otu dostunla da bölüşə bilərdin!

– Maşını sür!

– Siz həmişə belə söhbət edirsiniz? – Loren maraqlandı.

– Çox vaxt.

– Nə çox vaxt? – Pol soruşdu.

– Sənə demədim.

Pol qəfildən maşını saxladı.

– Nə oldu? – Artur təəccübləndi.

– Bəsdir! Bu, məni təngə gətirir!

– Axı niyə?

– Axı niyə? – Pol onu yamsıladı, – sənin öz-özünə axmaq kimi danışınağın!

– Mən öz-özümə danışmıram, Pol, ınən Lorenlə danışıram. Xahiş edirəm, mənə inan.

– Artur, sən doğrudan da dəli olmusan. Bu əhvalata elə burada son vermək lazımdır. Sənin yardıma ehtiyacın var.

Artur səs tonunu qaldırdı.

– Deyəsən, sənə hər şeyi iki dəfə demək lazımdır, lənətə gəlsin! Səndən ancaq bir şey istəyirəm, mənə inanmağını!

– Hər şeyi mənə izah elə ki, sənə inana bilim, – Pol bağırdı, – çünki sən özünü ağlını itirmiş adamlar kimi aparırsan, dəlilər kimi davranırsan. Öz-özünə danışırsan, ruhlar haqqında ucuz nağıllara inanırsan və məni bu ağlasığınaz işə sürükləyirsən!

– Maşını sür, yalvarıram, sənə izah eləməyə çalışaram, sənsə başa düşməyə cəhd elə.

Bir tərəfdən maşın şəhərdə şütüyür, digər tərəfdən isə Artur öz cinayət ortağına izaholunmaz şeyi izah etməyə çalışırdı. Həmin gün axşam paltar şkafında olanlardan başlayaraq bugünkü günə qədər hər şeyi yenidən danışdı. Lorenin maşında olduğunu


ekitab.ucoz.org

unudaraq ondan, onun baxışlarından, həyatından, şübhələrindən, göstərdiyi səydən, apardıqları söhbətlərdən, paylaşdıqları bəzi şirin anlardan, bir-birilərinə iynəli atmacalarından danışdı. Pol onun sözünü kəsdi.

– Əgər o, doğrudan da buradadırsa, onda sən zibilə düşdün, dostum.

– Niyə?

– Çünki sən elə indicə ona aşiq olduğunu dedin.

Pol başını döndərdi və dostuna baxdı. Sonra isə özündənrazı bir təbəssümlə əlavə etdi:

– Belə görürəm, sən danışdığın əhvalata özün də inanırsan.

– Əlbəttə, inanıram, niyə ki?

– Çünki sən əməlli-başlı qızardın. Mənsə səni heç vaxt qızaran görməmişəm, – sonra da boşboğaz bir tövrlə əlavə etdi, – hey, bədənini oğurlamağa getdiyimiz xanım, əgər doğrudan da buradasınızsa, onda bilin ki, dostum sizə əməlli-başlı vurulub və mən heç vaxt onu bu cür görməmişəm.

– Səsini kəs və maşını sür.

Yaxşı, sənin əhvalatına inanacağam, çünki sən mənim dostumsan, çünki başqa seçimim yoxdur. Əgər istənilən sayıqlamanı dostunla bölüşə bilmirsənsə, onda dostluq nəyə lazımdır? Düz deyil? Budur, bu da sənin xəstəxanan!

Abot və Kostella1 – Loren üzündə şən ifadə ilə başqa heç bir söz demədən maşından düşdü.

– İndi hara gedirik?

– Təcili yardım şöbəsinə get və qarajda saxla. Fırlanan fənərləri yandır.

Hər üçü maşından düşdü və qəbul məntəqəsinə yönəldilər. Tibb bacısı onları salaınladıqdan sonra soruşdu:

– Bizə kimi gətirmisiniz? – soruşdu.

– Heç kimi. Əksinə, almağa gəlmişik – Artur hökmlü bir səslə cavab verdi.

– Adınız?

Artur özünü həkim Bronsvik olaraq təqdim etdi. O, bu axşam köçürüləcək Loren Klayn adlı pasiyenti almağa gəlib. Tibb bacısı dərhal köçürmə aktını tələb etdi. Artur ona bir qalaq kağız uzatdı. Qadının üzündə narazı bir ifadə yarandı, gərək elə növbə dəyişənə yaxın gələydilər?! Burada ən azı yarım saatlıq iş var, o isə beş dəqiqədən sonra çıxmalıdır. Artur üzrxahlıq edib bildirdi ki, onlar başqa


ekitab.ucoz.org

pasiyentlərlə işləyiblər. “Mən də təəssüf edirəm”, tibb bacısı dedi və xəstənin beşinci mərtəbədə, 505-ci palatada olduğunu əlavə etdi. O, sənədləri imzalayacaq, onları burada qoyub gedəcək və digər növbədəkilərə xəbərdarlıq edəcək. İndi köçürmə üçün heç də əlverişli saat deyil! Artur özünü saxlaya bilməyib dedi ki, bunun üçün heç vaxt əlverişli saat yoxdur, “ həmişə ya tezdir, ya da gec”.

– Gedim xərək gətirim, – Pol onların mübahisəsinə son qoymaq üçün dedi, – bir qədər sonra sizə qoşularam, həkim.

Tibb bacısı dodaqucu onlara öz yardımını təklif etdi, ancaq Artur imtina edib ondan yalnız Lorenin qovluğunu gətirməyi və digər sənədlərlə birlikdə təcili yardım maşınına qoymağı xahiş etdi.

– Sənədlər burada qalır, onları poçt yolu ilə göndərəcəyik, bunu bilməliydiniz axı, – tibb bacısı dedi və qəfildən tərəddüd etdi.

– Bunu bilirəm, xanım, – Artur dərhal cavab verdi, – mən son nəticələri nəzərdə tutdum, ümumi vəziyyət, qan sayı, qandakı qaz, hemoqramma, kimyəvi tərkib, hematokritlər.

– Vəziyyətdən əla çıxırsan, – Loren dedi, – bütün bunları haradan öyrənmisən?

– Televizora çox baxıram, – Artur pıçıldadı. O, raporta palatada da baxa biləcəyini söylədi, belə olduqda tibb bacısı həkimə öz müşayiətini təklif etdi.

Artur təşəkkür edib bildirdi ki, o, öz növbəsini vaxtında qurtara bilər, bu məsələni isə özü həll edəcək. Hər halda bu gün bazar günüdür və tibb bacısı dincəlməyə layiqdir.

Pol elə yenicə xərəyi gətirmişdi ki, Artur öz cinayət ortağının qolundan tutub onu dəhlizə sürüklədi. Hər üçü liftlə yuxarı qalxmağa başladı. Qapılar açılanda Artur Lorenə dedi:

– Hələlik hər şey yaxşı gedir.

– Elədir, – Lorenlə Pol hər ikisi bir ağızdan dedi.

– Sən mənimlə danışırsan? – Pol soruşdu.

– Hər ikinizlə.

Qəfildən palatalardan birindən gənc təcrübəçi həkim çıxdı. Onların yanından keçib gedəcəkdi ki, birdən dayandı və Arturun xalatına baxdı və çiyinlərindən tutdu.

– Siz həkimsiniz?

Artur təəccübləndi.

– Xeyr. Bəli, bəli... Niyə ki?



ekitab.ucoz.org

– Mənimlə gəlin. 508-ci otaqda problem yaranıb. Sizi lap vaxtında gördüm.

Tələbə çıxdığı palataya doğru yüyürdü.

– Nə edəcəyik? – Artur həyəcanla soruşdu.

– Bunu məndən soruşursan? – Pol dəhşətlə soruşdu.

–Yox, Lorendən soruşuram!

– Ora gedirik, başqa əlacımız yoxdur, sənə kömək edəcəyəm, – Loren ona dedi.

– Gedək, başqa seçimimiz yoxdur, – Artur ucadan dedi.

– Necə yəni ora gedək? Sən ki həkim deyilsən. Kimisə öldürmədən bu sayıqlamalarına son ver!

– O, bizə kömək edəcək.

– Əlbəttə, bir halda ki, o kömək edəcək!.. – Pol qollarını göyə qaldırdı. – Axı niyə mən? Niyə mən?

Hər üçü 508 nömrəli otağa daxil oldu. Tələbə çarpayının baş ucunda dayanmışdı, bir tibb bacısı da onu gözləyirdi. Təcrübəçi təlaşla Artura dedi:

– Ürəyində aritmiya var, şəkəri yüksək xəstədir. Onun vəziyyətini yaxşılaşdıra bilmirəm, mən hələ üçüncü kursda oxuyuram.

– Hə... ağır vəziyyətdir... – Pol dodaqucu gileyləndi.

– Kardinal monitordan çıxan vərəqi cır və elə bax ki, mən də oxuya bilim, – Loren Arturun qulağına pıçıldadı.

– İşığı yandırın, – Artur hökmlü səslə dedi.

Çarpayının o biri tərəfinə keçdi və elektrodiaqrammanın çertyojunu bir hərəkətlə cırdı. Onu geniş açdı və pıçıltı ilə soruşdu: “Görə bilirsən?”

– Mədə aritmiyasıdır. O, heç nə bilmir!

Artur deyiləni sözbəsöz təkrar etdi:

– Mədə aritmiyasıdır, siz heç nə bilmirsiniz!

Pol gözlərini yana devirərək əlini alnına apardı.

– Mədə aritmiyası olduğunu mən də görürəm, həkim, nə etmək lazımdır, onu deyin.

– Xeyr, siz heç nə görmürsünüz, heç nəyə yaramırsınız. Nə etməliyik? – Artur təkrarladı.

– Onlardan soruş, ona hansı iynəni vurublar? – Loren dedi.

– Ona nə iynə vurmusunuz?

– Heç nə vurmamışıq! – tibb bacısı elə hündürdən danışırdı ki, tələbənin onu boğaza yığdığı bəlli olurdu, – biz bir anlıq təlaşa qapıldıq, həkim!

– Heç bir işə yaramırsınız! – Artur təkrarladı, –



ekitab.ucoz.org

indi nə eləməliyik?

– Ona heç kömək də eləməyiblər! Yazığın getdikcə rəngi boğulur, dostum... mmm, həkim!

– Müqəddəs Kventinə! Birbaş Müqəddəs Kventinə2 gedirik!

Pol ayaqlarını döyəclədi.

– Sakit olun, dostum, – Artur Pola dedi. Sonra isə tibb bacısına tərəf dönüb dedi:

– Onu bağışlayın, o, yenidir, ancaq əlimizdə olan yeganə sanitardır.

– İki milliqram nefrin vurlmalı, mərkəzi kateter qoyulmalıdır, yoxsa vəziyyəti daha da ağırlaşacaq! – Loren dedi.

– İki milliqram nefrin vurun, – Artur dərhal dilləndi.

– Hazırdır! Mən hər şeyi hazırlamışam, həkim, – tibb bacısı dilləndi, – sadəcə, istəyirdim ki, kiınsə vəziyyətə müdaxilə eləsin.

– Mərkəzi kateter qoyulacaq, – deyə yarısual-yarıtəsdiqdə dedi, – siz kateter qoyınağı bacarırsınız? – deyə tələbədən soruşdu.

– Qoy tibb bacısı eləsin, o, sevincindən uçacaq. Həkimlər heç vaxt bunu onların etməyinə icazə vermirlər, – Loren tələbə cavab verməyə macal tapmadan dedi.

– Yox, mən heç vaxt kateter qoymamışam.

– Xanım, kateteri siz qoyacaqsınız!

– Xeyr, həkim, özünüz edin, böyük məmnuniyyətlə edərdim, ancaq vaxtımız yoxdur. Dərhal hazırlayıram. Hər halda mənə etimad göstərdiyiniz üçün təşəkkür edirəm. Çox mütəəssir oldum.

Tibb bacısı iynə və borunu hazırlamaq üçün otağın o biri ucuna getdi.

Artur təlaşla Lorendən soruşdu:

– İndi nə eləməliyəm?

– Buradan getməliyik, – Pol cavab verdi, – sən nə mərkəzi, nə də yan kateter qoymayacaqsan. Aradan çıxmalıyıq, dostum.

Loren dedi:

– Sən onun düz qarşısında dayanacaqsan, iki barmağınla yoxlayıb döş qəfəsini tapacaqsan. Döş qəfəsi nə olduğunu bilirsən! Əgər yerini düz təyin eləməsən, səni yönəldərəm. İynəni on beş dərəcə əyib onu yavaş-yavaş, ancaq sərt şəkildə içəri salacaqsan. Əgər bacarsan, xaricə ağ rəngli maye


ekitab.ucoz.org

axmağa başlayacaq. Əgər bacarmasan, qan çıxacaq. Dua elə ki, bunun öhdəsindən gələsən. İndi sən tələbə kimi ilk dəfə bəxtini sınayacaqsan, əks təqdirdə doğrudan da zibildə olacağıq, biz də, burada uzanıb qalan adam da.

– Bunu edə bilmərəm! – Artur pıçıldadı.

– Seçimin yoxdur, onun isə heç yoxdur. Bunu eləməsən, öləcək.

– Mənə "mənim ürəyim" dedin, yoxsa mənə elə gəldi?

Loren gülümsədi: "Başla və iynəni batırmadan əvvəl dərindən nəfəs al".

Tibb bacısı ona doğru gəldi və kateteri Artura verdi.

– Onu plastmas tərəfindən tut. Uğurlar!

Artur Lorenin dediyi tərəfdən iynəni tutdu. Tibb bacısı diqqətlə Artura baxırdı.

– Əla, – Loren dedi, – bir qədər də əy, indisə bir hərəkətdə içəri sal.

İynə xəstənin döş qəfəsinə sancıldı.

– Dayan, kranın ağzını boruya tərəf yönəlt.

Artur onun dediyini elədi. Tutqun rəngli maye boru ilə axmağa başladı. "Bravo! Əsl usta işidir!" – Loren dedi. "Onun həyatını xilas etdin".

İki dəfə az qala huşunu itirən Pol durmadan alçaqdan təkrarlayırdı: "Ola bilməz! Ola bilməz!" Xəstəni daxildən əzən maye çıxdıqdan sonra şəkər xəstəsinin ürəyi normal ritmlə döyünməyə başladı. Tibb bacısı Artura təşəkkür etdi və dedi: "İndi onunla mən məşğul olaram".

Artur və Pol onunla sağollaşıb dəhlizə çıxdılar. Palatadan çıxan kimi Pol özünü saxlaya bilməyib təkrar başını qapıdan içəri salıb tələbəyə dedi: "Siz heç nə bilmirsiniz!" Sonra Artura dedi:

– Orada məni yaman qorxutdun!

– Mənə o kömək elədi, hər nə lazımsa dedi – Artur pıçıldadı.

Pol başını yellətdi.

– İndicə yuxudan ayılacağam və sənə zəng eləyib gördüyüm kabusu danışanda güləcəksən. Hətta təsəvvür belə edə bilməzsən necə güləcəksən! Hələ bir məni ələ də salacaqsan!

– Gəl, Pol, vaxt itirməməliyik, – Artur dilləndi.

Hər üçü 505 nömrəli palataya daxil oldu. Artur elektrik açarına basdı, neon lampa bir neçə dəfə yanıb söndü və otaq işığa qərq oldu. Artur çarpayıya


ekitab.ucoz.org

yaxınlaşdı.

– Kömək elə, – Pola dedi.

– Bu, odur?

– Yox, qonşunun oğludur, əlbəttə ki, odur. Xərəyi çarpayıya yaxınlaşdır.

– Elə bil, həyatın boyunca bununla məşğul olmusan.

– Bax, belə. Əllərini dizlərinin altına sal. Borulara diqqət et. Üç deyəndə qaldırırıq. Bir! İki! Üç!

Lorenin bədənini təkərli xərəyin üstünə qoydular. Artur yenidən örtüyü onun üstünə saldı, boru şüşəni çıxardı və başının üzərindəki dirəkdən asdı.

– Birinci mərhələ başa çatdı, indi isə sürətlə, ancaq diqqətlə hərəkət edərək düşməliyik.

– Baş üstə, həkim! – Pol bir qədər qəzəblə cavab verdi.

– Siz ikiniz də vəziyyətdən əla çıxırsınız, – Loren pıçıldadı.

Onlar liftə doğru yönəldilər. Tibb bacısı Arturu dəhlizdən səslədi.

– Bəli, xanım.

– İndi hər şey qaydasındadır? Kömək lazımdır?

– Xeyr, hər şey qaydasındadır.

– Bir daha təşəkkür edirəm.

– Dəyməz.

Qapı açıldı və onlar liftə soxuldular.

Artur və Pol ikisi də dərindən nəfəs aldı.

– Üç top model, on beş gün Havay adaları, bir Testa Rossa və bir yelkən!

– Nə danışırsan?

– Qonorarlarım. Bu axşam layiq olduğum qonorarları sayıraın.

Xəstələr üçün nəzərdə tutulmuş liftdən çıxarkən zal boş idi. Sürətli addımlarla zaldan keçdilər. Lorenin bədənini təcili yardım maşınına yüklədilər. Sonra isə hər kəs maşında öz yerini tutdu. Arturun oturacağında köçürmə sənədləri və kağız var idi, orada yazılmışdı: "Sabah mənə zəng edin, köçürmə vərəqində iki sənəd çatışmır. Karen. (415) 725 00 00. poçt 2154. P.S. Uğurlar". Təcili yardım maşını xəstəxananı tərk etdi.

– Xəstə oğurlamaq o qədər də çətin deyilmiş, – Pol dedi.

– Çünki bu heç kimə lazım deyil, – Artur cavab verdi.



ekitab.ucoz.org

– Onları başa düşmək olar. Biz hara gedirik?

– Əvvəlcə evə, sonra isə başqa bir yerə; ora da bir növ komadadır. Nəticədə biz üçümüz də birdən oyanacağıq.

Təcili yardım maşını Market-stritdən keçərək Van Nes tərəfə döndü. Küçələrdə sakitlik hökm sürürdü. Arturun planına görə onlar evə qayıdıb bədəni təcili yardım maşınından götürüb Arturun maşınına qoymalı idilər. Pol atalığından "borc" aldığı maşını qaraja qoyanda, Artur Karmelə səyahət etmək və orada qalmaq üçün lazım olan hər şeyi hazırlayacaqdı. Bütün preparatlar ehtiyatla bükülmüş və yekə daşına bilən soyuducunun içinə yığılmışdı. Qaraja çatan kimi Pol yanlara doğru hərəkət edən qapını açmaq üçün pulta basdı, ancaq qapılar açılmadı.

– Axmaq dedektiv romanlarında həmişə belə olur, – dedi.

– Nə olur? – Artur soruşdu.

– Axmaq dedektiv romanlarda qonşu özünü maço kimi göstərməyə çalışır və ədəb qaydalarını unudaraq həmişə belə deyir: "Bu nə zəhrimardır?" Bizim vəziyyətimizdə isə pult işləmir, qapı açılmır. Evinin qarşısında isə atalığımın təcili yardım maşını dayanır, içində də oğurlanmış bədən. Özü də bütün bunlar qonşular itlərini gəzdirməyə çıxaracağı bir vaxtda baş verir.

– Lənətə gəlsin!

– Sən dediklərimi qısaca ifadə etdin.

– Pultu mənə ver!

Pol çiyinlərini çəkərək pultu ona verdi.

Artur əsəbi halda pultun düymələrinə basmağa başladı, ancaq xeyri olmadı.

– Üstəlik, məni axmaq hesab edir.

– Batareya yatıb, – Artur dedi.

– Hə, əlbəttə, məsələ batareyadadır, – Pol sarkazmla dedi, – bütün dahilər həmişə bu cür xırdalıqların qurbanına çevrilirlər.

– Gedim batareya tapım, sənsə evlərin ətrafında dolan.

– Dua elə siyirməndə batareya olsun, dahi!

– Cavab vermə, get, – Loren dedi.

Artur təcili yardım maşınından düşdü və tələsik pilləkənlərlə mənzilə qalxdı. İldırım sürətilə evə girib siyirmələri axtarmağa başladı. Bir dənə də olsun batareya yox idi. Yazı masasının, divar şkafının



ekitab.ucoz.org

siyirmələrini, eləcə də mətbəxdəki bütün çəkməcələri boşaltdı. Həmin vaxt Pol məhəllənin ətrafında beşinci dəfə idi ki, dövrə vururdu.

– Patrul məni yaxalamasa, şəhərin ən şanslı adamı olacağam, – Pol artıq altıncı dövrəni vura-vura deyindi. Elə həmin vaxt qarşıdan polis maşını göründü.

– Həə... şanslı deyiləm, ancaq olsaydım, indi bu, heç də pis olmazdı.

Polis maşını təcili yardım maşınının yanında dayandı. Polis pəncərəni aşağı salmağı işarə etdi. Pol deyiləni elədi.

– Siz yolu itirmisiniz?

– Xeyr, dostumu gözləyirəm, o, evdən bəzi əşyalarını almalıdır. Sonra isə birlikdə Deyzini qaraja aparacağıq.

– Deyzi kimdir? – polis soruşdu.

– Təcili yardım maşını. Bu gün onun son günüdür. Onun artıq ömrü başa çatıb. On ildir ki, birlikdə işləyirik. Ayrılmaq çox çətindir, başa düşürsünüz? Xatirələr... birlikdə o qədər il...

Polis başı ilə təsdiqləyərək başa düşdüyünü işarə etdi, bununla belə, ondan burada çox dolanmamağı xahiş etdi. Bu məhəllənin adamları hər şeylə maraqlanan və çox narahat adamlardır. “Bilirəm, burada yaşayıram, cənab polis, həmkarımı götürüm, dərhal qayıdırıq. Gecəniz xeyrə qalsın!” Polis də ona xeyirli gecələr dilədi və maşın uzaqlaşdı.

Polis maşınının sürücüsü həmkarına on dollardan mərc gəlməyə hazır idi ki, təcili yardım maşını əslində heç kimi gözləmir.

– Maşını öz əlinlə aparıb təhvil vermək asan deyil. On il az müddət də deyil.

– Hə...

– Hər halda on il adamları bir-birinə bağlayır.

– Hə, bağlayır...

Mənzildə də Arturun fikirlərində olduğu kimi xaos hökm sürürdü. Qəfildən salonun ortasında ağlına onları bu vəziyyətdən xilas edə biləcək qəribə bir fikir gəldi.

– Televizorun pultu, – Loren mızıldandı.

Artur heyrətlə ona baxdı və özünü qara pulta tərəf atdı. Pultun qapağını söküb atdı və batareyanı çıxarıb qarajın pultuna saldı. Pəncərəyə tərəf qaçaraq düyməni basdı. Pol əsəbi halda artıq doqquzuncu dəfə dövrə vururdu ki, birdən qarajın


ekitab.ucoz.org

qapısının açıldığını gördü. Maşını dərhal içəriyə yönəltdi və dua etdi ki, qapı açıldığından daha tez bağlansın. "Doğrudan da batareyadan imiş. Off, necə də axmaqdır!" Həmin vaxt Artur pilləkənlərlə qaraja düşürdü.

– Hər şey qaydasındadır?

– Mənim üçün, yoxsa sənin üçün? Səni öldürməyə hazıram!

– Yaxşısı budur, mənə kömək elə, hələ çox işimiz var.

– Mən elə sənə kömək eləyirəm də!

Onlar ehtiyatla Lorenin bədənini daşımağa başladılar. Onu geriyə oturtdular. Maye borusunu qoltuqları altında sıxaraq onu örtüyə bükdülər. Lorenin başını qapıya dayadılar. Kənardan baxan elə bilərdi ki, o yatıb.

– Özümü Tarantino filmində hiss edirəm, – Pol deyindi, – bilirsən, canını qurtaran səfil...

– Sus. Yenə nəsə axmaq söz deyəcəksən.

– Niyə ki? Onsuz da axmaq vəziyyətdə deyilik? Yoxsa təcili yardım maşınını sən gətirmişdin?

– Yox, sadəcə, bil ki, o yanımızdadır və sözlərinlə onun xətrinə dəyə bilərsən, vəssalam.

Loren əlini Arturun çiyninə qoydu.

– Mübahisə eləməyin, bu gün ikiniz üçün də çox ağır olub, – Loren yorğun səslə dedi.

– Haqlısan, davam edək.

– Nədə haqlıyam? Mən heç nə demədim, – Pol deyindi. Artur dedi:

– Atalığının qarajına get, on dəqiqədən sonra dalınca gələcəyəm. Gedim şeyləri gətirim.

Pol təcili yardım maşınına qalxdı. Bu dəfə qarajın qapısı çətinlik olmadan açıldı və Pol bir söz demədən qarajdan çıxdı. Yunion-stritin yol ayrıcında bir qədər əvvəl onu saxlayan patrul maşınını görmədi.

Polis həmkarına onu izləməyi əmr etdi.

– Onu burax, arxasınca get, – dedi.

Şəhər polisinin 627 nömrəli maşınının izlədiyi təcili yardım maşını Van Nes tərəfə döndü. On dəqiqədən sonra maşın qaraja çatanda polislər sürəti azaltdılar və normal sürətdə öz yollarına davam etdilər. Polun izləndiyindən heç xəbəri də olmadı.

On beş dəqiqədən sonra Artur gəldi. Pol küçəyə çıxdı və "Saab"ın qarşı oturacağında əyləşdi.

– San-Fransiskonu gəzə bildin?

– Lorenə görə yavaş sürürdüm...



ekitab.ucoz.org

– Deməli, sübh tezdən çıxacağımızı əvvəlcədən planlaşdırmışdın?

– Əlbəttə. İndi isə rahat ol, Pol. Demək olar ki, istədiyimizi əldə elədik. Sən mənə əvəzedilməz bir xidmət göstərdin, bunu bilirəm. Heç bilmirəm necə deyim... Mənə görə risk etdin. Bunu anlayıram.

– Yaxşı görək, maşını sür. Minnətdarlıqdan zəhləm gedir.

Maşın 280-ci cənub yolu ilə şəhərdən çıxdı. Tezliklə okeana gedən yola döndü və qayalıqlar boyunca uzanan Monterey limanına – Karmelə aparan 1 nömrəli yolda şütüməyə başladı. Bu yol bu ilin bir yay səhəri Lorenin öz yaraşıqlı “Triumf”unda gedəcəyi həmin o yol idi. Təbiət al-əlvan rənglərə boyanmışdı. Qayalar gecəni yaran qara krujevaya bənzəyirdilər. Ay öz sonsuz işığı ilə yolu aydınladırdı. Beləcə, onlar Samyuel Barberin skripkadakı ifasının harmonik sədaları altında öz yollarına davam edirdilər. Artur sükan arxasındakı yerini Pola vermişdi və pəncərədən ətrafa tamaşa edirdi. Bu səyahətin sonunda onu başqa bir oyanış gözləyirdi. Artıq uzun müddətdir yatıb qalmış xatirələrin oyanışı...

1 Amerikanın məşhur komediyaçıları
21 Kaliforniya ştatında məşhur həbsxana


ekitab.ucoz.org

# 10

Artur memarlıq fakültəsini San-Fransisko Universitetində oxumuşdu. İyirmi beş yaşında ikən anasının ona miras qoyduğu kiçik mənzili satıb Avropaya, Parisə, Kamondo məktəbində iki il təhsil almağa yollandı. O, Mazarini küçəsində kiçik bir studiyada yerləşdi və öz coşqulu həyatını yaşamağa başladı. Sonra isə bir il də Florensiyada təhsil aldı və nəhayət, doğma Kaliforniyaya geri döndü. Diplomları ilə zirehlənib şəhərin ən məşhur memar-dizayneri Millerin yanında işə düzəldi. İki il təcrübə keçdikdən sonra yarım gün olmaqla Müasir İncəsənət Muzeyində işləməyə başladı. Polla da məhz orada tanış oldu və iki ildən sonra birlikdə memarlıq emalatxanasının əsasını qoydular. Regionda iqtisadiyyat çiçəkləndikcə qurduqları iş ildən-ilə genişləndi və təxminən iyirmi işçisi olan bir müəssisəyə döndü. Pol inzibati işlərlə məşğul olurdu, Artur isə mebellərin, binaların, evlərin, əşyaların və sair şeylərin eskizlərini çəkirdi. Hər kəs öz işini görürdü.

Bir-birindən bir neçə saatdan artıq ayrılmayan bu iki dostun arasından su belə keçmirdi. Onları çox şey bir-birinə bağlayırdı; dostluq hissi, yaşam zövqü və müxtəlif həyəcanlarla yaşanmış gənclik. Hətta həyatlarındakı qəmli anlar da oxşar idi.

Pol kimi Arturu da anası böyütmüşdü. Polun atası o beş yaşında ikən evi tərk edib getmişdi, Arturun atası isə Avropaya yola düşəndə onun üç yaşı var idi. “Onun təyyarəsi o qədər uzağa uçdu ki, axırda ulduzlarda ilişib qaldı”. Lilian çox gözlədi, ancaq sonra isə yas tutdu; hərçənd, ürəyinin dərinliyində ərinin ölümü ilə barışa bilmirdi. İkisi də kənddə böyümüşdü. İkisi də internat həyatı yaşamışdı. Təkbaşına kişi olmuşdular. Həyatının ilk on ilini Artur şəhər kənarında, okean sahilində, Karmelin yaraşıqlı kəndində keçirdi. Orada Lilinin (o, anasını belə çağırırdı) böyük bir evi var idi. Dəniz mənzərəsinə açılan ağ taxtadan tikilmiş evin bağçası sahilə qədər uzanırdı. Bağçadakı kiçik evdə Lilinin köhnə dostu Antuan yaşayırdı. Bu uğursuz rəssama qonşuların dediyi kimi Lili evində “sığınacaq”


ekitab.ucoz.org

vermişdi. O, Lili ilə birlikdə parkın, divarların, taxta hasarların hər il qayğısına qalır, axşamlar uzun-uzadı söhbət edərdilər. O, uzun illər bundan qabaq evi tərk etmiş atanı əvəz etməsə də, Arturun həyatındakı boşluğu doldurmuş, ona dost, şərik olmuşdu. Artur ilk təhsilinə Montereyin internat məktəbində başladı. Səhərlər Antuan onu məktəbə aparar, axşam saat altıda isə anası gəlib götürərdü. Bu illər onun həyatında ən dəyərli illər idi. Anası həm də onun ən yaxşı dostu idi. Lili bir qəlbin sevə biləcəyi hər şeyi ona öyrətmişdi. Bəzən səhər tezdən onu günəşin doğuşuna baxmaq, oyanan səhərin səsini dinləmək üçün oyadardı. O, ona çiçəklərin mahiyyəti haqqında danışardı. Bir yarpağın timsalında ona ağacın geyindiyi donu izah edərdi. Evin yanında yerləşən və dənizə aparan parkda təbiətin bir tərəfdə nəcib, digər tərəfdə isə yabanı üzünü göstərərək onu xırdalıqlarına qədər kəşf etmək üçün gəzdirərdi. Yaşıl və kəhrəba rənglərdən ibarət iki mövsümdə köç vaxtı sekvoya ağacının üstündən uçuşan quşların adlarını öyrədərdi. Antuanın sevgi ilə bəslədiyi bostandan ona sehrli görünən tərəvəzləri, əlbəttə, ancaq yetişənləri dərməyi tapşırardı. Bəzən qayaları oxşayan dalğaları (sanki digər mövsüınlərdə onlara şiddətlə çırpıldıqları üçün indi oxşayırdılar) saydırardı; "Dənizi, onun gücünü, günün şəfəqləri altındakı əhvalını hiss etmək üçün". "Dəniz bizim nəzərlərimizi cəlb edir, torpaq isə ayaqlarımızı"... O, küləkdən topalaşan buludlar getdikcə sıxlaşmağa başlayanda havanın necə olacağını təxmin etməyi öyrətmişdi və çox nadir hallarda öz təxminlərində yanılardı.

Artur bağın hər qarışını tanıyırdı, orada gözləri bağlı, daldalı belə gedə bilərdi. Tanımadığı bir bucaq belə yox idi. Hər yerin öz adı var idi, bura əbədi uyumaq üçün özünə yer seçən hər heyvanın məzarını tanıyırdı. Lili hər şeydən daha çox ona qızılgülləri sevməyi və onları budamağı öyrətmişdi. Qızılgül kollarının olduğu yer sanki tilsimli idi. Orada havada yüzlərlə ətir bir-birinə qarışmışdı. Lili Arturu oraya aparar və ona nağıllar danışardı. Bu nağıllarda uşaqlar böyük, böyüklər isə uşaq olmaq istəyirdilər. Bu güllərin arasında Lili bəzilərini daha çox sevərdi.

Bir yay səhəri Arturun otağına gəlib çarpayının baş ucunda əyləşdi və onun qıvrım saçlarını sığalladı.


ekitab.ucoz.org

– Oyan, Artur, qalx, səni bir yerə aparacağam.

Balaca oğlan anasının barmaqlarını tutdu, öz kiçicik əliylə onları sıxdı və ona tərəf dönüb yanaqlarını ovcunda yerləşdirdi. O an Lilinin üzündə duyduğu nəvazişdən doğan təbəssüm yayıldı. Lilinin əllərinin ətri Arturun iylərə həssas hafizəsində silinməz bir iz buraxmışdı. Anası həmişə aynalı masanın qarşısında ətir cövhərlərini qarışdırar və yüngül bir toxunuşla boynuna sürtərdi. Onun xoş ətirlərlə bağlı xatirələrindən biri də bu idi.

– Gəl, əzizim, gərək günəşi qabaqlayaq. Beş dəqiqəyə səni mətbəxdə gözləyirəm.

Uşaq öz köhnə şalvarını əyninə keçirdi, geniş sviterini çiyinlərinə atdı və əsnəyə-əsnəyə otaqdan çıxdı. O, həmişə sakitcə geyinərdi, anası ona səhərin sükutunu hörmətlə qarşılamağı öyrətmişdi. Kauçuk ayaqqabılarını geyindi; səhər yeməyindən sonra hara gedəcəklərini yaxşı bilirdi. Hazır olan kimi geniş mətbəxə daxil oldu.

– Səs salma, Antuan yatır.

O, ona qəhvəni, onun dadını, xüsusilə də ətrini sevməyi öyrətmişdi.

– Özünü yaxşı hiss edirsən, Arturum?

– Hə.

– Onda gözlərini iri aç və ətrafına yaxşı bax. Gözəl xatirələr yaddaşdan silinməməlidir. Rəngləri və əşyaları hafizəndə tut. Kişi olanda bunlar sənin zövqlərin və xatirələrin olacaq.

– Mən artıq kişiyəm!

– Mən böyüyəndə demək istədim.

– Bəs biz uşaqlar fərqliyik?

– Hə! Biz böyüklər uşaqların bilmədiyi həyəcanlar yaşayırıq, ya da qorxu.

– Sən nədən qorxursan?

Onda Lili ona başa saldı ki, böyüklər çox vaxt müxtəlif şeylərdən qorxa bilirlər: qocalmaqdan, ölməkdən, yaşaya bilmədiklərindən, xəstəlikdən, hətta hərdənbir uşaqların baxışlarından qorxurlar ki, uşaqları onları qınayar.

– Bilirsən, biz niyə belə yaxşı yola gedirik? Sən və mən. Çünki mən sənə yalan danışmıram, çünki səninlə böyüklər kimi danışıram, çünki qorxmuram. Mən sənə güvənirəm. Böyüklər qorxurlar, çünki onlar bəzən nəyi nə cür edəcəklərini bilmirlər. Mən sənə öyrətdiklərimdən ibarətəm. İndi biz çox xoş anlar yaşayırıq. Bu anlar isə bir çox əhəmiyyətli


ekitab.ucoz.org

xırdalıqlardan ibarətdir: biz ikimiz, bu masa, bizim söhbətimiz, gözünü ayırmadığın əllərim, bu otağın qoxusu, yaxşı tanıdığın evimiz, qalxmaqda olan günəşin sakitliyi...

Qadın ayağa qalxdı, stəkanları götürdü və minalı su çanağının içinə qoydu. Sonra masanın üstünü sildi, ovcunun içini açıb qırıntıları ovcuna tökdü. Qapının yanında həsir zənbildə tilov və tilov ipi var idi. Bükülmüş süfrənin içində çörək, pendir və kolbasa vardı. Lili səbəti əlinə aldı və Arturun əlindən tutdu.

– Gəl, əzizim, yoxsa gecikəcəyik.

İkisi də qapıya doğru yönəldilər.

– O rəngbərəng qayıqlara bax. Elə bil dəniz güllərindən hörülmüş çələngdirlər.

Həmişəki kimi Artur suya girdi və qayığın ipini açdı və onu sahilə tərəf dartdı. Lili əvvəlcə səbəti qayığa qoydu, sonra özü də mindi.

– İndi isə avar çək, əzizim.

Uşaq kürəyi çəkdikcə qayıq sahildən aralanmağa başladı. Sahil xətti gözdən itmədən hər ikisi köməkləşib kürəkləri qayığın içinə qoydular. Lili artıq tilovları zənbildən çıxarmış, ilk hazırlıqlara başlamışdı. Ənənəyə görə Lili ancaq ilk tilovu hazırlayırdı, bundan sonrasını isə uşaq özü tək həll etməli, əllərini qanada-qanada və iyrənə-iyrənə yemi hazırlayıb atmalı idi. Artur çarxı ayaqlarının arasında sıxıb neylon tilov ipini şəhadət barınağına doladı və qurğuşunla birlikdə suya atdı. Ağır qurğuşun yemi sürətlə suyun dibinə çəkdi. Əgər balıq tutmaq üçün bura əlverişli yer idisə, onda tezliklə balıq yaxalayacaqdılar. Onlar üz-üzə oturmuşdular, artıq bir neçə dəqiqə idi ki, heç nə danışmırdılar. Lili oğluna diqqətlə baxdı və birdən qəribə səslə ondan soruşdu:

– Artur, bilirsən ki, mən üzə bilmirəm. Əgər suya düşsəm, nə edərsən?

– Ardınca suya atılardım, – uşaq cavab verdi.

Lili qəzəbləndi:

– Axmaq söz danışırsan!

Artur bu qəzəbli cavabdan çaşıb qaldı.

– Ayağın torpağa dəyənə qədər avar çəkəcəksən, bax belə eləməlisən! – Lili qışqırırdı, – yeganə dəyərli şey sənin həyatındır, bunu heç vaxt unutma. Və sənə bəxş edilən bu dəyərli hədiyyə ilə oynamaq kimi yanlış yollara düşmə. Bunu etməyəcəyinə and iç!


ekitab.ucoz.org

– And içirəm, – uşaq qorxa-qorxa cavab verdi.

– Deməli, – bu dəfə Lili səsinin tonunu bir qədər yumşaltdı, – məni xilas etmədən çıxıb gedəcəksən.

Onda balaca Artur ağlamağa başladı. Lili şəhadət barınağı ilə onun göz yaşlarını sildi.

– Bəzən istəklərimizin, arzularımızın və ya da çılğınlıqlarımızın qarşısında aciz qalırıq. Bu isə həmişə adamı dözülməz çətinliklərlə baş-başa qoyur. Bu hiss adamı bütün həyatı boyu izləyir; bəzən unudulur, bəzən də qarabasmaya çevrilir. Yaşamın qızıl qaydalarından biri də odur ki, gərək öz gücsüzlüyünün öhdəsindən gələsən. Bu isə çox çətindir, çünki gücsüzlük qorxu doğurur. O, bizim hərəkətlərimizi, şüurumuzu və hisslərimizi məhv edərək zəifliyə yol açır. Sən də qorxunun nə olduğunu biləcəksən. Ona qarşı mübarizə apar, ancaq heç vaxt uzun-uzadı tərəddüd etmə. Düşün, qərar ver və hərəkətə keç! Şübhələrə yer vermə. Öz seçiminin məsuliyyətini daşıya bilməmək insan həyatını zəhərləyir. Hər sual bir oyuna çevrilə bilər. Hər verdiyin qərar özünü tanımağa və başa düşməyə yardım edəcək. Dünyanı hərəkətə gətir! Öz dünyanı!

Gözlərin qarşısında açılan bu mənzərəyə bax. Bir bax, sahil necə naxış kimi uzanıb, sanki krujevadır. Günəş onu minlərlə işıq parıltısına qərq edir. Külək ağacları oxşayıb onları öz sürətinə uyğun yırğalayır. Elə bilirsən, təbiət bütün bu xırdalıqları qorxudan yaradıb?.. Torpağın bizə bəxş etdiyi ən gözəl şey bizi insan edən şeydir – xoşbəxtliyi paylaşmaq hissidir. Paylaşmağı bacarmayan şəxsin hissləri də qüvvətli olmur. Görürsən, Artur, bizim birlikdə keçirdiyimiz bu səhər sənin yaddaşına həkk olacaq. Bir vaxtlar mən olmayanda sən bütün bunları xatırlayacaqsan və bu xatirələr sənin ürəyini oxşayacaq, çünki biz bu anları birlikdə paylaşmışıq. Əgər ınən suya düşsəm, sən məni xilas etməyə çalışmasan, əlbəttə ki, bu axmaqlıq olardı. Sən yalnız mənə əlini uzadıb qayığa çıxmağıma kömək edə bilərsən, ancaq əgər bu alınınasa və mən suda boğulsam, sənin ruhun yenə rahat olacaq. Çünki əbəs yerə həyatını riskə atmamaq üçün doğru qərar qəbul etmisən, bununla belə məni xilas etmək üçün əlindən gələni eləmisən.

Artur sahilə qədər avar çəkərkən Lili də balaca oğlunun başını əlləri arasına alaraq nəvazişlə alnını oxşayırdı.

– Mən səni incitdim?


ekitab.ucoz.org

– Hə. Nə qədər ki mən yanındayam, sən batmayacaqsan. Hətta suya belə dalacağam, səni sudan çıxarmaq üçün kifayət qədər güclüyəm.

Lilinin ölümü də yaşamı kimi zərif oldu. O, ölən günün səhəri balaca oğlan onun çarpayısına yaxınlaşdı və soruşdu:

– Axı niyə?

Çarpayının kənarında dayanan adam cavab vermədi, gözlərini qaldırdı və uşağa baxdı.

– Biz o qədər bir-birimizə yaxın idik ki... Niyə axı mənimlə sağollaşmadan getdi? Mən heç vaxt belə eləməzdim. De! Mən bilmək istəyirəm! Həmişə uşaqlara yalan deyirlər. Böyüklər elə bilirlər ki, biz axmağıq! Sən!.. Sən cəsarətlisən. Mənə həqiqəti de. Niyə o, məni bu cür tərk etdi? Mən yatarkən?..

Bəzən uşağın sizə baxan baxışları sizdə o qədər dərin xatirələr oyadır ki, verilmiş sualı cavabsız qoymaq mümkün olmur.

Antuan əlini uşağın çiyninə qoydu.

– O, başqa cür edə bilməzdi. Ölüm dəvətlə gəlmir, o, özünü qəbul etməyə məcbur edir. Anan gecəyarısı oyandı, dəhşət ağrıları var idi. Səhər açılana qədər gözlədi. Var qüvvəsilə ayıq qalmağa çalışdı, ancaq yavaş-yavaş dərin yuxuya getdi.

– Onda mən günahkaram, mən yatıb qalmışam.

– Yox, əlbəttə ki, yox, belə fikirləşməməlisən. Bilmək istəyirsən niyə sağ ol demədən səni tərk etdi?

– Hə.

– Sənin anan son dərəcə geniş ürəkli bir qadın idi. Bu cür qadınlar sevdiklərini tək buraxıb onları ləyaqətlə tərk etməyi bacarırlar.

Balaca oğlan həyəcanlanmış adamın gözlərindəki işığı sezdi. İndiyə qədər sona kimi anlaya bilmədiyi bir ortaqlığın fərqinə vardı. Yanağı və yenicə çıxmağa başlayan saqqalı boyunca süzülən göz yaşlarını gördü. Antuan əllərinin arxası ilə gözlərini sildi.

– Görürsən, mən ağlayıram, – dedi, – sən də belə eləməlisən. Göz yaşları kədəri ağrıdan ayırır.

– Mən sonra ağlayacağam, – balaca kişi cavab verdi, – hələ ki bu kədər mənimlə onun arasında olan bir bağdır və mən bu bağı itirmək istəmirəm. O, mənim həyatım idi.

– Xeyr, əzizim, sənin həyatın xatirələrdə deyil, irəlidədir. O da sənə məhz bunu öyrədirdi. Onun dediklərinə hörmətlə yanaş, Artur, onun dünən sənə


ekitab.ucoz.org

dediyini unutma: “Hər arzu qarşılığında həyatımızdan nəyisə alır”. Onun ölümü sənə bəxş edilən arzuların əvəzidir.

– Bu arzular mənə baha başa gəlir. Antuan, məni tək burax, – uşaq dedi.

– Sən onsuz da onunla təksən. Gözlərini yum, onda mənim varlığımı unudacaqsan. Bu, hisslərin gücü ilə olur. Qarşıda səni gözləyən uzun bir yol var, buna baxmayaraq, sən öz-özünlə təksən.

– O, çox gözəldir, hə? Elə bilirdim, ölüm məni qorxudacaq, ancaq indi o, mənə çox gözəl görünür.

Artur anasının əlindən tutdu. Onun zərif və ağ dərisi altından görünən incə mavi damarlar sanki onun uzun, coşqu dolu, al-əlvan həyatını əks etdirirdi. O, anasının əlini üzünə yaxınlaşdırdı və yanağına sürtərək oxşadı, sonra isə ovcundan öpdü. Hansı kişinin öpüşü bu məhəbbətə rəqib ola bilərdi?

– Səni sevirəm, – dedi, – bir uşaq necə öz anasını sevərsə, mən də səni o cür sevirəm. Ancaq bu andan etibarən sən son günümə qədər mənim kişi ürəyimdə yer alacaqsan.

– Artur, – Antuan onu səslədi.

– Hə.

– O, sənin üçün bir məktub qoyub, al.

Artur məktubun kənarından tutdu və ona hopmuş ətri içinə çəkdi, sonra isə onu açdı.

Mənim böyük Arturum!

Bilirəın ki, bu sözləri oxuyanda ürəyinin bir guşəsində sənə bu çirkin oyunu oynadığım üçün mənə qəzəb yer alıb. Arturum, bu, sənə yazdığım son məktubdur və həm də sənə olan məhəbbətimin elanıdır. Qəlbim mənə bəxş etdiyin məhəbbəti özü ilə apararaq uçacaq. Həyat çox gözəldir, Artur, ancaq bunun fərqində olduğumuz an, o, barmaqları ucunda bizdən uzaqlaşınağa başlayır. Bununla belə hər gün ona olan iştahaınız artır.

Bəzən o, bizi şübhələrə salır, ancaq heç vaxt bu şübhələrə boyun əymə, ürəyim mənim. Sən doğulduğun an mən o işığı sənin gözlərində görmüşdüm. Bu da səni başqa uşaqlardan fərqləndirirdi. Mən sənin yıxıldığını və dişlərini bir-birinə sıxaraq ayağa qalxdığını görürdüm, halbuki başqa uşaqlar dərhal ağlayırdı. Bu cəsarət sənin


ekitab.ucoz.org

gücündür, ancaq eyni zamanda sənin zəifliyindir. Bundan ehtiyatlı ol, hisslər bölüşmək üçün yaranmışdır, güc və cəsarət onlardan düzgün istifadə etməyən adamların əleyhinə yönələn iki tərəfli çubuq kimidir. Kişilərin də ağlamağa ixtiyarı var, Artur, kişilər də kədərlənirlər.

Bu andan etibarən, mən sənin uşaq suallarına cavab vermək üçün yanında olmayacağam, çünki artıq balaca kişi olmaq vaxtı gəlib çatıb. Səni gözləyən bu çətin səfərdə öz uşaq qəlbini itirməməyə çalış, öz arzularını heç vaxt unutma, onlar sənin varlığının hərəkətverici qüvvəsi olacaq. Sənin zövqünü və yaşadığın səhərlərin ətrini onlar təyin edəcəklər. Tezliklə ürəyin mənə bəxş etdiyin sevgidən fərqlənən başqa bir sevgi dadacaq. O gün gələndə onu sevdiyin qadınla bölüş. Ən gözəl xatirələr birlikdə həyata keçirilən arzulardan doğur. Təklik qəlbin quruduğu bir bağdır. Orada çiçəklərin ətri olmur. Məhəbbətin gözəl dadı var, hər zaman bir şeyi xatırla: nəsə almaq üçün nəsə vermək lazımdır. Bil ki, sevə bilmək üçün hər zaman özün olmalısan. Mənim böyük oğlum, duyğularına güvən, ağlına və hisslərinə sadiq qal. Həyatını yaşa, o, sənə sadəcə bir dəfə verilib. Sən öz həyatının və sevdiklərinin məsuliyyətini daşıyırsan. Ləyaqətli ol, bizi birləşdirən paylaşdığımız səhərləri unutma. Qızılgülləri budayaraq, aya tamaşa edərək, güllərin ətrini ayırmağı öyrənərək, evin səsini dinləyərkən onları anlamağa çalışaraq birlikdə keçirdiyimiz anları xatırla. Bunlar çox sadə, hərdən də köhnəlmiş şeylərdir, ancaq heç vaxt heç kimə izin vermə ki, yaşamın nə olduğunu bilən adamlara məxsus bu sehrli anları kütləşdirsinlər, adiləşdirsinlər. Bu anların öz adı var, Artur, "heyranlıq" və o, sənə həyatının heyranlıqlarla dolu olacağını bildirmək üçün mövcuddur. Bu, səni gözləyən uzun səyahət zamanı səni xilas edən yeganə şeydir. Mənim balaca kişim, səni tərk edirəm, son dərəcə gözəl olan bu həyatdan bərk yapış. Səni çox sevirəm, oğlum, sən mənim həyat evimsən. Sənin də məni nə qədər sevdiyini bilirəm, odur ki, ürəyim rahat gedirəm. Səninlə qürur duyuranı.

Sənin anan.


ekitab.ucoz.org

Uşaq məktubu qatladı və cibinə qoydu. Anasının soyuq alnından öpdü. Kitab rəfləri arasından keçərkən əlini rəflərin üstündə gəzdirdi. Anası həmişə deyərdi "Bir ananın ölümü yanan kitabxanaya bənzəyir". Anasının ona məsləhət gördüyü kimi qətiyyətli addımlarla otaqdan çıxdı. "Tərk edərkən kişi heç vaxt geriyə boylanmamalıdır". Artur bağa çıxdı, səhər-səhər qızılgüllərin rayihəsi hər tərəfə yayılmışdı. Uşaq bir an ayaq üstə dayanmağa güclük çəkdi və qızılgüllərin qarşısında diz çökdü.

– O getdi. Bir daha sizi budamaq üçün gəlməyəcək. Kaş biləydiniz... Kaş anlayaydınız. Elə bil daha qollarım qalxmır.

Çiçəklər küləkdən ləçəklərini titrətməklə ona cavab verdilər və bu qızılgül bağının ortasında Arturun göz yaşları axmağa başladı. Evin astanasında dayanan Antuan bu mənzərəni seyr edirdi.

– Ah, Lili! Sən onu erkən tərk etdin, – Antuan pıçıldadı, – çox erkən. Artıq Artur təkdir. Onun dünyasına səndən başqa kim girə bilər axı? Əgər indi olduğun yerdə hökmün çatırsa, onda dünyamızın qapılarını ona aç.

Bağın dərinliyində bir qarğa var gücü ilə qarıldadı.

– Ah, Lili, yox, – Antuan dedi, – mən onun atası deyiləm.

Həmin gün Arturun həyatında yaşadığı ən uzun gün idi. Axşam evin astanasında oturub ona olduqca ağır görünən anların sükutuna qulaq verdi. Antuan da onun yanında oturmuşdu, ancaq nə o, nə də Artur danışmırdı. Hər ikisi xatirələrə qərq olaraq gecənin sükutunu dinləyirdi. Getdikcə balacanın qulaqlarında səslənən gecənin musiqisinin notları rəqs etməyə başladı, səkkizlik sözlər yaranmağa, ağ rənglər zərflərə, qaralar fellərə çevrilirdi və beləcə, artıq dilə gəlmək istəməyən cümlələrin sükutu səslənirdi.

– Antuan.

– Hə, Artur.

– O, öz musiqisini mənə bağışlayıb.

Sonra uşaq Antuanın qucağında yuxuya getdi. Antuan Arturu oyandırmağa qorxaraq bu cür uzun müddət hərəkət etmədən oturdu. Dərin yuxuya


ekitab.ucoz.org

getdiyinə əmin olduqdan sonra onu qucağına aldı və evə girdi. Artıq bir neçə saat idi ki, Lili bu evi tərk etmişdi, artıq evdəki ab-hava da dəyişmişdi. Təsviri qeyri-mümkün səslər, bəzi qoxular, bəzi rənglər sanki nəzərə çarpmamaq üçün gizlənmişdilər. “Gərək bu anlar əbədi qalsın, gərək onları yaddaşımıza həkk edək”, pilləkənləri qalxan Antuan pıçıltı ilə öz-özünə dedi. Arturun otağına girib uşağı çarpayının üstünə qoydu və paltarlarını çıxartmadan üstünü örtdü. Oğlanın saçlarını sığalladı və barmaqlarının ucunda otaqdan çıxdı.

Onları tərk etməzdən əvvəl Lili hər şeyi düşünmüşdü. Onun ölümündən bir neçə həftə sonra Antuan bu böyük evin bütün otaqlarının qapılarını kilidlədi və ancaq aşağıda yerləşən, ömrünün sonuna qədər yaşayacağı iki kiçik otağı açıq qoydu. Arturu vağzala apardı və onu qapalı internat məktəbinə aparacaq qatarda oturtdu.

İnternat məktəbdə həyat xoş keçirdi, müəllimlər hörmətəlayiq insanlar idilər, hətta bəzən sevimli də olurdular. Əlbəttə ki, Lili onun üçün ən gözəl yeri seçmişdi. İlk baxışdan burada heç nə kədərli görünmürdü, şən təsir bağışlayırdı. Ancaq Artur oraya qədəm qoyduğu ilk andan anasının qoyub getdiyi xatirələri yaşatmağa başladı və ürəyinin hər köşəsini bu xatirələrlə doldurdu. O, hər ana dəyər verərək yaşamağı öyrəndi və Lilinin qanunlarını hər hərəkətində, jestində, yürütdüyü qətiyyətli mühakimələrində yaşatdı. Artur sakit təbiətli uşaq idi. Gənc oğlan ikən də heç uşaqlıqda itki yaşamış birinə bənzəmirdi. O, normal böyüyürdü, nə dahi idi, nə də bivec. Aldığı qiymətlər ya orta, ya da yaxşı olurdu, bircə tarix dərsindən başqa, bu fənndə o, hər kəsdən fərqlənirdi. Artur illəri geridə qoyub bakalavr diplomunu da aldı.

Məktəbi bitirənə yaxın, iyun axşamlarından birində internat məktəbinin direktoru onu çağırdı. Direktor ona bildirdi ki, ölümündən iki il əvvəl anası onun yanına danışmağa gəlmiş, xəstə olduğunu və nə qədər zamanı qaldığını bilmədiyini demişdi. Saatlarca söhbət etmiş və Lili Arturun təhsili haqqında ən xırda detallarına qədər düşündüyü planını bölüşmüşdü. Arturun təhsil haqqını artıqlamasına qədər ödəmişdi. O, məktəbin direktoru xanım Stenarda bəzi şeyləri etibar etmişdi: Karmeldə yerləşən və onun böyüdüyü evin, eləcə də şəhərdəki


ekitab.ucoz.org

mənzilin açarlarını. Son vaxtlara qədər mənzil kirayə verilirdi, ancaq əvvəlcədən danışıldığı kimi o, Artur həddi-büluğa çatdığı gün azad ediləcəkdi. Kirayə haqqı onun adına açılmış hesabda yığılıb qalırdı, eləcə də anasının ona miras qoyduğu digər pullar da buraya aid idi. Bu məbləğ ona ali təhsil almağa yetəcəkdi, hətta artıq da qalacaqdı.

Artur xanım Stenardın masanın üstünə qoyduğu açarları götürdü. Gümüşdən olan dairəvi brelokun ortası basıq idi və kənarında kiçik klapan var idi. Artur klapanı əydi və brelok iki hissəyə bölünərək açıldı. Hər iki tərəfdə bir kiçik şəkil var idi. Biri Arturun, yeddi yaşında çəkilmişdi, digəri isə Lilinin idi.

– Ali təhsilini harada almaq istəyirsən? – direktor soruşdu.

– Memarlıq fakültəsində. Memar olmaq istəyirəm.

– Karmelə evə getməyəcəksən?

– Xeyr, indi yox, nə vaxtsa gedərəm.

– Niyə?

– O özü bilirdi, niyə. Bu, sirrdir.

Direktor qalxdı, Artur da ayağa qalxdı. Qapının ağzında Arturu qucaqladı və bərk-bərk özünə sıxdı. Əlindəki zərfi Arturun əlinə verdi.

– O yazıb, – qulağına pıçıldadı, – sənin üçündür. Onu məhz bu an sənə verməyi xahiş eləmişdi.

Direktor qapını taybatay açdı və Artur otaqdan çıxdı. Geriyə boylanmadan bir əlində məktub, digərində isə açarlar dəhlizlə getməyə başladı.


ekitab.ucoz.org

# 11

Maşın uzun gecənin son anlarını da ötərək gedirdi, faralar gah qayaların kənarı boyunca burulan döngələrə, gah da narıncı və sağda kimsəsiz çimərliyi uçurumdan ayıran ağ xəttlərə işıq salırdı. Pol danışmadan maşını sürürdü, diqqətini yola vermiş və düşüncələrə qərq olmuşdu. Loren mürgüləyirdi. Artur bu sükut anından istifadə edib mənzilindəykən yazı masasının gözündən açarları alarkən götürdüyü məktubu cibindən çıxardı. Qatlanmış zərfi açdı və xatirələrlə birlikdə ətir iyi onu bürüdü: bu, anasının gümüş qapaqlı sarı büllur flakonda saxladığı iki cövhərin qarışmış ətri idi. Ətir iyi dustaq olduğu zərfdən qurtulub özü ilə birlikdə anası haqqında xatirələri oyandırdı. Məktubu zərfdən çıxardı və ehmalca açdı.

Mənim böyük Arturum!

Bu məktubu oxuyursansa, deməli, artıq qərar qəbul etmisən və Karmel yolundasan. Çox maraqlıdır, görəsən, neçə yaşındasan? Gözəl illəri birlikdə keçirdiyimiz evimizin açarları da əlindədir. Bilirdim ki, oraya dərhal qayıtmayacaq, evi dərin yuxudan oyatmaq üçün özünü hazır hiss etməyi gözləyəcəksən. Arturum, tezliklə səslərinə alışdığım bu evin qapısını açıb içəri girəcəksən. Xatirələrlə dolmuş hər otağı gəzəcəksən, pəncərələri yavaş-yavaş açacaqsan və bundan sonra həsrət qalacağım günəş işığı otağa dolacaq. Gərək qızılgül kollarının yanına gedəsən, onlara ehtiyatla yaxınlaş. Bütün bu müddət ərzində yəqin ki, yabanılaşıblar. Mənim otağıma da girəcəksən və orada qalacaqsan. Şkafda kiçik qara bir çamadan var, ürəyin istəsə, daxili gücün yetsə, onu aç. Orada bir dəftər var, uşaqlığından bəri hər gün onu yazıram. Sənin həyatın qarşıdadır və onun yeganə ağası sənsən. “Sevdiyim şeylərə” layiq ol. Səni çox sevirəm və nəzərlərim həmişə sənin üstündədir.

Anan Lili.


ekitab.ucoz.org

Monterey limanına çatanda sübh açılmaqda idi. Səma sönük çəhrayı rəngə boğulmuş, üfüqdə dənizə birləşən dalğalı lent kimi burulmuşdu. Artur yolu nişan verirdi. O, uzun illər idi ki, bu yollarla getməmişdi, buna baxmayaraq hər kilometr ona tanış idi, yanından keçdikləri hər hasar, hər dirək onun uşaqlıq hafizəsindəkiləri oyadırdı. Əsas yol qurtaranda əli ilə işarə etdi. Növbəti döngədə evin qanadları görünməyə başladı. Pol onun göstərişlərini yerinə yetirirdi. Onlar qış yağışının döyəclədiyi və yayın istisindən cadar-cadar olmuş torpaq yola çıxdılar. Döngənin sonunda paslanmış dəmir eyvan qarşılarında ucaldı.

– Çatdıq, – Artur dedi.

– Açarın var?

– Açaram. Sən evə qədər sür və məni gözlə. Piyada gələcəyəm.

– O da səninlə gəlir, yoxsa maşında qalacaq?

Artur əyildi və maşının pəncərəsindən dostuna amiranə səslə dedi:

– Özündən soruş!

– Yox, yaxşısı budur qalsın.

– Tək get, belə daha yaxşı olar, – Loren Artura dedi.

Artur gülümsədi və Pola dedi:

– Bəxtin gətirdi, səninlə qalır.

Maşın toz-torpaq qaldıraraq uzaqlaşdı. Artur tək qaldı, ətrafdakı mənzərəyə tamaşa etməyə başladı. Sarı-qırmızı torpaqdakı geniş izlər, gümüşüyə çalan bir neçə şam ağacı, sekvoya, nar və keçibuynuzu ağacları birbaş okeana aparırdı. Torpaq günəşdən yanmış tikanlarla dolu idi. Yol kənarına döşənmiş daş pilləkənlərlə getməyə başladı. Hələ yolun yarısında ikən bir qədər irəlidə, sağda qızılgül kollarının varlığını görmədən hiss etdi. Park artıq uzun müddətdir tərk edilmiş yerə bənzəyirdi. Hər addımda bir-birinə qarışan ətirlər qarşısıalınmaz bir qüvvə ilə xatirələrin rəqsinə çevrilirdi. Oradan keçərkən çəyirtkələr bir an susdular və ən gözəl nəğmələrini yenidən söyləməyə başladılar. Hündür ağaclar yüngül səhər küləyindən yırğalanırdılar. Okean dalğaları qayalara çırpılırdı. Düz qarşısında mürgüləməkdə olan ev ucalırdı; o, eynilə xəyallarındakı kimi idi. Ancaq ona elə gəldi ki, ev bir


ekitab.ucoz.org

az balacalaşıb. Divarlar zamanla köhnəlmişdi, ancaq dam salamat görünürdü. Taxta pəncərələr bağlı idi. Pol maşını evin qabağında saxlamışdı, bayırda Arturu gözləyirdi.

– Yaman gec gəldin!!!

– İyirmi il sonra!

– Nə edəcəyik?

Onlar Lorenin bədənini birinci mərtəbədəki kabinetə qoymaq qərarına gəldilər. Artur açarı kilidə saldı və tərəddüd etmədən onu lazımi istiqamətdə – tərs tərəfə burdu. Hafizə qırıq-qırıq xatirələrlə doludur və istədiyi zaman onları yenidən bərpa edir. Ancaq bunun sirri heç kimə məlum deyil. Kilidin sürgüsü belə yatan xatirəni dərhal oyatdı. Artur dəhlizə girdi, girişdə soldakı otağın qapısını açdı, otağa daxil oldu və jalüzü qaldırdı. Ətrafına qəsdən nəzər yetirmək istəmirdi, bunu etmək üçün kifayət qədər vaxtı olacaqdı. İndi o, sadəcə, bu anları yaşamaq istəyirdi.

Tezliklə qutuları boşaltdılar, Lorenin bədənini divan-çarpayının üstünə qoydular, boruları yerləşdirdilər. Artur pəncərənin sürgüsünü yenidən bağladı. Sonra qəhvə dolu kiçik paketi alıb Polu arxasınca mətbəxə çağırdı:

– Qəhvə içək. Sən paketi aç, mən də suyu qızdırım.

Su çanağı üzərindəki şkafı açdı oradan iki metal əşya çıxardı. Onların qəribə forması var idi: iki simmetrik və qeyri-simmetrik hissədən ibarət idilər. Artur hər iki tərəfi bir-birinə əks istiqamətdə burmağa başladı.

– O nədir? – Pol soruşdu.

– Bu, italyan qəhvədanıdır.

– İtalyan qəhvədanı?

Artur qəhvədanın istifadə qaydasını izah etməyə başladı. Əsas odur ki, filtr kağızdan olmasın. Əks halda qəhvənin ətri gəlməz. Qəhvədanın su ilə dolu alt gözüylə üst gözü arasında yerləşən kiçik hissəyə üç qaşıq qəhvə tökürsən. Hər iki gözü aradakı vinti burmaqla bərkidirsən. Bu cür qəhvə daha yaxşı bişəcəkdi. Su qaynayan kimi qalxır və qəhvəni yalnız incə metal filtrdən süzərək iki göz arasındakı hissədən axıdıb üst gözə keçirir. Sadəcə, qəhvəni vaxtında ocaqdan almalısan ki, su qaynayaraq üst gözə birdən qalxmasın, çünki əks təqdirdə qaynayan su yox, qəhvə olacaq. "Qəhvə


ekitab.ucoz.org

qaynadısa, at getsin!" Bunları izah edib qurtaran kimi Pol təəccüblə dedi:

– Bu evdə bu cür qəhvə hazırlamaq üçün yəqin ki, iki dil bilən mühəndis olmaq lazımdır.

– Hətta bundan da artığı lazımdır, dostum, istedad lazımdır. Bu əsl mərasimdir!

Dostunun son sözlərinin müqabilində Polun üzündə şübhə ifadəsi yarandı və əlində tutduğu qəhvə paketini Artura uzatdı. Artur əyildi və çanaq altında yerləşən qaz balonunu açdı. Sonra qaz plitəsinin solundakı kranı çevirdi və nəhayət, alov düyməsini basdı.

– Yəni səncə, orada hələ də qaz qalıb – Pol soruşdu.

– Antuan heç vaxt mətbəxdəki qaz balonunu boş qoyub evdən getməzdi. Mərc gələk ki, qarajda hələ iki dənə də dolu qaz balonu var.

Pol avtomatik olaraq qapıdakı elektrik açarına tərəf getdi və onu aşağı çəkdi.

Otaq sarı işığa qərq oldu.

– Bəs elektrik cərəyanı haradan?

– Dünən şirkətə zəng eləyib cərəyanı da, suyu da bərpa etdirmişəm. Ancaq yaxşısı budur söndürək. Əvvəlcə lampaların tozunu silməliyik, yoxsa qızan kimi yanacaqlar.

– İtalyan qəhvəsi hazırlayırsan, lampalar yanmasın deyə tozlarını silirsən... Bütün bunları haradan öyrənmisən?

– Burada, dostum, bax, bu otaqda. Çox şey öyrənmişəm.

– Qəhvə nə oldu? Hazır deyil?

Artur taxta masanın üstünə iki fincan qoydu və qaynar qəhvəni fincanlara süzdü.

– Dərhal içmə, – dedi.

– Niyə?

– Çünki ağzın yanar. Bir də gərək əvvəlcə onun ətrini içinə çəkəsən. Qəhvənin ətri burun dəliklərinə dolmalıdır.

– Sən öz qəhvənlə məni təngə gətirdin, dostum, burun dəliklərimə heç nə girmir! Deyəsən, mən hələ də yuxudayam. Qoy ətir burun dəliklərindən girsin! Bütün bunları hardan uydurursan?

Pol fincanı dodaqlarına yaxınlaşdırdı, bir qurtum almağı ilə qaynar qəhvəni tüpürməyi bir oldu. Loren Artura yaxınlaşdı və onu arxadan qucaqladı. Başını çiyninə qoydu və qulağına pıçıldadı:


ekitab.ucoz.org

– Buranı çox sevdim, özüınü burada çox yaxşı hiss edirəm, adam sakitləşir.

– Sən harada idin? – Artur ondan soruşdu.

– Siz qəhvə haqqında filosofluq edən vaxt mən mənzili gəzirdim.

– Demək xoşuna gəldi?

– Sən onunla danışırsan? – Pol əsəbi halda soruşdu.

Polun sualını qulaqardına verən Artur Lorendən soruşdu:

– Doğrudan bura xoşuna gəldi?

– Hmm... qoy bir az naz eləyim... – Loren dedi, – ancaq gərək sirrlərini mənə açasan, mənə etibar edəsən. Hiss edirəm ki, burada hər yer – divarlar, əşyalar bu sirrlə doludur.

Loren ədəbsiz görünmək istəmirdi, bununla belə, bildirdi ki, onunla burada tək qalmaq istəyir. Səbirsizliklə hər yeri ona göstərməyini, ikilikdə söhbət etmələrini istəyir. Onunla söhbəti var idi. Artur bu söhbətin nə haqda olacağını soruşdu, Loren cavab verdi: “Bu yer haqqında, keçmişdəkilər haqda”. Pol Arturun ona diqqət ayırmasını gözlədi, ancaq Artur yenidən öz görünməz qonağı ilə söhbətə daldı. Nəhayət, Pol dözməyib onların söhbətini kəsdi:

– Yaxşı, mənə yenə ehtiyacın var? San-Fransiskoya qayıtmalıyam. İşim var. Bir də ki sənin ruhla söhbətin məni əsəbiləşdirir.

– Niyə axı bu qədər dar düşüncəlisən?

– Necə? Necə? Deyəsən, yaxşı eşitmədim. Sən bu sözləri xəstəxanadan bədəni, özü də oğurlanmış təcili yardım maşını ilə oğurlamaqda sənə kömək eləyən, evindən dörd saatlıq məsafədə italyan qəhvəsi içən, gecəni yuxusuz qalan birinə deyirsən? Sən özündənrazı eşşəksən!

– Mən o mənada demədim.

Pol bildirdi ki, onun nə demək istədiyini bilmir və bilmək də istəmir. Nə qədər ki, dalaşmayıblar getsə, yaxşı olacaq. “Yoxsa doğrudan da dalaşacağıq və bütün çəkdiyimiz əziyyət də zay olacaq”.

Artur narahatlıqla dostunun yorğun olub-olmadığını soruşdu, çünki evə getmək üçün sükan arxasına keçəcəkdi. Ancaq Pol onu arxayın etdi, onun italyan qəhvəsindən sonra (o, bu sözü istehza ilə vurğuladı) hələ iyirmi dəfə bu cür maşın sürə bilərdi. Artur dostunun sarkazmını sanki heç eşitmədi də, Pola gəlincə isə əslində o özü narahat idi, dostunu bu


ekitab.ucoz.org

ucqar yerdə tək-tənha, maşınsız qoyub gedəcəkdi.

– Qarajda köhnə "Ford" var.

– Sənin o köhnə "Ford"unu axırıncı dəfə nə vaxt sürüblər?

– Uzun zaman bundan əvvəl.

– Bəs bu köhnə "Ford" yerindən tərpənə bilir?

– Əlbəttə, onun akkumulyatorunu dəyişərəm, tərpənər.

Artur Polu maşına qədər ötürdü.

– Mənim üçün narahat olma, onsuz da kifayət qədər əziyyət çəkmisən.

– Əlbəttə ki, narahat olmalıyam. Normal vəziyyətdə səni bu evdə tək qoyub gedərdim. Hərçənd evdə ruhların olub-olmamaması məni narahat edərdi, ancaq sənin yanında artıq bir ruh var.

– Uç burdan!

Pol mühərriki işə saldı, maşın yerindən tərpənmədən əvvəl pəncərəni aşağı saldı:

– Əminsən ki, hər şey qaydasındadır?

– Əminəm.

– Yaxşı. Onda mən getdim.

– Pol.

– Nə var?

– Hər şey üçün sağ ol.

– Dəyməz.

– Elə deyil. Mənim üçün çox şey elədin. Vəziyyətdən heç nə anlamadan mənə görə özünü riskə atdın, sadəcə dostluq və sədaqət naminə. Bu, mənim üçün çox şeydir və mən bunu anlayıram.

– Anladığını bilirəm. Yaxşı, mən getdim, yoxsa bir az da qalsam, ağlamağa başlayacağıq. Özündən muğayat ol, ara-sıra zəng elə.

Artur söz verdi və tezliklə "Saab" yamac arxasında görünməz oldu. Loren Arturu qapının ağzında gözləyirdi.

– Buranı gəzək?

– İçəridən, yoxsa bayırdan başlayaq?

– Hər şeydən əvvəl de görüm, biz haradayıq?

– Sən Lilinin evindəsən.

– Lili kimdir?

– Lili mənim anamdır. Uşaqlığımın bir hissəsi burada keçib.

– O, çoxdan yoxdur?

– Çoxdan.

– Və sən heç vaxt bura qayıtmamısan?


ekitab.ucoz.org

– Heç vaxt.
– Niyə?
– İçəri gəl! Bu haqda bir qədər sonra danışarıq.
– Niyə? – Loren təkidlə soruşdu.
– Keçmiş həyatında tərs eşşək olduğunu və insan surətində yenidən dünyaya gəldiyini tamamilə unutmuşdum!
– Bura mənə görə gəlmisən?
– Sən həyatımdakı yeganə ruh deyilsən, – Artur yumşaq səslə dedi.
– Burada olmaq sənə o qədər də asan deyil...
– Buna görə yox, belə deyək... bu, mənim üçün olduqca vacib idi.
– Və sən bunu mənə görə elədin?
– Mən bunu elədim, çünki cəhd eləmək vaxtı idi.
– Nəyə cəhd eləmək?
– Balaca qara çamadanı açmağa.
– Bu qara balaca çamadanın nə olduğunu izah edə bilərsən?
– Xatirələr qalağı.
– Burada xatirən çoxdur?
– Burada demək olar ki, hər şey xatirədir. Bura mənim evimdir.
– Bəs sonra nə oldu?
– Sonra illər sürətlə ötüb-keçdi, mən tək-tənha böyüdüm.
– Anan birdən öldü?
– Yox, xərçəng xəstəliyindən öldü. Bundan xəbəri var idi. Bu ancaq mənim üçün birdən oldu. Gəl, sənə bağı göstərəcəyəm.
İkisi də küçə qapısından çıxdılar və Artur Loreni okeana qədər uzanan bağa apardı. Onlar qayalıq üstündə oturdular.
– Bir bilsəydin onunla burada nə qədər birlikdə saatlar keçirmişik... Mən dalğaların sayından mərc gəlib onları sayardım. Hərdən günəşin batışını izləyərdik. Burada çox adam gecəni sahildə keçirir ki, yarım saat da olsa günəşin doğuşuna tamaşa edə bilsin. Onun doğuşu hər gün bir-birindən fərqlidir. Okeanın, havanın hərarətindən, çox şeyin təsirindən səmanın rəngi heç vaxt eyni olmur. Necə ki, şəhərlərdə adamlar müəyyən saatda evə qayıdıb televiziya xəbərlərini izləyirlər, eləcə də burada adamlar günəşin batışına tamaşa edirlər. Bu əsl ritualdır.
– Burada çox yaşamısan?


ekitab.ucoz.org

– Onda balaca oğlan idim. O, məni tərk edəndə on yaşım var idi.

– Bu axşam sən ınənə günəşin batışını göstərəcəksən!

– Burada başqa cür mümkün deyil, – Artur gülümsəyərək dedi.

Onların arxasında görünən ev səhər günəşinin şəfəqləri altında parıldayırdı. Dənizə yaxın yerləşdiyi üçün divarlarda ləkələr əmələ gəlmişdi, buna baxmayaraq ev illərin sınağından yaxşı çıxmış görünürdü. Xaricdən baxanda onun uzun illər boyunca kimsəsiz qaldığını heç kim anlamazdı.

– Ev yaxşı qalıb, – Loren dedi.

– Evə yaxşı baxmaqda Antuan usta idi. Həın bağban, həm usta, həm balıqçı, həm dayə, həm də evin gözətçisi idi. Anam ona bu evdə sığınacaq verəndə o, uğursuz bir yazıçı idi.

Əvvəllər o, kiçik kilsədə yaşayırdı. Atam təyyarə qəzasına düşməzdən əvvəl ailəvi dostumuz idi. Məncə, o, həmişə anama aşiq olub, hətta atam burada olanda da. Fikrimcə, onlar sevgili olublar, ancaq bir qədər gec. Onlar ikisi də az danışardılar, hər halda mən yuxudan durandan sonra belə görürdüm. Ancaq onların arasında nəsə bir ortaqlıq var idi. Onlar bir-birini ilk baxışdan anlayırdılar. Sükut həyatın onlara vurduğu ağır yaraları sağaldırdı. Bu iki insan arasında isə qeyri-adi, mütləq bir sükut mövcud idi. Sanki bu cür qəzəb və üsyanı bir daha yaşamamağa çalışırdılar.

Kabinetə girdilər. Loren bir qədər əvvəl onun bədəninin qoyulduğu masanın kənarında əyləşərək soruşdu:

– Bəs ona nə oldu?

– Lilidən sonra cəmi on il yaşadı.

Antuan öz həyatını bu evə baxmaqla keçirdi. Lili ona da pul qoymuşdu. Hər şeyi, hətta gözlənilməz hadisələri belə əvvəlcədən düşünmək onun üslubuna heç də yad deyildi. Bu cəhətdən Antuan ona oxşayırdı.

O, bir qış səhəri xəstəxanada öldü. Səhər günəşli və sərin hava var idi. Antuan yuxudan taqətsiz oyanmışdı. Qapının ilgəyini boyayarkən qəfildən ürəyindən küt bir ağrı qopdu. Havası çatmırdı, hava uda-uda ağaclar arasında addımlamağa başladı. Yaz və yay aylarında yeməkdən sonra altında dincəldikləri qoca şam ağacı özünü saxlaya bilməyib



ekitab.ucoz.org

yıxılan bu adamı öz budaqları arasına aldı. Ağrıdan qıvrıla-qıvrıla birtəhər evə qədər gəlib qonşuları köməyə çağırıbmış. Təcili yardım maşını ilə Monterey xəstəxanasına çatdırılıb və ertəsi gün – bazar ertəsi keçinib. Ölümündən qabaq hər şeyi hazırlamışdı. Ölümündən sonra ailə vəkili Artura zəng edib evlə nə edəcəklərini soruşmuşdu.

– O, mənə dedi ki, evi görəndə olduqca təəccüblənib. Antuan evdə hər şeyi qaydaya salmışdı, elə bil öləcəyi gün səyahətə gedəcəkdi.

– Bəlkə də o, elə belə edəcəkdi?

– Antuan və səyahətə getmək? Yox, onu Karmelin içində belə alış-verişə göndərmək üçün gərək çənə-boğaza çıxaydın, özü də buna əvvəlcədən cidd-cəhdlə hazırlaşaydın. Yox, məncə, o, yaşlı fillər kimi öz ölümünü əvvəlcədən hiss edib. Hiss edib ki, əcəl saatı gəlib çatıb. Ya da, ola bilsin, artıq həyatdan bezmişdi və buna qarşı çıxmaq istəmədi.

Həmin an Artur anası ilə olan söhbətini xatırladı. Bir dəfə anasından böyüklərin ölümdən qorxub-qorxmadığını soruşmuşdu. Anasının verdiyi cavab həmişəlik yaddaşında həkk oldu: “Gününü əla keçirsən, mənimlə balığa getmək üçün səhər tezdən qalxsan, ora-bura qaçıb oynasan, Antuanla qızılgülləri budasan axşam mütləq yorulursan. Yatmaqdan nə qədər zəhlən getsə də, rahatlıq tapmaq üçün özünü yorğan altında görməkdən hədsiz sevinc duyacaqsan. Həmin axşam yatmaq səni qorxutmayacaq. Həyat da bu günlərdən biri kimidir. Sonda rahatlıq tapmaq fikri adama rahatlıq verir. Bəlkə də ona görə ki, getdikcə bədənimiz öz əvvəlki qüvvəsini itirməyə başlayır. Hər şey daha da çətinləşir və onda əbədi uyumaq fikri artıq əvvəlki kimi adamı qorxutmur”.

– Anam o vaxt artıq xəstə idi və məncə, o, nə dediyini özü də çox yaxşı dərk edirdi.

– Bəs sən əvəzində nə dedin?

– Mən onun qollarına sığındım və ondan yorğun olub-olmadığını soruşdum.

O gülümsədi. Bir sözlə, bütün bunları onun üçün deyirəm ki, Antuanın depressiya içində olub həyatdan yorulduğunu düşünmürəın. Məncə o müdrikləşmişdi.

– Fillər kimi, – Loren alçaqdan dedi.

Onlar evə doğru addımladılar. Arturun ürəyində qızılgül kollarına yaxınlaşmaq istəyi baş qaldırdı,


ekitab.ucoz.org

odur ki, yana döndü.

– Biz krallığın ürəyi sayılan yerə – qızılgüllər məkanına gedirik!

– Niyə "krallığın ürəyi"dir?

– Çünki Lili bu qızılgülləri dəli kimi sevirdi. Bu, onun Antuanla mübahisə etdiyi yeganə mövzu idi. Anam hər çiçəyi tanıyırdı. Ola bilməzdi ki, güllərdən birini kəsəsən və o, bunu anlamasın. Hər bir gül son dərəcə özünəməxsus idi. O, kataloq vasitəsilə pöhrələr sifariş edir və dünyanın müxtəlif hissələrindən gələn çeşid-çeşid qızılgül növləri ilə fəxr edirdi, xüsusən də əgər buranın iqlimində güllərin yetişə biləcəyi iqlimdən fərqli olsaydı. O, həmin gülləri yetişdirməklə bağbanların biliksizliyini sübut etməyi özünə borc bilirdi.

– Bu cür güllər çox idi?

– Yüz otuz beş növ.

Bir dəfə leysan yağışlar yağarkən anası və Antuan gecənin bir yarısı qalxıb, qaça-qaça qaraja getdilər və eni on, uzunluğu otuz metr olan çexol götürüb geri qayıtdılar. Antuan hər üç tərəfdən çiçəklərin üstünü tələsik örtdü və uclarını paya ilə bərkitdi. Dördüncü ucunu isə hər ikisi əlində tutaraq biri pilləkənin üstündə, digəri isə tennis hakiminin stulu üstünə çıxıb beləcə dayandılar. Yağışlı gecənin bir hissəsini bu nəhəng çətiri tutmaqla keçirdilər. Çexol yağış suyu ilə dolub ağırlaşanda isə onu silkələyirdilər. Qasırğa üç saat sürdü.

"Əgər ev yansa idi, heç bu qədər həyəcanlanmazdılar. Onları ertəsi gün görəydin: yazıq günündə idilər". Əvəzində qızılgül kolları sağ-salamat idi.

Bağa daxil olanda Loren dedi:

– Bir gör burada nə qədər gül var!

– Hə, bunlar yabanı qızılgüllərdir. Onlar nə günəşdən, nə də yağışdan qorxurlar. Dərmək istəsən, gərək əlinə əlcək geyəsən, tikanları çoxdur.

Onlar günün böyük hissəsini birlikdə bağı qarış-qarış gəzməklə keçirdilər. Artur ağacları, bir vaxt onların gövdələrində qoyduğu izləri göstərirdi. Şam ağacının yanından keçərkən Lorenə körpücük sümüyünü sındırdığı yeri göstərdi.

– Bu, necə baş verdi?

– Mən yetişmişdim, ağacdan düşdüm!

Beləcə, günün necə gəlib-keçdiyini hiss etmədilər. Əvvəlcədən müəyyən edilmiş vaxtda


ekitab.ucoz.org

okean sahilinə gəldilər, qayalıqda oturdular və dünyanın hər yerindən tamaşaya gələn bu təbiət hadisəsinə tamaşa etməyə başladılar. Loren əllərini geniş açdı və həyəcanla dedi:

– Bu axşam Mikelancelo burada olmalı idi!

Artur ona baxdı və gülümsədi. Qaranlıq çox tez çökdü. Birlikdə evə qayıtdılar. Artur Lorenin "bədəninə qulluq etdi", sonra isə kiçik salondakı sobanı qaladı və yüngül şamı yeməyindən sonra hər ikisi sobanın qarşısında oturdu.

– Bəs o qara çamadan nədir elə?

– Yadından heç nə çıxmır!

– Yox, sadəcə, diqqətlə qulaq asa bilirəm, vəssalam.

– O, anamın çamadanı idi. Bütün məktubları, xatirələri onun içində saxlayırdı. Məncə, bu çamadan onun həyatının ən ümdə hissəsini təşkil edir.

– Necə yəni "məncə?"

Bu çamadan əsl sirr dağarcığı idi. Bütün ev Artura məxsus idi, bircə bu çamadanın qoyulduğu şkafdan başqa. Ona əl vurmaq qadağan edilmişdi. "Mən də risk eləmədim".

– Bəs o haradadır?

– Kabinetdə.

– Sən onu açmaq üçün heç vaxt buraya gəlməmisən? İnana bilmirəm!

Artur anasının keçdiyi həyat yolunu davam etdirməli idi. O, heç vaxt bu anı tələsdirmək istəməyib. Həmişə öz-özünə deyib ki, əvvəlcə böyüməlidir və onu sözün əsl mənasında anlamaq üçün bu riskə girə bilməyi bacarmalıdır. Loren etimadsızlıqla dolu ifadə ilə alnını qırışdırdı. Artur etiraf etdi:

– Sözün düzü, bu, məni həmişə qorxudub.

– Niyə?

– Bilmirəm, yəqin indiyə qədər onun xəyalımda yaşatdığım obrazından fərqli birini görəcəyimdən, hədsiz kədərdən qorxmuşam.

– Get onu gətir.

Artur yerindən tərpənmədi, ancaq Loren təkidlə çamadanı gətirməsini söylədi; o, heç nədən qorxmamalı idi. Əgər Lili bütün həyatını bu çamadanda toplayıbsa, bunu ona görə edib ki, bir gün oğlu onun kim olduğunu öyrənsin. O, heç də oğlunu ona görə sevməyib ki, onu həmişə bir surət olaraq xatırlasın.


ekitab.ucoz.org

– Sevmək sevdiyin şəxsin müsbət cəhətləri ilə yanaşı, mənfi cəhətlərini də sevməkdir. Bunları bir-birindən ayırmaq olmaz. Sən nədən qorxursan? Ananı mühakimə eləməkdən? Səndə mühakimə edəcək ürək yoxdur. Sən onu o edənin nə olduğunu qəbul etməyə bilməzsən, sən onun qoyduğu qaydalarını pozursan... O, bu çamadanı sənin üçün qoyub ki, sən zamanın ona fürsət vermədiyi şeyi biləsən – onu tanıyasan. Yalnız bir uşaq kimi yox, məhz bir kişi kimi!

Artur bir neçə dəqiqə fikirləşdi. Sonra gözlərini Lorendən ayırmadan ayağa qalxdı və kabinetə getdi. Məşhur şkafı açdı. Rəfə qoyulmuş kiçik qara çamadana baxdı, dərisi getmiş dəstəyindən tutub keçmişi indiki zamana sürüklədi. Salona qayıdan kimi Lorenin yanında yerdə bardaş qurdu və uşaqlar kimi bir-birinə baxışdılar, elə bil xəzinə dolu mücrü tapmışdılar.

Dərindən nəfəs aldıqdan sonra Artur çamadanın sürgülərini yana çəkdi. Çamadanın qapağı açıldı. Çamadan ağzına qədər zərflərlə dolu idi. Burada məktublar, şəkillər, bəzi xırda-para əşyalar, Analar günündə Arturun hazırladığı xəmirdən düzəldilmiş kiçik təyyarə, Yeni il bayramında hazırladığı xəmirdən külqabı, balıqqulaqlarından boyunbağı, gümüş çəngəl və körpə ayaqqabıları var idi. Əsl Əlibaba xəzinəsi idi. Ən altda tutqacla sancaqlanmış bir qalaq məktub var idi. Lili üzərində böyük hərflərlə "ARTUR" yazmışdı.

Artur onu götürdü və açdı.

Arturum!

Budur, öz evindəsən. Zaman bütün yaralara məlhəm olur, hətta bəzi yaralar sağalmasa da. Bu çamadanda mənim xatirələrimlə üzləşəcəksən – səninlə, səndən öncə olan, haqqında sənə danışa bilmədiyim xatirələr, çünki o zaman uşaq idin. Sən ananı başqa tərəfdən görəcəksən, yeni çox şey öyrənəcəksən. Mən sənin anan idim, ancaq həm də qadın idim, qorxularım, şübhələrim, səhvlərim, təəssüflərim və zəfərlərimlə. Bir vaxt sənə verdiyim məsləhətləri verə bilmək üçün gərək mütləq səhvlər edəydim. Mənsə çox səhv etmişəm. Valideynlər elə bir dağdır ki, bütün ömrün boyu ora dırmanmağa


ekitab.ucoz.org

çalışırsan, o vaxta qədər ki, artıq özünün valideyn olduğunun fərqinə varırsan. Bilirsən ki, övlad yetişdirmək qədər çətin heç nə yoxdur. Bütün ömrün boyu doğru bildiklərini etməyə çalışırsan, ancaq digər tərəfdən də anlayırsan ki, çoxlu səhvlərin var. Bir çox valideynlər üçün hər şey sadəcə məhəbbətdən ibarətdir, hətta öz eqoistliklərinə əngəl ola bilmədikləri vaxtlarda da. Həyatda heç kim müqəddəs deyil. Bu çamadanı bağladığım gün səni peşman edəcəyimdən qorxurdum. Uşaqkən səni mühakimə etməyə imkan verməmişəm. Bu məktubu oxuyanda neçə yaşın olacaq, bilmirəm. Səni otuz, bəlkə də bir az artıq yaşda yaraşıqlı bir kişi kimi təsəvvür edirəm. Bircə o Tanrı bilir, səninlə birlikdə ömür sürməyi nə qədər arzulamışam. Bir səhər gözlərini açıb məni çağıracağın gün sənə cavab verə, səni görə bilməmək fikri məni nə qədər üzür... Bu düşüncənin verdiyi ağrı məni səndən uzaqlaşdıran ağrıdan daha ağırdır. Antuanı həmişə dərin məhəbbətlə sevmişəm, ancaq mən bu məhəbbəti yaşaya bilmədim. Çünki qorxurdum, atandan qorxurdum, onu incitməkdən, qurduğum hər şeyi məhv etməkdən, səhv etdiyimi etiraf etməkdən. Mən şeylərin nizamını pozmaqdan, hər şeyi yenidən başlamaqdan qorxurdum. Bunun bir işə yaramayacağından və boş bir xəyal olaraq qalacağından qorxurdum. Ancaq bu məhəbbəti yaşaya bilməmək dəhşətin özü idi... Gecə-gündüz onu düşünür və onu özümə qadağan edirdim.

Atan öləndə bu qorxu davam etdi, yenə xəyanət qorxusu, sənin üçün hiss etdiyiın qorxu. Hər şey sonsuz bir yalana dönmüşdü. Antuan məni hər bir qadının öz həyatında arzuladığı dərin məhəbbətlə sevirdi. Mənsə bunu ona verməyi bacarmadım, çünki ikiüzlülük etdim. Mən bu zəifliyimi özümə bağışlayırdım, bu bir qəpiklik tamaşa xoşuma gəlirdi və həyatın sürətlə ötüb-keçdiyini, özümünsə hadisələrdən kənarda qaldığımı hiss etmirdim.

Atan yaxşı insan idi, ancaq Antuan mənim nəzərlərimdə yeganə insan idi. Heç kim onun mənə baxdığı kimi baxmayıb, heç kim onun mənimlə danışdığı kimi danışmayıb. Onun yanında mənimlə heç nə baş verə bilməzdi, özümü tamamilə güvəndə hiss edirdim. O, hər bir arzumu, hər bir istəyimi anlayır və onları həyata keçirməkdən yorulmurdu. Onun bütün həyatı harmoniyadan, nəvazişdən və


ekitab.ucoz.org

bəxş etmək bacarığından ibarət idi. O, əlini mənə doğru uzadırdı, mən isə içində olduğum mübarizədə çarpışır və bu bəxşişi qəbul edə bilmirdim. Mən qorxurdum, özümə inandırmağa çalışırdım ki, bu xoşbəxtliyi yaşamaq mümkün deyil, həyat bu qədər şirin ola bilməz.

Biz onunla sadəcə bir dəfə məhəbbətlə məşğul olduq, onda sənin beş yaşın var idi. Ondan hamilə qaldım, ancaq uşağım düşdü. Bunu ona heç vaxt demədim, ancaq bildiyinə əminəm. O, mənə baxan kimi hər şeyi hiss edirdi.

Bəlkə də bu gün başıma gələnlər elə ən yaxşı çıxış yoludur, ancaq bir şeyi də düşünürəm: əgər özümlə barış içində yaşasaydım, bu xəstəlik daha da dərinləşməzdi. Mən həyata qarşı ikiüzlü davrandım və o, məni bağışlamadı.

Artıq anan haqqında hər şeyi olduğu kimi bilirsən. Bütün bunları sənə deməyə tərəddüd edirdiın. Məni mühakimə edəcəyindən qorxurdum. Ancaq sənə heç nəyin yalan qədər, xüsusilə də özünə yalan danışmaq qədər pis olmadığını öyrədən mən deyildimmi? Səninlə bölüşmək istədiyim o qədər şey var ki!.. Təəssüf ki, buna vaxtımız çatmadı. Məhz mənə görə Antuan sənə atalıq etmədi. Xəstə olduğumu öyrəndiyim zaman isə artıq geriyə yol yox idi.

Sənə qoyub getdiyim bu qarışıqlığın içində çox şey tapacaqsan: sənin və mənim şəkillərimiz, Antuanın şəkilləri, onun məktubları. Onları oxuma, onlar mənə aiddir. Onları da oraya qoydum, çünki onlardan ayrıla bilmədim. Soruşacaqsan ki, niyə atanın şəkli yoxdur. Bir gecə saxtakarlığın doğurduğu qəzəb içindəykən onun bütün şəkillərini cırdım. Bu, ona qarşı deyil, mənim özümə qarşı yönəlmiş bir qəzəb idi...

Mən öz mənfi və müsbət cəhətləri ilə bir qadının bacara biləcəyi mümkün qədər doğru hərəkət etməyə çalışdım, mənim məhəbbətim. Bir şeyə əmin ol ki, sən mənim həyatım, mənim yaşam qaynağım idin. Sən həyatımda baş verən ən gözəl və ən güclü şey oldun. Dua edirəm ki, bir gün sən də övlad sahibi olmaq kimi əvəzedilməz hissi yaşayasan, o zaman çox şeyi başa düşəcəksən.

Ömrüm boyunca ən böyük iftixarım SƏNİN ANAN olmaq olub. Səni sevirəm.


ekitab.ucoz.org

Artur məktubu yenidən bükdü və çamadana qoydu. Loren onun ağladığını gördü, ona yaxınlaşdı və barmaqları ilə göz yaşlarını sildi. Artur təəccüb içində başını qaldırdı. Onun qəlb ağrıları Lorenin şəfqət dolu baxışları altında bir anda silinib getdi. Loren barmaqları ilə çənəsindən yüngülcə tutub, üzünü qaldırdı. Artursa əlini onun yanağında gəzdirdi. Dodaqları birləşəndə Loren qəfildən geri çəkildi.

– Mənə görə bunu niyə eləyirsən, Artur?

– Çünki səni sevirəm və bunun sənə heç bir dəxli yoxdur.

Artur onun əlindən tutdu və evin çıxışına doğru aparmağa başladı.

– Hara gedirik?

– Okeana.

– Yox, burada, – Loren dedi, – indi.

Loren onun qarşısında dayandı və köynəyinin düymələrini açmağa başladı.

– Bunu necə elədin? Axı... sən...

– Sual vermə. Bilmirəm.

Köynəyi çiyinlərindən aşağı aşırdı və əlini kürəyində gəzdirdi. Artur bir qədər karıxmışdı. Axı ruhu necə soyunduracaqdı? Loren gülümsədi, gözlərini yuındu və bir saniyədən sonra Arturun qarşısında çılpaq idi.

– Hər hansı bir manekenin üstündə olan geyiıni təsəvvür etməyim kifayət edir ki, o, dərhal ınənim əynimdə olsun. Bir bilsən bu üsuldan nə qədər istifadə eləmişəm...

Loren qollarını Arturun boynuna doladı və onu qucaqladı. Sevdiyi kişinin bədəni Lorenin ruhuna, o isə onun bədəninə sarılmışdı. Bu qeyri-adi bir sehr idi...

Çamadan açıq qalmışdı...


ekitab.ucoz.org

ekitab.ucoz.org

# 12

Saat on birdə müfəttiş Pilgez xəstəxanaya gəlib özünü təqdim etdi. Həmin gün növbətçilərin rəisi səhər saat altıda işə başlayan kimi dərhal komissarlığa zəng etmişdi. Xəstəxanada komada olan pasiyentlərdən biri yoxa çıxmışdı və burada söhbət ancaq oğurluqdan gedə bilərdi.

Pilgez idarəyə gələndə masasının üstündə kiçik bir qeyd gördü və niyə axı bu cür işlərin məhz ona təsadüf etdiyini öz-özündən sual edib təəccüblə çiyinlərini çəkdi. Hirsini mərkəzi dispetçer otağı ilə telefon əlaqələri saxlayan Natalyadan çıxdı.

– Gözəlim, mən sənə neyləmişəm ki, bazar ertəsi səhər-səhər mənim üçün bu cür işlər təşkil eləyirsən?

– Həftənin əvvəlidir, Corc, üzünü daha yaxşı qırxa bilərdin, – deyə qızın üzündə geniş gülümsəmə ilə günahkarcasına bir ifadə yarandı.

– Maraqlı cavabdır. Ümidvaram oturduğun o fırlanan kürsünü sevirsən. Çünki məncə, sən hələ uzun müddət oranı tərk etməyəcəksən!

– Sən əsl kompliment dağarcığısan, Corc.

– Hə, elədir ki var. Bu da mənə axmaqları ovlamaq haqqı verir, – dedi və dönüb getdi.

Həftə pis başlamışdı. Bundan əvvəlki həftə də elə belə olmuşdu. Pilgez üçün isə bu həftə sadəcə digərinin davamı idi. Onun üçün xoş həftə ancaq o həftə adlana bilərdi ki, polislər ya qonşular arasında mübahisəli məsələləri həll etmək, ya da mülki məcəllənin pozulması ilə bağlı çağırılırdılar. Ancaq bu şəhərdə öldürmək, oğurlamaq, xüsusən də xəstəxanada komada olan adamları oğurlamaq üçün kifayət qədər dəli var idi. Otuzillik iş təcrübəsindən sonra bəzən ona elə gəlirdi ki, artıq hər şeyi görüb, ancaq hər ötən gün yeni-yeni əqli zəiflik nümunələrinin bir daha şahidi olurdu.

– Natalya! – öz kabinetindən bağırdı.

– Bəli, Corc, – operator cavab verdi. – Nədir, yoxsa həftəsonu pis keçib?

– Aşağıdan mənə şirni ala bilərsən?

Natalya gözlərini qələmini gəmirən komissara zilləyərək başını buladı.


ekitab.ucoz.org

– Natalya! – müfəttiş yenidən bağırdı.

Natalya gecə növbətçiliyi zamanı yığılan məruzələri seyfdə yer olmadığı üçün rəfə qoydu və yenidən sonu bitmək bilməyən yazısını yazmağa girişdi. Başını belə qaldırmadan dedi:

– Corc, mənə yaxşılıq elə, bu axşam istefa edəcəyini de.

Corc qəfildən ayağa qalxdı və Natalinin qarşısında dikildi.

– Sən çox qəddarsan!

– Get özünə bir oyuncaq al və nə qədər istəyirsənsə, öz canını sıx.

– Xeyr, mən məhz sənin canını sıxacağam. Bu, aldığın maaşın əlli faizini təşkil edir.

– O şirniyyatları alıb sənin üzünə çırpmaq istəyirəm, xoruz!

– Xoruz?

– Hə, sən iyrənc bir xoruzsan, heç uçmağı da yaxşı bacarmırsan. Xoruz kimi gedirsən. Get, ağalığını elə, məni isə rahat burax.

– Sən çox gözəlsən, Natalya.

– Sən də yaraşıqlısan, Corc, həm də həmişəki kimi öz havandasan.

– Bəlkə gedib bir az da nənənin ətəyində ağlayasan. Yaxşı, gəl gedək qəhvə içək.

– Bəs məlumatları kim ötürəcək?

– Gözlə, indi bilərsən.

Corc döndü və tələsik addımlarla burada təcrübə keçən gəncə tərəf getdi. O, qovluqları daşıyıb otağın o biri küncünə yığırdı. Gəncin qolundan tutdu və qapı ağzına qoyulmuş masaya tərəf apardı.

– Belə, əzizim, sən bu təkərli kürsüdə oturub özün üçün fırlan, çünki xanımın bir balaca işi var. Bir istiqamətdə iki dəfədən artıq olmamaqla stulda istədiyin qədər fırlana bilərsən. Telefon zəng çalan kim qaldırırsan və deyirsən: “Salam. Baş komissarlıq. Cinayət şöbəsi. Eşidirəm”. Deyilənləri dinləyirsən, qeydə alırsan və biz gəlmədən yerindən tərpənınirsən. Kimsə Natalyanı soruşsa, de ki, o, birdən-birə xeyirxah qadın olmaq qərarına gəldi və əczaxanaya getdi. Bunları eləməyə gücün çatar?

– Qəhvəmi sizinlə içməmək üçün hətta tualetləri belə təmizləməyə hazıram, müfəttiş!

Corc cavab vermədi və Natalyanın qolundan tutub özü ilə pilləkənlərə tərəf apardı.

– Məncə, nənənin ətəyində ağlamağa o getsəydi,



ekitab.ucoz.org

yaxşı olardı, – gülümsəyərək dedi.

– Bir halda ki, tezliklə səni təqaüdə göndərəcəklər, onda axı bu lənətə gəlmiş işdə nə ölümün var, Corc?!

Küçənin dönəcəyində kiçik qəlyanaltı yerinin qapısı üzərində əllinci illərdən qalmış qırmızı neonla "The Finzy Bar" yazısı bərq vuraraq pəncərələrə solğun işıq salırdı. Bir vaxtlar bu yer çox məşhur idi. İndi isə həmin dəbdəbədən ancaq saralmış divarların dekorasiyası və tavanları, vaxt ötdükcə taxta pəncərələrin qaralmış keşləri, minlərlə sərxoşun və hər axşam buraya gələn müştərinin ayaq təpiklərindən rəngi getmiş, köhnəlmiş parketlərdən başqa heç nə qalmamışdı. Qarşı səkidən bura Huperin filmlərindəki köşələrə bənzəyirdi. Bara daxil oldular və əskimiş taxta piştaxtanın qarşısında oturaraq iki qəhvə sifariş etdilər.

– Yəni həftəsonun bu qədər ağır keçib, aslanım?

– Həftə sonları məni darıxdırır, gözəlim, özün ki yaxşı bilirsən.

– Niyə? Ona görə ki bazar günü səninlə səhər yeməyi yeyə bilmədim?

O, başını təsdiq əlaməti olaraq yellətdi.

– Sən də muzeyə get. Bir az gəz.

– Əgər muzeyə getsəm, orada da dərhal hansısa bir cibgirlə qarşılaşacağam və beləcə yenə iş yerinə qayıdacağam.

– Kinoya get.

– Gecələr yatıram.

– Onda get gəz!

– Əla fikirdir. Gəzinəyə çıxaram. Yəqin bu cür küçələri dolaşan axmağa bənzəmərəm. Burada nə edirsən? Heç nə. Gəzirəm! Sənin məsləhət gördüyün həftəsonu planı budur? Yoxsa yeni sevgilinlə belə eləyirsən?

– O qədər də parlaq plan deyil, ancaq ən azı adamın başını qarışdırır.

– Kişilərin zəif yerləri hansıdır, bilirsən? – Corc soruşdu.

– Yox.

– Onlar sənin kimi bir qızla darıxmırlar. Əgər on beş yaş kiçik olsaydım, sənə mənimlə məktəbdə buraxılış gecəsinə getməyi xahiş edərdim.

– Sən onsuz da on beş yaş kiçik görünürsən, Corc.

– Bunu necə başa düşməliyəm?

– Kompliment kimi. Bu da pis deyil. Gedək, mən işləməliyəm, sən isə xəstəxanaya get. Yəqin ki, orada hər kəs təlaş içindədir.

Corc baş tibb bacısı Yarkovitski ilə görüşdü.

Qadının qarşısında üz-gözünü tük basmış, dolubədənli, ancaq eyni zamanda yaraşıqlı biri dayanmışdı.

– Bu, dəhşətdir. Heç vaxt belə şey baş verməyib.

Eyni səs tonu ilə onu da bildirdi ki, xəstəxananın inzibati işlər üzrə müşaviri də bu hadisədən dəhşətə gəlib və günortadan sonra müfəttişlə görüşmək istəyir. Belə ki, axşama qədər baş verənləri xəstəxana rəhbərliyinə bildirməlidir.

– Siz onu tapacaqsınız, hə, müfəttiş?

– Hər şeyi başdan sona qədər mənə danışsanız, bəlkə kömək edə bildim.

Yarkovitskinin fikrincə, oğurluq növbə dəyişərkən olub. Axşam növbəsində olan tibb bacısı ilə hələlik əlaqə saxlaya bilməyiblər, ancaq gecə növbətçisi bildirir ki, saat ikiyə yaxın yoxlama apararkən palata artıq boş olub. O zənn edib ki, pasiyent ölüb və yatağı dəyişdirməyiblər. Belə ki xəstəxananın qaydalarına görə pasiyent ölübsə, boş çarpayı iyirmi dörd saat ərzində boş qalmalıdır. Yarkovitski ilkin yoxlama zamanı dərhal hadisəni anlayıb və həyəcan siqnalı çalıb.

– Bəlkə o, komadan ayılıb və burada qalmaqdan təngə gəlib, gəzməyə çıxıb? Burada nə qədər qaldığını nəzərə alsaq, ona haqq qazandırmaq olar.

– Əla yumor hissiniz var, bəlkə onları xəstənin anasıyla da bölüşəsiniz? İndi o, müdirin kabinetindədir, bir neçə dəqiqədən sonra gələr.

– Hə, əlbəttə, – Pilgez ayaqqabılarının ucuna baxa-baxa dedi, – əgər bu, bir oğurluqdursa, onu hansı məqsədlə edə bilərlər?

– Bunun nə fərqi var? – tibb bacısı bir qədər qəzəblə dedi, sanki müfəttişlə boş yerə vaxt itirməkdən hirslənmişdi.

– Bilirsiniz, – o, gözlərini tibb bacısından ayırmadan davam etdi, – cinayətlərin doxsan doqquz faizinin motivi bəllidir. Prinsipcə, komada olan bir xəstəni bir bazar axşamı zarafat xətrinə heç kim oğurlamaz. Əminsiniz ki, onu başqa şöbəyə köçürməyiblər?

– Əminəm. Qəbul məntəqəsində köçürmə


ekitab.ucoz.org

sənədləri var. Onu təcili yardım maşını ilə aparıblar.

– Hansı şirkətin? – karandaşını çıxara-çıxara soruşdu.

– Heç bir.

Bu səhər o, işə gələndə oğurluq hadisəsi ilə qarşılaşa biləcəyi ağlına belə gəlməmişdi. 505 nömrəli palatada yatağın boş olduğunu görən kimi dərhal qəbul məntəqəsinə qayıtdı. "Mənə bildirmədən xəstə köçürülə bilməz. Ancaq indi artıq hər şey dəyişib. Rəhbərliyə hörmət etmək heç kimi maraqlandırmır". Qəbul şöbəsində tibb bacısı sənədləri gözdən keçirdikdən sonra isə anlayıb ki, burada nəsə yolunda deyil. Blanklardan biri çatışmırdı, mavi blank isə sona qədər doldurulmamışdı.

– Onda mən öz-özümdən soruşdum: axı necə olub ki, o axmaq tibb bacısı aldanıb.

Pilgez həmin "axmağ"ın kim olduğunu soruşdu. Onun adı Emmanuel idi, dünən növbə dəyişərkən qəbul məntəqəsində məhz o olmuşdu.

– Bütün bunlara o səbəb olub.

Baş tibb bacısının səsindən artıq Corcun qulaqları cingildəyirdi. Bu hadisələr baş verən zaman o, orada olmadığı üçün Pilgez oğurluq günü iş başında olan bütün tibbi heyətin siyahısını aldı və baş tibb bacısı ilə sağollaşdı. Maşında ikən Nataliyə zəng etdi və ondan siyahıda adı olan hər kəsi sabah işdən qabaq komissarlığa gəlib ifadə vermələrini tapşırdı.

Günün sonunda artıq hər kəsin ifadəsi alındıqdan sonra Pilgez öyrəndi ki, bazar günündən bazar ertəsinə keçən gecə tibbi xalat geyinmiş yalançı, üstəlik də kifir bir həkim, təcili yardım maşınında sanitarın yardımı ilə saxta sənədlərlə köçürmə əməliyyatı aparıb. Hər iki kənar şəxs heç bir çətinlik çəkmədən dərin komada olan xanım Loren Klaynın hərəkətsiz bədənini oğurlayıblar. Ancaq şahidlərdən gənc təcrübəçi həkimin verdiyi ifadə raportda önəmli dəyişikliyə səbəb oldu: saxta həkim əslində həqiqi həkim də ola bilərdi, belə ki, təcrübəçi həkim ondan xəstəyə yardım göstərməyi xahiş etmiş, həmin şəxs də ona yardım etmişdi. Bu gözlənilməz müdaxilədə iştirak edən tibb bacısının dediyinə görə, kateterin qoyulma dəqiqliyi onun həkim olmasından xəbər verir, ya da ən azı təcili yardım şöbəsində işləyib. Pilgez soruşanda ki, sıravi


ekitab.ucoz.org

tibb işçisi kateter qoya bilər, ya yox, cavab verildi ki, istər qadın olsun, istər kişi, hər bir tibb işçisinə bu cür əməliyyatları yerinə yetirmək öyrədilir, ancaq dəqiqlik, qətiyyətlə verilmiş göstərişlər və işin məharətlə görülməsi həmin şəxsin həkim olmasından xəbər verir.

– Sən bu məsələ haqqında nə düşünürsən? – evə getməyə hazırlaşan Natalya Corcdan soruşdu.

– Heç özüm də bilmirəm. Komada yatan qadını qaçıran bir həkim. Professional şəkildə görülmüş iş. Saxta təcili yardım maşını ilə sənədlər.

– Nə nəticəyə gəlmisən?

– Bəlkə də orqan mafiyasının işidir. Bədəni oğurlayıb gizli laboratoriyaya aparır, əməliyyat edirlər, lazım olan orqanları – qaraciyər, böyrək, ürək, ağciyər və s. çıxarırlar və onları o qədər də prinsipial olmayan pula ehtiyacı olan xəstəxanalara baha qiymətə satırlar.

Corc Natalyadan professional həkimlərin işlədiyi və maliyyə problemləri olan özəl xəstəxanaların siyahısını istədi.

– Saat doqquzdur, əzizim, mən evə getməliyəm. Bu, səhərə qədər gözləyər. Sənin klinikaların bir gecədə bütün nəticələri məhv edə bilməzlər.

– Bax, görürsən, necə yalançısan? Bu səhər mənim üçün planlar cızırdın, ancaq indi gecəni mənimlə keçirmək istəmirsən. Sənə ehtiyacım var, Natalya, mənə yardım elə.

– Mənim Corcum, sən çox hiyləgərsən, səhər heç də eyni tonda danışmırdın.

– Hə... ancaq... Mənə kömək eləyəcəksən?

– Görürsən, lazım olanda çox nəvazişli ola bilirsən. Az qalıram əriyim. Gecən xeyrə qalsın.

– Natalya!

– Bəli, Corc!

– Sən məftunedicisən!

– Corc, ürəyimə girə bilməzsən.

– Mən o qədərinə iddia etmirəm, əzizim! Yaxşı, evə get, özüm birtəhər həll edərəm.

Natalya qapıya tərəf yönəldi, birdən Corca tərəf döndü və soruşdu:

– Əminsən ki, hər şey qaydasında olacaq?

– Əlbəttə, get pişiyinlə oyna.

– Mənim pişiklərə allergiyam var.

– Onda qal, mənə kömək elə.

– Gecən xeyrə qalsın, Corc.


ekitab.ucoz.org

Natalya əlini məhəccərin üstü ilə sürüşdürə-sürüşdürə pilləkənlərlə düşdü. Otaqda tək qalan Corc (gecə növbəsi komissarlığın birinci mərtəbəsində yerləşirdi) kompüterin monitorunu işə saldı və mərkəzi kartotekaya qoşuldu. Klavişləri basaraq "klinika" sözünü yazdı və server araşdırmanı başa vurana qədər siqaret yandırdı. Bir neçə dəqiqədən sonra printerdən altmışa yaxın çap kağızı çıxmağa başladı. Müfəttiş onları bir yerə topladı və iş masasının üstünə qoydu. Deyindi:

– Əla! Əlimizdə bundan başqa heç nə yoxdur. Oğurluğu kimin etdiyini bilmək üçün yüzlərlə yerli bankla danışıb son on ayda onlardan borc istəyən özəl tibb müəssisələrinin siyahısını almaq qalır.

Corc ucadan öz-özüylə danışırdı ki, birdən qaranlıqda Natalinin səsini eşitdi:

– Niyə son on ayın?

– Polis instinktim mənə belə deyir. Sən niyə qayıtdın?

– Bu da qadın instinktidir.

– Çox mehribansan.

– Bu, sənin məni şam yeməyinə dəvət edəcəyin yerdən asılıdır. Səncə, onun izini yaxalamısan?

Corca qalsa, izi tapmaq əslində çox asan idi. Natalyaya dispetçer şöbəsinə zəng eləməyi və onlardan bazar günü axşam təcili yardımla bağlı hər hansı bir insident baş verib-verməməsi haqqında məlumat almağı tapşırdı.

– Uğur bəzən təsadüflərə bağlıdır, – Corc cavab verdi. Natalya telefonun dəstəyini qaldırdı. Xəttin o biri ucundan cavab verən növbətçi polis kiçik bir araşdırma apardı, ancaq o gün buna bənzər heç bir hadisə qeydə alınmamışdı. Natalya araşdırmanı region miqyasında aparmağı təklif etdi, ancaq kompüter ekranlarındakı məlumatlar dəyişməz olaraq qalırdı. Növbətçi polis təəssüflə bazar günündən bazar ertəsinə keçən gecə istər gecə yoxlaması zamanı, istərsə də hər hansı bir qanun pozuntusu zamanı təcili yardım maşını ilə bağlı hər hansı bir qeyd olmadığını bildirdi. Natalya buna bənzər hər hansı bir hadisə baş verərsə, dərhal xəbər verməyi xahiş etdikdən sonra dəstəyi asdı.

– Təəssüf, heç nə yoxdur.

– Yaxşı, onda mən səni şam yeməyinə aparım, hər halda bu axşam banklardan heç bir məlumat ala bilməyəcəyik.


ekitab.ucoz.org

Onlar "Perrizin restoranı"na gəldilər və küçəyə görüntü açılan zalda masalardan birində əyləşdilər. Corc Natalyanın dediklərini dalğınlıqla dinləyir, pəncərədən küçəyə tamaşa edirdi.

– Corc, neçə vaxtdır bir-birimizi tanıyırıq?

– Bu cür sualları verməzlər, əzizim.

– Niyə?

– Riyaziyyat sevgiyə yaddır!

– Nə vaxtdır?!

– Mənə dözə bilməyin üçün kifayət qədər. Hələlik dözülməyəcək həddə çatmayıb.

– Yox, məncə, daha çoxdur!

– Bu oğurluqda nəsə düz gəlmir. Məni bir tək şey düşündürür: cinayətin motivi. Oğurluqda məqsəd nə ola bilərdi axı?

– Anası ilə görüşmüsən?

– Yox, sabah səhər görüşəcəyəm.

– Bəlkə o eləyib? Xəstəxanadan təngə gəlib.

– Axmaq-axmaq danışma. Anası deyil. Bu, çox təhlükəli olardı.

– Bəlkə də o, bütün bunlara bir son vermək istəyib. Hər gün övladını bu vəziyyətdə görmək... Bəzən bunun bitməyini istəyir və ölüm fikrini qəbul etməli olursan.

– Yəni sən inanırsan ki, bir ana öz övladını öldürmək üçün belə şey edər?

– Yox, haqlısan, bu, çox anormal olardı.

– Məqsədi bilmədən hadisəni çözmək mümkün deyil.

– Sən ki xəstəxanada bir iz tapmışdın...

– Çətin məsələdir... Xəstəxanada da hisslərim mənə heç nə demir.

– Niyə belə deyirsən? Özün istəyirdin ki, səninlə qalıb bu axşam işləyim!

– Mən istəyirdim ki, sən bu axşam mənimlə şam eləyəsən! Çünki bu, evdə olmaqdan daha yaxşıdır. Yox... Onlar heç vaxt bunu təkrar edə bilməzlər... Bütün xəstəxanalar bu məsələdən xəbərdardırlar. Bir bədən üçün bu riskə təkrar girməzlər. Görəsən, bir böyrəyin qiyməti neçədir?

– Hər halda, qəssabdakından daha bahadır.

– Çox iyrəncsən.

– Görürsən, bu iz də yanlışdır. Maliyyə çətinliyi olan bir xəstəxana üçün yüz əlli min dollar heç nədir. Burada məsələ pulda deyil.

– Bəlkə məsələ müəyyən orqanın təcili əldə



ekitab.ucoz.org

edilməsindədir?

Natalya fikrini davam etdirdi: kimin üçünsə bir orqanın yoxluğu və ya mövcudluğu və ya onun xəstə bədənə uyğun gəlməsi ölüm-dirim məsələsi ola bilər. İnsanlar ehtiyac duyduqları böyrəyi, ya da qaraciyəri tapana qədər ölə bilirlər. Kifayət qədər maliyyə vəsaiti olan bir adam öz övladını, ya da özünü xilas etmək naminə komada yatan adamı oğurlatdırmaq üçün pul ödəyə bilər. Pilgezə görə, bu ideya həqiqətəuyğun ola bilərdi, ancaq mürəkkəb idi. Natalya isə bununla razılaşmadı. Pilgezə görə, mürəkkəblik onda idi ki, bu izlə gedəcəkləri təqdirdə şübhəli şəxslərin sayı artmağa başlayacaq, nəticədə isə cinayətkar kənarda qalacaqdı. Öz övladına həyat vermək və ya özünü xilas etmək üçün çox adam klinik baxımdan ölmüş sayılan adamdan asanlıqla vaz keçər. Cinayətkar son məqsədi nəzərə alsaq, özünü heç günahkar saymaya da bilər.

– Səncə, bütün klinikaları gəzmək və donor orqan gözləyən varlı pasiyentləri bir-bir axtarmaq lazımdır?

– Ümidvaram ki, buna ehtiyac qalmayacaq, çünki bu qarışqa yuvasında eşələnməyə bənzəyir və olduqca incə işdir.

Natalyanın cib telefonu zəng çalmağa başladı, Corca üzrxahlıq edib telefonu açdı, kimisə diqqətlə dinlədi, salfetka üzərində nə isə qeyd aldı və öz mühasibinə dəfələrlə təşəkkür etdi.

– Kim idi?

– Bir qədər əvvəl zəng elədiyim növbətçi polis.

– Nə deyir?

– O, gecə patrullarına qeyri-formal surətdə xəbər verib və şübhəli təcili yardım maşını ilə hər hansı bir hadisəyə dair məlumatın olub-olmadığı ilə maraqlanıb.

– Nəsə bildiriblər?

– Hə, bu ideya öz işini görüb. Patrullardan biri dünən axşam Qrin-strit, Filbert və Yunion-stritdə dövrə vuran olduqca köhnə model təcili yardım maşınını izləyib.

– İzin iyini alıram. Nə deyiblər?

– Onlar təcili yardım maşınını izləyiblər. Sürücü deyirmiş ki, on il sədaqətlə xidmət etdikdən sonra təqaüdə çıxınağa hazırlaşır. Onlar elə biliblər ki, sürücü öz maşınına öyrəşib və onu qarajdan çıxarıb son dəfə sürmək qərarına gəlib.


ekitab.ucoz.org

– Hansı model idi?

– “Ford”.71-ci ilin.

Pilgez sürətlə ürəyində hesablamağa başladı. Əgər onillik fəaliyyətdən sonra maşını dövriyyədən çıxarıblarsa, onda gərək onu on altı il istifadə etmədən sellofan altında saxlayaydılar. Deməli, sürücü polisləri aldadıb. İndi Pilgezin tuta biləcəyi bir iz var idi.

– Bir yaxşı xəbər də var.

– Nə?

– Onlar onu girdiyi qaraja qədər izləyiblər. Onlarda həmin yerin ünvanı var.

İstəyirsənsə, ora elə indi gedə bilərik?

– Yox, sabah səhər gedərəm. İndi qaraj yəqin ki, bağlıdır, həm də ordersiz heç nə edə bilmərəm. Bundan başqa, mən oraya diqqəti cəlb etmədən getmək istəyirəm. Mən təcili yardım maşınını deyil, onu sürəni tapmaq istəyirəm. Orda hər yeri bir-birinə qatmaqdansa, yaxşısı budur, oraya turist kimi gedim.

Pilgez hesabı ödədi və ikisi də restorandan çıxıb səkidə dayandılar. Təcili yardım maşınının izləndiyi yer onların indicə şam etdikləri yerin qarşısındakı yolayrıcında yerləşirdi. Corc küçənin qurtaracağına baxdı, sanki hadisələri görməyə çalışdı.

– Bilirsən, bu dəqiqə mənə nə lazımdır?

– Yox, de görüm.

– Bu gecə mənimlə birlikdə olmağın. Bu gün tək yatmaq istəmirəm.

– Əlavə diş fırçan var?

– Səninki hələ də qalıb!

– Səni hirsləndirmək xoşuma gəlir. Səndə ən çox bu xoşuma gəlir. Gəl, gedək, məndə bu gecəni səninlə olmaq istəyirəm. Nə vaxtdır bir yerdə qalmırıq.

– Keçən cümə axşamından.

– Mən də elə bunu deyirdim.

Bir saat yarımdan sonra yataq otağının işığı söndü və Corc özünə söz verdi ki, mütləq bu sirrin üstünü açacaq.

Çərşənbə axşamı gün çox məhsuldar keçdi. Xanım Klaynla görüşdükdən sonra Pilgezin ona qarşı şübhələri tamamilə dağıldı. Öyrəndi ki, həkimlər onsuz da ona bu vəziyyətə son verməyi təklif ediblər. Artıq iki il idi ki, qanun bu cür hallara göz yumurdu. Anası razı olmuşdu. Bu oğurluq hadisəsi qadını doğrudan da dəhşətə salmışdı. Pilgez isə səmimi



ekitab.ucoz.org

adamları süni kədər nümayiş etdirənlərdən çox yaxşı ayıra bilirdi. Xanım Klaynsa bu cür əməliyyatları təşkil edə biləcək birinə bənzəmirdi.

Qarajda cinayətdə iştirak etmiş maşını təmir edirdilər. Pilgez içəri daxil olanda çox təəccübləndi, çünki bura yalnız təcili yardım maşınlarının təmirxanası idi. Təmirə ehtiyacı olan təcili yardım maşınlarını buraya gətirirdilər. Burada turist rolu oynamaq çətin məsələ idi. Təmirxanada qırxa yaxın mexanik və ona yaxın administrativ işçi işləyirdi. Beləcə, haradasa əlliyə yaxın şübhəli şəxs var idi. Şübhəli görünən müəssisə müdiri müfəttişi diqqətlə dinlədikdən sonra yalnız bir sual verdi: niyə oğrular maşını yenidən yerinə qoyublar? Pilgez cavab verdi ki, oğurluq diqqət çəkə və polisi ayağa qaldıra bilərdi. Çox güman ki, işçilərdən biri bu işdə əlbirdir və maşını yerinə qoymaqla məsələnin gizli qalacağına ümid edir. Bir məsələ qalır: bu işi kim görüb? Direktor bildirdi ki, kilid sındırılmayıb və gecə qaraja girmək üçün heç kimdə açar yoxdur. Pilgez soruşanda ki, bu cür köhnə maşını "borc" almağa oğrunu nə vadar edə bilərdi, müdir izah etdi ki, burada bircə o maşın işlək haldadır. Beləcə, Pilgez işçilərdən birinin bu məsələdə əlbir olması qənaətinə gəldi. "Kimsə açarı oğurlayıb dublikatını çıxartdıra bilərmi" sualına isə müdir təsdiqdə cavab verdi: "Ola bilər, qapılar ancaq günorta bağlanır". Beləcə burada işləyən hər kəs şübhəli durumunda olurdu. Pilgez işçi heyətinin şəxsi qovluqlarını aldıqdan sonra son iki il ərzində işdən çıxmış işçilərin siyahısını ön plana çəkdi.

Pilgez komissarlığa günorta saat ikiyə yaxın qayıtdı. Natalya hələ nahardan qayıtmamışdı. Pilgez iş masasına yüklədiyi əlli yeddi qəhvəyi qovluğa baxmaq üçün işə girişdi. Natalya saat üçə yaxın qayıtdı. Saçını kəsdirmişdi, Corcun sarkastik sözlərinə cavab vermək üçün silahlanmışdı. İçəri girərkən çantasını yerə qoymadan əvvəl dərhal dilləndi:

– Bilirəm ki, nəsə axmaq bir söz deyəcəksən. Odur ki, kəs səsini, Corc.

Corc başını kağızların üstündən qaldırıb ona diqqətlə baxdı və gülümsədi. O, ağzını açıb kəlmə deməyə fürsət tapmadan ona yaxınlaşdı və işarət barmağını heç bir söz deməməsi üçün dodaqlarının üstünə qoyaraq dedi:


ekitab.ucoz.org

– Mənim saç kəsiınimdən də maraqlı bir şey var. Söz versən ki, artıq şərhə yol verməyəcəksən, deyərəm. Oldu?

Corc əlilə ağzını tutub susacağına və bu şərti qəbul etdiyinə işarə etdi. Natalya əlini ağzından araladı.

– Xanım Klayn zəng eləmişdi. Təhqiqat üçün maraqlı ola biləcək vacib bir detalı xatırlayıb, səninlə danışmaq istəyir. İndi evdədir, zəngini gözləyir.

– Saçların çox xoşuma gəlir, özü də sənə çox yaraşır.

Natalya gülümsədi və iş masasının başına qayıtdı.

Telefon söhbəti zamanı xanım Klayn Marinada rastlaşdığı gənc adamla olan qəribə söhbətini, onun evtanaziya ilə bağlı məzəmmət dolu fikirlərini xəbər verdi. Əlini kəsdiyi üçün xəstəxanaya gəlmiş və Lorenlə orada tanış olmuş gənc memarla qarşılaşdıqları anı xırdalıqlarına qədər nəql etdi. O, onun qızı ilə tez-tez nahar etdiyini iddia edirdi. Lorenin itinin onu tanımasına baxmayaraq, bu, ona qəribə görünmüşdü, çünki Loren heç vaxt anasına bu gənc adamdan bəhs etməmişdi. Halbuki həmin şəxsin dediyinə görə, onlar artıq iki il idi ki, bir-birini tanıyırdılar. Bu son məlumatlar, əlbəttə ki, təhqiqat işini bir qədər asanlaşdırırdı. "Hmm... yaxşı...", – polis mızıldandı.

– Deməli, – söhbətə yekun vuran Pilgez dilləndi, – siz istəyirsiniz ki, iki il bundan qabaq qızınızın müalicə etdiyi əlini kəsmiş şəxsi şübhəli şəxs hesab edib onu araşdırım, sadəcə ona görə ki sizinlə təsadüfən görüşü zamanı evtanaziyaya qarşı olduğunu bildirib?

– Sizcə, bu, ciddi iz deyil? – xanım Klayn təəccüblə soruşdu.

– Doğrusu, yox.

Pilgez dəstəyi yerinə qoydu.

– Necə oldu? – Natalya soruşdu.

– Doğrudan, saçlarını kəsdirmək sənə yaraşır.

– Başa düşdüm! Boş yerə ümidlənmişik.

Corc yenidən qovluqlarla işləməyə başladı, ancaq qovluqlardan heç biri ona ipucu vermirdi. Əsəbi halda telefonun dəstəyini qaldırdı. Dəstəyi qulağı ilə çənəsinə dayadı və xəstəxananın nömrəsini yığdı. Doqquzuncu zəngdə operator cavab verdi.

– Adamlar sizin əlinizdən ölməsə yaxşıdır!


ekitab.ucoz.org

– Belə olan təqdirdə birbaşa ölüxanaya zəng edərdilər, – operator da hazırcavablıq etdi.

Pilgez özünü təqdim etdi və ondan təcili yardım şöbəsinə müraciət edənlərin peşəsi və yaralanma tipi haqqında məlumat alıb-ala bilməyəcəyini soruşdu.

– Bu, hansı tarixi əhatə etdiyinə bağlıdır, – onu da əlavə etdi ki, tibbi qaydalara görə bu cür məlumatları yaymaq, xüsusilə də telefonda vermək qadağandır. Corc hirslənib dəstəyi yerinə atdı, plaşını götürdü və qapıya yönəldi. Pilləkənlərlə düşüb maşın dayanacağına gəldi və cəld addımlarla maşınına tərəf addımlamağa başladı.

Sirenanı işə salıb mənzil başına çatana qədər söndürmədi. On dəqiqədən sonra o, artıq "Memorial" xəstəxanasında idi. Qəbul məntəqəsinə yaxınlaşdı.

– Siz məndən komada olan və bazar ertəsinə keçən gecə oğurlanmış gənc qadını tapınağı xahiş eləmisiniz. Ya siz mənə kömək eləyəcək və zəhlətökən tibbi qaydalarınızla məni təngə gətirməyəcəksiniz, ya da mən başqa bir işlə məşğul olacağam.

– Sizə necə kömək edə bilərəm? – həmin vaxt qapıda görünən Yarkovitski soruşdu.

– Deyin görüm, kompüterdə komada yatan qızın müalicə etdiyi yaralanmış memarı tapmaq mümkündür?

– Nə vaxt olub?

– Təxminən iki il bundan qabaq.

Tibb bacısı kompüterə tərəf əyildi və taqqıltı ilə nəsə yazmağa başladı.

– Xəstəxanaya daxil olanların siyahısına baxmaq və onların içindən memar olan şəxsi seçmək lazımdır, – dedi, – bu, bir neçə dəqiqə çəkər.

– Mən gözləyərəm.

Altı dəqiqədən sonra ekran tapıntı haqqında xəbər verdi. Son ötən iki ildə hər hansı bir yaralanmış memar burada müalicə olunmayıb.

– Əminsiniz?

Tibb bacısı əmin idi, belə ki, tibbi zədələnmələr zamanı "peşə" qrafası sığorta və iş qəzası üzrə statistika üçün məcburi surətdə sənədləşdirilirdi. Pilgez təşəkkür etdi və dərhal komissarlığa qayıtdı. Yolboyu memar əhvalatı bir an belə olsun fikrindən çıxmadı. Onun fikri ancaq o vaxt bir nöqtədə cəmləşir və başqa izləri ancaq o zaman bir kənara qoyurdu ki, təhqiqatda həqiqətən şübhəli izə rast


ekitab.ucoz.org

gəlirdi. Əl telefonunu götürdü və Natalyanın nömrəsini yığdı.

– Təcili yardım maşınının təmir olunduğu yerə yaxın hər hansı bir memarın yaşayıb-yaşamadığını öyrən və mənə xəbər ver. Xətdə gözləyirəm.

– Ora Yunion, Filbert və Qrinin kəsişdiyi yer idi?

– Bir də Vebsterin. Yanaşı yerləşən iki küçəyə də bax.

– Sənə zəng edərəm, – Natalya dedi və dəstəyi asdı.

Həmin istiqamətdə üç memarın iş yeri, dördüncüsünün isə evi yerləşirdi. Onlardan ancaq birinin evi birinci küçədə idi. Kabinetlər onlardan birinin arxasında qonşu küçədə yerləşirdi, digər ikisi isə digər küçədə idi. İş yerinə qayıdan kimi o, hər üç kabinetlə əlaqə saxlayıb orada işləyən işçilərin sayını öyrəndi. Sadəcə, iyirmi yeddi adam. Beləcə, saat on səkkiz otuzda onun əlində iyirmi yeddi şübhəli var idi, onlardan biri bəlkə də donor orqan gözləyən həmin adam idi, ya da eyni vəziyyətdə olan bir yaxını var idi. Bir neçə dəqiqə fikirləşdi və Natalyadan soruşdu:

– Deyəsən, son günlərdə bizdə təcrübə keçənlərin sayı artıb axı?

– Bizim heç vaxt lazım olandan çox işçimiz olmayıb! Əks təqdirdə mən normal vaxtda evə gedər və qarımış qız kimi həyat sürməzdim.

– Yenə özünə qarşı ədalətsizlik edirsən, əzizim. Təcrübə keçənlərdən birini göndər, qoy birinci küçədə yaşayan memarın evinin qarşısında keşik çəksin. O, evə qayıdanda şəklini çəksin.

Ertəsi gün səhər Pilgez öyrəndi ki, staj keçən oğlan heç bir uğur qazanmayıb, belə ki, memar axşam evə qayıtmayıb.

– Ey, sən! –müfəttiş gənc təcrübəçiyə dedi, – bu axşam həmin adam haqqında mənə lazım olan bütün məlumatları masamda istəyirəm: yaşı, mavidir, ya yox, narkotik qəbul edirmi, pişiyi, tutuquşusu varını, indi haradadır, əsgərlik xidmətində olubmu, aldığı təhsil, , bütün qəribəlikləri, hər şey! İstəyirsən əsgərliyə zəng elə, istəyirsən FTB-yə, mənə dəxli yoxdur, hər şeyi bilmək istəyirəm.

– Mən də maviyəm, müfəttiş! – təcrübəçi hətta bir qədər qürurla dedi, – ancaq bu, sizin məndən tələb etdiyiniz işi görməyə ınane olmur.

Müfəttiş qaşlarını çatdı. O, gününün qalan


ekitab.ucoz.org

hissəsini tapdığı izi analiz etməklə keçirdi. Heç nə onun optimizmini məhv edə bilməzdi. Əgər təcili yardım maşını şansın bir göz qırpımı ilə tapıldısa, onda qarajda işləyənlərin şəxsi qovluqlarından şübhəli şəxs axtarmaq lazım deyil, eyni zamanda onu bir yığın adamı sorğu-sual etməkdən xilas edir. Bununla belə, ətrafda yaşayan və ya oğurluq günü axşam təcili yardımın dövrə vurduğu həmin kvartalda işləyən altmışdan çox memar sorğu-sual edilməli idi. Onlardan biri qurbanın itini sığallayan və evtanaziyaya qarşı olduğunu elan edən həmin şübhəli ola bilərdi. Pilgez bircə bu oğurluğun motivini aça bilmirdi. “Lənətə gəlmiş təhqiqat!”

Bu çərşənbə səhəri günəş dumana bürünərək Karmel üzərində göründü. Loren erkən oyanmışdı. Arturu oyandırmamaq üçün otaqdan çıxdı. Ona səhər yeməyi hazırlaya bilmədiyinə görə az qala qəzəbindən partlayırdı. Ancaq eyni zamanda məmnuniyyətlə özünə etiraf etdi ki, bu qarmaqarışıq qəribəliklərin içində belə Artur ona fiziki olaraq toxunub, onu sevir və həyatının qadını kimi dəyərləndirir.

Loren heç özünün də başa düşməyəcəyi fenomenal hadisə ilə qarşılaşmışdı. Atasının sözlərini xatırladı: “Qeyri-mümkün heç nə yoxdur, sadəcə şüurumuzun sərhədləri bəzi şeyləri içinə sığışdıra bilmir. Tənliyin cavabını tapmaq üçün bərabərlikləri həll etmək lazımdır. Bu, sadəcə, vaxt və beynin məhdudiyyətləri məsələsidir. Ürək köçürmək, üç yüz əlli tonluq təyyarəni uçurmaq, Aya ayaq basmaq böyük zəhmət, xüsusilə də təxəyyül tələb edirdi. Odur ki, alimlərimiz, deyəndə ki, beyni köçürmək, işıq sürətilə getmək, insanı klonlaşdırmaq mümkün deyil, mən öz-özünə deyirəm: onlar hələlik öz məhdudiyyətlərindən kənara çıxa bilmirlər. Hər şeyin mümkün olduğunu anlamırlar. Başa düşmürlər ki, bu, vaxt məsələsidir. Bütün bunları necə edə biləcəklərini düşünüb tapmaq üçün vaxt məsələsi!” Lorenin yaşadıqları, başına gələnlər məntiqlə izahedilməz idi, onun öyrəndiyi elmin əsaslarına zidd idi, ancaq həqiqət idi. İki gündən bəridir o, əvvəllər tamamilə canlı olanda, ruhu ilə bədəninin bir arada olduğu vaxtlarda belə dadmadığı hisslər və duyğularla bir kişi ilə sevişirdi. İndi – üfüqdən boylanan sarı isti kürəyə baxarkən bir şeyi arzu edirdi: bu an heç vaxt bitməsin.


ekitab.ucoz.org

Bir qədər sonra Artur da oyandı, çarpayıda Loreni görməyincə xalatını əyninə keçirib evin astanasına çıxdı. Dimdik qalxmış saçlarını əliylə sığallayaraq yatırtdı. Loreni qayalıqda tapdı arxadan səssizcə yaxınlaşıb qucaqladı.

– Valehedici mənzərədir, – Artur dedi.

– Bilirsən, gələcəyimizin necə olacağını oturub fikirləşməkdənsə, çamadanları bağlayıb indiki zamanı yaşaya bilərik. Qəhvə istəyirsən?

– Mütləq! Sonra isə mən səni qayalıqda üzən suitilərə baxmağa aparacağam.

– Həqiqi suitilər?

– Hə, suitilər, qutanlar... Sən heç vaxt bura gəlməmisən?

– Bir dəfə istəyirdim, ancaq alınmadı.

– Hər şey nisbidir, baxır şeylərə hansı tərəfdən baxırsan. Bir də mən əminəm ki, biz çamadanları bağlamalı və indiki zamanla yaşamalıyıq.

Həmin çərşənbə təcrübə keçən oğlan bir qalaq qovluğu Pilgezin masası üzərinə qoydu, hətta demək olar ki, atdı.

– Nə öyrənə bildin? – Pilgez ondan soruşdu.

– Cavabım həm peşmanlıq, həm də sevinc doğuracaq.

Pilgez əsəbiliklə səbirsizliyin sərhədində olduğunu bildirmək üçün barmaqları ilə qalstukunu döyəcləməyə başladı.

– Bir, iki. Bir, iki. Əla, dost, mikrofonum işləyir. Səni dinləyirəm!

Təcrübəçi qeydlərini oxudu: memarın həyatında şübhəli heç nəyə rast gəlinməyib. O, tamamilə normal adamdır, narkotik çəkmir, qonşularla münasibətləri yaxşıdır, polisdə də qeydi yoxdur. Kaliforniyada təhsil alıb, bir neçə müddət Avropada yaşayıb, sonra isə doğma vətəninə qayıdıb. Heç bir siyasi partiyanın üzvü deyil, eləcə də heç bir sektaya mənsub deyil, hər hansı bir səbəbdən dolayı nümayişlərdə iştirak etməyib. Dövlət vergilərini, cərimələri vaxtında ödəyir və sərxoşluq və ya sürəti aşmaq kimi qanun pozuntularına görə saxlanılmayıb.

– Bir sözlə, darıxdırıcı adamdır, – təcrübəçi əlavə etdi.

– Bəs nəyə sevinməliyəm?

– Hə! Mavi də deyil!

– Bəsdir görək! Mən mavilərə qarşı deyiləm!



ekitab.ucoz.org

Məruzəndə daha nə var?

– Onun keçmiş ünvanı, şəkli, bir qədər köhnədir. Bu şəkli qeydiyyat şöbəsindən əldə eləmişəm, dördillikdir. O, ilin sonunda icazə vərəqəsini yeniləməli idi. Sonra... “Architectural digest” jurnalında dərc etdiyi bir məqalə, diplomunun surətləri və bankdakı hesablarıyla mülkləri haqqında məlumat.

– Bütün bunları necə tapdın?

– Mənim vergi müfəttişliyində işləyən bir dostum var. Sizin memar yetimdir. Ona Montereydə – liman sahilində bir ev miras qalıb.

– Səncə, o, orada tətildədir?

– Məncə, oradadır. Sizi ən çox narahat edən şey də məhz oradakı koma olacaq.

– Niyə?

– Çünki orada telefon yoxdur. Evin hər şeydən təcrid olunması, düzü, bir qədər qəribədir. Orada iki ildir heç kim yaşamır və heç vaxt heç bir sosial xidmətdən istifadə edilməyib. Ancaq keçən cümə günündən etibarən elektrik cərəyanını bərpa etdirib, suyu da. Uzun illərdən sonra ilk dəfə öz evinə keçən həftəsonu gedib. Ancaq, əlbəttə ki, bu, cinayət deyil.

– Hə, bu son məlumat məni hədsiz sevindirdi!

– Aha!

– Əla iş çıxarmısan! Qəribə xasiyyətini bir kənara qoysan, səndən əla polis olacaq.

– Ümidvaram ki, bu, bir komplimentdir.

– Elədir ki var! – Natalya yerindən dilləndi.

– Şəkli götür və xanım Klaynla görüş. Onunla evtanaziyadan danışan şəxsin bu adam olub-olmadığını öyrən. Əgər onu tanısa, onda biz ciddi bir iz yaxalamışıq.

Təcrübəçi dərhal idarədən çıxdı. Corc Pilgez isə Arturun dosyesini oxumağa başladı.

Cümə axşamı gün olduqca məhsuldar başladı. Elə ilk saatlardan təcrübəçi xanım Klaynın şəkildəki adamın həmin şəxs olduğunu rəsmi surətdə təsdiqlədiyini xəbər verdi. Ancaq əsl xəbər o, Natalyayla səhər yeməyinə getməzdən əvvəl gəldi. Bu məlumat artıq nə vaxtdı ki, onların gözləri qarşısında idi, ancaq ona diqqət yetirməmişdi. Gənc xanımın ünvanı memarın qaldığı ünvan idi. Memarın bu məsələyə heç də yad olmadığını göstərən faktların sayı artmışdı.

– Təhqiqat irəliləyir, yəqin ki, sevinirsən. Niyə



ekitab.ucoz.org

başını yırğalayırsan? – Natalya "Coca-Cola Light" içə-içə soruşdu.

– Çünki onun məqsədini tapa bilmirəm. Bu adam dəli deyil. Dostlarını əyləndirmək xətrinə komada olan bədəni elə belə oğurlamazlar. Bunun üçün ciddi səbəb lazımdır. Bundan başqa, xəstəxana işçilərinin dediyinə görə, o, xəstəyə krater qoyub, bunun üçün isə xüsusi təcrübə lazımdır.

– Krater yox, kateter. Bəlkə onlar sevgili idilər?

– Yox, xanım Klayn qətiyyətlə əksini iddia edir, əmindir ki, onlar bir-birini tanımırdılar.

– Bəlkə mənzillə bağlı nəsə bir əlaqə var? – Natalya davam etdi.

– Yox, – müfəttiş cavab verdi, – o, kirayənişindir. Alqı-satqı idarəsinin söylədiyinə görə, onun o evi tutması tamamilə bir təsadüf olub. O, Filbertdə başqa ev tutacaqdı. Əmlakçı öz gəlirini daha da artırmaq məqsədilə digər sənədi imzalamazdan əvvəl təkidlə bu evi ona göstərib. Müştərinin özünü etibarlı əllərdə olduğunu, doğru yerə sərmayə qoyduğunu hiss etməsi üçün agentliklərin iltifat dolu üslubunu yaxşı bilirsən.

– Deməli, o ev qəsdən tutulmayıb.

– Hə sırf təsadüfdür.

– Onda əminsən ki, qızın bədənini o oğurlayıb?

– Bilmirəm, – Corc qısaca cavab verdi. Ayrı-ayrılıqda heç bir fakt bunu onun etdiyini sübut etmir.

Bu pazlın rəsmləri çox qarışıq idi. Bir sözlə, məqsədi öyrənmədən Pilgezin əli-qolu bağlı idi.

– Kimisə bir neçə gün bundan qabaq oğurlanmış bir qadının evini bir neçə ay əvvəl kirayə tutduğu üçün təqsirləndirmək olmaz. Doğrusu, bu məsələdə mənimlə mübahisə etməyən prokuror çətin ki tapılar.

Natalya Pilgezə onu sorğu-sual etməyi və "lampa işığı altında" danışdırmağı təklif etdi. Təcrübəli müfəttiş istehza ilə dedi:

– Verəcəyim sualları indidən təsəvvür edə bilirəm: Cənab, siz bazar ertəsinə keçən gecə komada yatan və bədəni oğurlanan bir qadının evini kirayə tutmusunuz. Siz kənddəki elektrik cərəyanını və suyu cinayət baş verən həftə – cümə günü bərpa etmisiniz. Niyə? Bu yerdə həmin adam gözlərini mənə zilləyib sualı başa düşmədiyini söyləyir. Mənəsə bir şey qalır: ona demək ki, cinayətin yeganə


ekitab.ucoz.org

izi odur və əgər cinayətkar o olsaydı bu lap əla olardı.

– İki gün götür və onu izlə!

– Prokurorun yazılı əmri olmadan nə etsəm, hədər gedəcək.

– Əgər bədəni geri gətirə bilsən və əgər o qadın hələ də sağdırsa, heç də yox!

– Səncə, bu, odur?

– Sənin intuisiyana güvənirəm, faktlara inanıram. Bilirəm ki, əgər sən özünü bu cür aparırsansa, deməli, doğrudan da müqəssiri tapmısan, sadəcə, onu necə yaxalamağı bilmirsən. Corc, əsas odur ki, qızı tapasan. Komada belə olsa, o, girov sayılır. Hesabı ödə və burdan birbaş ora get!

Pilgez ayağa qalxdı, Natalyanın alnından öpdü, pulu masanın üstünə qoyub tələsik addımlarla küçəyə çıxdı. Karmelə aparan üç saat yarımlıq yolla gedərkən Pilgez durmadan cinayətin motivi haqqında, qurbanına onu qorxutmadan, diqqətini öz üzərinə çəkmədən necə yaxınlaşacağı barədə fikirləşirdi.



ekitab.ucoz.org

# 13

Ev getdikcə canlanırdı. Arturla Loren rəngli şəkil çəkən və xəttdən kənara çıxmamağa çalışan uşaqlar kimi bir-bir otaqlara girib pəncərələri açır, mebellərin üzərindəki üzlükləri qaldırır, tozunu alır, parıldayana qədər silir və şkafları səliqəyə salırdılar. Evdə uyuyan xatirələr yavaş-yavaş indiki zamana bürünürdü.

Həyat öz qanunlarını diktə edirdi.

Cümə axşamı səma buludsuz idi. Okean qayalıqlara çırpılaraq sanki bağa yolunu bağlayan bu səddi yarmağa çalışırdı. Gün batana yaxın Loren eyvanda oturub bu səhnəyə tamaşa edirdi: tikanlı naxışlarla birləşmiş yosunları daşıyan sular bomboz görünürdü. Rəngi bozarmış sular şam ağaclarının tikanlı yarpaqları ilə birlikdə yosunları yırğalayırdılar. Səma rəngini dəyişmiş, bənövşəyiyə çalırdı. Sonra isə daha da tündləşməyə başladı. Həmin an Loren özünü çox xoşbəxt sayırdı. Təbiətin öz qəzəbini ifadə etdiyi anları sevirdi. Artur salonu, kitabxananı və anasının kabinetini səliqəyə salıb işi bitirmişdi. Sabah isə ikinci mərtəbədəki üç otağın təmizliyinə başlayacaqdı. O, körfəzə açılan pəncərənin kənarına qoyulmuş döşəkcədə əyləşdi və Lorenə baxdı.

– Səhər yeməyindən bəri artıq doqquzuncu dəfədir ki, paltarını dəyişdirirsən.

– Hə. Bu, sənin aldığın jurnaldandır. Bir qərara gələ bilmirəm, paltarların hamısı gözəldir.

– Sənin alış-veriş tərzin dünyadakı bütün qadınların arzusudur.

– Gözlə, sən hələ əsas geyimi görməmisən!

– Orada nə var ki?

– Xüsusi buraxılış. Qadın alt paltarları.

Beləcə Artur bir kişiyə göstərilə biləcək ən əsrarəngiz moda nümayişində iştirak etdi. Bir qədər sonra məhəbbətin nəvaziş dolu qanadlarında bədənlər və qəlblər birləşdi və onlar qaranlıqda okeana baxa-baxa bir-birini qucaqlayıb oturdular. Çırpılaraq geri çəkilən dalğaların lay-layı ilə elə oradaca yuxuya getdilər.

Pilgez ora gecəyarısı gəlib çıxdı və "Carmel


ekitab.ucoz.org

Valley İnn" mehmanxanasında qaldı. Portye ona üzü dənizə açılan geniş otağın açarını verdi. Mehmanxana bir bağ evi olub, limana açılan parkın ən yüksək nöqtəsində yerləşirdi. Odur ki, limana getmək üçün Pilgez maşından istifadə etməli oldu. Elə yenicə yol çantasını açmağa başlamışdı ki, səmadan ilk zərrələr qopub düşməyə başladı. Buradan üç saat yarımlıq yolda yaşasa da, nədənsə heç vaxt bu yerlərə gəlmədiyinə təəssüf etdi. Bu anı tək yaşamamaq üçün Natalyaya zəng etmək və onunla bu anları paylaşmaq istədi. Telefonun dəstəyini qaldırdı, dərindən köks ötürdü və nömrəni yığmadan dəstəyi yavaşca yerinə qoydu. Yemək sifariş edib filmə baxa-baxa yeməyini yedi və bir qədər sonra – saat on olmasına baxmayaraq, yuxu onu apardı.

Səhər tezdən günəş buludlara meydan oxuyaraq öz parıltılı şəfəqləri ilə tezliklə onları kənara qovdu. Açılan dan yeri evin ətrafına nəmişlik səpirdi. Artur şüşəli eyvanda yuxudan oyandı. Loren hələ də yatmışdı. Yatmaq onun üçün yeni mərhələ idi. Uzun aylardır bunu edə bilməmişdi, odur ki, günlər ona dəhşətli dərəcədə uzun görünmüşdü.

Bağın yuxarı hissəsində – körfəz kənarındakı yamacın arxasında Corc iyirmiillik iş xidmətinə görə ona hədiyyə edilmiş binoklla silahlanıb casusluq edirdi. Saat on birə yaxın Arturun ona tərəfə gəldiyini gördü. Şübhəli şəxs qızılgül kolları olan tərəfə döndü və qarajın qapısını açdı.

Oraya daxil olan kimi Artur tozla örtülmüş üzlüklə qarşılaşdı. Onu qaldırdı, qarşısında 1961-cil ilin köhnə Fordu dayanmışdı. Üzlüyün altında əsl kolleksiyalıq bir maşın yatırdı.

Antuanın bu cür şeylərə olan həvəsini xatırlayıb gülümsədi. Maşının ətrafını dönüb sol arxa qapısını açdı. Burnuna əskimiş dəri qoxusu gəldi. Arxa oturacaqda əyləşdi, qapını bağladı və gözlərini yumub Yunion-Skuerdəki "Masizin maqazini"ndə keçirdikləri bir qış axşamını xatırladı. Plaş geyinmiş bir kişi qalaktikalararası silaha tuş gəlmişdi, ancaq anasının nəvaziş dolu sadəlövhlüyü nəticəsində son anda xilas oldu. Anası son anda özünü həmin adamla silahın ortasına atmışdı. Siqaret şəklində düzəldilmiş nüvə dezinteqratoru, yəqin ki, hələ də dolu qalmışdı. O, 1965-ci ili, Şaxta babanı xatırladı. O, ona hədiyyə olaraq gətirəcəyi elektrik parovozuyla birlikdə


ekitab.ucoz.org

mərkəzi qazanxananın istilik boruları arasında ilişib qalmışdı.

Artura elə gəldi ki, mühərrikin uğultusunu eşidir. Pəncərəni açdı, başını çıxardı və xatirələrində saçlarını oxşayan küləyi hiss etdi. Əlini bayıra çıxardı və qolunu yarıya qədər havada tutdu. İndi maşın təyyarəyə çevrilmişdi. Hava cərəyanının istiqamətini dəyişmək üçün əlini o tərəf-bu tərəfə əyərək oynatdı. Maşının gah tavana qalxıb, gah da döşəməyə doğru endiyini hiss etdi. Gözlərini açanda sükana yapışdırılmış bir kağız gördü. Orada yazılmışdı: “Artur, əgər maşını işə salmaq istəsən, onda sağda rəfdə akkumulyator yükləyicisi var. Əvvəlcə bir neçə dəfə starterə bas ki, işə salmazdan əvvəl benzin gəlsin. Maşın güclə tərpənsə, təəccüblənmə, axı bu 61-ci ilin “Ford”udur, odur ki, elə belə də olmalıdır. Təkərləri doldurmaq istəsən, kompressor qutudadır, yükləyicinin altında. Öpürəm. Antuan”.

Artur maşından çıxdı, qapını bağladı və rəflərə tərəf getdi. Qarajın küncündə qayıq var idi. Yaxınlaşdı və barmaqları ilə oxşadı. Taxta skamyanın altında öz tilovunu gördü. Yaşıl tilov ipi çarxın ətrafına dönmüşdü, ucunda isə paslanmış qarmaq var idi. Həyəcan onu bürüdü, hətta dayana bilməyib dizləri üstə çökdü. Bir qədər sonra ayağa qalxıb akkumulyator yükləyicisini götürdü və köhnə “Ford”un kapotunu açıb naqillərin uclarını birləşdirdi və akkumulyatoru yüklədi. Qarajdan çıxıb qapıları taybatay açdı.

Corc gördüyü hər şeyi qeyd dəftərçəsində yazırdı. Bir an belə olsa nəzərlərini şübhəli şəxsdən çəkmirdi. Onun çardaq altındakı masanı hazırladığını, oturduğunu, nahar etdiyini, sonra isə süfrəni yığdığını izlədi. Artur ispan üslublu talvarın kölgəsi altında döşəkcələr üstündə dincələrkən, o da fürsətdən istifadə edib sendviçini yedi. Sonra yenidən izləməyə davam edərək qaraja girdiyini gördü. Kompressorun səsi eşidildi. İki dəfə öskürdükdən sonra V6 kompressoru işə düşdü. Eyvanlı sütunların yanından keçən maşına diqqətlə baxdı və kənd adamlarından bu qəribə şəxs haqqında məlumat əldə etmək qərarına gəldi.

Saat səkkizə yaxın Pilgez otağına qayıtdı və Natalyaya zəng etdi.

– Nəsə əldə eləmisən?

– Heç nə. Anormal heç nə baş verməyib. Hələ ki.


ekitab.ucoz.org

O, təkdir. Bütün günü elə hey nəsə iş görür, təmizləyir, nəsə düzəldir, səhər və nahar yeməyi üçün arada fasilə verir. Mən buradakı bir-iki adamdan soruşdum. Ev onun anasının olub, özü də neçə il bundan əvvəl ölüb. Sonra isə orada ölümünə qədər bir bağban yaşayıb. Onun istədiyi vaxt anasının evinə gəlməyə haqqı var. Gördüyün kimi heç nə əldə etməmişəm.

– Bəs onda niyə "hələ ki" deyirsən?

– Çünki o, özünü qəribə aparır, öz-özünə danışır, masa arxasında özünü elə aparır, elə bil orada başqa kimsə var. Bəzən qolunu on dəqiqə havada bükülmüş halda saxlayıb dənizə tamaşa edir. Dünən axşam tək-tənha öz-özüylə qucaqlaşıb saatlarla həyətdə oturdu.

– Necə yəni?

– Elə bil öz sevgilisini qucaqlamış adam kimiydi. Halbuki yanında heç kim yox idi.

– Bəlkə də o bu cür xatirələrə dalır?

– Nəsə bu bəlkələr çoxdur axı?..

– Sən doğru izi yaxaladığına əminsən?

– Bilmirəm, gözəlim, ancaq onun davranışında məni narahat edən nəsə var.

– Məsələn nə?

– O, bir cani üçün özünü son dərəcə sakit aparır.

– Deməli. Sən ona əminsən.

– İki gün də qalıb qayıdacağam. Dünən tanımadığım yerlərə gedib çıxmışdım.

– Özündən muğayat ol.

Corc düşüncəli halda telefonu qapadı.

Artur barmaqları ilə böyük pianonun dillərini oxşadı. Keçmiş vaxtlarda olduğu kimi alət köklü deyildi. Ahəngə uymayan notlara basmadan "Verter" operasından "Ay işığı" parçasını çalmağa başladı. Bu, Lilinin ən çox sevdiyi parça idi. Çala-çala o, pəncərənin kənarında əyləşən Lorenlə danışırdı. Loren bu cür oturmağı necə də sevirdi: bir qıçını pəncərənin kənarı boyunca uzadar, digərini isə divara dayayardı.

– Sabah şəhərə alış-verişə çıxacağam. Getməzdən əvvəl evi bağlayacağam. Yeməyə heç nəyimiz yoxdur.

– Artur, sən nə vaxta qədər bu cür öz həyatından uzaq qalacaqsan?

– Bu söhbəti gərək elə indi edəsən?

– Bəlkə də mən illər boyunca bu vəziyyətdə qalacağam. Çox vaxt öz-özümdən soruşuram:


ekitab.ucoz.org

görəsən, sən özün nə etdiyini yaxşı başa düşürsən, ya yox? Sənin işin var, dostların, öhdəliklərin var. Sənin öz dünyan var.

– Mənim dünyam nədir ki? Bu kənd mənim içimdədir. Mənim dünyam yoxdur, Loren. Biz bir həftədən də az müddətdir ki, buradayıq, mənsə son iki ildə bir dəfə də olsun tətilə çıxınamışam. Odur ki, mənə bir az vaxt ver.

Artur yaxınlaşıb onu qucaqladı və özünü yuxuluğa vurdu.

– Yox, sənin öz dünyan var. Bizim hər birimizin öz dünyamız var. İki varlığın yanaşı yaşaya bilməsi üçün sadəcə bir-birini sevməsi kifayət deyil, onlar bir-birinə uyğun olmalıdırlar. Onlar uyğun zamanda tanış olmalıdırlar. Bu isə bizə aid deyil.

– Səni sevdiyimi sənə demişəm? – Artur utancaq bir tərzdə soruşdu.

– Sən sevdiyini mənə sübut etmisən, – Loren cavab verdi, – bu ən yaxşısıdır.

Loren təsadüflərə inanmırdı. Niyə axı bu planetdə Artur onun danışa biləcəyi, ünsiyyət qura biləcəyi yeganə adam idi? Niyə axı onlar bir-birilərini bu cür başa düşürdülər? Niyə axı o, Lorenin hiss etdiklərini duya bilirdi?

– Axı niyə ürəyinin ən gözəl cəhətlərini mənə bəxş edirsən? Məndənsə o qədər az şey alırsan ki...

– Çünki sən o qədər tez və o qədər qəfil peyda oldun ki... Çünki sən varsan. Çünki səninlə bir an bütün bir əbədiyyətdir. Dünənki gün ötdü, sabah isə hələ gəlməyib, dəyərli olan bu gündür, indidir.

Eləcə də Artur onu ölməkdən xilas etmək üçün başqa seçimi olmadığını söylədi... Ancaq Loren də elə “ınövcud olmadığından” qorxurdu. Artur onu arxayın edib dedi ki, növbəti gün onun istədiyi şəkildə keçəcək. Onun həyatı məhz özündən nə vermək istədiyindən və əvəzində nə almaq istədiyindən ibarətdir. “Sabahkı gün hər kəs üçün bir sirrdir və bu sirr gülüş və arzular doğurmalıdır, nəinki qorxu və hər şeydən imtina”. O, Lorenin gözlərindən öpüb, əllərindən tutdu. Dərin bir gecə çökməkdə idi, hər zamankı kiıni öz qaranlıq örtüyünə bürünürdü.

Artur baqajda nəsə edirdi ki, qəfildən parkın yuxarı hissəsində yolda toz-torpaq qalxdı. Bu dəfə Pilgez ehtiyatlı olmağa çalışmadan yol boyunca üzü aşağı düşməyə başladı və maşını eyvanlı sütunların qarşısında saxladı. Arturun əlində əsgi-üsgü var idi.


ekitab.ucoz.org

– Salam. Sizə necə kömək edə bilərəm? – Artur soruşdu.

– Mən Montereydən gəlirəm, əmlak agentliyi bu evi mənə göstərmişdi, demişdi ki, orada heç kim yaşamır. Onu almaq istəyirdim, ona baxmağa gəlmişəm. Ancaq, deyəsən, gecikmişəm, onu artıq satıblar.

Artursa dedi ki, bu ev nə alınıb, nə də satılıb. Bura onun anasının evidir və özü də buraya yenicə gəlib. İstidən əldən düşmüş Artur ona limonad içməyi təklif etdi, Pilgez onu məşğul etmək istəmədiyini söyləyib bu təklifi qəbul etmədi. Ancaq Artur təkid etdi və onu aynabənd qarşısında əyləşməyə dəvət edib bir neçə dəqiqəyə qayıdacağını söylədi. O, maşının baqajını bağladı, evə girdi və əlində bir sini ilə qayıtdı. Sinidə iki stəkan və limonad şüşəsi var idi.

– Gözəl evdir, – Pilgez dilləndi, – yəqin ki, burada bu cür evlər çox az qalıb.

– Bilmirəm, uzun illərdir buraya gəlmirəm.

– Bəs niyə birdən-birə qayıtdınız?

– Məncə, bunun artıq vaxtı idi. Mən burada böyümüşəm, anamın ölümündən bəri buraya qayıtmağa ürək eləməmişəm. Sonra isə istədim.

– Elə belə? Heç bir səbəb olmadan?

Artur özünü narahat hiss etdi. Bu naməlum adam ona olduqca şəxsi suallar verirdi, sanki onun gizlətmək istədiyi şeylər haqqında nəsə bilirdi. Artura elə gəldi ki, onunla manipulyasiya edirlər. Ancaq o, bunu Lorenlə əlaqələndirmədi, fikirləşdi ki, o, öz gələcək qurbanını seçən fırıldaqçı əmlak satıcısıdır.

– Hər halda, – Artur davam etdi, – mən bu evi heç vaxt satmayacağam.

– Buna haqqınız var. Ata evi satılmamalıdır. Demək istəyirəm ki, ata evi müqəddəs yerdir.

Arturu şübhələr bürüməyə başladı. Pilgez hiss etdi ki, geri çəkilmək vaxtıdır. Öz gəzintisinə davam edəcəyini və kənddən başqa ev axtaracağını söylədi, Artura qonaqpərvərliyi və limonada qonaq etdiyi üçün səmimi qəlbdən təşəkkür etdi. Hər ikisi ayağa qalxdı. Pilgez maşınına mindi, mühərriki işə saldı və əl yelləyib gözdən itdi.

– O nə istəyirdi? – birdən-birə sütunlar arasında


ekitab.ucoz.org

peyda olan Loren soruşdu.

– Dediyinə görə, bu evi almaq istəyirmiş.

– Ondan gözüm su içmədi.

– Bilmirəm niyə, ancaq mənim də.

– Səncə, polisdir?

– Yox, məncə, biz paranoyya xəstəliyinə tutuluruq. Başa düşmürəm, izimizi necə tapa bilərlər axı? Məncə, o, fırıldaqçıdır, ya da əmlak alqı-satqısında işləyir. Narahat olma. Gəlirsən, yoxsa evdə qalacaqsan?

– Gəlirəm! – Loren dedi.

Onlar evdən çıxdıqdan iyirmi dəqiqə sonra Pilgez piyada evə doğru gəlməyə başladı. Giriş qapısının bağlı olduğuna əmin olduqda sonra evin ətrafına dolandı. Pəncərələr bağlı idi, ancaq yalnız bir pəncərənin taxta jalüzləri də bağlanmışdı. Ancaq bir otağın bağlı olması kifayət etdi ki, polis bundan nəticə çıxarsın. Burada vaxt itirməmək qərarına gəlib dərhal maşına qayıtdı. Cib telefonunu açdı və Natalyanın nömrəsini yığdı. Söhbət başladı. Pilgez ona bildirdi ki, nə sübut var, nə də cinayət izləri, ancaq hiss edir ki, axtardıqları şəxs Arturdur. Natalya onun fərasətinə güvəndiyini söylədi. Pilgez təəssüflə hələ də cinayətin motivinin sirr olaraq qaldığını bildirdi. O, əmin idi ki, bu sirrin açarı cinayətin motivində gizlənib. Motiv təmkinli görünüşə malik olan və pula ehtiyacı olmayan bu adamın niyə özünü bu cür riskə atdığını dərhal aydınlaşdıracaqdı. Ancaq Pilgez məsələnin həlli yolunu tapa bilmirdi. Bütün klassik motivləri gözdən keçirmişdi, ancaq onlardan heç biri uyğun gəlmirdi. Birdən beyninə uydurma bir fikir gəldi: həqiqəti öyrənmək üçün yalana əl atmaq, şübhəli şəxsi qəfil söhbətə çəkmək və onun reaksiyasını izləmək. Bu, onun şübhələrini ya təsdiqləyəcək, ya da birdəfəlik siləcəkdi. Pilgez mühərriki işə saldı, evin həyətinə daxil oldu və eyvanlı sütunların qarşısında maşını saxladı. Arturla Loren bir saatdan sonra gəldilər. Artur "Ford"dan düşəndə Pilgezi gördü və düz ona tərəf gəlməyə başladı.

– İki söz deyəcəyəm! – ilk sözə başlayan Artur oldu, – birincisi, ev satılmır və satılmayacaq, ikincisi, bu, özəl mülkdür!

– Bilirəm, doğrusu onun satılıb-satılmadığı heç vecimə də deyil. Deyəsən, özümü təqdim etmək vaxtı gəlib çatıb.


ekitab.ucoz.org

Danışa-danışa Pilgez nişanını çıxarıb göstərdi. Artura yaxınlaşdı və dedi:

– Sizinlə danışmalıyam.

– Məncə, siz artıq bunu edirsiniz.

– Söhbətimiz uzun çəkəcək.

– Vaxtım var!

– İçəri girə bilərəm?

– Order olmadan, yox!

– Bu cür oyun oynamaqla doğru iş görmürsünüz!

– Sizsə mənə yalan danışmaqla doğru iş görmədiniz. Mən sizi limonada qonaq elədim!

– Heç olmasa burada əyləşə bilərik?

– Olar, bir az irəli gedək!

İkisi də eyvanda yelləncəkdə əyləşdilər.

Pilləkənlər üstündə dayanan Loren dəhşətə gəlmişdi. Artur gözü ilə ona işarə edib sakitləşməsini və vəziyyətə hakim olduğunu və narahat olmamasını işarə etdi.

– Sizə nədə kömək edə bilərəm? – polisdən soruşdu.

– Mənə səbəbini izah edin.

– Nəyin səbəbini?

– Sizinlə səmimi danışacağam. Sizin kim olduğunuzu bilirəm.

– Hə, düzdür, bu, mənəm. Doğulduğumdan bəri beləyəm. Heç vaxt da şizofreniyadan əziyyət çəkməmişəm. Siz nədən danışırsınız?

Pilgez onunla Loren Klaynın bədəni haqqında danışmaq və onu öz cinayətkar ortağı ilə birlikdə bazar ertəsinə keçən gecə köhnə təcili yardım maşınında “Memorial” xəstəxanadan oğurlaması ilə ittiham etmək istədi. Ona bildirdi ki, təcili yardım maşını təmirxanadan tapılıb. Öz taktik planını işləyərkən bədənin burada – bu evdə, daha dəqiq desək, taxta jalüzləri bağlı olan otaqda olduğundan əmin olduğunu bildirdi.

– Bir şeyi başa düşmürəm, niyə? Cinayətin motivi məni rahat buraxmır.

Onun təqaüdə çıxmasına az qalmışdı və o, heç də öz karyerasını bir sirrlə tərk etmək istəmirdi. O, Arturu bu işə vadar edən səbəbi öyrənmək və bu işi uğurla başa vurmaq istəyirdi. Bu cür tapmacaları heç sevmirdi. Onu ancaq bir şey maraqlandırırdı – Arturun məqsədi.

– Mənim heç vecimə də deyil, sizi həbs edə biləcəyəm, ya yox. Bütün həyatımı adamları həbsə


ekitab.ucoz.org

atmaqla keçirmişəm. Bunu eləmişəm ki, yenidən oradan çıxsınlar və yenidən başlasınlar. Bu cür cinayət üçün sizə beş il verərlər, bu vecimə də deyil. Ancaq mən hər şeyi başa düşmək istəyirəm.

Artur özünü elə göstərdi ki, guya polisin nə demək istədiyini başa düşmür.

– Başa düşmədim, bu bədən və təcili yardım maşını məsələsi də nədir belə?

– Mən mümkün qədər az zamanınızı almağa çalışacağam. Order olmadan taxta jalüzləri bağlı olan otağa məni buraxarsınız?

– Xeyr!

– Niyə yox, bir halda ki, gizlətməyə heç nəyiniz yoxdur?

– Çünki sizin haqqında danışdığınız otaq anamın iş və yataq otağı olub. O, öləndən bəri ora bağlı qalır. Ora yeganə yerdir ki, mənim girməyə gücüm çatmır, elə buna görə də ora jalüzləri bağlı olan yeganə otaqdır. Artıq iyirmi ildir ki, o otaq bağlıdır. Mən o otağa ancaq tək və buna hazır olduğumu hiss etdiyim vaxt daxil olacağam. Əlbəttə ki, sizin bu fantastik əhvalatdan çıxış yolu tapmağınız üçün yox. Ümidvaram ki, fikrimi aydın ifadə etdim.

– Anladım. Burdan getməkdən başqa çarəm qalmır.

– Çox yaxşı. Gedin.

Pilgez ayağa qalxdı və maşınına tərəf getdi. Qapısını açdı, ancaq geriyə dönüb gözlərini Arturun gözlərinə zillədi. Bir anlıq tərəddüd etdi, ancaq bu oyunu sona qədər oynamaq qərarına gəldi.

– Əgər o otağa tək girmək istəyirsinizsə, onda məsləhət görürəm ki, bunu bu axşam edəsiniz. Əks təqdirdə mən çox tərs adamam, sabah order almaq üçün şəhərə gedəcəyəm və siz bir daha burada tək qala bilməyəcəksiniz. Əlbəttə, ola bilsin bədəni gecə vaxtı başqa yerə aparasınız, ancaq nəzərinizə çatdırım ki, sizinlə siçan-pişik oyunu oynamıram, bu məsələdə də sizdən güclüyəm. Hər halda otuzillik təcrübəm var. Həyatınız əsl dəhşətə çevriləcək. Kartımı məhəccərin kənarına qoyuram. Bəlkə mənə deməyə nəsə sözünüz olar.

– Siz order ala bilməyəcəksiniz!

– Hər kəsin öz işi var. Xeyirli axşamlar.

Pilgez tələsik həmin yeri tərk etdi. Bir neçə dəqiqə Artur beləcə dayanıb durdu, ürəyi sürətlə döyünürdü. Loren dərhal onu düşüncələrdən ayırdı.


ekitab.ucoz.org

# 14

Gərək onunla danışasan, razılığa gələsiniz.

– Gərək sənin bədənini başqa yerə aparaq.

– Yox, istəmirəm, bəsdir! O pusqu quracaq və səni cinayət üstündə yaxalayacaq. Yetər, Artur! Bu, sənin həyatındır, eşidirsən, səni beş il həbs cəzası gözləyir.

Artur hiss edirdi ki, polis hər şeyi uydurur, o heç vaxt order ala bilməyəcəkdi.

O, öz planını Lorenlə bölüşdü. Gecə düşən kimi onlar evin əsas girəcəyindən çıxacaq və Lorenin bədənini qayığa qoyacaqdılar.

– Biz sahil boyunca üzərik və səni iki-üç günlük bir mağarada gizlədərik.

Əgər polis axtarış aparsa, heç nə tapa bilməyəcək, üzr istəyib buradan getməyə məcbur olacaqlar.

– O, səni izləyəcək, çünki o, polisdir və o, inadkar polisdir, – Loren etiraz etdi, – hələlik bu əhvalatdan ziyan çəkmədən çıxmaq şansın var... Bunu elə indi elə, sonra çox gec olacaq.

– Söhbət sənin həyatından gedir, odur ki, bu gecə sənin bədənini başqa yerə aparacağıq.

– Artur, bir özün fikirləş, axı biz nə qədər qaça bilərik? Hər şey əbəsdir və bu, çox təhlükəlidir.

Artur arxasını ona çevirdi və öz-özünə dedi:

– Bu axşam dənizə çıxırıq.

Sonra maşının baqajında olanları boşaltdı. Günün qalan saatları çox ağır keçdi. Onlar az danışırdılar, hətta bir-birilərinə belə güclə nəzər salırdılar. Günortadan sonra Loren Arturu qucaqladı və Artur onu sevgi ilə öpdü.

– Mən onlara səni ınəndən almağa icazə verə bilmərəm, başa düşürsən?

Loren başa düşürdü, ancaq öz həyatını onun üçün təhlükəyə atmasına göz yuma bilməzdi.

Artur bağa açılan eyvanın pəncərəsindən çıxmaq üçün gecənin düşməsini gözlədi. Qayalığa kimi getdi və gördü ki, dəniz onun bütün planlarını alt-üst edir. Nəhəng dalğalar sahilə çırpılır və beləcə onun planının həyata keçməsini qeyri-mümkün edirdi. Qayıq elə ilk dalğada aşacaqdı. Okean elə bil



ekitab.ucoz.org

zəncirdən qırılmışdı, külək şahə qalxmış dalğaların rəqsini getdikcə daha da artırırdı. Artur yerə çökdü və başını əlləri arasına aldı. Loren səssizcə ona yaxınlaşdı, əlini boynuna dolayıb yanında əyləşdi.

– Gəl evə gedək, – Loren dedi, – sənə soyuq dəyəcək.

– Mən...

– Heç nə demə, bunu bir işarə kimi qəbul elə. Biz bu gecəni birlikdə heç nə düşünmədən keçirməliyik. Sabah nəsə fikirləşib taparsan, bəlkə sabah hava yaxşı olar.

Ancaq Artur bilirdi ki, bu külək üç gün sürəcək bir qasırğadan xəbər verir. Qəzəbli dəniz bir an belə olsa sakitləşmədi. Onlar mətbəxdə şanı etdilər və salonda sobanı qaladılar. Çox az danışırdılar. Artur elə hey fikirləşirdi, ancaq ağlına heç nə gəlmirdi. Bayırda getdikcə şiddətlənən külək ağacları elə əyirdi ki, az qala sınacaqdılar. Yağış pəncərənin şüşələrinə döyəcləyir, okean rəhm etmədən qayalıqlara çırpılırdı.

– Əvvəllər təbiətin bu cür cuşa gəlməsini sevərdim, bu axşam isə o Tvisterin3 görüntülərini xatırladır.

– Bu axşam çox kədərlisən, Arturum, ancaq kədərlənınəınəlisən. Biz bir-birimizi tərk etmirik. Axı sən özün mənə deyirdin ki, sabahkı günü fikirləşmək lazım deyil. Gəl mümkün qədər bu anı yaşayaq.

– Mən artıq bunu bacarmıram, daha növbəti anı düşünmədən bu anı yaşaya bilmirəm. Sən bunu necə edirsən?

– Mən ancaq indiki dəqiqələr haqqında düşünürəm, onlarsa əbədidir.

Loren ona bir oyun oynaınağı təklif etdi, özünün dediyi kimi, fikrini yayındırmaq istəyirdi. Ona bir yarışda qalib gəldiyini təsəvvür etməsini söylədi. Mükafat isə belə olacaqdı: hər səhər bank ona 86 400 dollarlıq kredit hesabı açır. Ancaq bu oyunun iki qaydası var idi:

– Birinci qayda, sənin axşama qədər xərcləyə bilmədiklərin səndən alınır. Kələk işlətmək də olmaz, məsələn, hesabındakı pulları başqa hesaba köçürə bilməzsən, onları ancaq xərcləyə bilərsən. Hər yeni gün bank hesabını yeniləyəcək, yəni hər gün 86 400 dolların olacaq. İkinci qayda, bank bu oyunu sənə xəbərdarlıq etmədən istədiyi an durdura bilər. İstənilən vaxt sənə oyunun bitdiyini və başqa oyun


ekitab.ucoz.org

da olmayacağını bildirə bilər. Sən nə edərdin?

Artur heç nə başa düşmədi.

– Bu ki çox sadədir. Bu, bir oyundur. Hər səhər sənə 86 400 dollar pul verirlər, bir şərtlə ki, onu gün ərzində xərcləyəsən, sən yatmağa getdiyin zaman pulun qalan hissəsindən artıq istifadə edə bilməzsən. Bu, bir növ hədiyyə kimidir. Ancaq bu oyun hər an bitə bilər. Sual isə belədir: sənə verilmiş bu hədiyyə ilə nə edərdin?

O, düşünmədən hər dolları özünü məmnun etmək, sevdiyi adamlara hədiyyələr almaq üçün xərcləyəcəyini söylədi. O, bu sehrli bankın verdiyi hər senti öz həyatına və yaxınlarının həyatına sevinc gətirmək üçün xərcləyəcəyini söylədi.

– Hətta tanımadığım adamlar üçün belə xərclərdim, çünki inanmıram ki, bir gündə 86 400 dolları özüm və yaxınlarım üçün xərcləyə bilim. Bu fikir ağlına hardan gəlib?

Loren cavab verdi:

– Bu sehrli bank hər birimizdə var: bu, zamandır. Xərclənən pullar isə ötən anlardır... Hər səhər oyananda biz bir gün üçün 86 400 saniyə həyat krediti alırıq, axşam yatarkən isə sabaha heç nə qalmır. Bizim gün ərzində xərcləyə bilmədiklərimiz isə itirdiklərimizdir. Hər səhər bu sehr yenidən təkrarlanır və biz həyatın 86 400 saniyəsini alır, bu qaçılmaz oyunu oynayırıq: bank istədiyi an bizi xəbərdar etmədən hesabımızı bağlaya bilər; hər an həyat bitə bilər. Elə isə biz günümüzün 86 400 saniyəsi ilə nə etməliyik? Həyatımızın anları isə dollardan az əhəmiyyətli deyil.

Qəzadan bəri Loren bir şeyi dəqiq anlamışdı: çox az adam ötən günün fərqindədir və ona dəyər verir. Beləcə, Loren Artura sözlərinin mənasını izah elədi:

– Əgər həyatın bir ilinin nə demək olduğunu anlamaq istəyirsənsə, bu sualı ilin sonunda imtahandan kəsilən tələbəyə ver. Həyatın bir ayını uşağını vaxtından əvvəl doğan və onu qucağına ala bilmək üçün inkubatordan çıxmasını gözləyən anadan soruş. Həyatın bir həftəsini ailəsinə çörək pulu qazanmaq üçün zavodda və ya şaxtada işləyən fəhlədən soruş. Həyatın bir gününü bir-birilə görüşəcək sevgililərdən soruş. Həyatın bir saatını liftdə qalmış klaustrofobiyadan əziyyət çəkən adamdan soruş. Həyatın bir anını maşın qəzasından salamat qurtarmış adamdan və ya bütün həyatını



ekitab.ucoz.org

qızıl medal qazanmaq üçün idmanla məşğul olmuş, ancaq olimpiada yarışları zamanı gümüş medal qazanmış idmançıdan soruş. Həyat özü bir sehrdir, Artur, mən bilirəm nə deyirəm, çünki qəzaya düşdüyümdən

bəri hər anın dəyərini bilirəm. Odur ki, səndən xahiş edirəm, gəl bizim olan bu dəqiqələri boşa xərcləməyək.

Artur onu qucaqladı və qulağına pıçıldadı:

– Səninlə keçirdiyim hər an bütün anlardan dəyərlidir.

Beləcə gecənin qalan hissəsini soba qarşısında qucaqlaşaraq keçirdilər. Ancaq səhərə yaxın yuxuya getdilər. Külək yatmamışdı, əksinə, daha da güclənmişdi.

Saat ona yaxın Arturun mobil telefonu zəng çalmağa başladı. Pilgez idi. Arturdan görüşməyi xahiş edirdi, onunla danışmalı idi. Dünənki hərəkətinə görə də üzr istədi.

Artur tərəddüd etdi, bilmirdi səmimi danışır, yoxsa yenə oyun oynayır. Leysanı fikirləşdi, bayırda söhbət edə bilməyəcəkdilər. Pilgez də fürsətdən istifadə edib evə girəcəkdi. Tərəddüdləri bir kənara atıb özü Pilgezə mətbəxdə nahar etməyi təklif etdi. Bəlkə də bu cür özünü daha güclü hiss edəcək və rəqibini çaşdıracaqdı. Loren heç nə demədi, yalnız kədərlə gülümsədi. Artur bunu görmədi.

Müfəttiş saat ikiyə yaxın gəldi. Artur ona qapını açanda qəzəblənmiş külək şiddətlə vıyıldayaraq dəhlizə soxuldu, hətta Pilgez qapıları bağlamağa ona kömək elədi.

– Əsl qasırğadır! – Pilgez dedi.

– Əminəm ki, bura havadan danışmağa gəlməmisiniz.

Loren onların arxasınca mətbəxə keçdi. Pilgez islanmaz materialdan olan plaşını çıxarıb kürsülərdən birinin başına atdı və masa arxasına keçdi. Yemək masası iki adamlıq hazırlanmışdı: qızardılmış toyuqla Sezar salatı, göbələkli omlet var idi. Hətta kaberne şərabı da vardı.

– Çox nəzakətlisiniz, məni belə gözəl süfrə ilə qarşılayırsınız. Sizə əziyyət oldu.

– Mənə əziyyət verən şey, cənab müfəttiş, öz fantastik hekayənizlə məni təngə gətirməyinizdir.

– Əgər o doğrudan da sizin dediyiniz kimi fantastikdirsə, onda mən bir daha sizi narahat


ekitab.ucoz.org

etməyəcəyəm. Deməli, siz memarsınız?

– Bunu artıq bilirsiniz.

– Hansı sahə üzrə?

– Mən keçmiş irsin bərpası üzrə çalışıram.

– Yəni?

– Qədim binalara həyat bəxş edirəm, bugünkü günə uyğunlaşmaları üçün onları yenidən bərpa edərək daşlarını qoruyuram.

Pilgez Arturun zəif nöqtəsini tapmışdı. O, onu çox sevdiyi sahədən danışdırmaqla ağzından söz ala biləcəyini düşündü, ancaq tezliklə müfəttiş özü qazdığı quyuya düşdü, müqəssirin danışdıqlarına qapıldı. Artur ona ınemarlığın tarixindən əsl dərs keçdi: daşların, qədim memarlıqdan tutmuş ənənəvi memarlığadək, ınüasir dünyanın və bu günün memarlığının qısa hekayəsini danışdı. Təcrübəli polis elə bil tilsimlənmişdi. O sual verir, Artur isə cavab verirdi. Beləcə bu söhbət iki saata qədər çəkdi. Heç vaxt zaman onlara bu qədər uzun görünməmişdi. Pilgez öz doğma şəhərinin zəlzələdən sonra yenidən necə tikildiyini, hər gün gördüyü binaların tarixini öyrəndi, bir qalaq lətifə dinlədi; onları insanlar şəhərlər və küçələr yaranarkən qoşmuşdular. Qəhvələr bir-birinin ardınca içilirdi. Loren karıxmış halda Arturla müfəttiş arasında yaranan bu qəribə ortaqlığı müşahidə edirdi. Qolden Geyt körpüsünün tikilməsi haqqında hekayəyə keçərkən qəfildən Pilgez əlini Arturun əlinin üstünə qoyaraq sözünü kəsdi və söhbətin mövzusunu dəyişdi. O, onunla kişi kimi təkbətək, polis nişanını bir kənara qoyaraq danışınaq istəyirdi. O, mütləq bu sirri çözməliydi. Təcrübəli bir polis kimi hisslərinin onu aldatmadığını söylədi. Hiss edirdi, əmin idi ki, həmin qadının bədəni bu dəhlizin sonundakı o bağlı otaqda gizlədilib. Bununla belə, o, bu oğurluğun səbəbini anlamır. Artur ağıllıdır, savadlıdır, bir sözlə, hər bir atanın arzuladığı övladdır. Bəs onda niyə o, risk edərək komada olan bir qadının bədənini oğurlayıb?

– Təəssüf... mən elə bildim, ümumi dil tapmışıq, – Artur ayağa qalxaraq dedi.

– Elədir ki var. Ancaq bunun heç bir əhəmiyyəti yoxdur, ya da əksinə, əhəmiyyət kəsb edən də məhz elə budur. Mən əminəm ki, sizin bunun üçün ciddi səbəbləriniz var və mən sizə kömək etməyə hazıram.

Pilgez onunla səmimi danışırdı. Etiraf etdi ki,



ekitab.ucoz.org

orderi yoxdur və olmayacaq da, çünki kifayət qədər sübutu yoxdur. San-Fransisko hakimi ilə görüşüb, onu order verməyə razı salmaq üç-dörd gün çəkər. Bu da Artura bədəni başqa yerə daşımaq üçün kifayət qədər vaxt verəcək, ancaq belə etməklə o səhv hərəkət edəcək. Düzdür, Pilgez bu oğurluğun səbəbini başa düşmür, ancaq nəticələr Arturun həyatını alt-üst edəcək. Hələ ki, ona kömək edə bilər və o, öz köməyini təklif edir. Əlbəttə, əgər Artur onunla danışmağa və bu sirrin açarını verməyə razı olsa.

Arturun cavabı bir qədər istehzalı səsləndi. O, müfəttişin xeyirxah təklifindən, xüsusilə də, ikisaatlıq söhbətdən sonra məsələyə bu cür münasibətindən çox təsirləndiyini bildirdi. Ancaq o, özü də qonağını anlamır. O, Pilgezi evinə dəvət edib, ona süfrə açıb, o isə heç bir sübutu və motivi olmadan absurd bir cinayətdə onu israrla ittiham edir.

– Yox, israr edən sizsiniz.

– Elədirsə, onda günahkar olduğumu bilə-bilə niyə mənə kömək eləmək istəyirsiniz?..

Müfəttiş yenə səmimi cavab verdi. Bütün bu illər ərzində o, az cinayət işinin üstünü açmayıb, yüzlərlə absurd motivlər, iyrənc cinayətlərlə qarşılaşıb. Bütün müqəssirlərin arasında həmişə eyni oxşarlıq var: onlar cinayətkar, ağlını itirmiş, manyak və yaramazdırlar. Ancaq Artur bu cəhətlərdən uzaqdır. Pilgez bütün ömrünü cinayətkarları yaxalaınaqla keçirib. Yəni doğrudan da çətin vəziyyətə düşmüş ləyaqətli bir insana kömək eləınəyə haqqı yoxdurmu?

– Siz çox nəzakətlisiniz, səmimi sözümdür, sizinlə söhbətimizə çox dəyər verirəm, ancaq mən dediyiniz kimi çətin vəziyyətdə deyiləm. Artıq getmək zamanı gəldiyini söyləmək istəməzdim, ancaq işlərim var. Ola bilsin, nə vaxtsa görüşərik.

Pilgez başını təəssüflə tərpətdi və paltosunu əlinə alıb ayağa qalxdı. Onların söhbəti zamanı bufetin üstündə oturan Loren yerə atıldı və onlar evin girişinə aparan dəhlizə dönərkən arxalarınca getdi. Qapının ağzındaykən Pilgez bir daha bağlı kabinetin qapısına nəzər saldı.

– Bəs siz öz xatirə qutunuzu açdınız?

– Yox, hələ ki yox, – Artur cavab verdi.

– Keçmişə dalmaq bəzən çox çətin olur. Bunun üçün çoxlu güc və cəsarət lazımdır.


ekitab.ucoz.org

– Hə, bilirəm, mən də elə onları qazanmağa çalışıram.

– Mən də yanılmadığımı bilirəm, cavan oğlan, hisslərim heç vaxt məni aldatmayıb.

Artur onun üçün qapını açacaqdı ki, qəfildən kabinetin qapısının dəstəyi fırlanmağa başladı, elə bil kimsə içəridən onu açırdı. Qapı yarıya qədər açıldı. Artur karıxaraq qapıya baxırdı və qapı ağzında dayanmış Loreni gördü. O, kədərlə gülümsəyirdi.

– Bunu niyə elədin? – Artur pıçıltı ilə soruşdu, sanki indicə nəfəsi kəsiləcəkdi.

– Çünki səni sevirəm.

Qəfildən Pilgez dayandığı yerdən borularla birlikdə çarpayıda uyuyan bədəni gördü.

– Şükür Tanrıya! O, sağdır.

Arturu evin astanasında qoyub dərhal içəri girdi. Çarpayıya yaxınlaşdı və bədənin qarşısında diz çökdü. Həmin an Loren Arturu qucaqladı və nəvazişlə yanağını oxşadı.

– Sən bunu edə bilməzsən, mənsə bütün ömrünü mənə görə məhv etməyini istəmirəm. İstəyirəm, azad yaşayasan, xoşbəxt olasan.

– Mənim xoşbəxtliyim sənsən.

Loren barmaqlarını onun dodaqlarına qoyaraq onu susdurdu.

– Yox, bu cür yox. Bu cür olmaz.

– Siz kiminlə danışırsınız? – polis dostcasına soruşdu.

– Onunla.

– İstəyirsinizsə, sizə kömək edim, gərək mənə hər şeyi danışasınız.

Artur gözləri ümidlə baxan Lorenə nəzər saldı.

– Gərək ona bütün həqiqəti danışasan. İstər inansın, istər yox, sən həqiqəti danış.

– Gəlin, – Artur Pilgezə dedi, – salona keçək. Sizə hər şeyi izah edəcəyəm.

Hər ikisi geniş divanda əyləşdilər və Artur naməlum qadınla paltar şkafında rastlaşdığı ilk axşamdan başlayıb ona bütün əhvalatı danışdı. Onlar tanış olanda Loren belə demişdi: "İndi sizə deyəcəyim şeyi, bilirəm ki, başa düşmək o qədər də asan deyil, qəbul etmək qeyri-mümkündür, ancaq əgər başıma gələnləri diqqətlə dinləsəniz və mənə etimad göstərsəniz, bəlkə də mənə inanarsınız. Bu isə çox önəmlidir, çünki siz heç özünüz də bilmirsiniz ki, dünyada bunu paylaşa biləcəyim yeganə


ekitab.ucoz.org

insansınız". Və Pilgez Arturun sözünü kəsmədən onu sona qədər dinlədi. Artur öz hekayəsini bitirəndə hava axşam əməlli-başlı qaralmışdı. Pilgez ayağa qalxdı və müsahibinə diqqətlə baxdı. Artur dedi:

– Hə... bu əhvalatla kolleksiyanızdakı dəlilərin sayı bir az da artdı, müfəttiş!

– O, indi bizim yanımızdadır? – Pilgez soruşdu.

– Sizinlə üzbəüz kresloda əyləşib, sizə baxır.

Pilgez başını yelləə-yelləə əlini çənəsinə çəkdi.

– Hə, – dedi, – əlbəttə.

– İndi nə edəcəksiniz, – Artur soruşdu.

Artura inanmaq fikrindədir! Əgər Artur səbəbini soruşsa, cavab çox sadədir: belə bir əhvalat quraşdırmaq naminə bu cür risk etmək üçün nəinki ağıldan qüsurlu, gərək tamamilə dəli olasan. Ona otuz ildir xidmət etdiyi bu şəhərin tarixini danışan bir adamsa dəli deyil.

"Bir halda ki, siz bu işə qol qoymusunuz, deməli, hər şey həqiqətdir. Mən Tanrıya o qədər də inanmıram, ancaq insan qəlbinə inanıram, bir də... artıq karyeramın sonuna gəlmişəm və sizə inanmaq istəyirəm.

– Siz nə edəcəksiniz?

– Onu maşınımda xəstəxanaya aparsam, həyatı üçün təhlükəli olmaz ki?

–Yox, apara bilərsiniz, – Artur kədərlə cavab verdi, – ancaq mən ondan ayrılmaq istəmirəm. İstəmirəm ki, onu evtanaziyaya məruz qoysunlar!

Pilgez cavab verdi ki, bu mübarizə artıq başqa mövzudadır.

– Mən hər şeyə qadir deyiləm, dostum.

Onsuz da bədəni geri gətirmək kimi bir riskə girişmişdi. Oğrunu tutmadan qurbanı tapdığını əsaslandırmaq üçün qarşısında ancaq bir gecə və üç saatlıq yol var idi. Bir halda ki, Loren sağdır və heç bir şiddətə məruz qalmayıb, onda Pilgez cinayət işin bağlanmasını təşkil edə bilər. O ki qaldı evtanaziyaya, o, heç nə edə bilməz.

– Mən onsuz da çox şey edirəm, elə deyil?

–Elədir, – Artur dedi.

– Bu gecə sizi onunla tək qoyuram, sabah saat səkkizə yaxın gələcəyəm. Yola düşmək üçün hər şeyi hazırlayın.

– Bu yaxşılığı niyə edirsiniz?

– Dedim axı, siz xoşuma gəlirsiniz, sizə hörmətim var. Danışdıqlarınızın həqiqət, yoxsa


ekitab.ucoz.org

xəyallarınızın ınəhsulu olub-olmadığını heç vaxt bilməyəcəyəm. Ancaq nə olursa olsun, məntiqlə yanaşılsa, siz ancaq onun xeyrinə hərəkət eləmisiniz. Hətta bəlkə də buna qanunla müdafiə kimi də baxmaq olar. Əlbəttə, başqaları buna bir insanın həyatını təhlükəyə məruz qoymaq olduğunu deyə bilərlər, ancaq bu, məni maraqlandırmır. Cəsarət başqalarının köməyinə yetən insanlara xas bir cəhətdir. Bu cür adamlar hərəkət anı gəldikdə nəticələri düşünmədən hərəkətə keçirlər. Nə isə, bəsdir söhbət elədik, siz də qalan vaxtdan istifadə edin.

Müfəttiş ayağa qalxdı. Lorenlə Artur da onun arxasınca getdilər. Evin qapısını açarkən şiddətli külək onların üzünə vurdu.

– Sabaha qədər, – polis dedi.

– Sabaha qədər, – Artur əlləri cibində cavab verdi.

Pilgez qasırğanın içində gözdən itdi.

Artur bütün gecəni yatmadı. Səhər günəş öz şəfəqlərini otağa yayarkən o artıq Lorenin bədənini hazırlamışdı. Sonra otağına qalxıb çamadanını topladı, evin pəncərələrini bağladı, qazı və işıqları söndürdü. Bircə qalır San-Fransiskodakı evə qayıtmaq. Loren bədənindən uzaqda çox qalanda özünü olduqca yorğun hiss etməyə başlayırdı. Onlar bütün gecəni söhbət etmiş və hər şeyi məhz elə bu cür etmək qərarına gəlmişdilər. Pilgez bədəni maşına qoyduqdan sonra onlar da San-Fransiskodakı evlərinə qayıdacaqdılar.

Müfəttiş dediyi vaxtda gəldi. On beş dəqiqə içində Lorenin bədənini örtüyə bürünmüş halda polis maşınının arxa oturacağında yerləşdirdilər. Saat doqquzda yenidən boşalmış evin qapısını bağladılar və hər iki maşın şəhərə qayıtmağa başladı. Pilgez günorta üstü xəstəxanaya çatdı, Arturla Loren də təxminən eyni saatda mənzilə çatdılar.


ekitab.ucoz.org

3 Tornado haqqında bir film



ekitab.ucoz.org

# 15

Pilgez vədinə əməl etdi. O, öz hərəkətsiz sərnişinini təcili yardım bölməsinə gətirdi. Bir saat içində Lorenin bədəni oğurlandığı palataya qaytarıldı. Müfəttiş polis idarəsinə qayıtdı və birbaş rəisin qəbuluna getdi. Heç kim heç vaxt bu iki adam arasındakı söhbətin nədən getdiyini bilmədi. Müfəttiş kabinetdən çıxdıqdan sonra qoltuğunda qalın bir qovluq Natalinin masasına yaxınlaşdı. Qovluğu masanın üzərinə atıb gözlərini gözlərindən ayırmadan ona dosyeni bağlanmış işlərə əlavə etməyi tapşırdı, özü də dərhal.

Arturla Loren isə Qrin-stritdəki mənzilə qayıdıb günün ikinci yarısını dəniz sahilində gəzməklə keçirdilər. Evtanaziyadan səs-səmir yox idi, ola bilsin, Lorenin anası bütün bu hadisələrdən sonra fikrindən dönmüşdü. Bu da Lorenlə Arturu ümidləndirmişdi. Onlar birlikdə "Perinin restoranı"nda nahar etdilər və saat onda evə qayıdıb filmə baxdılar. Həyat öz axarı ilə gedirdi. Hətta o qədər şirin idi ki, hər ötən gün yaşadıqları hadisəni unutdurmağa başlayırdı. Artur aradabir iş yerinə gəlir və sənədlərə qol çəkirdi. Günün qalan hissəsini isə Lorenlə birlikdə keçirir, kinoteatra gedir ya da Qolden Geyt parkında saatlarla gəzirdilər. Bir həftəsonu birlikdə Taybörnə getdilər. Arturun dostlarından biri Asiya səfərində olduğu üçün evin açarlarını ona vermişdi. O biri həftənin birinci yarısını isə körfəzdən körfəzə motorlu qayıqda gəzməklə keçirdilər.

Həmin vaxt şəhərdə göstərilən bütün teatr və musiqili tamaşalara, baletlərə, konsertlərə və filmlərə baxmağa gedirdilər. Birlikdə keçirdikləri günlər uzun tətil günlərinə bənzəyirdi: hər cür əyləncəni dadır, ancaq və ancaq həmin anı yaşamaqla başqa heç nəyi düşünmürdülər. Bu, özlərinin də adlandırdığı kimi 86 400 saniyə nəzəriyyəsi idi.

Ətrafdakılar Arturu öz-özüylə tək söhbət edən və ya qolu havada asılı qalmış halda gəzən görüb onu dəli hesab edirdilər. Getdikləri restoranda qarsonlar qəfildən əyilib sanki kiminsə əlini öpən, nəvaziş dolu


ekitab.ucoz.org

səslə öz-özünə danışan və qapıdan keçərkən sanki kiməsə yol verərək geri çəkilən bu adamı görməyə öyrəşmişdilər. Bəziləri elə bilirdilər ki, o, ağlını itirib, bəziləri isə sevdiyi qadının itkisi ilə barışa bilmədiyini düşünürdü. Artur isə heç nədən çəkinmədən bu məhəbbət dolu günlərin hər anını doya-doya yaşayırdı. Ötən həftələr onları bir-birinin ortağına, sevgilisinə və həyat yoldaşına çevirmişdi.

Pol isə özünü inandırmışdı ki, dostu depressiyadadır, odur ki, əvvəlki kimi narahat olmurdu. Polisin oğurluq işini bağladığından arxayın olduqdan sonra o, şirkətə rəhbərliyi öz üzərinə götürdü. Dostunun nəhayət ki, bir gün öz əqli rahatlığını tapacağına və hər şeyin əvvəlki kimi qaydasına düşəcəyinə inanırdı, odur ki, tələsmirdi. Hər dəfə dostuna zəng edəndə onun özünü çox yaxşı hiss etdiyini eşidirdi və onun üçün bu, çox önəmli idi.

Beləcə, üç ay günlər öz sakit axarı ilə ötüb-keçdi. Ancaq çərşənbə axşamı hər şey alt-üst oldu. Növbəti hüzur dolu axşamlardan biri idi. Arturla Loren birlikdə oxuduqları romanın son sətirlərini başa vurdular və Artur kitabı bağlayıb bir kənara qoydu. Bir-birinə sarılıb yatdılar. Səhər saat altıya yaxın Loren qəfildən çarpayıda dikəldi və qışqıraraq Arturu çağırdı. Artur yerindən sıçradı gözlərini bərəldərək Lorenə baxdı. Loren bardaş quraraq oturmuşdu, rəngi sarı və şəffaf görünürdü.

– Sənə nə olub? – Artur həyəcanla soruşdu.

– Yalvarıraın, qucaqla məni.

Artur onu bərk-bərk qucaqladı. Sualını təkrarlaınağa fürsət tapmadan Loren əlini onun tüklənməyə başlayan yanağına qoydu və nəvazişlə oxşadı. Gözləri yaşla dolmuşdu.

– Vaxtdır, əzizim, onlar məni aparırlar, mən yoxa çıxıram.

– Xeyr! – Artur onu özünə daha da bərk sıxdı.

– Aman Tanrım, səni qoyub getmək istəmirəm. İstəyirdim ki, yenidən həyata qayıtmasam belə səninlə yaşadıqlarım bitməsin.

– Sən gedə bilməzsən, olmaz, müqavimət göstər, yalvarıram!

– Heç nə demə, qulaq as, hiss edirəm ki, zamanım çox az qalıb. Sən mənə elə şey bəxş etdin ki, onun varlığından xəbərim belə yox idi. Sənin sayəndə öyrəndim ki, sevgi hər şeyi sadələşdirir. Səndən əvvəl yaşadığım hər dəqiqə birlikdə keçirdiyimiz bir


ekitab.ucoz.org

ana belə bərabər ola bilməz. İstəyirəm səni nə qədər çox sevdiyimi biləsən. Hansı sahillərə yan alacağamı bilmirəm, ancaq bu dünyadan da başqa bir dünya varsa, bil ki, orada da səni bütün qəlbimlə və həyatıma bəxş etdiyin bir sevinclə sevməyə davam edəcəyəm.

– İstəmirəm gedəsən!

– Ş-ş-ş, – heç nə demə, qulaq as.

Danışa-danışa Lorenin dərisi su kimi şəffaflaşmağa, Artur isə getdikcə qucağında boşluq hiss etməyə başlayırdı. Ona elə gəldi ki, Loren indicə yoxa çıxacaq.

– Gözlərimdə sənin təbəssümünün rəngi var, – Loren yenidən dilləndi, – bu gülüş üçün, bu nəvaziş üçün çox sağ ol. Sənin yaşamağını istəyirəm, mən olmasam da, öz həyatına davam etməyini istəyirəm.

– Mən sənsiz bacarmaram!

– Yox, içindəki hissləri içində saxlama. Onu başqasına verməlisən.

– Getmə, yalvarıram. Mübarizə apar.

– Bacarmıram. Bu, məndən də güclüdür. Mənim heç yerim ağrımır, sadəcə, sənin uzaqlaşdığını hiss edirəm. Səni sanki buludlardan eşidirəm və getdikcə surətin tutqunlaşır. Mən qorxuram, Artur. Sənsiz qorxuram. Məni bir az da bərk qucaqla.

– Səni özümə sıxmışam, məni hiss etmirsən?

– Daha bərk sıx, Arturum.

İkisi də ağlayırdı. Utanaraq, sakitcə. Artıq ikinci həyatın mənasını, hər anın dəyərini, hər kəlmənin əhəmiyyətini dərindən anlayırdılar. Bir-birini bərk-bərk qucaqlamışdılar. Yarım qalmış öpüşün ardınca Loren tamamilə yoxa çıxdı. Arturun qolları artıq öz-özünü qucaqlamışdı. O, ağrıdan büzüşdü və hönkürtü ilə ağlamağa başladı. Bütün bədəni titrəyirdi. Elə bil başı sözünə baxmır, öz-özünə yellənirdi. Barmaqlarını ovcuna elə bərk sıxmışdı ki, dərisi qanadı. “Yox!” Vəhşi bir hayqırtı ilə bağırdığı bu söz otaqda əks-səda verir, şüşələri cingildədirdi. Ayağa qalxmağa çalışdı, ancaq müvazinətini itirib yerə yıxıldı. Beləcə, bir neçə saat huşunu itirdi.

Nəhayət, özünə gəldi. Rəngi sapsarı idi. Gücü tükənmişdi. Güclə pəncərənin yanına qədər gedə bildi. Loren burada oturmağı nə qədər də sevirdi. Oturar və uzaqlara baxardı. Arturun gözləri sönükdü, boşluq dünyasına qərq olmuşdu. Bu boşluq beynində səslənir, damarları ilə yavaş-yavaş süzülərək ritmi


ekitab.ucoz.org

dəyişən ürəyinə dolurdu.

İlk günlərdə bu boşluq Arturda qəzəb, şübhə və qısqanclıq oyandırmışdı. Başqalarına qarşı yox, əlindən alınmış anlara, axan zamana qarşı. Bu xain boşluq getdikcə daha da dərinlərdə kök salır və həssaslığını artırır, hisslərini qəfil təkanlarla daha da ağrılı edirdi. Dosta, sevgiyə olan ehtiyacı getdikcə daha da şiddətlənirdi: bədən istəklərlə qıvrılır, burun alışdığı ətri almağa çalışır, əlləri canlı varlığa toxunmaq, oxşamaq istəyir, gözləri göz yaşları arxasından ancaq xatirələri görür, dərisi başqa dərini hiss etmək istəyirdi. Əlləri boşluqda birləşir, ayaqlar müvazinətini güclə saxlayırdı. Beləcə, günlərcə, gecələrcə ruh düşkünlüyü altında əzilməkdə idi. İş masasında oturur və ruha məktublar yazırdı, çarpayıda uzanır və saatlarca gözlərini tavana zilləyir, ancaq heç nə görmürdü. Artıq neçə gün idi ki, telefonun dəstəyi bir tərəfə düşmüşdü. O isə buna heç diqqət də etmirdi. Onun üçün artıq heç nəyin fərqi yox idi, artıq heç kimin zəngini gözləmirdi.

Həmin axşam bir qədər hava almaq üçün bayıra çıxmağa özünü məcbur etdi. Yağış yağırdı, qabardin plaşını əyninə keçirdi və qarşı səkiyə keçmək üçün güclə özündə qüvvə tapdı. Dalan ağ-qara görünürdü. Artur köhnə alçaq divarın üstündə əyləşdi. Buradan baxanda küçə uzun dar bir dəhliz kimi görünürdü, dəhlizin o biri ucunda, bağçanın qarşısında viktorian üslublu ev ucalmaqdaydı. Bu aysız gecədə ancaq bir pəncərədən işıq gəlirdi, o da onun salonundan idi. Yağış dayandı, ancaq bu Arturun vəziyyətində heç nəyi dəyişmədi. Pəncərənin arxasından o, hələ də Lorenin incə jestlərinin siluetini hiss edirdi. O, ürəyinin dərinliyinə doğru enməkdə idi. Ona elə gəlirdi ki, o, hələ də küçədə daş səkinin üzərində uzaqlaşan Lorenin siluetini görür. Həmişə özünü müdafiəsiz hiss edəndə etdiyi kimi əllərini plaşının ciblərinə soxdu, belini azacıq əyib küçə ilə addımlaınağa başladı. Ağ-qara uzun divar boyunca Lorenin addımlarına yetişməyə çalışırdı, ancaq o qədər yavaş addımlayırdı ki, sanki bu dəqiqələri uzatdıqca uzatmaq istəyirdi. Dalanın girişində bir qədər tərəddüd etdi, sonra narın yağışın altında soyuqdan keyləşiniş halda yenidən yoluna davam etdi. Alçaq hasarın üstündə oturdu və kobudcasına yarım kəsilən həyatının anlarını yenidən yaşamağa


ekitab.ucoz.org

başladı.

"Artur, həyatımızdakı şübhə və seçim bizim hisslərimizi titrədən iki gücdür. Heç bir vaxt unutma ki, ancaq bu titrəyişin yaratdığı harmoniya dəyərlidir".

Anasının səsi və xatirəsi qəlbinin dərinliyində oyanmağa başladı. Artur ağırlaşmış bədənini oturduğu yerdən qaldırdı, son dəfə uzaqlara nəzər saldı və uduzduğu üçün utanc hissi ilə geriyə qayıtdı.

Açılan səhər rəngsiz bir günün başladığından xəbər verirdi. Səhərlər həmişə bu cür sakitlik olur, ancaq hər sakitlik boşluğun sinonimi deyil, bəzən bu sükut anlayış dolu hisslərlə yoğrulur. Evə qayıdarkən Artur məhz bu sakitlik haqqında düşünürdü.

O, salonda xalı üstündə uzanıb öz-özüylə danışırdı ki, birdən qapı döyüldü. Ayağa qalxmadı.

– Artur, oradasan? Bilirəm ki, evdəsən. Lənətə gəlmiş qapını aç! Aç deyirəm! – Pol qışqırırdı. – Aç, yoxsa sındıracağam!

Qapı ilk zərbədən titrədi.

– Lənətə gəlsin! Sümüklərim əzildi. Aç deyirəm!

Artur ayağa qalxdı və qapıya yaxınlaşdı, qapının sürgüsünü çəkdi və onun içəri girməsini gözləmədən geriyə dönüb özünü çarpayıya atdı. Pol salona girəndə otaqdakı səliqəsizlikdən heyrətə gəldi. Ətrafa kağızlar səpələnmişdi, içində dostunun xətti ilə yazılmış yazılar görünürdü. Mətbəxdə konserv qutuları ora-bura atılmışdı. Su çanağı çirkli qab-qacaqla aşıb-daşırdı.

– Bu nədir! Burda müharibə olub, sən də uduzmusan?

Artur cavab vermədi.

– Yoxsa sənə işgəncə veriblər? Sənin səs tellərini kəsiblər? Hey, kar olmusan? Bu, mənəm, ortağın! Katalepsiyaya tutulmusan, ya o qədər içmisən ki, ayıla bilmirsən?

Artur hönkürtü ilə ağlamağa başladı. Pol onun yanında əyləşdi və çiyinlərindən tutaraq soruşdu:

– Artur, nə olub?

– O ölüb. Artıq on gündür yoxdur. Bir səhər çıxıb getdi. Onu öldürdülər. Mən onu xilas edə bilmədim, Pol, mən bacarmıram!

– Hə, görürəm, – deyib Arturu qucaqladı, – ağla, dostum, bacardığın qədər ağla. Bəlkə bu kədərini bir az azaltdı.

– Mən onsuz da elə ağlayıram!


ekitab.ucoz.org

– Heç nə olmaz. Ağla, deməli, hələ göz yaşların qurtarmayıb.

Pol telefona baxdı və dəstəyi yerinə qoymaq üçün ayağa qalxdı.

– İki yüz dəfə sənə zəng vurmuşam, dəstəyi yerinə qoysaydın, çox əziyyət olardı?

– Onu görməmişəm.

– On gündür zəng qəbul etmirsən və buna diqqət eləməmisən?

– Cəhənnəm olsun telefon!

– Bəsdir, gərək buna bir son verəsən, dostum. Bütün bu macəra onsuz da mənim beynimə yerləşmirdi, indi isə sənin beyninə yerləşmir. Sən yuxu görürdün, Artur. Artıq reallığa qayıtmaq vaxtıdır, öz həyatını yenidən qurmalısan. Daha heç bir iş görmürsən, evsiz-eşiksiz adamlara bənzəyirsən. Arıqlayıb çöpə dönmüsən, sənədli filmlərdəki kimi müharibədən əvvəlki adamlara oxşayırsan. Nə vaxtdır şirkətdə görünmürsən, adamlar sağ olub-olmadığını soruşurlar. Sən komada olan qadına aşiq olmusan, hallüsinasiya görüb özünə əhvalat uydurmusan və onun bədənini oğurlamısan, indi də hansısa ruhun yasını saxlayırsan. Deyəsən, bu şəhərdə bir psixoloq var və tezliklə milyonçu olacaq, ancaq hələ ki, özünün bundan xəbəri yoxdur. Sən müalicə almalısan. Başqa seçimin yoxdur. Səni bu vəziyyətdə qoyub gedə bilmərəm. Bütün bunlar kabusdan başqa bir şey deyildi.

Qəfildən çalan telefon zəngi Polun sözünü kəsdi. Pol dəstəyi qaldırdı və telefonu Artura uzatdı.

– Polisdir, özü də qəzəblidir. Artıq on gündür ki, sənə zəng eləınəyə çalışır. Səninlə danışmalıdır.

– Mənim deməyə sözüm yoxdur.

Pol dəstəyi güclə onun əlinə verib dedi:

– Ya onunla danışacaqsan, ya da aparatı sənə yedirdəcəyəm.

Dəstəyi Arturun qulağına dayadı, Artur dinlədi və qəfildən ayağa qalxdı. Xəttin o biri başındakı adama təşəkkür etdi və dəli kimi açarlarını axtarmağa başladı.

– Deyə bilərsən nə olub? – Pol soruşdu.

– Vaxtım yoxdur, gərək açarları tapım.

– Səni həbs etmək istəyirlər?

– Yox! Axmaq-axmaq danışmaqdansa, mənə kömək elə.

– Məni danlayırsa, deməli, hər şey yaxşıdır.



ekitab.ucoz.org

Artur açarları tapdı. Poldan üzrxahlıq edib ona hər şeyi izah etməyə vaxtı olmadığını, vaxtının çox az olduğunu və ona sonra zəng edəcəyini söylədi. Pol gözlərini bərəldib ona baxırdı.

– Bilmirəm, hara gedirsən, ancaq əgər ictimai yerdirsə, məsləhət görürəm üst-başını dəyişəsən və üz-gözünə əl gəzdirəsən.

Artur bir an tərəddüd etdi, sonra salondakı güzgüyə nəzər salaraq əksinə baxdı. Vanna otağına qaçdı, paltar şkafından gözlərini qaçırdı. Bəzi yerlər ağır xatirələr oyandırırdı. Bir neçə dəqiqədən sonra o yuyunub, üzü qırxılmış və tamamilə görkəmi dəyişmiş halda vanna otağından çıxdı və tələm-tələsik sağollaşmadan qaraja yüyürdü.

Maşın sürətlə şəhərdə şütüyərək, nəhayət, San-Fransiskonun "Memorial" xəstəxanasının qarajında dayandı. O, maşının qapısını belə bağlamadan qəbul məntəqəsinə tələsdi. Təngnəfəs halda oraya çatanda Pilgez gözləmə zalında oturmuş, onu gözləyirdi. Müfəttiş ayağa qalxdı və onun çiyinlərindən tutaraq əvvəlcə sakitləşdirməyə çalışdı.

Lorenin anası da xəstəxanada idi. Vəziyyəti nəzərə alan Pilgez ona hər şeyi izah etmişdi, tamamilə hər şeyi. Lorenin anası onu beşinci mərtəbədə dəhlizdə gözləyirdi.


ekitab.ucoz.org

# 16

Lorenin anası reanimasiya otağının qarşısında skamyada əyləşmişdi. Arturu görən kimi ayağa qalxdı və ona tərəf getdi. Qucaqlayıb yanaqlarından öpdü.

– Sizi tanımıram, biz ancaq bir dəfə rastlaşmışıq, yəqin xatırlayırsınız, dəniz sahilində. Onun iti sizi tanımışdı! Bilmirəm, niyə, heç nə başa düşmürəm, ancaq sizə o qədər borcluyam ki, yəqin ki, nə qədər təşəkkür eləsəm az olar.

Sonra isə ona hər şeyi danışdı. Artıq on gün idi ki, Loren komadan ayılmışdı, bunun necə baş verdiyini heç kim bilmir.

Bir səhər aylardan bəridir sabit qalan elektroensefaloqramma ardı-arası kəsilmədən elektrik fəallıq göstərməyə və siqnal çalmağa başladı. Növbətçi həkim siqnalı eşidən kimi dərhal həkim heyətinə xəbər verdi. Bir neçə saatdan sonra palata hər biri öz fikrini söyləyən və pasiyentin dərin komadan ayıldığına tamaşa etmək üçün gəlmiş bir yığın həkimlə dolu idi. İlk günlər o huşsuz yatırdı. Sonra isə getdikcə barmaqlarını, əllərini hərəkət etdirməyə başladı. Dünən ilk dəfə gözlərini açıb ətrafda baş verənləri anlamağa çalışmışdı, ancaq nəinki danışa, səsini belə çıxara bilmirdi. Bəzi həkimlər düşünürdülər ki, ola bilsin, danışmağı yenidən öyrənməyə başlayacaq, bəziləri isə hər şeyin zamanla keçib gedəcəyini deyirdilər. Dünən axşam göz qapaqlarını tərpətməklə həkimin sualına cavab verdi. Çox zəif idi və qolunu qaldırmaq ona ağrı verirdi. Həkimlər bunu uzun aylar boyunca uzanıqlı və hərəkətsiz vəziyyətdə qaldığı üçün əzələlərin atrofiyası ilə izah etdilər. Bu da zamanla, o, öz sağlamlığına qovuşduqca keçib gedəcək. Beyin rentgeninin nəticələri isə optimistik idi.

Artur qadını sona qədər dinləməyib otağa daxil oldu. Ürək aparatı arası kəsilmədən və arxayınlıqla bip səsi çıxarırdı. Loren yatırdı, göz qapaqları yumulu idi. Rəngi sapsarı olsa da, bu, onun gözəlliyini zərrə qədər əskiltmirdi. Onu görcək hisslər Arturu çulğadı. Çarpayının kənarında əyləşdi, əlini əl inə aldı və ovcuna öpüş qondurdu. Sonra


ekitab.ucoz.org

stulda əyləşib saatlarca ona baxdı. Axşama yaxın Loren gözünü açdı, diqqətlə Artura baxdı və gülümsədi:

– Hər şey yaxşıdır, mən buradayam, – Artur alçaqdan dedi, – özünü yorma, tezliklə danışa biləcəksən.

Loren qaşlarını çatdı, tərəddüd etdi, ancaq yenidən gülümsədi. Bir qədər sonra yuxuya getdi.

Artur hər gün xəstəxanaya gəlir, onun qarşısında – stulda oturur və Lorenin oyanmasını gözləyirdi. Onunla danışır və ətrafda baş verənləri nəql edirdi. Hələ ki, Loren danışa bilmirdi, ancaq hər dəfə Artur ona nəsə deyəndə diqqətlə ona baxır, sonra isə yuxuya gedirdi.

Beləcə, on gün ötüb-keçdi. Lorenin anası və Artur növbə ilə bir-birini əvəz edirdilər. İki həftə sonra Artur dəhlizdə yenidən görünəndə anası palatadan çıxdı və ona dünən axşamdan bəri Lorenin bir neçə kəlmə də olsa danışa bildiyini xəbər verdi.

Artur palataya daxil oldu və Lorenin yanında oturdu. Loren yatırdı. Artur əllərini onun saçlarında gəzdirdi və nəvazişlə alnını oxşadı.

– Sənin səsinə o qədər ehtiyacım var ki, – dedi.

O gözlərini açdı. Arturun əllərini əlinə aldı. Ona bir qədər şübhə ilə baxıb soruşdu:

– Axı siz kimsiniz? Niyə hər gün buradasınız?

Artur dərhal hər şeyi başa düşdü. Ürəyi sancdı, ancaq şəfqət və məhəbbətlə gülümsəyərək cavab verdi:

– İndi sizə deyəcəyim şeyi bilirəm ki, başa düşmək o qədər də asan deyil, qəbul etmək qeyri-mümkündür, ancaq əgər başıma gələnləri diqqətlə dinləsəniz və mənə etiınad göstərsəniz, bəlkə də mənə inanarsınız. Bu isə çox önəmlidir, çünki siz heç özünüz də bilmirsiniz ki, dünyada bunu paylaşa biləcəyim yeganə insansınız.


ekitab.ucoz.org